14 iyun  2019-cu il

CEPEJ(2019)9

**ƏDALƏT MÜHAKİMƏSİNİN SƏMƏRƏLİLİYİ ÜZRƏ AVROPA KOMİSSİYASI (CEPEJ)**

# Mediasiya üzrə normayaratma barədə Avropa vəsaiti

*CEPEJ-in 32-ci plenar iclasında qəbul edilmişdir*
*Strasburq, 13 və 14 iyun 2019-cu il*

*Bu tərcümə Avropa İttifaqı və Avropa Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə yalnız Avropa Şurası məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir.*

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

**Abreviaturaların siyahısı**

| | |
|---|---|
| MAH | Mübahisələrin alternativ həlli |
| CEPEJ | Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası |
| AİƏM | Avropa İttifaqının Ədalət Məhkəməsi |
| Mediasiyaya dair rəhbər prinsiplər (bütün hüquq sahələrinə aid və yaxud konkret olaraq: cinayət hüququ/ ailə hüququ və mülki hüquq/inzibati hüquq sahələrinə aid) | Cinayət işlərində mediasiyaya dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)13 (Cinayət hüququ);<br>Ailə işlərində və mülki işlərdə mediasiyaya dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)14 (Ailə hüququ və mülki hüquq);<br>İdarəetmə orqanları və özəl tərəflər arasında məhkəmə çəkişmələrinin alternativlərinə dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)15 (İnzibati hüquq) |
| İHAK | 4 noyabr 1950-ci ildə Romada imzalanmış İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası |
| Aİ | Avropa İttifaqı |
| Mediasiya haqqında Direktiv | Avropa İttifaqı Parlamentinin və Şurasının "Mülki və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair" 2008/52/EC saylı Direktivi, OJ, L-136, 2008 |
| Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə | Avropa Şurası Nazirlər Komitəsinin “Cinayət işləri üzrə bərpaedici ədalət mühakiməsinə dair” CM/Rec(2018)8 saylı Tövsiyəsi |
| Mediasiyaya dair tövsiyələr<br>(bütün hüquq sahələrinə aid və yaxud konkret olaraq: cinayət hüququ/ailə hüququ/mülki hüquq/inzibati hüquq sahələrinə aid) | Avropa Şurasının Nazirlər Komitəsi – Ailə işləri üzrə mediasiyaya dair (98)1 saylı Tövsiyə; (Ailə hüququ)<br>Avropa Şurasının Nazirlər Komitəsi – Cinayət işləri üzrə mediasiyaya dair (99)19 saylı Tövsiyə; (Cinayət hüququ)<br>Avropa Şurasının Nazirlər Komitəsi – İdarəetmə orqanları və özəl tərəflər arasında məhkəmə çəkişmələrinin alternativlərinə dair (2001)9 saylı Tövsiyə; (İnzibati hüquq)<br>Avropa Şurasının Nazirlər Komitəsi – Mülki işlər üzrə mediasiyaya dair (2002)10 saylı Tövsiyə; (Mülki hüquq) |
| Mediasiya haqqında Sinqapur Konvensiyası | Birləşmiş Millətlər Təşkilatının Mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında Konvensiyası (hələ imzalanmayıb) |
| UNCITRAL | Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası |
| UNCITRAL-ın Nümunəvi Qanunu (2018) | Beynəlxalq kommersiya mediasiyası və mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında UNCITRAL-ın Nümunəvi Qanunu, 2018 (Beynəlxalq kommersiya barışığı proseduru haqqında UNCITRAL-ın Nümunəvi Qanununa (2002) dəyişiklik edilməsi) |
| UNCITRAL-ın Nümunəvi Qanunu (2002) | Beynəlxalq kommersiya barışığı proseduru haqqında UNCITRAL-ın Nümunəvi Qanunu, 2002 |

Mündəricat


ABREVİATURALARIN SİYAHISI ........ 2

ÖN SÖZ ........ 5

GİRİŞ ........ 6

MEDİASİYA HAQQINDA QANUNUN HAZIRLANMASINA DAİR TÖVSİYƏLƏR ........ 8

**1. Əhatə dairəsi** ........ **9**
**2. Anlayışlar** ........ **10**
**3. Mediator** ........ **10**
3.1. Mediatorlara münasibətdə tələblər ........ 10
3.2. Öhdəliklər, icazələr, məsuliyyət ........ 14
3.3. Mediasiya xidməti göstərən subyektlər ........ 17
3.4. Digər hüquqşünaslar ........ 18
**4. Mediasiyanın başladılması** ........ **19**
4.1. Könüllü əsasda ........ 19
4.2. Məcburi əsasda ........ 20
**5. Mediasiya prosesi** ........ **22**
5.1. Mediasiyadan əvvəl ........ 22
5.2. Mediasiyanın başladılması ........ 24
5.3. Mediasiya zamanı ........ 24
5.4. Prosessual təminatlar ........ 25
5.5. Xitam ........ 28
**6. Mediaya vasitəsilə barışıq haqqında saziş** ........ **29**
6.1. Forma və məzmun ........ 29
6.2. Məcburi icra ........ 30
**7. Stimullaşdırma vasitələri** ........ **31**
7.1. Məlumat vermək öhdəliyi ........ 31
7.2. Maddi stimullar ........ 32
**8. Mediasiya haqqında məlumat** ........ **34**
8.1. Məlumatların yayılması və yayılmasının təşviqi ........ 35
8.2. Statistik məlumatlar ........ 35
**9. Keçid müddəaları** ........ **36**

İZAHEDİCİ QEYDLƏR ........ 38

**1. Əhatə dairəsi** ........ **38**
1.1. Məhkəmədənkənar və məhkəmə ilə əlaqəli mediasiya ........ 38
1.2. Beynəlxalq mübahisələr üzrə mediasiya ........ 41
1.3. Hüququn müxtəlif sahələri ........ 42
**2. Anlayışlar** ........ **45**
**3. Mediator** ........ **47**
3.1. Mediatorlara münasibətdə tələblər ........ 47
3.2. Öhdəliklər, icazələr, məsuliyyət ........ 51
3.3. Mediasiya xidməti göstərən subyektlər ........ 53

3.4. DİGƏR HÜQUQŞÜNASLAR ..... 54
**4. MEDİASİYANIN BAŞLADILMASI ..... 55**
4.1. KÖNÜLLÜ ƏSASDA ..... 55
4.2. MƏCBURİ ƏSASDA ..... 57
**5. MEDİASİYA PROSESİ ..... 60**
5.1. MEDİASİYADAN ƏVVƏL ..... 60
5.2. MEDİASİYANIN BAŞLADILMASI ..... 62
5.3. MEDİASİYA ZAMANI ..... 63
5.4. PROSESSUAL TƏMİNATLAR ..... 66
5.5. XİTAM ..... 70
**6. MEDİAYA VASİTƏSİLƏ BARIŞIQ HAQQINDA SAZİŞ ..... 72**
6.1. FORMA VƏ MƏZMUN ..... 72
6.2. MƏCBURİ İCRA ..... 72
**7. STİMULLAŞDIRMA VASİTƏLƏRİ ..... 73**
7.1. MƏLUMAT VERMƏK ÖHDƏLİYİ ..... 74
7.2. MADDİ STİMULLAR ..... 76
**8. MEDİASİYA HAQQINDA MƏLUMAT ..... 78**
8.1. MƏLUMATLARIN YAYILMASI VƏ YAYILMASININ TƏŞVİQİ ..... 78
8.2. STATİSTİK MƏLUMATLAR ..... 80
**9. KEÇİD MÜDDƏALARI ..... 81**

**YOXLAMA SİYAHISI ..... 84**

**BİBLİOQRAFİYA ..... 90**

## Ön söz

2016-cı ilin dekabr ayında Mediasiya üzrə İşçi Qrupuna[1] (CEPEJ-GT-MED) ikinci mandatının icrasına başlamaq səlahiyyəti verildi. Digər vəzifələrlə yanaşı, CEPEJ tərəfindən CEPEJ-GT-MED-ə Mediasyaya dair tövsiyələrin və rəhbər prinsiplərin effektiv şəkildə həyata keçirilməsini təmin etmək məqsədi daşıyan "Mediasya bacarıqlarının inkişafı üzrə alətlər dəsti" adlı müxtəlif sənədlər toplusuna[2] daxil olan növbəti sənədlərin hazırlanması tapşırıldı.

İşçi qrupu öz mandatını həyata keçirərkən, İşçi qrupunun elmi eksperti cənab Leonardo D'Urso tərəfindən hazırlanmış "CEPEJ-in rəhbər prinsiplərinin mülki, ailə, cinayət və inzibati işlər üzrə mediasiyaya təsiri" mövzusunda məruzəsi əsasında CEPEJ-GT-MED-in Yol Xəritəsini işləyib hazırladı. CEPEJ həmin sənədi 2018-ci ilin iyununda qəbul etdi. Mülki, ailə, cinayət və inzibati işlər üzrə mediasiyaya effektiv müraciətin inkişafı üçün yeni qanunvericilik bazasının yaradılması zərurəti Yol Xəritəsində gəlinmiş əsas nəticələrdən biri kimi müəyyən edildi. Buna görə də CEPEJ-ə və CEPEJ-GT-MED-ə gələcək qanunvericilik islahatları üçün metodoloji və istinadedici baza kimi qəbul edilə bilən və mediasiya üzrə mövcud milli qanunvericiliyin effektivliyini artırmaq üçün tövsiyələri özündə əks etdirən hüquqi bazanın hazırlanması üçün Rəhbər prinsipləri hazırlamaq tövsiyə olundu. Bu səbəbdən, 2018-ci ilin noyabrında keçirilmiş CEPEJ-GT-MED-in iclası zamanı xanım Miglė Žukauskaite İşçi qrupunun elmi eksperti təyin edildi və ona "Mediasiya üzrə normayaratma barədə Avropa vəsaiti"ni hazırlamaq tapşırığı verildi. İşçi qrupunun bir neçə üzvü, yəni cənab Rimantas Simaitis, xanım Nina Betetto və cənab Leonardo d'Urso sənədin hazırlanması zamanı təşəbbüskarlıq göstərərək öz təklifləri və təcrübələri ilə mətnin hazırlanmasına töhfə verdilər.

18 ölkənin milli qanunvericiliyi CEPEJ-GT-MED-in sərəncamında olmuş və Rəhbər prinsiplərin hazırlanması üçün aparılmış tədqiqatın əhatə dairəsini təşkil etmişdir. Bu 18 ölkənin siyahısına bunla daxildir: Avstriya, Azərbaycan, Belçika, Xorvatiya, Kipr, Çexiya, Finlandiya, Fransa, Almaniya, İrlandiya, İtaliya, Litva, Polşa, Serbiya, Sloveniya, İspaniya, İsveçrə, Türkiyə. Bununla belə, qeyd etmək lazımdır ki, əksər hallarda mediasiya haqqında yalnız əsas qanunlardan və ya məcəllələrdən müvafiq çıxarışlar təqdim edilmişdir. Buna görə də, mediasiyanın müəyyən aspektlərinin digər milli qanunlarla və ya qanun qüvvəli aktlarla tənzimlənməsi və nəticədə tədqiqata daxil edilməməsi ehtimalı mövcuddur.[3]

Sonda onu da qeyd edək ki, burada təqdim olunan tərcümələr rəsmi xarakter daşımır və metodoloji məqsədlər üçün təqdim olunur.

---

[1] İşçi qrupunun tərkibi aşağıdakılardan ibarət olmuşdur: cənab Rimantas Simaitis (sədr), Litva; xanım Anna Márová, Çexiya; xanım Maria Oliveira, Portuqaliya; xanım Nina Betetto, Sloveniya; cənab Jean A. Mirimanoff, İsveçrə; cənab Jeremy Tagg, Birləşmiş Krallıq; cənab Leonardo D'Urso (elmi ekspert), İtaliya.

[2] CEPEJ-GT-MED və Avropa Şurası tərəfindən hazırlanmış "Mediasya bacarıqlarının inkişafı üzrə alətlər dəsti"ni və digər sənədləri burada tapmaq olar: https://www.coe.int/en/web/cepej/cepej-work/mediation. Veb-səhifə davamlı olaraq yenilənir.

[3] Məsələn, böyüklər üçün cinayət işləri üzrə mediasiya İsveçrədə Friburq və Cenevrədə tətbiq edilib, inzibati işlər üzrə mediasiya isə bir neçə kantonda tətbiq edilib və ya tətbiq olunmaqdadır, lakin bunlar İsveçrə prosessual məcəllələrində əks olunmadığı üçün tədqiqata daxil edilməyib.

## Giriş

Bu Vəsait Avropa Şurasına üzv dövlətlərin istifadə etdiyi qabaqcıl təcrübələri əks etdirir və Mediasyaya dair tövsiyələrin və rəhbər prinsiplərin və "Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti"nə daxil olan digər praktik sənədlərin müddəalarının praktikada necə səmərəli şəkildə tətbiq oluna biləcəyini nümayiş etdirir. Hazırlanmış bu sənədin işığında milli qanunverici orqanlara tövsiyə olunur ki, mediasiya haqqında qanunvericilik qəbul etsinlər və ya mövcud normativ aktların beynəlxalq standartlara uyğun olması və öz ölkələrində mediasiyanın yüksək keyfiyyətini təmin etməsi üçün onlarda dəyişiklik etsinlər. Rəhbər prinsiplərə sistematik yanaşmanın tətbiqi təşviq edilsə də, layihəni hazırlayanlar Vəsaitdən istifadə etməzdən əvvəl üç ilkin şərti nəzərə almalıdırlar. Birincisi, milli hüquq sistemləri yekcins deyil; deməli, "hamıya uyğun" həll yolu yoxdur. Ona görə də milli hüquqi mühitin və ən əsası məcburi qüvvəyə malik qanunun diqqətlə qiymətləndirilməsi həlledici əhəmiyyət kəsb edir. İkincisi, Vəsaitdə vahid qanun nümunəsi deyil, tövsiyələr toplusu təqdim edilir. Belə ki, tənzimləyici aktların ziddiyətsizliyini saxlamağın zəruriliyini nəzərə almaqla yanaşı, qanunları hazırlayanlar milli ehtiyaclara cavab verən tövsiyələri seçməkdə və müvafiq hüquq sisteminə uyğun olmayanları kənara qoymaqda sərbəstdirlər. Üçüncüsü, mediasiyanın müəyyən aspektlərinin düzgün tənzimlənməsi mediasiyanın daha keyfiyyətli olmasını təmin edə bilər; bununla belə, mediasiya prosesinin təbii inkişafına mane ola biləcəyi üçün həddindən artıq tənzimləmədən də çəkinmək lazımdır. Tövsiyə olunur ki, mediatorların və tərəflərin prosesi özlərinin formalaşdırmasına imkan verilsin, tənzimləyici tədbirlər isə yalnız tərəflər arasında razılaşma olmadıqda və ya bu cür tədbirlər adekvat, mütənasib və ağlabatan olduqda istifadə edilsin.

Vəsait iki hissəyə bölünüb. Birincisi bu tədqiqat çərçivəsində 18 ölkədə mediasiya üzrə qabaqcıl təcrübələri və beynəlxalq standartların təkamülünü özündə əks etdirən mediasiya haqqında qanun layihəsinin hazırlanmasına dair tövsiyələri özündə ehtiva edir. Hər bir tövsiyəyə praktikadan götürülmüş nümunə – bu 18 ölkədən birinin qanunvericiliyindən çıxarış və ya beynəlxalq sənəd əlavə olunub. Bu nümunələr tövsiyələrin praktikada necə həyata keçirilə biləcəyini göstərməyə kömək edəcəkdir. Eyni zamanda, çıxarışlar orijinal versiyada olduğu kimi saxlanılıb və onlarda müvafiq tövsiyə ilə daha yaxşı uyğunlaşmalarına yönələn dəyişiklik edilməyib.[4] Nəticədə bəzi hallarda tövsiyəni daha əyani şəkildə nümayiş etdirmək üçün çoxsaylı nümunələr verilmişdir, digər hallarda isə milli qanunvericilikdən çıxarış tövsiyəni tam şəkildə əks etdirməyə bilər. Buna görə də, tövsiyələrdən sonra gələn nümunələr deyil, məhz tövsiyələr rəhbər tutulmalı olan əsas və daha əhatəli mənbə olaraq qalmalıdır.

İzahedici qeydlərdə (Vəsaitin ikinci hissəsi) mediasiya üzrə milli qanunvericiliyin müqayisəli təhlili, o cümlədən bəzi müddəaların və tövsiyələrin praktik mənası və əhəmiyyətinin ətraflı izahı verilir. İkinci hissənin fəsilləri sənədin birinci hissəsinin fəsillərini özündə əks etdirir; buna görə də, Vəsaitin istifadəçilərinə tövsiyə olunur ki, digər ölkələrdə tətbiq olunan təcrübə haqqında daha ətraflı məlumat almaq və birinci hissədə verilən təkliflərin əsaslandırılması ilə tanış olmaq üçün hər bir tövsiyə toplusunu oxuduqdan sonra İzahedici qeydlərə nəzər salsınlar. İzahedici qeydlərə həmçinin CEPEJ tərəfindən "Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti" çərçivəsində qəbul edilmiş müxtəlif sənədlərə və Mediasiya haqqında Sinqapur Konvensiyası, UNCITRAL-in Nümunəvi Qanunu (2018) və Mediasiya haqqında Direktiv kimi beynəlxalq sənədlərin müddəalarına istinadlar daxil edilib. Həmçinin AİƏM-in müvafiq qərarlarına, habelə bu və ya digər ölkələrdəki mediasiya prosedurlarının bu tədqiqatın birbaşa obyektini təşkil etməyən aspektlərinə istinad edilir. Təbii ki, Vəsaitin hər iki hissəsi Mediasiya üzrə tövsiyələrin və rəhbər prinsiplərin işığında oxunmalı və tətbiq edilməlidir.

Sənədin məzmunu aşağıda qeyd olunan fəsillərdən ibarətdir. Mediasiya haqqında milli qanunu hazırlayanlar ya təqdim edilmiş struktura əməl edə, ya da aşağıda verilmiş tövsiyələrə uyğun olaraq onu qanunların hazırlanmasının milli standartlarına uyğun olaraq yenidən təşkil edə bilərlər.

| | |
|---|---|
| I. Əhatə dairəsi | Bu fəsildə hüquqi aktın ümumi forması üzrə tövsiyələr verilir və qanunun əhatə dairəsini nisbətən geniş saxlamağın praktik əhəmiyyəti izah edilir. |
| II. Anlayışlar | Bu fəsildə mümkün çoxsaylı şərhlərə yol verilməsinin qarşısını almaq üçün zəruri olan mediasiya sahəsində CEPEJ standartlarına uyğunlaşdırılmış terminologiya nümunələri verilmişdir. |
| III. Mediator | Mediatorlarla bağlı fəsil mediator olmaq istəyən şəxslər üçün əsas tələblərdən, habelə mediasiya üzrə təlim keçənlərə və təlimin özünə, habelə mediator kimi fəaliyyət göstərən hüquqi şəxslərə irəli sürülən tələblərdən ibarətdir. Bu fəslin əsas məqsədləri mediasiya proseslərinin yüksək keyfiyyətini təmin etmək və mediator peşəsinə sistemli yanaşmanı tətbiq etməkdir. |

[4] Müəllif tərəfindən yalnız kvadrat mötərizədə olan məlumatlar aydınlaşdırma məqsədi ilə daxil edilmişdir.

| | |
|---|---|
| IV. Mediasiyanın başladılması | Bu fəsildə mediasiya üçün müraciətin mümkün könüllü və məcburi formaları müəyyən edilir, o cümlədən hakimin qərarı ilə işin mediasiyaya göndərilməsindən və məhkəmə icraatının aparılması üçün mediasiya sessiyası keçirilməsinin məcburi ilkin şərt kimi müəyyən edilməsindən bəhs edilir. |
| V. Mediasiya prosesi | Bu fəsildə mediasiyanın hazırlanması, başlanması və başa çatması da daxil olmaqla mediasiyanın prosessual aspektlərinə, habelə prosessual təminatlara və prosesin digər aspektlərinə dair CEPEJ, Aİ və UNICITRAL standartlarına uyğun sistematik yanaşma təqdim edilir. |
| VI. Mediaya vasitəsilə barışıq haqqında saziş | Bu fəsil mediaya vasitəsilə barışıq haqqında saziş üçün tələbləri və CEPEJ, Aİ və UNICITRAL standartlarına uyğun olaraq belə sazişlərin icrasına dair tövsiyələri əhatə edir. |
| VII. Stimullaşdırma vasitələri | Bu fəsildə tərəflərin mediasiyadan istifadəyə cəhd etməsi üçün iqtisadi stimullaşdırma modelləri və mediasiya prosesi zamanı vicdanla hərəkət etməməyə görə mümkün sanksiyalar təsvir edilir. Həmçinin hakimlərin, vəkillərin və digər səlahiyyətli şəxslərin rolunun vacibliyi vurğulanır. |
| VIII. Mediasiya haqqında məlumatlar | Bu fəsildə mediasiya haqqında məlumatların yayılmasının mümkün üsulları və faydaları, habelə mediasiya üzrə statistik məlumatların toplanmasının vacibliyi müəyyən edilir. |
| IX. Keçid müddəaları | Bu fəsildə mediasiya haqqında yeni qanunvericiliyin, o cümlədən müəyyən müddəaların müvəqqəti eksperimental tətbiqi və pilot layihələrin tətbiqi istiqamətində mərhələli yanaşmanın imkanları izah edilir. |

**Mediasiya haqqında qanunun hazırlanmasına dair tövsiyələr**

Mediasiyaya dair ölkədaxili qanunlar arasında yüksək dərəcədə uzlaşmanı təşviq etmək üçün hər hansı yeni qanunun və ya mövcud qanuna dəyişikliklərin aşağıdakılara uyğun olması ciddi şəkildə tövsiyə olunur:

1. Avropa Şurasının Nazirlər Komitəsi – Ailə işləri üzrə mediasiyaya dair (98)1 saylı Tövsiyə;
2. Avropa Şurasının Nazirlər Komitəsi – İdarəetmə orqanları və özəl tərəflər arasında məhkəmə çəkişmələrinin alternativlərinə dair (2001)9 saylı Tövsiyə;
3. Avropa Şurasının Nazirlər Komitəsi – Mülki işlər üzrə mediasiyaya dair (2002)10 saylı Tövsiyə;
4. Avropa Şurası Nazirlər Komitəsi – Cinayət işləri üzrə bərpaedici ədalət mühakiməsinə dair CM/Rec(2018)8 saylı Tövsiyə;
5. Avropa İttifaqı Parlamentinin və Şurasının Mülki və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair 2008/52/EC saylı Direktivi;
6. "İstehlakçı mübahisələrinin alternativ həlli haqqında və (EC)2006/2004 saylı Reqlamentdə və 2009/22/EC saylı Direktivdə dəyişiklik edilməsi barədə" Avropa İttifaqı Parlamentinin və Şurasının 21 may 2013-cü il tarixli 2013/11/EU saylı Direktivi (İstehlakçı mübahisələrinin alternativ həlli haqqında Direktiv);
7. Beynəlxalq kommersiya mediasiyası və mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında UNCITRAL-ın Nümunəvi Qanunu, 2018 (Beynəlxalq kommersiya barışığı proseduru haqqında UNCITRAL-ın Nümunəvi Qanununa (2002) dəyişiklik edilməsi).

Bundan əlavə, qanunları hazırlayanlar tərəfindən aşağıdakılar nəzərə alınmalıdır:

1. "Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti" və Avropa Şurası yanında CEPEJ-in Mediasiya üzrə İşçi qrupu tərəfindən hazırlanmış bütün alətlər;
2. CEPEJ, Cinayət işlərində mediasiyaya dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)13;
3. CEPEJ, Ailə işlərində və mülki işlərdə mediasiyaya dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)14;
4. CEPEJ, İdarəetmə orqanları və özəl tərəflər arasında məhkəmə çəkişmələrinin alternativlərinə dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)15;
5. Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı, Beynəlxalq uşaq oğurluğunun mülki-hüquqi aspektlərinə dair 25 oktyabr 1980-ci il tarixli Haaqa Konvensiyası üzrə qabaqcıl təcrübəyə dair Təlimat: Mediasiya, 2012. Onu burada tapmaq olar: https://assets.hcch.net/upload/guide28mediation_en.pdf.
6. Birləşmiş Millətlər Təşkilatının Mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında Konvensiyası (hələ imzalanmayıb), Sinqapur. Onu burada tapmaq olar: http://www.uncitral.org/pdf/english/commissionsessions/51st-session/Annex_I.pdf;
7. Müvafiq yurisdiksiyada mediasiya haqqında mövcud qanunun konkret nəticələrinin diqqətlə qiymətləndirilməsi.

## 1. Əhatə dairəsi

a) Milli qanunvericiliyə uyğun olaraq mediasiya yollu ilə həlli hüquqi cəhətdən mümkün olan mübahisələrdə mediasiyanın tətbiqinə imkan verin, mediasiyanın tətbiq dairəsinə süni məhdudiyyətlər qoymaqdan çəkinin.
b) Beynəlxalq mübahisələr üzrə aparılan mediasiya proseslərini qanunun əhatə dairəsinə birbaşa daxil edin.
c) Hüququn müxtəlif sahələrində yaranan mübahisələr (məsələn, mülki, ailə, əmək, inzibati və cinayət işləri üzrə mübahisələr) üzrə mediasiyanı, habelə məhkəmədənkənar və məhkəmə ilə əlaqəli mediasiyanı vahid şəkildə əhatə etmək üçün mediasiyanın əsas prinsiplərini bir qanunda birləşdirin. Müxtəlif növ mübahisələrdə və ya konkret prosedurlarda mediasiyanın xüsusiyyətlərini nəzərə almaq lazım olduqda mətndə istisna halları və ya digər hüquqi aktlara istinadları göstərin.
d) Fəaliyyəti ümumi (publik) hüquqla tənzimlənən hüquqi şəxslərin mediasiya prosesində, xüsusən də inzibati işlər üzrə mediasiya prosesində mübahisə tərəfi kimi çıxış etməsinin mümkünlüyü məsələsini müəyyənləşdirin.
e) Həssas xarakterli mübahisələri (məsələn, məişət zorakılığına və ya zərərçəkən-hüquqpozan münasibətlərinə aid işlər üzrə ailə mediasiyası) bütünlüklə mediasiyanın əhatə dairəsindən xaric etməyin. Bunun əvəzinə zəif tərəfi qorumaq üçün təminatlar (mediatorun müvafiq vəzifələrini və yaxud hakimin tərəflərə mediasiyanı sınaqdan keçirnəyi tövsiyə etməsi və ya bu barədə qərar çıxarması üçün meyarları müəyyənləşdirmək vasitəsilə) nəzərdə tutun.

*Nümunələr:*

1. *Bu qanun mülki mübahisələr üzrə mediasiyaya dair tələbləri, mediasiya sahəsində fəaliyyət göstərən orqanların funksiyalarını, mediasiya xidməti göstərmək istəyən şəxslərə münasibətdə tələbləri, mediasiya prosedurunu, məhkəmə ilə əlaqəli mediasiya prosedurlarını, mediatorun intizam məsuliyyətini tənzimləyir.*
2. *Bu qanunun müddəaları məhkəmədənkənar və məhkəmə ilə əlaqəli mediasiyaya şamil edilir, lakin hüquq və vəzifələrdən irəli gələn və mediasiya yolu ilə həlli milli qanunvericiliyə əsasən etibarsız sayılacaq mübahisələr istisna təşkil edir. Bu qanun baxılan mübahisə üzrə məhkəmə icraatı zamanı mübahisəni barışıq yolu ilə həll etmək üçün hakimin etdiyi cəhdlərə şamil edilmir.*
3. *Mediasiyanın növləri bunlardır: məhkəmədənkənar mediasiya və məhkəmə ilə əlaqəli mediasiya. Bu qanunun mediasiyanı tənzimləyən müddəaları, əgər bu qanunda başqa hal nəzərdə tutulmayıbsa, həm məhkəmədənkənar, həm də məhkəmə ilə əlaqəli mediasiyaya şamil edilir. Bu qanunun mediatorun fəaliyyətini tənzimləyən müddəaları, əgər bu qanunda başqa hal nəzərdə tutulmayıbsa, mediator qismində çıxış edən hakimlərə də şamil edilir.*
4. *Bu qanun milli və beynəlxalq mübahisələr üzrə mediasiyaya şamil edilir.*
5. *Bu qanun bu qanuna Əlavədə göstərilən Avropa İttifaqı qanunvericiliyinin tətbiqini nəzərdə tutur.*
6. *Mülki mübahisələrin həllini tənzimləyən digər hüquqi aktlar müxtəlif növ mübahisələrlə bağlı xüsusiyyətləri müəyyən edə bilər.*[5]

*Mediasiya, məhkəmə və ya digər icraatın başlanmasından əvvəl və ya sonra həyata keçirilməsindən asılı olmayaraq, əgər başqa qanunda məhkəmənin və ya digər orqanın müstəsna səlahiyyətinə aid edilməyibsə, tərəflərin öz tələbləri əsasında sərbəst şəkildə sərəncam verə biləcəyi mübahisəli münasibətlərə tətbiq edilir.*
*Mediasiya xüsusilə hərəkət etmək öhdəliyinin yerinə yetirilməsinin tələb olunduğu əmlakla bağlı mübahisələrdə, digər əmlak mübahisələrində, ailə, kommersiya mübahisələrində, inzibati işlərdə, ətraf mühitin mühafizəsi məsələləri ilə bağlı mübahisələrdə, istehlakçı mübahisələrində, habelə mediasiyanın mübahisəli münasibətlərin xarakterinə uyğun olduğu və onların həllinə kömək edə biləcəyi bütün digər mübahisələrdə mümkündür.*
*Bu qanunun müddəaları, əgər xüsusi qanunla başqa hal nəzərdə tutulmayıbsa, cinayət işləri üzrə mediasiyaya və əmlak iddiaları və dəymiş ziyanın ödənilməsi tələbləri, eləcə də əmək mübahisələri üzrə hüquqpozmalarla bağlı mediasiyaya da şamil edilir.*
*Bu qanunun müddəaları dövlət gəlirlərinin qiymətləndirilməsi və yığılması ilə bağlı mübahisələrin həllinə şamil edilmir.*[6]

[5] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 1.
[6] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 3.

## 2. Anlayışlar

a) (Ən azı) “mediasiya” və “mediator” terminlərinin anlayışını verin. “Mediasiya xidməti göstərən”, “mediasiya barədə müqavilə” (mediasiyadan əvvəl bağlanan müqavilə), “mediasiya vasitəsilə barışıq haqqnda saziş” (proses nəticəsində bağlanan yekun saziş), “tərəflər” və “iştirakçılar” terminlərinin anlayışını da qanuna daxil etməyi nəzərdən keçirin.
b) Mediasiyanın anlayışına aşağıdakıları daxil edin: iki və ya daha çox mübahisə tərəfi olan, bir və ya bir neçə mediatorun, yəni neytral üçüncü tərəfin köməyi ilə aparılan, mübahisənin barışıq yolu ilə həllinə yönələn konfidensial, strukturlaşdırılmış proses.
c) Mediator anlayışına aşağıdakıları daxil edin: qərar qəbul etmə səlahiyyəti olmadan mediasiya prosesini aparan müstəqil, neytral üçüncü tərəf.
d) Mediator və ya mediasiya anlayışına bunu daxil etməyin: mediasiya zamanı mediatorun tərəflərə təkliflər verməsinin qadağan edilməsi.

*Nümunələr:*

*[Mediasiya] – mediator kimi tanınan qərəzsiz üçüncü şəxsin mübahisəli məsələlərin həlli üçün tərəflər arasında ünsiyyəti asanlaşdırmaqla onlara kömək etdiyi strukturlaşdırılmış və konfidensial prosesdir.*[7]

*“Mediator” hər hansı qərar qəbul etmək səlahiyyətinə malik olmayan, tərəfləri mediasiya prosesində istiqamətləndirən müstəqil və qərəzsiz şəxsdir.*[8]

*“Mediasiya xidməti göstərən” dedikdə elə bir dövlət qurumu və ya özəl qurum (məhkəmə ilə əlaqəli mediasiya sistemləri daxil olmaqla) nəzərdə tutulur ki, hər hansı ixtisas və ya peşə sahibi olmasından asılı olmayaraq neytral vasitəçi olan üçüncü tərəfin (bundan sonra “mediator”) tərəflərə mübahisələrinin barışıq yolu ilə həllində kömək etmək məqsədilə onun himayəsi altında həyata keçirdiyi mediasiya prosesi üzərində rəhbərliyi və ya inzibati idarəçiliyi həyata keçirir.*[9]

*Mediasiyanın həyata keçirilməsinə dair müqavilə [mediasiya haqqında müqavilə] mübahisə tərəfləri ilə ən azı bir mediator arasında mediasiyanın həyata keçirilməsinə dair yazılı müqavilədir.*[10]

*Barışıq sazişi – tərəflər arasında mediasiya prosesi nəticəsində əldə edilən yazılı razılaşma.*[11]

*“Tərəflər” dedikdə mediasiyadan istifadə edən fiziki və ya hüquqi şəxslər nəzərdə tutulur.*[12]

*Mediasiyada iştirak edən digər şəxslər – mediasiya prosesində iştirak edən vəkillər, nümayəndələr, tərcüməçilər, ekspert və mütəxəssislər, mediasiya təşkilatının əməkdaşları, habelə tərəflərin razılığı ilə mediasiya prosesində iştirak edən digər şəxslər.*[13]

## 3. Mediator

### 3.1. Mediatorlara münasibətdə tələblər

#### 3.1.1. Siyahı

[7] CEPEJ, CEPEJ tərəfindən istifadə edilən anlayışların uzlaşdırılmasının həvalə edildiyi CEPEJ-in Xüsusi işçi qrupu, 4-cü iclasa dair hesabat, 23-24 yanvar 2019-cu il, Əlavə II: CEPEJ(2018)2PROV8 sənədi. Onu buradan əldə etmək olar: https://rm.coe.int/rapport-reunion-bologne-en-23-24-janvier-2019/1680933333.
[8] Almaniya Federativ Respublikası, Mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I, səh. 1577, 2012, maddə 1(2).
[9] CEPEJ, Mediasiya xidməti göstərənlər üçün Avropa davranış kodeksi, mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV [10.03.2019 tarixinədək olan məlumatlar], sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 25.
[10] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 2(e).
[11] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 1.0.7.
[12] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 2.
[13] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 1.0.6.

a) Dövlət orqanı və ya peşə birliyi tərəfindən idarə olunan mediatorlar siyahısını/reyestrini yaradın.

> <u>*Nümunə:*</u>
> *[Mediatorlar] reyestri dövlət administrasiyasının Nazirlik tərəfindən idarə olunan informasiya sistemidir. Bu Qanunda başqa hal nəzərdə tutulmayıbsa, yalnız Reyestrdə qeydiyyata alınmış şəxsə Mediator xidmətləri göstərmək səlahiyyəti verilir, bu şərtlə ki, onun mediatorluq fəaliyyətini həyata keçirmək səlahiyyəti dayandırılmamış olsun.*[14]

b) Siyahıya daxil edilmək istəyən potensial namizədlər üçün imtahan (həm praktik, həm də nəzəri) nəzərdə tutun.

> <u>*Nümunə:*</u>
> *1. Litva Respublikasının Mediatorlar reyestrinə daxil edilmək istəyən şəxslər aşağıdakı tələblərə cavab verməlidirlər: <…> 3) mediatorluq üçün uyğunluq imtahanından keçmək <…>;*
>
> *<…> 3. Mediatorluq üçün uyğunluq imtahanı zamanı Litva Respublikasının Mediatorlar reyestrinə daxil edilmək istəyən şəxslərin mediasiya xidmətləri göstərmək bacarıqları onların nəzəri bilik və vərdişlərini praktikada tətbiq etmək bacarığı, eləcə də peşə etikasına dair bilikləri baxımından yoxlanılır; <…>*[15].

c) Şəxs siyahıda yoxdursa, onu mediasiya ilə məşğul olmaqdan çəkindirin/bunu ona qadağan edin.

> <u>*Nümunə:*</u>
> *1. Şəxs özünü qeydiyyatdan keçmiş mediator kimi göstərdikdə və ya yanıltma məqsədi ilə analoji addan istifadə etdikdə, <…>*
> *əməl məhkəmələrin yurisdiksiyasına aid olan cinayət xarakterli əməl hesab edilmirsə, inzibati hüquqpozma hesab olunur və 3.500 avroya qədər cərimə ilə cəzalandırılır <…>*[16].

d) Mediatorlar müəyyən edilmiş meyarlara cavab vermədiyi təqdirdə onları siyahıdan müvəqqəti/daimi çıxarmaq səlahiyyətinə malik olan dövlət orqanı və ya peşə birliyi daxilində intizam orqanı yaradın.

> <u>*Nümunə:*</u>
> *<…> Aşağıdakı hallarda Nazirlik mediatorun reyestrdən çıxarılması barədə qərar qəbul edir:*
> *a) 21-ci maddənin 1(a) bəndinə uyğun olaraq mediator fəaliyyətini həyata keçirmək səlahiyyəti dayandırılmış Mediator onun mediator fəaliyyətini həyata keçirmək səlahiyyətinin dayandırılmasından sonra 5 il ərzində səlahiyyətin bərpası üçün ərizə verməməlidir; b) Mediator Reyestrdən çıxarılmaq üçün Nazirliyə ərizə verdikdə ərizəni verdiyi aydan sonrakı təqvim ayının son günündə Reyestrdən çıxarılır; c) digər üzv dövlətdən gəlmiş Mediatorun mediatorluq fəaliyyəti ilə müqayisə olunan fəaliyyətləri yerinə yetirmək səlahiyyəti həmin üzv dövlət tərəfindən ləğv edildildkə, həmin üzv dövlətdən gəlmiş Mediator bu qərarın qüvvəyə mindiyi gündən etibarən Reyestrdən çıxarılmalı; yaxud d) Reyestrdə qeydiyyatdan keçmək üçün bəzi şərtlərə cavab verməsə də, Reyestrdə qeydiyyata alınmalıdır. <…> Nazirlikdən yazılı xəbərdarlıq almasına baxmayaraq, Mediator bu Qanunla müəyyən edilmiş mediatorun öhdəliklərini ciddi şəkildə və ya dəfələrlə pozduqda, Nazirlik onun Reyestrdən çıxarılması barədə qərar qəbul edir.*[17]

### 3.1.2. Tələblər

---

[14] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddələr 15(1) və 14.
[15] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddələr 6 və 11.
[16] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 32.
[17] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 22.

a) Mediator olmaq istəyən namizədlər üçün əsas meyarları müəyyən edin, buraya yaş/təhsil, yaxşı reputasiya/məhkumluğun olmaması daxildir.

> _Nümunə:_
> *Aşağıdakı meyarlara cavab verən hər bir şəxs siyahıya alına bilər:*
> - *müqavilə bağlamağı bacarmaq;*
> - *qəsdən törədilmiş cinayət əməlinə görə rəsmən məhkəmə tərəfindən məhkum edilməmək;*
> - *ən azı orta təhsil səviyyəsindən bir pillə yuxarı təhsil səviyyəsinə malik olmaq;*
> - *Ədliyyə naziri tərəfindən müəyyən edilən proqrama uyğun olaraq mediasiya hazırlığı keçmək <…>*[18].

b) Mediatorlar üçün davranış kodeksinə riayət etmək öhdəliyini müəyyən edin.

> _Nümunə:_
> *Ədliyyə Nazirliyi və səlahiyyətli dövlət orqanları mediasiya təsisatları ilə əməkdaşlıq edərək mediatorların müvafiq ilkin və davamlı hazırlıq keçməsini, könüllü davranış kodeksinin hazırlanmasını, habelə mediatorların və mediasiya təsisatlarının bu cür kodekslərə riayət etməsini təşviq və tələb etməlidirlər.*[19]

c) Minimum standart kimi Mediatorlar üçün Avropa davranış kodeksinə istinaddan istifadə edin.[20]

> _Nümunə:_
> Mediator *Mediatorlar üçün Avropa davranış kodeksinə riayət etməlidir* [21].

### 3.1.3. Təlim

a) Siyahıya daxil edilmək üçün ilkin şərt kimi mediatorların adekvat baza səviyyəli və xüsusi hazırlıq keçməsini tələb edin. Hakimlər, vəkillər, notariuslar, polislər, prokurorlar və mediator olmaq istəyən digər mütəxəssislər üçün təlimin tələblərini müəyyən edin və bu zaman müdavimlərin əvvəlki hazırlığını, ilkin bilik səviyyəsini və praktik təcrübələrini (ümumi tələblərdən fərqli olduqda) nəzərə alın.

> _Nümunə:_
> *Mediatorlar üçün təlim mediasiya vəzifələrinin müstəqil, səmərəli və uğurlu icrası üçün zəruri olan praktiki bilik və bacarıqların mütəşəkkil şəkildə mənimsənilməsini və inkişafını nəzərdə tutur. Mediatorlar üçün təlim baza səviyyəli və ixtisaslaşdırılmış ola bilər. Tamamlanmış baza səviyyəli təlim mediator statusunu əldə etmək üçün zəruri tələbdir. Mübahisə növlərinin müəyyən sahələri üçün ixtisaslaşdırılmış təlimlər təşkil olunur.*[22]

b) Mediasiya üzrə milli təlim müəssisələrinin akkreditasiyası və monitorinqi sistemini yaradın.

> _Nümunə:_
> *Bu Qanunun 44-cü maddəsində nəzərdə tutulmuş təlim proqramı Nazirliyin razılığı əsasında dövlət orqanları, digər orqan və təşkilatlar və hüquqi şəxslər tərəfindən həyata keçirilir. Bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş razılığın verilməsinin şərtləri və qaydası, habelə təlimin keçirilməsinə nəzarət*

---

[18] Sloveniya Respublikası, Mübahisələrin alternativ həlli haqqında Qanun. *Uradni list*, № 97/2009, maddə 8(1).
[19] İspaniya Krallığı, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Boletín Oficial del Estado*, № 5/2012, maddə 12.
[20] Avropa İttifaqı Komissiyası, Ədliyyə Direktorluğu, Mediatorlar üçün Avropa davranış kodeksi, 2004. Onu burada tapmaq olar: http://ec.europa.eu/civiljustice/adr/adr_ec_code_conduct_en.pdf.
[21] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 4(3).
[22] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 43.

*Nazirin aktı ilə daha dəqiq şəkildə tənzimlənir. Nazirlik bu maddənin 1-ci bəndində göstərilən icazələrin qeydiyyatını aparır.*[23]

c) Təlimə praktik və nəzəri hissələrin daxil edilməsini tələb edin və kursa daxil ediləcək mövzular üçün minimal tələbləri aydın şəkildə müəyyənləşdirin. Minimum standart kimi Mediatorlar üçün baza səviyyəli təlim proqramına[24] istinaddan istifadə edin.

*Nümunə:*

*(1) Federal ədliyyə naziri Əsasnaməyə uyğun olaraq Mediasiya üzrə Məşvərət Şurası ilə məsləhətləşdikdən sonra mediatorların hazırlanması üçün xüsusi şərtləri müəyyən edir. Əsasnamədə təlim tələbləri peşə təcrübəsi sahəsindən asılı olaraq fərqli şəkildə müəyyən edilə bilər.*
*(2) Konkret təlim sahələrinə bölünən nəzəri hissədə 200-300 təlim vahidi, praktik hissədə isə 100-200 təlim vahidi olmalıdır.*
*1. Nəzəri hissə:*
*a) Mediasiyanın problemlərinin və inkişafının tarixi, o cümlədən mediasiya ilə bağlı əsas fərziyyələr və əsas mediasiya modelləri ilə tanışlıq;*
*b) mübahisələrə və onların həlli yolunun tapılmasına yönələn yanaşmalara xüsusi diqqət yetirilməklə, mediasya prosedurlarının, metodlarının və mərhələlərinin işlənib hazırlanması;*
*c) Ünsiyyətin əsasları, xüsusən ünsiyyət qurma, problemləri həll etmə və danışıqlar aparma metodları, görüşlərin keçirilməsi və mübahisə vəziyyətlərinə xüsusi diqqət yetirilməklə moderasiya;*
*d) Mübahisələrin təhlili;*
*e) Mediasiya praktikasının sahələri;*
*f) Şəxsiyyət nəzəriyyələri və müdaxilələrin psixo-sosial formaları;*
*g) Mediasiyada etik problemlər, xüsusilə mediatorun mövqeyi;*
*h) Mediasiyada, xüsusən mülki hüquqla bağlı məsələlərdə hüquqi problemlər, eləcə də mübahisələrdə yaranan və mediasiya zamanı xüsusi diqqət yetirilməli olan hüquqi problemlər;*
*2. Praktik hissə:*
*a) Rollu oyun, simulyasiya və refleksiyadan istifadə etməklə mediasiya metodlarını məşq etmək üçün fərdi özünüdərk və praktik təcrübə seminarları;*
*b) Müdavimlərin birgə qrup işi;*
*c) Mediasiyaya aid nümunələrlə iş və mediasiya fəaliyyətinə nəzarət prosesində iştirak.*
*(3) Professional qrup üçün zəruri olan təlimin və onun həyata keçirilməsi nəticəsində əldə edilmiş praktik təcrübənin müvafiq qaydada nəzərdən keçirilməsi (maddə 10).*[25]

d) Siyahıda qalmağın mütləq şərti kimi davamlı professional inkişafı və siyahıda müəyyən sayda mediatorların olmasını nəzərdə tutun.

*Nümunə:*

*Mediatorılar reyestrində qeydiyyatda olan şəxs <…> qeydiyyata alındığı tarixdən sonra hər üç (3) ildən bir ən azı iyirmi dörd (24) saatlıq təlimdə iştirak edərək, mediasiya məsələləri üzrə hazırlığını davam etdirməli və müvafiq sertifikatı Nazirə təqdim etməlidir. <…>*[26]

e) Xaricdə alınmış təlimin və ya əldə edilmiş ixtisasın tanınması üçün sistem yaradın.

*Nümunə:*

*Nazir aşağıdakı hallarda fiziki şəxsin müraciəti əsasında onu Reyestrdə qeydiyyata aldırır:*
*<…>*

---

[23] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 45.

[24] CEPEJ, Mediatorlar üçün baza səviyyəli təlim ıproqramı. Mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, onu buradan tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 19-23.

[25] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 29.

[26] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 12.

*O, mediator imtahanından keçibsə və ya onun ixtisası digər normativ hüquqi akt əsasında tanınıbsa.*[2]
*<…>*

*[2] Qanunlar toplusu, Qanun № 18/2004. Avropa İttifaqına üzv dövlətlərdəki və bəzi digər dövlətlərdəki peşə ixtisasının və digər ixtisasların tanınması və bəzi qanunlara dəyişiklik edilməsi aqqında Qanun (Peşə ixtisasının tanınması haqqında Qanun), sonrakı dəyişikliklərlə.* [27]

f) Hüquq, psixologiya və s. kimi müəyyən sahələr üzrə universitetlərin tədris proqramına mediasiya ilə bağlı təlimin daxil edilməsini nəzərdən keçirin.

### 3.2. Öhdəliklər, icazələr, məsuliyyət

#### 3.2.1. Öhdəliklər

a) Mediatorların üzərinə müstəqillik, neytrallıq və qərəzsizlik standartlarına riayət etmək öhdəliyi qoyun.

<u>*Nümunə:*</u>
*1727-ci maddədə qeyd edilən Komissiya ən azı aşağıdakı şərtlərə cavab verən mediatorları sertifikatlaşdıra bilər:*
*<…>*
*3°) sertifikatlaşdırılmış mediator peşə fəaliyyətini həyata keçirmək üçün zəruri olan müstəqillik, neytrallıq və qərəzsizlik təminatlarına malik olmalıdır.*[28]

b) Mediatorların üzərinə, dəqiq müəyyən edilmiş istisnalarla, konfidensiallıq qaydasına riayət etmək öhdəliyi qoyun.

<u>*Nümunə:*</u>
*Mediator və mediasiya prosesində iştirak edən şəxslər, qanunla başqa hal nəzərdə tutulmayıbsa, konfidensiallığa riayət etmək vəzifəsi daşıyırlar. Bu vəzifə onların fəaliyyətlərini həyata keçirərkən bildikləri bütün məlumatlara aiddir. Konfidensiallıq öhdəliyi ilə bağlı digər qanunvericilik müddəalarından asılı olmayaraq, bu vəzifə aşağıdakı hallara şamil olunmur:*
*1. mediasiya prosesində əldə edilmiş razılaşmanın məzmununun açıqlanması həmin razılaşmanın həyata keçirilməsi və ya icrası üçün zəruri olduqda;*
*2. məlumatların açıqlanması prioritet təşkil edən dövlət siyasəti (ictimai qayda) mülahizələri üçün zəruri olduqda, xüsusən də uşağın rifahı üçün yaranan riskin qarşısını almaq və yaxud şəxsin fiziki və ya psixi sağlamlığına yetirilə bilən ciddi zərərin qarşısını almaq üçün tələb olunduqda, yaxud*
*3. söhbət hamıya məlum olan və ya konfidensial saxlanması üçün yetərincə əhəmiyyətli olmayan faktlardan getdikdə.*
*Mediator konfidensiallıq öhdəliyinin əhatə dairəsi barədə tərəfləri məlumatlandırmalıdır.*[29]

c) Mediatorların üzərinə onların müstəqilliyinə və qərəzsizliyinə təsir edə biləcək hər hansı problemləri açıqlamaq və həmin problemlər qaldığı təqdirdə mediasiya prosesini dayandırmaq vəzifəsi qoyun.

<u>*Nümunə:*</u>
*Mediator onun müstəqilliyinə və ya qərəzsizliyinə mane ola biləcək bütün halları tərəflərə açıqlamalıdır. Belə hallar mövcud olduqda, onun mediator qismində çıxış etməsinə yalnız tərəflər birmənalı şəkildə razılaşdıqda icazə verilir.*[30]

[27] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 16(1d).
[28] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1726(1-3).
[29] Almaniya Federativ Respublikası, Mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I, səh. 1577, 2012, maddə 4.
[30] Almaniya Federativ Respublikası, Mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I, səh. 1577, 2012, maddə 3(1).

d) Mediatorların üzərinə mediatorun peşə təcrübəsi, mediasiya prosesi, tərəflərin hüquq və vəzifələri, nəticələrin mümkün senarilərinin hüquqi nəticələri haqqında bütün lazımi məlumatları tərəflərə təqdim etmək vəzifəsi qoyun.

Nümunə:

*Mediasiya başlamazdan əvvəl mediator mediasiya zamanı prosesdəki mövqeyi, mediasiyanın məqsəd və prinsipləri, mediasiyanın həyata keçirilməsi haqqında müqavilənin (mediasiya müqaviləsinin[31]) və barışıq sazişinin nəticələri, mediasiyaya istənilən vaxt son qoymağın mümkünlüyü, mediasiyanı həyata keçirdiyinə görə mediatorun qonorarı və mediasiya xərcləri barədə mübahisə tərəflərinə məlumat verməlidir. Mediator mübahisə tərəflərinə aydın şəkildə məlumat verməlidir ki, mediasiyanın başlanması mübahisə tərəflərinin öz hüquqlarının və qanuni mənafelərinin məhkəmə prosesi vasitəsilə müdafiəsini tələb etmək hüququna təsir etmir və mediasiya müqaviləsinin məzmununa görə yalnız mübahisə tərəfləri məsuliyyət daşıyırlar.*[32]

### 3.2.2. İcazələr

a) Mediatorun tərəflərin hər biri ilə ayrı-ayrılıqda fərdi görüşlər (iclaslar) keçirməsini qadağan etməyin.

Nümunə:

*Mediatorun bütün tərəflər qarşısında öhdəlikləri bərabər olmalıdır. O, tərəflər arasında ünsiyyəti təşviq etməli və tərəflərin lazımi qaydada və ədalətli şəkildə mediasiya prosesinə inteqrasiyasını təmin etməlidir. O, bütün tərəflərin razılığının olması şərti ilə tərəflərlə ayrıca müzakirələr apara bilər.*[33]

b) Mediatorlara tərəflərin vəsatəti və ya razılığı ilə həll üçün təkliflər verməyi qadağan etməyin.

Nümunə:

*Tərəflərin vəsatəti və ya razılığı ilə mediator mübahisənin barışıq yolu ilə həll edilməsi üçün təklif verə bilər. Təklif tərəflərin mediasiya prosesində irəli sürdükləri fikirlərini nəzərə alaraq mediatorun məqsədəuyğun hesab etdiyi həllə əsaslana bilər.*[34]

c) Mediatorların qonorar və ya kompensasiya almasına icazə verin.

Nümunə:

*A Mediator mediasiyanı ödənişsiz aparmağa razılıq vermədiyi təqdirdə, mediasiya ilə bağlı qonorarı və çəkdiyi xərclərin əvəzini almaq hüququna malikdir. Qonorar və xərclər tərəflərdən alınır.*[35]

d) Bunun ciddi səbəblərə görə milli imperativ qanunvericilik normalarına uyğun olmadığı hallar istisna olmaqla, mediatorların mediasiya çərçivəsində barışıq sazişinin hazırlanmasında iştirakına icazə verin.

Nümunə:

*<…> Prosedurdakı tərəflərin razılığı olduqda, mediator razılaşmanın hazırlanmasında və sazişin tərtib edilməsində iştirak edir. <…>*[36]

---

[31] Çox zaman mediasiya haqqında razılaşma adlandırılır.

[32] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 3(4).

[33] Almaniya Federativ Respublikası, Mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I, səh. 1577, 2012, maddə 2(3).

[34] Finlandiya Respublikası, Mülki işlər üzrə mediasiya və barışıq sazişlərinin ümumi məhkəmələrdə təsdiqi haqqında Qanun, № 394/2011, maddə 7(2).

[35] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, № 1595, 2015-ci il, maddə 183$^5$.

[36] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 26.

e) Barışıq sazişinin mümkünlüyü ehtimalı olmadığı hallarda mediatorların mediasiyanı davam etdirməyə həvəsləndirmə vəzifəsi daşımadan mediasiyanı başa çatdırmasına icazə verin.

<u>*Nümunə:*</u>
*Tərəflər istənilən vaxt mediasiyaya xitam verə bilərlər. Mediator xüsusən tərəflər arasında sərbəst şəkildə ünsiyyətin və ya mübahisənin həllinin gözlənilmədiyi qənaətinə gələrsə, mediasiyaya xitam verə bilər.*[37]

### 3.2.3. Məsuliyyət

a) Mediatorlar və mediasiya xidməti göstərən subyektlər üçün mülki-hüquqi məsuliyyət müəyyən edin.

<u>*Nümunə:*</u>
*Zərərə görə məsuliyyət haqqında ümumi qaydalara uyğun olaraq, mediator etika kodeksinə əməl etməməsi, hüquqa zidd davranışı, qəsdən və ya kobudcasına səhlənkarlığı nəticəsində tərəflərə dəymiş hər hansı zərərə görə məsuliyyət daşıyır.*[38]

b) Mediatorların və mediasiya xidməti göstərən subyektlərin yol verilmiş hüquqpozmaya uyğun olaraq inzibati və ya intizam məsuliyyətinə cəlb edilməsini nəzərdə tutun. Konkret adlar göstərilməməklə intizam qurumunun qərarlarının məhkəmə qərarları ilə eyni qaydada ictimaiyyətə açıqlanması imkanını nəzərdən keçirin.

<u>*Nümunə:*</u>
*[Federal] Komissiyanın [mediasiya üzrə] funksiyaları aşağıdakılardır:*
*<…>*
*Mediatorlara və ya təlim təşkilatçılarına qarşı iddialara baxır, mediatorlara kompensasiya ödənilməsi ilə bağlı mübahisələr olduqda məsləhətlər verir və 1726-cı maddədə və ya Komissiya tərəfindən qəbul edilmiş davranış kodeksinin müddəalarında müəyyən edilmiş şərtlərə daha cavab verməyən mediatorlara qarşı sanksiyalar tətbiq edir.*[39]

c) Tətbiq edilə bilən sanksiyaları dəqiq şəkildə müəyyənləşdirin.

<u>*Nümunə:*</u>
*İntizam məsələləri və şikayətlər üzrə Komissiya <…> akkreditə olunmuş mediatora aşağıdakı sanksiyaları tətbiq edə bilər:*
- *xəbərdarlıq;*
- *töhmət;*
- *İntizam məsələləri və şikayətlər üzrə Komissiyanın müəyyən etdiyi müddət ərzində və meyarlara uyğun olaraq təcrübə keçmək öhdəliyi;*
- *İntizam məsələləri və şikayətlər üzrə Komissiyanın müəyyən etdiyi müddət ərzində və meyarlara uyğun olaraq peşə fəaliyyətini yalnız müştərək mediator kimi həyata keçirmək öhdəliyi;*
- *bir ildən çox olmayan müddətə mediator fəaliyyətinin dayandırılması;*
- *akkreditasiyanın geri götürülməsi.*[40]

d) Peşə məsuliyyəti sığortasını tələb edin.

<u>*Nümunə:*</u>

[37] Almaniya Federativ Respublikası, Mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I, səh. 1577, 2012, maddə 2(5).
[38] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 35.
[39] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1727(2 (6)).
[40] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1727/5 (4).

*(1) Mediator fəaliyyəti nəticəsində dəyən zərərə görə hər hansı tələbləri ödəmək üçün Avstriyada kommersiya fəaliyyətini həyata keçirmək hüququna malik olan sığortaçı ilə peşə məsuliyyətinin sığortası haqqında müqavilə bağlamalı və Mediatorların siyahısında qeydiyyatda olduğu müddət ərzində bu sığortanı davam etdirməlidir.*
*(2) Sığorta müqaviləsinə aşağıdakılar şamil edilməlidir:*
*1. Avstriya qanunvericiliyi tətbiq edilməli;*
*2. Hər bir sığorta hadisəsi üçün minimum sığorta ödənişi 400.000 avro olmalı;*
*3. Sığortaçının sığorta müqaviləsi üzrə davam edən məsuliyyətinin istisna edilməsinə və ya müddətinin məhdudlaşdırılmasına yol verilməməlidir.*
*(3) Sığortaçılar sığorta ödənişi təminatına xitam verilməsi və ya onun məhdudlaşdırılması və yaxud ilkin sığorta şəhadətnaməsinin şərtlərindən kənara çıxma anlamına gələn və/və ya gələ bilən hər hansı hallar barədə dərhal Federal ədliyyə nazirini xəbərdar etməyə və Federal ədliyyə nazirinin tələbi əsasında belə hallar barədə ona məlumat verməyə borcludurlar. Mediator hər zaman məsuliyyət sığortasının mövcudluğunu sübut edə bilməlidir.*[41]

### 3.3. Mediasiya xidməti göstərən subyektlər

a) Mediasiya xidməti göstərən subyektlərin reyestrini yaradın və onların qeydiyyata alınması, qeydiyyatının dayandırılması və reyestrdən çıxarılması ilə bağlı dəqiq meyarlar müəyyən edin.

*Nümunə:*
*Etibarlılığa və effektivliyə təminat verən dövlət qurumlarına və ya özəl qurumlara bu Fərmanın 2-ci maddəsində nəzərdə tutulmuş sahələrdə mediasiya xidməti göstərən subyektləri təsis etməyə və hər hansı maraqlı şəxsin müraciəti əsasında mediasiya prosedurunu idarə etməyə icazə verilir. Mediasiya xidməti göstərən subyektlər reyestrdə qeydiyyatdan keçməlidirlər.*
*Reyestrin formalaşdırılması və ona yenidən baxılması, qeydiyyata alma, qeydiyyatın dayandırılması və ləğv edilməsi, reyestrdə istehlakçıların işlərində və beynəlxalq işlərdə xüsusi biliklər tələb edən məsələlər üzrə ayrıca bölmələrin yaradılması, habelə mediasiya xidməti göstərən subyektlərin xidmət haqlarının müəyyən edilməsi İqtisadi inkişaf naziri ilə məsləhətləşmələr əsasında Ədliyyə nazirinin xüsusi sərəncamı ilə tənzimlənir <…> .*[42]

*1. Dövlət qurumları və özəl qurumlar tərəfindən təsis edilmiş mediasiya xidməti göstərən subyektlər sadəcə müraciət əsasında reyestrdə qeydiyyata alınırlar.*
*2. Direktor ərizəçilərin peşəkarlığını və effektivliyini, xüsusən də aşağıdakıları yoxlayır:*
*a) ərizəçinin maliyyə və təşkilati imkanları və mediasiya fəaliyyətinin onun biznes məqsədlərinə uyğunluğunu. Maliyyə imkanlarını nümayiş etdirmək üçün ərizəçinin kapitalı 10.000 avrodan az olmamalıdır; təşkilatçılıq imkanlarını nümayiş etdirmək üçün ərizəçi ən azı iki İtaliya bölgəsində və ya eyni bölgənin ən azı iki əyalətində, hətta 7-ci maddənin 2-ci bəninin "c" yarımbəndində göstərilən müqavilələr üzrə olsa belə, mediasiya fəaliyyətini həyata keçirmək imkanına malik olduğunu təsdiqləməlidir;*
*b) mediasiyanın aparılması ilə bağlı hər hansı şəkildə yaranan məsuliyyətə görə ərizəçinin 500.000 avrodan az olmayan məbləğdə sığorta polisinə malik olmasını;*
*c) 24 fevral 1998-ci il tarixli 58 nömrəli Qanunvericilik Fərmanının 13-cü maddəsində göstərilənlərə uyğun olaraq yuxarıda adı çəkilən xidmət təminatçılarının üzvlərinin, assosiasiyalarının, direktorlarının və ya nümayəndələrinin yaxşı reputasiyaya malik olma tələblərinə uyğunluğunu;*
*d) mediasiya xidməti göstərən subyektin zəruri maliyyə və əməliyyat müstəqilliyini nümayiş etdirmək üçün inzibati və mühasibat uçotunun şəffaflığını, o cümlədən mediasiya xidməti göstərən subyekt hüquqi şəxsin tərkibində bölmədirsə, onlar arasında hüquqi və iqtisadi münasibətləri;*
*e) mediasiya xidmətinin həyata keçirilməsində müstəqilliyin, qərəzsizliyin və konfidensiallığın təminatlarını, həmçinin əsasnamənin qanunvericiliyə və bu Fərmana, eləcə də mediasiya xidməti göstərən subyekt ilə mediatorlar arasında hüquqi münasibətlərə uyğunluğunu;*
*f) ərizəçinin adından mediasiyanı həyata keçirməyə hazır olduqlarını bəyan etmiş ən azı beş mediatorun olmasını;*
*g) mediasiya xidməti göstərən subyektin ofislərini.*[43]

[41] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 19.
[42] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 16(1 və 2).
[43] İtaliya Respublikası, Ədliyyə nazirinin sərəncamı, 2010-cu il, № 180, maddə 4.

b) Mediasiya xidməti göstərən subyektlər tərəfindən prosedur qaydalarının müəyyən edilməsini və davranış kodeksinə əməl olunmasını təşviq edin. Minimum etik standart qismində Mediatorların Avropa davranış kodeksinə[44] istinaddan istifadə edin.

<u>*Nümunə:*</u>

*Mediasiya xidməti göstərən subyekt reyestrə daxil edilmək üçün müraciətlə yanaşı, əsasnaməsini və etik davranış kodeksini Ədliyyə Nazirliyinə təqdim etməli və hər hansı sonrakı dəyişikliklər barədə məlumat verməlidir. Əsasnamədə, bu fərmana uyğun olaraq, mediasiya xidməti göstərən subyekt tərəfindən istifadə edilə bilən onlayn prosedurlar göstərilməlidir ki, bunda da məqsəd onlayn ünsiyyətin təhlükəsizliyini və məlumatların konfidensiallığını təmin etməkdir. Əsasnaməyə özəl hüquqi şəxslər tərəfindən təsis edilmiş mediasiya xidməti göstərən subyektlərə ödənilməli qonorarların cədvəlləri əlavə edilməli və təsdiq olunmaq üçün təqdim edilməlidir. <…>*[45]

c) Mediasiya xidməti göstərən subyektlərin üzərinə idarə etdikləri mediasiya prosesi ilə bağlı konfidensiallığa riayət etmək öhdəliyi qoyun.

<u>*Nümunə:*</u>

*Tərəflər arasında başqa cür razılaşdırılmayıbsa, mübahisə tərəfləri, mediatorlar və mediasiya xidmət göstərən subyektlər mediasiya zamanı və ya onunla əlaqədar əldə edilmiş bütün məlumatları konfidensial saxlamalıdırlar <…>*[46].

### 3.4. Digər hüquqşünaslar

a) Hakimlərin mediasiya proseslərini aparmasına icazə verin (milli imperativ qanunvericilik normalarına uyğun olaraq).

<u>*Nümunə:*</u>

*Məhkəmə Şurası:*

*(1) məhkəmələrdə məhkəmə ilə əlaqəli mediasiyanın təşkili və icrası qaydasını müəyyən edir;*
*(2) mediator fəaliyyətini həyata keçirmək istəyən hakimlərə münasibətdə tələbləri, hakimlərə mediator statusunun verilməsi və geri alınması qaydasını müəyyən edir;*
*(3) məhkəmə mediatoru statusu almış hakimlərin siyahısının yaradılması və aparılması qaydasını müəyyən edir. <…>*[47]

*<…> Hakimlər mediasiyanı yalnız iş vaxtından kənar və ödənişsiz həyata keçirə bilərlər.*[48]

b) Digər hüquqşünasların (məsələn, vəkillər,[49] notariuslar, icra məmurları) adekvat hazırlıq keçmək və lazımı hallarda imtahandan keçmək şərti ilə mediasiya fəaliyyətini həyata keçirməsinə icazə verin.

---

[44] CEPEJ, Mediasiya xidməti göstərənlər üçün Avropa davranış kodeksi, mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, səh. 24-27, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52.

[45] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 16(3).

[46] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 17 (1).

[47] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 3(3).

[48] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 33.

[49] Bu vəsaitdə işlənmiş "vəkil" termini "Vəkillik peşəsi ilə məşğul olmaq azadlığı haqqında" Avropa Şurası Nazirlər Komitəsinin Rec(2000)21 saylı Tövsiyəsində müəyyən edilmiş aşağıdakı anlayışa uyğun olaraq istifadə edilir: "milli qanunvericiliyə uyğun olaraq müştərilərinin maraqlarını müdafiə etmək və onların adından çıxış etmək, vəkillik fəaliyyəti ilə məşğul olmaq,

*Nümunə:*
*(1) Vəkillər Assosiasiyası Mediasiya haqqında Qanuna uyğun olaraq vəkillərin mediasiya sahəsində hazırlığını təşkil edir və onlar üçün mediatorluq imtahanlarını təşkil edir.*
*(2) Mediasiya haqqında Qanunda başqa cür nəzərdə tutulmayıbsa, onun müddəaları bu maddənin məzmununa və tələblərinə eynilə şamil olunur. <...>[50].*

c) Eyni tərəflərin iştirak etdiyi mübahisədə hakim, arbitr, vəkil (hüquq məsləhətçisi), notarius, icra məmuru, polis və ya prokuror qismində çıxış edən mediatorun fəaliyyətinin sərhədlərini müəyyən edin.

*Nümunə:*
*Tərəflər arasında mübahisədə özü tərəf, tərəfin nümayəndəsi, məsləhətçi və ya qərar qəbul edən orqan olan və ya olmuş şəxs eyni mübahisədə mediator qismində çıxış edə bilməz. Analoji olaraq, mediator bu cür mediasiya ilə əlaqəli mübahisədə tərəfi təmsil edə, ona məsləhət verə və ya qərar çıxara bilməz. Bununla belə, mediasiya başa çatdıqdan sonra bütün maraqlı tərəflərin razılığı ilə o, mediasiyanın nəticəsini həyata keçirmək üçün digər peşə səlahiyyətləri çərçivəsində fəaliyyət göstərə bilər.*[51]

## 4. Mediasiyanın başladılması

### 4.1. Könüllü əsasda

a) Mübahisə yaranmazdan əvvəl (müqavilənin mediasiya haqqında maddəsində) və ya yarandıqdan sonra istənilən mərhələdə tərəflərin mediasiyaya başlamasına icazə verin.

*Nümunə:*
*Bütün tərəflər, bütün digər məhkəmə və ya arbitraj icraatlarından asılı olmayaraq, məhkəmə icraatına başlamazdan əvvəl, icraat zamanı və ya ondan sonra digər tərəflərə mediasiya prosesinə müraciət etməyi təklif edə bilərlər. <…>*[52]

b) Mediasiyaya cəhd edilmədikdə və ya mediasiya haqqında maddədə göstərilən müddət başa çatmadıqda, məhkəmədə qaldırılan iddianın və ya arbitraj orqanına müraciətin qəbuledilməz olduğunu nəzərdə tutan mediasiya haqqında maddəyə əməl olunmasını təmin edin.

*Nümunə:*
*Tərəflər mediasiya haqqında razılığa gəliblərsə və müəyyən müddət ərzində və ya dəqiq müəyyən edilmiş şərtlər yerinə yetirilənə qədər məhkəmə, arbitraj icraatına və ya digər icraata başlamamağı və ya başladılmış icraatı davam etdirməməyi birmənalı şəkildə öhdələrinə götürüblərsə, belə razılaşma məcburi qüvvəyə malikdir. Bu halda məhkəmə, arbitrlər və ya eyni məsələ ilə bağlı icraata başlamaq üçün müraciət edilən digər orqanlar digər tərəfin tələbi ilə icraatın başlanması və ya davam etdirilməsi üçün hər hansı müraciəti rədd edirlər.*[53]

c) Mediasiya təklifinin formasını, habelə digər tərəfin təklifə cavab vermə müddətini dəqiq şəkildə göstərməklə, bir tərəfin mediasiyaya başlaması prosedurunu dəqiq müəyyən edin.

*Nümunə:*

məhkəmələr qarşısında çıxış etmək və ya müştərilərinə hüquqi məsələlərlə bağlı məsləhət vermək və onları təmsil etmək hüququna və səlahiyyətinə malik şəxs".

[50] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), 7-ci hissə, maddə 49a.

[51] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 16 (1).

[52] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1730 (1).

[53] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 18.

*Tərəflərdən biri mediasiya müqaviləsinin bağlanması təklifini irəli sürdükdə, digər tərəf bu təklifə 15 gün müddətində yazılı şəkildə cavab verməlidir.*

*Mediasiya prosedurunun başlanması xüsusi qanunla məhkəmə icraatının və ya digər icraatın aparılması üçün şərt kimi nəzərdə tutulubsa və ya tərəflər müqavilə bağlayarkən məhkəmə və ya digər icraatda iştirak etməzdən əvvəl mübahisənin mediasiya yolu ilə həllinə cəhd etmək barədə razılığa gəliblərsə, maraqlı tərəf digər tərəfə mediasiya müqaviləsinin bağlanmasını yazılı şəkildə təklif etməlidir.*[54]

d) Mübahisəyə baxılmasına cavabdeh olan hakimləri və digər vəzifəli şəxsləri mediasiyanı tövsiyə etməyə və tərəfləri lazımi məlumatlarla təmin etməyə təşviq edin.

*Nümunə:*

*(1) Məhkəmə icraatı, inzibati və ya digər icraat zamanı icraatı həyata keçirən orqan mübahisənin mediasiya yolu ilə həlli imkanının mövcud olduğunu hesab edərsə, bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş mübahisələr üzrə tərəflərə mübahisəni mediasiya prosesi vasitəsilə həll etməyi tövsiyə edə bilər.*
*(2) Bu maddənin 1-ci bəndində qeyd edilən orqan tərəfləri mediasiyanın istifadəsi qaydası ilə tanış etmək üçün məlumatlandırıcı iclasa dəvət edə bilər.*[55]

### 4.2. Məcburi əsasda

#### 4.2.1. Öncə mediasiya iclasında iştirak etmək məhkəmə icraatı üçün ilkin şərt kimi

a) Tərəflərin mediator tərəfindən aparılan tanışlıq xarakterli ilkin mediasiya sessiyasında və ya mediasiya barədə məlumatlandırıcı sessiyada iştirak etmək öhdəliyinin tətbiq edilməsini nəzərdən keçirin və tərəflər qərar verdikləri halda elə həmin sessiyada mediasiyanı davam etdirmək imkanını təmin edin.
b) Tərəflərin ilkin sessiyadan sonra imtina qərarını əsaslandırmalarını tələb etmədən mediasiyadan imtina etmələrinə icazə verin.
c) Vurğulayın ki, tərəfləri razılığa gəlməyə məcbur etmək olmaz.
d) Bu cür ilkin mediasiya sessiyasında iştirakın müəyyən mübahisə növləri üzrə məhkəmə icraatı üçün ilkin şərt hesab edilməsi imkanını nəzərdən keçirin. Ən azı ailə hüququndan, əmək hüququ məsələlərindən, habelə birgə mülkiyyətdən və qonşular arasında münasibətlərdən irəli gələn mübahisələri bu kateqoriyaya daxil etmək imkanını nəzərdən keçirin.
e) İlkin sessiyada iştirakın tərəflər üçün əhəmiyyətli xərclərə gətirib çıxarmamasını və ya məhkəmə icraatının başlanması üçün əhəmiyyətli ləngimələrə səbəb olmamasını təmin edin.
f) 5.4-cü fəsildə qeyd olunan prosessual təminatlara əməl olunmasını təmin edin.
g) Dəqiq şəkildə göstərin ki, ilkin mediasiya sessiyasında iştirak tələbi nə zaman yerinə yetirilmiş sayılır və tərəflərin məhkəməyə iddia təqdim etməsinə nə zaman icazə verilir.
h) 9-cu fəsildə təsvir olunacaq bu cür təcrübələri bütün sistemə şamil etməzdən əvvəl praktikada mediasiyaya məcburi qaydada müraciət etmənin tətbiqini sınaqdan keçirmək üçün pilot layihələrin həyata keçirilməsi imkanını nəzərdən keçirin.

*Nümunələr:*

*Birgə mülkiyyət, daşınmaz əmlak, əmlak bölgüsü, vərəsəlik, ailə münasibətləri, icarə, girov, kommersiya icarəsi, həkimlərin və/və ya digər tibb işçilərinin səhvlərinə görə dəymiş zərərin ödənilməsi, yaxud mətbuat vasitəsilə və ya hər hansı digər təbliğat vasitələrinin köməyi ilə böhtan yayma, sığorta, bank və maliyyə müqavilələri ilə əlaqədar mübahisələrdə məhkəmə icraatına başlamaq niyyətində olan şəxslərin əvvəlcə vəkilin köməyi ilə bu fərmanda nəzərdə tutulmuş mediasiya prosesində və ya barışıq prosedurunda iştirak etməsi tələb olunur. Mediasiya yolu ilə barışığa cəhd etmək məhkəmə icraatı üçün ilkin şərtdir. <…> Mediasiyaya müraciət etmək məhkəmə icraatı üçün ilkin şərt olduqda, hətta mediatorla ilk iclas razılaşma olmadan başa çatdıqda belə, həmin şərt təmin edilmiş sayılır.*[56]

[54] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 17.
[55] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 19.
[56] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 5(1bis və 2bis).

*Mediasiya proseduru üç aydan çox davam edə bilməz.*[57]

*<…> İlk iclas zamanı mediator tərəflərə mediasiyanın funksiyalarını və aparılması prosesini izah edir. Mediator həmin ilk iclasda tərəfləri və onların vəkillərini mediasiyaya başlamağın mümkünlüyü ilə bağlı rəylərini bildirməyə dəvət edir və rəy müsbət olarsa, mediasiyaya davam edir. <…>*[58]

*Bu maddənin 5bis və 5-ci bəndlərinin müddəaları nəzərə alınmaqla, 16-cı maddənin 2-ci bəndində göstərilən qaydada aşağıdakılar müəyyən edilir: <…> d) 5-ci maddənin 1bis bəndinə əsasən mediasiyanın məhkəməyə müraciət üçün ilkin şərt kimi müəyyən edildiyi hallarda və ya 5-ci maddənin 2-ci bəndinə əsasən mediasiyanın məhkəmənin qərarı ilə keçirildiyi hallarda ödənilən qonorarların minimum məbləğinin azaldılması. <…>*
*İlk iclasın sonunda razılaşma olmadıqda, mediatora heç bir kompensasiya ödənilmir.*[59]

*29.1. Mediator ilkin mediasiya sessiyasında iştirak etmək üçün müraciət edən tərəflərə mediasiya prosesinin mahiyyətini, üstünlüklərini və qaydalarını izah edir, tərəflərlə birgə və ayrılıqda görüşlər keçirir. Həmin gün və ya tərəflərin müraciəti ilə mediatorun təyin etdiyi başqa gün tərəflər sonrakı mediasiya sessiyalarında iştirak etmək istəyib-istəmədiklərinə dair qərar verməlidirlər.*
*29.2. Tərəflər və ya onlardan biri onlara mediatorun (mediasiya təşkilatının) və ya digər tərəfin bu Qanunun 22-ci (22.1.1-ci maddə istisna olmaqla) maddəsində nəzərdə tutulan məlumatları və ilkin mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən ilkin mediasiya sessiyası barədə bildirişi təqdim etməsindən sonra tərəflər və ya onlardan biri ilkin mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "İlkin mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, bu maddənin birinci cümləsində qeyd edilən bildiriş tərəflərə ilkin mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.*
*29.3. Tərəflərdən biri və ya hər ikisi mediasiya prosesini davam etdirməyə razılıq vermədikdə, habelə bu Qanunun 3.3-cü və 26.4-cü maddələrinə əsasən mediator mediasiya prosesinin həyata keçirilməsindən imtina etdikdə, mediator mediasiya prosesinə xitam verir və "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" ilə bağlı arayışı tərəflərə təqdim edir.*
*29.4. Tərəfin ilkin mediasiya sessiyasında üzrsüz səbəbdən iştirak etməməsi qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. (bu bənd ləğv olunub)*
*29.5. Tərəflər mediasiya prosesini davam etdirməyə qərar verdikdə isə tərəflər arasında "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanılır və bu Qanunun 24-cü maddəsinə uyğun olaraq mediasiya prosesi həyata keçirilir.*
*29.6. Tərəflər mediasiya prosesinin yekununda barışıq sazişi bağlamadıqda, habelə bu Qanunun 3.3-cü və 26.4-cü maddələrinə əsasən mediator mediasiya prosesinin həyata keçirilməsindən imtina etdikdə, mediator mediasiya prosesinə xitam verir və bu barədə müvafiq protokolu tərəflərə təqdim edir.*
*29.7. Bu Qanunun 29.2-ci, 29.3-cü və 29.6-cı maddələrində göstərilən arayışı və ya protokolu əldə etdikdən sonra tərəf məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsinə) müraciət edə bilər. Müraciətə müvafiq arayış və ya protokol əlavə edilməlidir.*[60]

#### 4.2.2. Hakim tərəfindən mediasiyaya yönləndirilmə

a) Hakimlərin işin mahiyyətini qiymətləndirdikdən sonra məqsədəuyğun hesab etdikləri halda məhkəmə prosesini davam etdirməzdən əvvəl tərəfləri ilkin mediasiya iclasına yönləndirməsinə icazə verin.

*Nümunə:*
*Münasib və məqsədəuyğun olarsa, senatın sədri qeydiyyatdan keçmiş mediator (bundan sonra "mediator" adlandırılacaq) tərəfindən 3 saat müddətində ilkin iclasın keçirilməsinə dair tərəflərə göstəriş verə və prosesi maksimum 3 ay müddətinə dayandıra bilər. Mediator gecikdirilmədən iştirakçılar tərəfindən razılaşdırılmazsa, senatın sədri onu Nazirlikdə saxlanılan siyahıdan seçir. 3 aydan sonra məhkəmə*

[57] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 6(1).
[58] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 8(1).
[59] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 17(4 və 5ter).
[60] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 28.

*prosesi davam etdirilir. Məişət zorakılığına qarşı müvəqqəti mühafizə tədbiri müddətində ilkin iclas təyin edilə bilməz.*[61]

b) Tərəflərin ilkin mediasiya iclasına göndərilməsi haqqında məhkəmə qərarının məzmununu müəyyən edin; ən azı müddətləri göstərin və mediatorun tərəflər tərəfindən seçilməli və ya belə seçim olmadıqda hakim tərəfindən təyin edilməli olduğunu qeyd edin.

Nümunə:

*Tərəflər, onlar iştirak etmədikdə isə vəkilləri göstərdikləri mediatorun və ya mediatorların təyin olunması üçün hakimə vəsatət verə bilərlər. Tərəflərin göstərdiyi mediatorun və ya mediatorların 1726-cı maddədə göstərilən şərtlərə cavab vermədiyi hallar istisna olmaqla, hakim bu vəsatəti təmin edir.*

*Tərəflər hansı mediatorun və ya mediatorların təyin edilməsi barədə razılığa gələ bilmirlərsə, hakim öz növbəsində 1727-ci maddədə göstərilən Mediasiya üzrə Federal Komissiya tərəfindən müəyyən edilmiş mediatorların siyahısından akkreditə olunmuş mediatoru və ya mediatorları təyin edir. Hakim mümkün qədər iş yeri tərəflərin yaşadığı yerə yaxın olan mediatoru seçməlidir.*

*Tərəflərin mübahisəni birinci bənddə göstərilən mediasiya vasitəsilə həll etməyə cəhd etməsi barədə qərarda akkreditə olunmuş mediatorun və ya mediatorların soyadı və statusu göstərilməli, prosedurun altı aydan çox olmayan müddəti müəyyən edilməli və müəyyən edilmiş müddətin bitməsindən sonra iş üzrə ilk iclasın keçirilməsi üçün əlverişli tarix təyin edilməlidir.*[62]

c) Mediasiyaya cəhd etmə barədə qərardan şikayət verilə bilməz.

Nümunə:

*Mediasiyanın təyin edilməsi, müddətinin uzadılması və ya ona xitam verilməsi barədə qərardan şikayət verilə bilməz.*[63]

## 5. Mediasiya prosesi

### 5.1. Mediasiyadan əvvəl

#### 5.1.1. Mediatorun təyin edilməsi

a) Tərəflərin mediator haqqında özlərinin qərar verməsinə və konsensus əldə edə bilmədikdə təyinat prosedurunu nəzərdə tutmağa imkan verin: mediatoru məhkəmə, siyahıya cavabdeh olan orqan, mediasiya xidməti göstərən subyekt və ya digər üçüncü tərəf təyin edə bilər.
b) Tərəflərin, istədikləri təqdirdə, köməkçi mediator qismində çıxış edəcək bir neçə mediator təyin etməsinə icazə verin.

Nümunə:

*Mediasiya proseduru tərəflərin qarşılıqlı razılığı ilə təyin edilmiş bir və ya bir neçə mediator tərəfindən həyata keçirilir. Tərəflər mediator ilə bağlı razılığa gələ bilmədikdə, məhkəmə və ya prosesi aparan digər orqan tərəfindən mediatorun təyin edilməsini tələb edə bilərlər*.[64]

#### 5.1.2. Xərclərlə bağlı qərar

a) Tərəflərin mediasiya xərclərinin bölüşdürülməsi barədə qərar qəbul etmələrinə icazə verin. Belə bir razılaşma olmadıqda, tərəflərin hər birinin öz xərclərini öz üzərinə götürməsini və mediasiya xərclərini bərabər hissələrlə bölüşdürməsini nəzərdə tutan ümumi qayda müəyyən edin.

---

[61] Çex Respublikası, Mülki Prosessual Məcəllə. 1963 (2012-ci ildə edilmiş dəyişikliklərlə), № 99/1963 (Qanunlar toplusu), maddə 100(2).
[62] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1734(1/1 və 2).
[63] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1737.
[64] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 20.

*Nümunə:*
*Tərəflər başqa cür razılaşdırmayıbsa, tərəflərin hər biri öz xərclərini ödəyir, mediasiya xərclərinə gəldikdə isə, tərəflərin hər biri onları bərabər paylarla və yaxud ayrıca qanuna və ya mediasiya təşkilatlarının qaydalarına uyğun olaraq ödəyir.*[65]

b) Tərəflərin və mediatorun razılaşmasında başqa cür nəzərdə tutulmayıbsa, mediasiya xərclərinin nələrdən ibarət olduğunu müəyyənləşdirin. Mediatorun qonorarını, yol və təşkilati xərclərini nəzərə alın.

*Nümunə:*
*Mediator mediasiyanın aparılmasına görə razılaşdırılmış qonorarın və razılaşdırılmış nağd pul xərclərinin ona ödənilməsi hüququna malikdir. Nağd pul xərclərinə yol xərcləri, poçt xərcləri və iclasın protokolunun hazırlanmasının və surətlərin çıxarılmasının məsrəfləri daxildir. Mediator mübahisə tərəflərindən mediasiya haqqı və razılaşdırılmış pul xərclərinin ödənilməsi üçün müvafiq beh tələb edə bilər.*[66]

### 5.1.3. Mediasiya barədə razılaşma

a) Tərəflərdən və mediatordan mediasiya prosesindən əvvəl mediasiya haqqında yazılı müqavilə imzalamalarını tələb edin.

*Nümunə:*
*Tərəflər mediatorun köməyi ilə öz aralarında mediasiyanın təşkili üsullarını və prosesin müddətini müəyyən edirlər. Bu razılaşma tərəflər və mediator tərəfindən imzalanan mediasiya protokolu ilə yazılı şəkildə təsdiq edilir. Mediasiya ilə bağlı xərclər və qonorarlar, tərəflər başqa cür qərar verməyibsə, onlar tərəfindən bərabər əsasda ödənilir.*[67]

b) Tərəflərdən mediasiya müqaviləsində ən azı aşağıdakıları göstərmələrini tələb edin: tərəflərin adları; mediatorun və müvafiq hallarda mediasiya xidməti göstərən subyektin adı; mübahisənin qısa təsviri; müddət məhdudiyyətinin nəzərdə tutulması planlaşdırılırsa, mediasiyanın müddəti; mediatorların qonorarı və ya onun müəyyən edilməsi qaydası; mediasiya xərclərinin bölgüsü.
c) Mediasiya müqaviləsinin nümunəvi formasını təqdim edin. Minimum standart kimi CEPEJ tərəfindən qəbul edilmiş "Mediasiyaya dair nümunəvi müqavilə"yə[68] istinad edin.
d) Müqaviləyə sonradan dəyişikliklər edilməsinə icazə verin.

*Nümunə:*
*22.1. “Mediasiya prosesinin tətbiqi barədə müqavilə” yazılı şəkildə bağlanır və həmin müqavilədə aşağıdakılar göstərilir:*
*22.1.1. müqavilənin tarixi, vaxtı və tərtib olunduğu yer;*
*22.1.2. tərəflərin adları və rekvizitləri;*
*22.1.3. mübahisənin predmeti;*
*22.1.4. tərəflərin seçdiyi mediator (mediatorlar) və ya mediasiya təşkilatı haqqında məlumatlar;*
*22.1.5. mediasiya prosesi ilə əlaqədar xərclərin ödənilməsi şərtləri və qaydası;*
*22.1.6. əgər tərəflər arasında digər razılaşma yoxdursa, mediasiyanın keçirilməsinin məxfiliyi haqqında tərəflərin öhdəlikləri və həmin öhdəliyə əməl etməməyə görə məsuliyyət;*
*22.1.7. mediasiya prosesinin keçirilmə müddəti;*
*22.1.8. mediasiya prosesinin keçirilmə qaydası;*

[65] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 20.
[66] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 10(1).
[67] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1731(1).
[68] CEPEJ, Standart mediasiya formaları. Mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 30-33.

*22.1.9. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, bu Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq başqa şərtlər.*
*22.2. Tərəflərin qarşılıqlı razılaşması ilə "mediasiya prosesinin tətbiqi barədə müqavilə"yə əlavə və dəyişikliklər edilə bilər.* [69]

### 5.2. Mediasiyanın başladılması

a) Mediasiyanın başlanma anını dəqiq şəkildə müəyyənləşdirin.
b) Tərəflərdən mediasiya haqqında müqavilə imzalamaq tələb olunarsa, mediasiya müqaviləsi imzalandığı gündən mediasiyanın başlanmış hesab edilməli olduğunu göstərin.
c) Məhkəmə ilə əlaqəli mediasiya halında mediasiyanın başlandığı günü tərəflərin məhkəmə tərəfindən mediasiyaya yönləndirilməsi haqqında məhkəmənin qərar və ya əmr qəbul etdiyi gün ilə əlaqələndirin. Belə bir əmr və ya qərarın faktiki icrasını stimullaşdırın.
d) Yalnız tərəflər mediasiya müqaviləsini imzalamağa borclu olmadığı təqdirdə, başlanma anını asanlıqla müəyyən edilə bilən başqa bir məqamla əlaqələndirin, məsələn, mediasiya təklifinin qəbul edildiyi tarix; ilk iclasın tarixi; mediasiya xidməti göstərən subyektə müraciət edildiyi tarix.[70]

*Nümunə:*
*Mediasiya prosesinin başlandığı tarix mediasiya haqqında müqavilə yazılı şəkildə tərtib edildiyi halda onun imzalandığı tarixdir, yaxud 15-ci maddə [məhkəmə tərəfindən təyin edilən mediasiyaya istinad] tətbiq edildiyi halda həmin maddənin 3-cü bəndində qeyd edilən qərarın təqdim edildiyi tarixdir və yaxud da hər hansı digər halda mediatorun mediasiya prosesinə başlamaq üçün konkret hərəkətlər etdiyi tarixdir.*[71]

*Mediasiya prosesinin başlanmasının məcburi olduğu mübahisələr üzrə işlərdə başqa cür nəzərdə tutulmayıbsa və ya razılaşdırılmayıbsa, mediasiya [qarşı tərəfin] mediasiya haqqında təklifi qəbul etməsi ilə başlanır.*[72]

### 5.3. Mediasiya zamanı

a) mediasiya prinsiplərinə və prosessual təminatlara riayət edilməsi şərti ilə, tərəflərin razılığı olduqda adi mediasiya və onlayn mediasiya zamanı elektron vasitələrdən istifadəyə icazə verin və bunu təşviq edin.

*Nümunə:*
*1. Tərəflər razılaşa bilərlər ki, məqsədəuyğun hesab etdikləri mediasiya tədbirləri, təsis iclası da daxil olmaqla, elektron vasitələrlə, videokonfrans və yaxud səsin və ya təsvirin ötürülməsinin digər oxşar vasitələri ilə həyata keçirilsin, bu şərtlə ki, müvafiq tərəflərin identikləşdirilməsi təmin edilməli və bu Qanunla müəyyən edilmiş mediasiya prinsiplərinə riayət edilməlidir.*
*2. Tərəflərdən hər hansı birinin belə bir imkanının olmadığı hallar istisna olmaqla, məbləği 600 avrodan çox olmayan iddia üzrə mediasiyanın elektron vasitələrlə həyata keçirilməsinə üstünlük verilməlidir.*[73]

b) Vəkillərin iştirakını təşviq edin.

*Nümunə:*
*Tərəf:*
<…>

[69] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 22.1 və 22.2.
[70] Qeyd: Praktiki nöqteyi-nəzərdən mediasiya yalnız tərəflər və mediasiyanın aparılmasına razılıq verən mediator arasında müqavilə bağlandıqdan sonra başlanır. Bununla belə, bəzi ölkələrdə hüquqi nöqteyi-nəzərdən başlanma anı fərqli bir məqamla əlaqələndirilir.
[71] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 17.
[72] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 6(2).
[73] İspaniya Krallığı, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Boletín Oficial del Estado*, № 5/2012, maddə 24.

*(b) mediasiyada tərəf olmayan şəxs (hüquq məsləhətçisi də daxil olmaqla) tərəfindən müşayiət edilə və ya belə şəxs tərəfindən ona köməklik göstərilə bilər; yaxud*
*(c) mediasiya zamanı istənilən vaxt müstəqil şəxsdən hüquqi məsləhət ala bilər.*[74]

c) Mübahisə tərəflərinin xahişi və ya razılığı ilə üçüncü tərəflərin (o cümlədən ekspertlərin) prosesə cəlb edilməsinə icazə verin; belə hallarda üçüncü tərəf konfidensiallıq şərtinə riayət etməlidir.

*Nümunə:*
*Mediator öz vəzifələrini yerinə yetirərkən və bu məqsədlə tərəflərin razılığı ilə və özlərinin buna razılığının olması şərti ilə üçüncü tərəfləri dinləyə və ya işin mürəkkəbliyi tələb edərsə, ekspertin və ya mübahisə predmeti üzrə mütəxəssisin xidmətindən istifadə edə bilər. Üçüncü tərəflər 1-ci bəndin 1-ci sətrində nəzərdə tutulmuş konfidensiallıq öhdəliyinə əməl etməlidir. 2-ci bəndin müddəaları [mediasiya faktları ilə bağlı məhkəmədə ifadə verməyin və bu faktları açıqlamağın qadağan edilməsi] eksperta də şamil edilir.*[75]

## 5.4. Prosessual təminatlar

### 5.4.1. Konfidensiallıq

a) Tərəflər başqa cür razılaşmayıbsa, mediasiya prosesinin konfidensial olduğunu bəyan edin.

*Nümunə:*
*Tərəflər başqa cür razılaşmayıbsa, mediasiya proseduru ilə bağlı bütün məlumat, təklif və bəyanatlar konfidensialdır. <…>*[76]

b) Konfidensiallıq öhdəliyinin mediasiya ilə bağlı və ya onun gedişində verilən bütün bəyanat və təkliflərə, o cümlədən mediasiya üçün və ya onun gedişində hazırlanmış şifahi və yazılı məlumatlara, eləcə də mediasiya üçün və ya onun gedişində hazırlanmış sənədlərə və qeydlərə şamil ediləcəyini bildirin.

*Nümunə:*
*2-ci bəndin və 17-ci maddənin müddəalarının nəzərə alınması şərti ilə, mediasiya ilə bağlı bütün məlumatlar (şifahi bəyanatlar daxil olmaqla) və bütün sənədlər və qeydlər konfidensial olmalı və məhkəmədə və ya hər hansı başqa bir prosesdə açıqlanmamalıdır.*[77]

c) Prosesdə iştirakının əsasından asılı olmayaraq, bütün mediasiya iştirakçılarının üzərinə konfidensiallığa riayət etmək öhdəliyi qoyun və onun pozulmasına görə onlar üçün məsuliyyət nəzərdə tutun.

*Nümunə:*
*Tərəflər, onların qanuni nümayəndələri və vəkilləri, mediator, mediasiya prosesində iştirak edən üçüncü tərəflər, habelə mediasiaynın ehtiyacları üçün inzibati vəzifələri yerinə yetirən şəxslər mediasiya proseduru ilə bağlı bütün məlumatları, təklifləri və bəyanatları konfidensial saxlamalıdırlar və bu öhdəliyin pozulması nəticəsində dəymiş zərərə görə məsuliyyət daşıyırlar.*[78]

d) Konfidensiallıq barədə qaydadan istisnaları müəyyənləşdirin. Mediasiya yolu ilə əldə edilmiş sazişin həyata keçirilməsi və ya məcburi icrası; şəxsin fiziki və ya psixoloji sağlamlığının toxunulmazlığının qorunması; uşaqların mənafelərinin qorunmasının təmin edilməsi; cinayətin

[74] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 6(4).
[75] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1728 (3)
[76] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 13.
[77] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 10(1).
[78] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 13.

qarşısının alınması və ya üstünün açılması; müvafiq mediasiya ilə bağlı hüquqa zidd davranışı ilə əlaqədar olaraq mediatora qarşı icraatın aparılması üçün zəruri olan məlumatlar konfidensiallıq öhdəliyinin əhatə dairəsindən xaric edilir.

> <u>*Nümunə:*</u>
> *1-ci bəndin müddəaları aşağıdakı hallarda məlumatlara və yaxud sənədlərə və ya qeydlərə şamil edilmir:*
> *(a) onların açıqlanması mediasiya yolu ilə əldə edilmiş sazişin həyata keçirilməsi və ya məcburi icrası üçün zəruridirsə;*
> *(b) tərəfə yetirilə biləcək fiziki və ya psixoloji zərərin qarşısının alınması üçün zəruridirsə;*
> *(c) qanunla tələb olunursa;*
> *(d) aşağıdakıların qarşısının alınması və ya aşkarlanması maraqları üçün zəruridirsə;*
> *(i) cinayət törədilməsinin (cinayət törətməyə cəhd daxil olmaqla),*
> *(ii) cinayətin gizlədilməsinin, yaxud*
> *(iii) tərəf üçün təhlükənin;*
> *(e) mediatorun mediasiya zamanı baş vermiş səhlənkarlığı və ya hüquqa zidd davranışı ilə bağlı mülki iddianın və yaxud bu cür səhlənkarlıq və ya hüquqa zidd davranış ilə bağlı peşə qurumuna şikayətin sübut edilməsi və ya təkzib edilməsi üçün tələb olunursa və ya təklif edilirsə.*[79]

e) Konfidensiallıq öhdəliyini mediator ilə tərəflərdən biri arasında keçirilən ayrıca görüşlərə (iclaslara) şamil edin, belə məlumatların birinci tərəfin birmənalı razılığı olmadan digər tərəfə açıqlanmalı olmadığını bəyan edin.

> <u>*Nümunə:*</u>
> *Mediator, məqsədəuyğun hesab etdiyi halda, tərəflərlə ayrıca əlaqə saxlaya və ayrıca görüşlər keçirə bilər və tərəflərdən hər hansı birinin bu zaman mediatora verdiyi hər hansı məlumat konfidensialdır və həmin məlumatı verən tərəfin qabaqcadan razılığı alınmadan digər tərəfə və ya üçüncü tərəfə açıqlanmamalıdır.*[80]

### 5.4.2. Könüllülük

a) Tərəflərin sərbəst iradəsinin üstün prinsip hesab edildiyi hallarda mediasiya prosesinin könüllü olduğunu müəyyən edin. Bu, ilkin mediasiya sessiyasında məcburi iştirak ilə ziddiyyət təşkil etmir, belə ki, bu iştirak mediasiya yolu ilə məcburi qaydada barışıq sazişi bağlanmasını nəzərdə tuta bilməz.
b) Mediatorlara və ya dövlət orqanlarına tərəfləri razılaşmağa məcbur etməyi və ya mediasiyanın nəticəsi ilə bağlı tərəflər üçün məcburi qüvvəyə malik qərar qəbul etməyi qadağan edin.
c) Hansı müddəaların məcburi qüvvəyə malik olmadığını və yalnız tərəflər arasında başqa cür razılaşma olmadıqda tətbiq olunacağını aydın şəkildə müəyyənləşdirin.
d) Tərəflərdən qeyri-məcburi prosessual müddəalardan kənara çıxmaq istədikləri təqdirdə bu barədə yazılı razılığa gəlmələrini tələb edin.

> <u>*Nümunə:*</u>
> *5.1. Mediasiya könüllü (bu Qanunun 28-ci və 29-cu maddələri nəzərə alınmaqla) xarakter daşıyır və tərəflər mediatorun seçilməsində sərbəstdirlər.*
> *5.2. Mediasiya tərəflərin qarşılıqlı razılığı ilə bağlanan "mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında (bu Qanunun 21.1-ci maddəsi nəzərə alınmaqla) həyata keçirilir.*
> *5.3. Mediasiya zamanı tərəflər öz mülahizələrinə əsasən maddi və prosessual hüquqlarından istifadə edirlər, habelə tələblərinin həcmini artırmaq və ya azaltmaq, bu Qanunun 28-ci və 29-cu maddələrinin tələbləri nəzərə alınmaqla mediasiyanın istənilən mərhələsində mediasiyadan imtina etmək hüquqlarına malikdirlər.*
> *6.3. Mediasiya mübahisənin həllində tərəflərin əməkdaşlığına, habelə ünsiyyət və danışıqlara əsaslanır.*[81]

[79] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 10(2).
[80] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 18(2).
[81] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 5 və 6.3.

### 5.4.3. Sübutlar və ifadələr

a) Mediasiya üçün və ya mediasiya zamanı verilmiş bütün bəyanatların və təkliflərin, o cümlədən mediasiya zamanı və ya onunla bağlı hazırlanmış və ya bildirilmiş yazılı və şifahi elementlərin hər hansı arbitraj, məhkəmə icraatında və ya analoji icraatda təqdim edilməsini, mediasiya predmeti olan mübahisə ilə həmin icraat arasında əlaqənin olub-olmamasından asılı olmayaraq, qəbuledilməz elan edin.
b) Mediasiya prosesində bildirilən təkliflərdən, razılıqlardan və ya güzəştlərdən arbitraj, məhkəmə icraatları və ya analoji icraatlar zamanı digər tərəflər tərəfindən istifadə edilməli olmadığını bəyan edin.
c) Nəzərə alın ki, başqa əsaslarla qəbul edilə bilən sübutun sadəcə olaraq mediasiya zamanı istifadə edilməsi faktı həmin sübutu qəbuledilməz etmir. Vurğulayın ki, mediasiya prosesində istifadə edilib-edilməməsindən asılı olmayaraq, tərəflərə öz sübutlarını təqdim etmələrinə icazə verilməlidir.
d) Mediatorların, tərəflərin və ya hər hansı digər mediasiya iştirakçılarının mediasiya zamanı əldə edilmiş məlumatlarla bağlı arbitraj, məhkəmə icraatlarında və ya analoji icraatlarda ifadə verməyə borclu olmadığını bildirin.
e) Yuxarıda göstərilən qaydalardan istisnaları müəyyənləşdirin. Ümumi konfidensiallıq öhdəliyinə şamil olunanlarla eyni istisnalar tətbiq edilə bilər.

*Nümunə:*

*(1) Arbitraj, məhkəmə icraatında və ya hər hansı digər icraatda aşağıdakılardan hər hansı biri ilə bağlı hər hansı formada ifadə vermək, dəlil təklif etmək və ya hər hansı digər sübut təqdim etmək yolverilməzdir:*
*- tərəfin mediasiya təklifini verməsi və ya qəbul etməsi faktı;*
*- mediasiya prosesi zamanı tərəflərin faktlarla bağlı bəyanatları və ya təklifləri;*
*- mediasiya prosesi zamanı irəli sürülən iddiaların və ya faktların etiraf edilməsi (əgər belə etiraflar və qeydlər barışıq sazişinin tərkib hissəsi deyilsə);*
*- qanunla barışıq sazişinin həyata keçirilməsi və ya məcburi icrası üçün onların təqdim edilməsinin zəruriliyi nəzərdə tutulmayıbsa, yalnız mediasiya icraatı məqsədilə hazırlanmış sənədlər;*
*- tərəflərin mediasiya prosesi zamanı verilən təklifləri qəbul etməyə hazır olması;*
*- mediasiya prosesi zamanı verilmiş digər təkliflər.*

*(2) Tərəflər başqa cür razılığa gəlməyibsə, mediator və hər hansı formada mediasiya prosesində iştirak edən şəxslər mediasiya prosesi nəticəsində yaranan və ya onunla əlaqədar olan informasiya və xəbərlə bağlı arbitraj, məhkəmə icraatında və ya hər hansı digər icraatda ifadə verməyə məcbur edilə bilməzlər.*

*(3) 1-ci bənddə göstərilən sübutlar məhkəmə, arbitraj icraatında və ya digər icraatda qəbuledilməz elan olunaraq rədd edilməlidir. İstisna hallarda bu maddənin 1-ci bəndində göstərilən informasiya və ya məlumatlar arbitraj məhkəmələrində, məhkəmələrdə və ya digər dövlət orqanlarında icraat zamanı sübutetmə məqsədləri üçün aşağıdakı hallarda açıqlana və ya istifadə edilə bilər:*
*- onların açıqlanması və ya istifadəsi ictimai asayişin qorunması üçün zəruridirsə (lakin yalnız qanunla müəyyən edilmiş şərtlərlə və həcmdə), yaxud*
*- barışıq sazişinin həyata keçirilməsi və ya məcburi icrası üçün zəruridirsə.*

*(4) Bu maddənin 1-ci və 2-ci bəndlərinə zidd hərəkət edən şəxslər bunun nəticəsində dəymiş ziyana görə məsuliyyət daşıyırlar.*

*(5) Bu maddənin 1-4-cü bəndlərinin müddəaları arbitraj, məhkəmə icraatına və ya digər analoji icraata, mediasiya predmeti olan mübahisə ilə həmin icraat arasında əlaqənin olub-olmamasından asılı olmayaraq, şamil olunur.*

*(6) Bu maddənin 1-ci bəndində göstərilən hal istisna olmaqla, arbitraj, məhkəmə icraatında və ya digər analoji icraatda başqa əsaslarla qəbul edilə bilən sübutlar sadəcə olaraq mediasiya zamanı istifadə edilmiş olması səbəbindən qəbuledilməz sayıla bilməz.*[82]

[82] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 15.

### 5.4.4. İddia müddətləri və prosessual müddətlər

a) Mediasiya aparıldığı zaman iddia müddətlərinin və prosessual müddətlərin axımını dayandırın.

<u>*Nümunə:*</u>
*17-ci maddənin müddəalarına uyğun olaraq mediasiyanın başladılması mediasiya prosesi zamanı iddia müddətlərinin və prosessual müddətlərin axımının dayandırılmasını nəzərdə tutur.*
*Mediasiya uğursuzluqla nəticələnərsə, dayandırılmış iddia müddətlərinin və prosessual müddətlərin axımı mediasiya prosesinin bitdiyi tarixdən davam edir.*[83]

b) Məhkəmə ilə əlaqəli mediasiya müddətində məhkəmə icraatının dayandırılmasını nəzərdə tutun.

<u>*Nümunə:*</u>
*1. Məhkəmə istənilən vaxt tərəflərə mediasiyanı tövsiyə edə bilər.*
*2. Tərəflər istənilən vaxt mediasiya üçün birgə müraciət edə bilərlər.*
*3. Tərəflərdən biri müraciəti geri götürənə qədər və ya mediasiyanın başa çatdığı barədə məhkəməyə məlumat verilənədək məhkəmə icraatı dayandırılır.*[84]

c) Mediasiyanın başlandığı və bitdiyi an ilə əlaqədar olaraq məhkəmə icraatının dayandırılmasının nə vaxtdan başlandığını və nə vaxt bitdiyini göstərin. Yaxud qeyri-müəyyənlikdən qaçmaq üçün alternativ olaraq, istinad edilən an kimi başqa bir anı təyin edin. Mediasiya prosesinin müddəti ilə bağlı mübahisələrin yaranması risklərini minimuma endirmək üçün mediasiyanın başlanma və bitmə anı yazılı sənədlərlə təsdiqlənməlidir.

<u>*Nümunə:*</u>
*Mediasiya haqqında müqavilənin imzalanması mediasiya aparıldığı müddətdə iddia müddətinin axımını dayandırır.*
*Tərəflər birmənalı şəkildə başqa cür razılaşmayıbsa, iddia müddətinin axımının dayandırılması tərəflərdən birinin və ya mediatorun mediasiyaya xitam vermək niyyəti barədə digər tərəfə və ya tərəflərə bildiriş verməsindən bir ay sonra başa çatır. Bu bildiriş sifarişli məktubla verilir.*[85]

### 5.4.5. Aralıq tədbirlər (müvəqqəti təminedici tədbirlər)

a) Tərəflərin mediasiya zamanı aralıq tədbirlərin (müvəqqəti təminedici tədbirlərin) tətbiqi üçün vəsatət verməsinə icazə verin.

<u>*Nümunə:*</u>
*Mediasiya proseduru heç bir halda aralıq tədbirlərin, o cümlədən mühafizə tədbirlərinin tətbiqinə və yaxud iddialar və vəsatətlər barədə məlumatların dərcinə mane olmur.*[86]

## 5.5. Xitam

a) Mediasiyaya xitam verilməsi üçün əsasları müəyyənləşdirin. Onların sırasına ən azı aşağıdakıları daxil edin: barışıq sazişinin bağlanması, tərəfin və ya tərəflərin mediasiyaya xitam verilməsi üçün bəyanatı; mediatorun və ya mediasiya xidməti göstərən subyektin mediasiyaya xitam verilməsi barədə bəyanatı; mediasiya üçün ayrılmış müddətin (əgər varsa) bitməsi.

[83] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 27(1 və 2).
[84] İsveçrə Konfederasiyası, Mülki Prosessual Məcəllə, 2008, maddə 214.
[85] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1731(3 və 4).
[86] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 5(3).

b) Xitamın dəqiq tarixini müəyyən etmək üçün bütün bəyanatların yazılı şəkildə təqdim edilməsini tələb edin.

*<u>Nümunə:</u>*

*Mediasiyaya aşağıdakı hallarda xitam verilir:*

*- tərəflərdən biri digər tərəfə və mediatora mediasiya prosesindən çıxması barədə yazılı ərizə göndəribsə (bir tərəfin çıxması ilə prosesdə hələ də iştirak edən və mediasiyaya davam etmək istəyən iki və ya daha çox tərəfin olduğu hallar istisna olmaqla);*

*- tərəflər prosesə xitam verilməsi üçün mediatora yazılı ərizə göndəribsə;*

*- mediator tərəflərə öz mövqelərini bildirmək imkanı verməklə mübahisənin barışıq yolu ilə həllinə nail olmaq üçün hər hansı əlavə səylərin artıq məqsədyönlü olmadığının aydın olduğunu əsas gətirərək mediasiya prosesinə xitam verməyi qərara alarsa;*

*- mediasiya prosesinin başlandığı tarixdən 60 gün ərzində və ya tərəflər arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş hər hansı digər müddət ərzində barışıq əldə edilməyibsə;*

*- barışıq sazişi bağlanıbsa.*[87]

c) Mediasiyanın nəticəsi barədə rəsmi orqanlara və ya məhkəməyə məlumat verilməli olduqda və ya mediasiya haqqında maddəyə, məcburi mediasiya şərtinə və milli qanunvericilikdə nəzərdə tutulmuş digər hallara uyğun olaraq mediasiyanın aparıldığını təsdiqləmək üçün sübuta ehtiyac olduqda, mediatordan mediasiyaya xitam verildiyi barədə sənəd hazırlamasını tələb edin. Xitam barədə sənəd həmçinin tərəflərin müraciəti əsasında hazırlanır.

d) Xitam barədə sənədə yuxarıdakı 5.4.1-ci bənddə qeyd edilən konfidensial məlumatların daxil edilməsini tələb etməyin.

*<u>Nümunə:</u>*

*§ 1. Mediator tərəfindən mediasiya protokolu tərtib edilir.*

*§ 2. Mediasiya protokolunda aşağıdakılar göstərilir:*

*1) mediasiyanın vaxtı və yeri;*

*2) mediasiya iştirakçılarının adları və soyadları (müəssisələrin adları) və ünvanları (qeydiyyata alınmış ofislərinin ünvanları);*

*3) mediatorun adı, soyadı və ünvanı;*

*4) işin həlli ilə bağlı qəbul edilmiş qərarlar; və*

*5) mediatorun və mediasiya iştirakçılarının imzaları, iştirakçılardan hər hansı biri protokolu imzalaya bilmədikdə isə imzanın olmamasının səbəbləri barədə qeyd.*

*§ 3. Mediator mediasiya protokolunu qeydiyyat kitabına daxil edilməsi üçün dərhal dövlət idarəetmə orqanına təqdim edir, protokolun surətini isə mediasiya iştirakçılarına təqdim edir.*[88]

## 6. Mediaya vasitəsilə barışıq haqqında saziş

### 6.1. Forma və məzmun

a) Mediasiya vasitəsilə barışıq haqqında sazişin yazılı şəkildə tərtib edilməsini, tərəflər tərəfindən imzalanmasını və mediatorun imzası ilə təsdiq edilməsini, əgər varsa mediasiya xidməti göstərən sibyektin göstərilməsini, sazişin bağlandığı tarixin və yerin qeyd edilməsini tələb edin.

*<u>Nümunə:</u>*

*Mediasiya vasitəsilə barışıq haqqında saziş mediasiyanın predmeti olan məsələlərin bəzilərini və ya hamısını əhatə edə bilər. Barışıq sazişində tərəflərin şəxsiyyəti və ünvanı, sazişin bağlandığı yer və tarix, tərəflərin hər birinin üzərinə götürdüyü öhdəliklər və bu Qanunun müddəalarına uyğun olaraq mediasiya proseduruna əməl edildiyi qeyd edilməklə, prosesdə iştirak etmiş mediator və ya mediatorlar və lazım olduqda mediasiya prosedurunun aparıldığı mediasiya qurumu göstərilməlidir.*[89]

---

[87] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 12.

[88] Polşa Respublikası, İnzibati Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1960, 2017-ci il, № 1257, maddə 96m.

[89] İspaniya Krallığı, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Boletín Oficial del Estado*, № 5/2012, maddə 23(1).

b) Mahiyyəti üzrə razılıq əldə olunmayıbsa, faktlar üzrə razılıq əldə olunmasına icazə verin.

<u>Nümunə:</u>
*<…> Tərəflər hüquqi məsələlərdə fikir ayrılığına görə razılığa gələ bilmirlərsə, faktoloji məsələlər üzrə yazılı razılıq əldə edə bilərlər. Tərəflərin qarşılıqlı razılığının əhatə etdiyi faktoloji məsələlər məhkəmə icraatında və ya digər icraatda mübahisəsiz hesab edilir.*[90]

c) Məhkəmə ilə əlaqəli mediasiyada mübahisənin bir hissəsinin məhkəmə qaydasında həll edilməsinə, habelə iddianın və ya qarşılıqlı iddianın əhatə etdiyindən daha artıq məsələləri əhatə edən razılaşmalara icazə verilir.

<u>Nümunələr:</u>
*Başa çatmayan məhkəmə icraatı üzrə barışıq sazişi haqqında müddəalar, müvafiq olaraq, məhkəmə ilə əlaqəli mediasiya vasitəsilə əldə edilən barışıq sazişinə və belə sazişin təsdiqinə də şamil edilir. Bununla belə, məhkəmə ilə əlaqəli mediasiya vasitəsilə əldə edilən barışıq sazişinin təsdiqi tərəflərin ilkin iddialarında qeyd olunmayan məsələləri də əhatə edə bilər.*[91]

*Mediasiya mübahisənin bir hissəsinə və ya bütün mübahisəyə aid ola bilər.*[92]

### 6.2. Məcburi icra

a) Mediasiya vasitəsilə əldə edilmiş barışıq sazişinin məzmununun, bütün tərəflərin müraciəti əsasında və ya digər tərəfin (tərəflərin) razılığı ilə bir tərəfin müraciəti əsasında, məhkəmə qərarı, notariat aktı və ya digər vəzifəli şəxsin (məsələn, magistrat, icra məmuru və ya digər şəxsin) icazə sənədi vasitəsilə məcburi icrasının mümkünlüyünü təmin edin.

<u>Nümunə:</u>
*Mediaisya nəticəsində əldə edilmiş razılaşmanın icrasının məcburiliyi barədə vəsatət məhkəməyə aşağıdakılar tərəfindən verilə bilər:*
*(a) bütün tərəflər tərəfindən birgə; və yaxud*
*(b) digər tərəflərin birmənalı razılığı ilə tərəflərdən biri tərəfindən (əgər barışıq sazişində bu cür birmənalı razılığın olduğu göstərilməyibsə).*[93]

b) Tərəfləri təşviq edin ki, mediasiya vasitəsilə əldə edilən barışıq sazişinin müddəalarının icrasının məcburi olub-olmadığını həmin sazişdə göstərsinlər.

<u>Nümunə:</u>
*Tərəflər aşağıdakılar barədə qərar verirlər:*
*(a) onlar arasında mediasiya vasitəsilə barışıq sazişinin əldə edilib-edilməməsi barədə və əgər əldə edilibsə,*
*(b) həmin barışıq sazişinin icrasının məcburi olub-olmadığı barədə.*[94]

c) Mediasiya vasitəsilə əldə olunan barışıq sazişlərinin birbaşa icrasına yalnız tərəflər bu barədə razılaşdığı təqdirdə və tərəflərin barışıq sazişinin müddəalarının imperativ qanunvericilik normalarına zidd olmadığına təminat verə biləcək vəkillərlə təmsil olunması şərti ilə icazə verin.

---

[90] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 26.

[91] Finlandiya Respublikası, Mülki işlər üzrə mediasiya və barışıq sazişlərinin ümumi məhkəmələrdə təsdiqi haqqında Qanun, № 394/2011, maddə 8.

[92] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1735(2).

[93] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 32(1).

[94] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 11 (1).

*Nümunə:*

*Mediasiyanın bütün tərəfləri vəkillə təmsil olunduqda, tərəflər və onların vəkilləri tərəfindən imzalanmış saziş məcburi özgəninkiləşdirmə, borc öhdəliyinin tam ödənilməsi, öhdəliklərin yerinə yetirilməsi, habelə öhdəliyin məhkəmə qaydasında əmlaka yönəldilməsinin qeydiyyatı üçün icra sənədi qüvvəsinə malik olur. Sazişi imzalayarkən vəkillər təsdiq edir və təminat verirlər ki, sazişin müddəaları imperativ normalara uyğundur və ictimai qaydaya zidd deyil. <...>*[95]

d) Sazişin icrasından imtina üçün əsasları dəqiq şəkildə müəyyənləşdirin. Onların sırasına ən azı sazişin imperativ qanunvericilik normasına və ya ictimai qaydaya zidd olmasını daxil edin.

*Nümunə:*

*<…> Mübahisələrin mediasiya yolu ilə həllinə dair sazişin məcburi icrasına aşağıdakı hallarda yol verilmir: bu barədə razılaşmaya icazə verilmədikdə, saziş ictimai qaydaya zidd olduqda, saziş məcburi icra üçün uyğun olmadıqda, məcburi icranı icra obyektinə tətbiq etmək mümkün olmadıqda.*[96]

e) Mübahisələrin mediasiya vasitəsilə həllinin qüvvədə olan beynəlxalq sənədlərin, məsələn, Mediasiya haqqında Sinqapur Konvensiyasının və 25 oktyabr 1980-ci il tarixli Haaqa Konvensiyasının tətbiqi üzrə qabaqcıl təcrübətyə dair Təlimatın müddəalarına uyğun olmasını təmin edin.

*Nümunə:*

*Bu Konvensiyaya uyğun olaraq barışıq sazişinə istinad edən Tərəf yardım istədiyi Konvensiya İştirakçısının səlahiyyətli orqanına aşağıdakıları təqdim edir:*
*(a) Tərəflərin imzaladığı barışıq sazişini;*
*(b) Barışıq sazişinin mediasya nəticəsində əldə edildiyinin sübutunu, məsələn:*
*(i) barışıq sazişində mediatorun imzasını;*
*(ii) mediasiyanın həyata keçirildiyini göstərən mediator tərəfindən imzalanmış sənədi;*
*(iii) mediasiyanı idarə edən qurum tərəfindən verilmiş təsdiq sənədini; yaxud*
*(iv) (iv) (i), (ii) və ya (iii) bəndlərində göstərilənlər olmadıqda, səlahiyyətli orqan üçün məqbul olan hər hansı digər sübutu.*[97]

f) Mediasiya yolu ilə əldə edilmiş beynəlxalq barışıq sazişlərinin effektiv tanınmasını təmin etmək üçün Mediasiya haqqında Sinqapur Konvensiyasını və bu cür sazişlərin sadələşdirilmiş tanınma və icrasını təmin edən digər konvensiyaları, məsələn, Uşaqların müdafiəsi haqqında 1996-cı il tarixli Haaqa Konvensiyasını ratifikasiya etmək imkanını nəzərdən keçirin.[98] Mediasiya haqqında Sinqapur Konvensiyasının iştirakçısı olmayan ölkələrdən daxil olan mediasiya vasitəsilə beynəlxalq barışıq sazişlərinin tanınması üçün sistemin işlənib hazırlanmasını nəzərdən keçirin.

## 7. Stimullaşdırma vasitələri

### 7.1. Məlumat vermək öhdəliyi

#### 7.1.1. Vəkillər

a) Vəkillərin üzərinə mediasiya haqqında müştərilərinə yazılı məlumat vermək öhdəliyi qoyun.
b) Müştəriyə hansı məlumatların çatdırılmalı olduğunu aydın şəkildə göstərin, buraya ən azı aşağıdakılar daxil edilməlidir: mediasiya prosesinin izahı, mediasiya zamanı tətbiq edilən

[95] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 12(1).
[96] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 27.
[97] Birləşmiş Millətlər Təşkilatının Mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında Konvensiyası (hələ imzalanmayıb), Sinqapur, maddə 4(1). Onun mətnini burada tapmaq olar: http://www.uncitral.org/pdf/english/commissionsessions/51st-session/Annex_I.pdf.
[98] Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı, Valideynlərin məsuliyyəti məsələlərində və uşaqların müdafiəsi üzrə tədbirlərdə yurisdiksiya, tətbiq olunacaq hüquq, tanıma, hüquqtətbiqetmə və əməkdaşlıq haqqında Haaqa Konvensiyası, 1996, Haaqa. Onu burada tapmaq olar: https://assets.hcch.net/docs/f16ebd3d-f398-4891-bf47-110866e171d4.pdf.

prosessual təminatlar, xərclərlə bağlı stimullar (əgər varsa), məcburi mediasiya tələbləri (əgər varsa), məhkəmə icraatının orta müddəti.

c) Müştərilərdən tələb edin ki, təqdim olunan məlumatları oxuduqlarını və anladıqlarını imzaları ilə təsdiqləsinlər.

d) Məlumat vermək öhdəliyinə əməl etməməyin nəticələrini aydın şəkildə göstərin.

Nümunə:

*İddia və ya mübahisə vəkilə təqdim edildikdə vəkil müştərini bu Fərmanla tənzimlənən mediasiya prosedurundan və 17 və 20-ci maddələrdə nəzərdə tutulmuş vergi güzəştlərindən istifadə etmək imkanları barədə məlumatlandırmağa borcludur. Vəkil həmçinin mediasiyanın məhkəmə prosesi üçün ilkin şərt olduğu təqdirdə bu barədə müştəriyə məlumat verir. Məlumat müştəriyə aydın və yazılı şəkildə təqdim edilməlidir.*

*Məlumatların açıqlanmasına aid tələblər pozulduğu təqdirdə vəkillə müştəri arasında bağlanmış müqavilə etibarsız sayılır.*

*Yuxarıda göstərilən məlumatların yer aldığı sənəd müştəri tərəfindən imzalanır və şikayətə və ya hər hansı məhkəmə prosesi üçün təqdim edilən ilkin ərizəyə əlavə edilir. Məhkəmə sənədin əlavə olunmadığını təsdiq etdikdə və 5-ci maddənin 1-bis bəndində nəzərdə tutulmuş tədbiri görmədikdə, tərəfə mediasiya üçün vəsatət vermək hüququ barədə məlumat verir.*[99]

#### 7.1.2. Hakimlər və digər vəzifəli şəxslər

a) Mübahisələri həll edən hakimlərin və digər vəzifəli şəxslərin mübahisənin tərəflərinə mediasiya ilə bağlı bütün lazımi məlumatları təqdim etməsinə və ya barışıq yolu ilə həllin mümkün olduğunu hesab etdikdə tərəfləri digər şəxs tərəfindən aparılacaq məlumatlandırıcı sessiyaya yönləndirməsinə icazə verin və onları buna təşviq edin.

b) Hakimlər üçün mediasiya barədə məlumatlılıq səviyyəsinin artırılması üzrə məcburi ilkin təlimin tətbiqini, eləcə də məlumatlılıq səviyyəsinin davamlı olaraq artırılmasını təmin etməyi nəzərdən keçirin.

Nümunə:

*Sədrlik edən hakim tərəfləri mübahisənin barışıq yolu ilə həlli üsulları, o cümlədən mediasiya haqqında məlumatlandırma iclasında iştirak etməyə dəvət edə bilər. Bu cür məlumatlandırma iclası hakim, məhkəmə katibi, səlahiyyətli məhkəmə əməkdaşı, hakim köməkçisi və ya daimi mediator tərəfindən keçirilə bilər.*[100]

c) Hüquqi yardım göstərən vəzifəli şəxslərdən mediasiyadan istifadənin mümkünlüyü və onun üstünlükləri barədə müvafiq şəxsə məlumat vermələrini tələb edin. Tərəflərə və ya onlardan birinə hüquqi yardım göstərilirsə, konkret mübahisə üzrə məhkəmə prosesindən əvvəl mediasiyadan istifadə etməyi prioritet kimi müəyyən edin.

Nümunə:

*İlkin hüquqi yardım göstərən şəxslər ərizəçilərə mübahisələrini barışıq yolu ilə həll etməkdə köməklik göstərmək imkanlarını axtarmalıdırlar. Həmçinin ərizəçilərə onların mübahisəsinin mediasiya yolu ilə həlli imkanları izah edilməlidir.*[101]

### 7.2. Maddi stimullar

#### 7.2.1. Sanksiyalar

a) Hakimlərə icazə verin ki, tərəflərin mediasiyaya münasibətdə və ya mediasiya zamanı vicdanlı davranmadıqlarını nəzərə alaraq, “uduzan ödəyir” prinsipini (əgər tətbiq edilirsə) bir kənara

[99] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 4(3).
[100] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595, maddə $183^{8}(4)$.
[101] Litva Respublikası, Dövlət tərəfindən təmin edilən hüquqi yardım haqqında Qanun, *Valstybės žinios*, 2000, № 30-827, maddə 15(6).

qoysunlar və məhkəmə icraatı və (və ya) mediasiya prosesi ilə bağlı xərclərin tərəflər arasında bölünməsi barədə göstəriş versinlər.

> <u>Nümunə:</u>
> *16-cı maddədə [məhkəmənin tərəfləri mediasiyaya müraciət etmək məsələsini nəzərdən keçirməyə dəvət etməsi] qeyd edilən proseslə bağlı xərclərin təyin edilməsi zamanı məhkəmə ədalətli hesab etdiyi halda aşağıdakıları nəzərə ala bilər:*
> *(a) icraatdakı tərəfin mediasiyadan istifadə imkanını nəzərdən keçirməkdən əsassız imtina etməsi və ya bu imkandan əsassız olaraq istifadə etməməsi; və*
> *(b) icraatdakı tərəfin 16-cı maddənin 1-ci bəndində nəzərdə tutulmuş mediasiyada iştiraka dəvətdən sonra mediasiyada iştirakdan əsassız imtina etməsi və ya bu imkandan əsassız olaraq istifadə etməməsi.*[102]

b) Vicdanlı davranışa zidd hesab edilə biləcək davranışların tam olmayan siyahısını təqdim edin. Ən azı (uyğun hallarda) bu sıraya aşağıdakıları daxil edin: mediasiyaya cəhd etmək üçün tövsiyə və ya dəvətin üzrlü səbəb olmadan rədd edilməsi; məcburi mediasiya sessiyasında və ya məlumatlandırma sessiyasında iştirak etməmək. Digər halların qiymətləndirilməsini hər bir konkret işdə hakimin ixtiyarına buraxın.

> <u>Nümunə:</u>
> *<…> Tərəfin üzrlü səbəb olmadan məcburi mediasiyada iştirakdan imtina etdiyini və ya məcburi mediasiya üçün vicdanlı olmayan niyyətlə müraciət etdiyini, mediasiyadan vicdanlı olmayan niyyətlə istifadə etdiyini və ya mediasiya zamanı vicdanlı olmayan niyyətlə vəsatətlər verdiyini müəyyən etdikdə, məhkəmə həmçinin bu maddənin 1-ci, 2-ci və 3-cü bəndlərində müəyyən edilmiş xərclərin bölüşdürülməsi qaydalarından kənara çıxa bilər.*[103]

### 7.2.2. Gerb yığımları və məhkəmə rüsumları

a) Məhkəməyə müraciət etməzdən əvvəl mediasiyadan istifadə etmiş tərəflərin gerb yığımlarını və ya digər rüsumları ödəmək öhdəliyini (ən azı qismən) yüngülləşdirin.

> <u>Nümunə:</u>
> *İşin məhkəməyə verilməsindən əvvəl tərəflər mübahisəni mediasiya yolu ilə həll etməyə cəhd göstərmişlərsə, bu maddənin 1-ci bəndinə uyğun olaraq hesablanmış gerb rüsumu 75 faizədək, lakin 5 avrodan az olmamaq şərti ilə azaldılır. Bu bənddə göstərilən hallarda mübahisənin mediasiya yolu ilə həllinə cəhdi təsdiq edən yazılı sübutlar təqdim edilir. Tərəfin mediasiya üçün müraciəti vicdanlı olmayan niyyətlə etdiyi, mediasiyadan vicdanlı olmayan niyyətlə istifadə etdiyi və ya mediasiya zamanı vicdanlı olmayan niyyətlə vəsatətlər verdiyi müəyyən edildikdə, bu bənddə nəzərdə tutulmuş gerb rüsumunun azaldılması tətbiq edilmir. Litva Respublikasının "Mediasiya haqqında" Qanununa uyğun olaraq məcburi mediasiya aparıldığı hallarda bu cür azaltma tətbiq edilmir.*[104]

b) Məhkəmə icraatı və ya inzibati icraat aparıldığı müddətdə mediasiya vasitəsilə barışıq sazişi barədə razılığa gələn tərəflərin gerb rüsumlarını və ya digər rüsumları ödəmək öhdəliyini (ən azı qismən) yüngülləşdirin.

> <u>Nümunə:</u>
> *Məhkəmə və ya digər icraat başlandıqdan sonra və əsas məhkəmə icraatı çərçivəsində birinci iclas yekunlaşana qədər mübahisənin mediasiya yolu ilə həlli barədə razılıq əldə edildikdə, tərəflər məhkəmə rüsumlarını və inzibati rüsumları tənzimləyən qanunla müəyyən edilən qaydada məhkəmə rüsumlarından və ya inzibati rüsumlardan azad edilə bilər.*[105]

---

[102] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 21.
[103] Litva Respublikası, Mülki Prosessual Məcəllə, *Valstybės žinios*, 2002, № 36-1340, maddə 93(4).
[104] Litva Respublikası, Mülki Prosessual Məcəllə, *Valstybės žinios*, 2002, № 36-1340, maddə 80(8).
[105] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 31.

7.2.3. Yardımlar

a) Faktiki olaraq imkanı olmayanlar üçün hüquqi yardım və ya digər mexanizmlər vasitəsilə ödənişsiz əsasda mediasiyadan istifadə etmək imkanını təmin edin və ya mediasiya xərclərini əhəmiyyətli dərəcədə azaldın.

<u>Nümunə:</u>

*Dövlət tərəfindən təmin edilən hüquqi yardım əsas hüquqi yardımı, ikinci dərəcəli hüquqi yardımı və bu qanunun müddəalarına uyğun olaraq keçirilən məhkəmədənkənar mediasiyada dövlət yardımını nəzərdə tutur.*

*Mediasiya xərcləri mediasiya ilə bağlı sənədlərin hazırlanması, mediatorun qonorarı və mediasiya vasitəsilə barışıq haqqında sazişin hazırlanması ilə bağlı xərclərdən ibarətdir. Əsas hüquqi yardım və mediasiya xərclərinin qarşılanmasına dövlət zəmanət verir və onları 100 faiz ödəyir.*[106]

b) Mediasiyaya müraciət edənlər üçün digər yardım növlərinin və ya vergi güzəştlərinin tətbiqini nəzərdən keçirin.

<u>Nümunə:</u>

*Mediasiya prosedurunu həyata keçirmək səlahiyyətinə malik olan mediasiya xidməti göstərən subyektlərə qonorar ödəyən tərəflər üçün mediasiya uğurlu olduğu halda, qonorarın məbləğinə mütənasib olaraq, 2 və 3-cü bəndlərin müddəalarında müəyyən edilmiş beş yüz avro məbləğinədək vergi güzəşti nəzərdə tutulur. Mediasiya uğursuz olduqda, vergi güzəşti yarıya qədər azaldılır.*[107]

c) Mediatorların hazırlığının subsidiyalaşdırılması; hakimlər, arbitrlər, vəkillər, notariuslar, polislər, prokurorlar, icra məmurları və sosial işçilər üçün mediasiyadan səmərəli istifadə üzrə təlimlərin keçirilməsi; mediasiya üzrə pilot layihələrin və digər sxemlərin tətbiqi; mediasiya sahəsində digər tədqiqat, inkişaf və innovasiya işləri; hakimlər, arbitrlər, vəkillər, notariuslar, polis məmurları, prokurorlar, icra məmurları və sosial işçilər tərəfindən mediasiyadan səmərəli istifadə üzrə qabaqcıl təcrübələrin formalaşdırılması və təbliğ edilməsi üçün milli sistemlər yaradın.

<u>Nümunə:</u>

*Departamentin vəzifələri aşağıdakılardır:*
*a) Mediasiya xidmətlərinin müntəzəm və səmərəli şəkildə həyata keçirilməsini təmin etmək.*
*b) Mediasiya ilə bağlı nəşrlər hazırlamaq, bu mövzuda elmi araşdırmaları təşviq etmək və dəstəkləmək.*
*c) Öz funksiyaları ilə əlaqədar olaraq İdarəetmə Şurasının fəaliyyəti ilə bağlı istənilən qərarları və ya icraatı həyata keçirmək, müvafiq nazirlik, digər dövlət orqanları və təşkilatları, ali məktəblər, dövlət qurumu statuslu peşə təşkilatları, ictimai maraqları müdafiə edən fond və birliklər və müvafiq könüllü fiziki və hüquqi şəxslərlə əməkdaşlıq etmək.*
*ç) Mediasiya institutunun təbliği, bu mövzuda ictimaiyyətin məlumatlandırılması, milli və beynəlxalq konqreslər, simpoziumlar və seminarlar kimi elmi tədbirlərin təşkili yolu ilə elmi təşkilatların dəstəklənməsi. <…>*
*ğ) Öz səlahiyyətlərinə aid olan qanunlar və normativ hüquqi aktlar üzrə ekspertiza və araşdırmalar aparmaq və Baş Direktorluğa tövsiyələr vermək. <…>*[108].

## 8. Mediasiya haqqında məlumat

[106] Litva Respublikası, Dövlət tərəfindən təmin edilən hüquqi yardım haqqında Qanun, *Valstybės žinios*, 2000, № 30-827, maddələr 2(11) və 14(3 və 4).
[107] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 20(1).
[108] Türkiyə Respublikası, Hüquqi mübahisələrdə mediasiyanın tətbiqi haqqında Sərəncam. *Rəsmi Qəzet*, 2018, № 30439, maddə 52.

### 8.1. Məlumatların yayılması və yayılmasının təşviqi

a) Mediasiya məsələlərinə cavabdeh olan dövlət orqanlarının və ya qurumlarının üzərinə mediasiya haqqında məlumat yaymaq öhdəliyi qoyun; mediatorlar və ya mediasiya xidməti göstərən subyektlər barədə təfərrüatlı məlumatları və onların əlaqə məlumatlarını təqdim edin.
b) Mediasiya məsələlərinə cavabdeh olan dövlət orqanlarının və ya qurumlarının üzərinə müxtəlif vasitələrlə, o cümlədən internet vasitəsilə mediasiyanı təşviq etmək öhdəliyi qoyun.
c) Dövlət və ya özünütənzimləmə orqanlarının və ya təsisatlarının səlahiyyətləri sırasına mediasiya haqqında məlumatlılıq səviyyəsinin artırılması üzrə milli strategiyaların işlənib hazırlanması, həyata keçirilməsi və monitorinqini daxil edin.
d) Mediasiya ilə bağlı layihələri həyata keçirmək, mediasiya ilə bağlı proqramların monitorinqini təşkil etmək, mediasiya barədə məlumatlılıq səviyyəsinin artırılması işini koordinasiya etmək və statistik məlumatların toplanması üçün hər bir məhkəmədə mediasiya üzrə məsul şəxs təyin etmək tələbinin tətbiq edilməsini nəzərdən keçirin.
e) Məktəblərdə (xüsusən həmyaşıd məktəblilər arasında mediasiya proqramlarının istifadəsi vasitəsilə), universitetlərdə və ali təhsil müəssisələrində mediasiya üzrə təhsilin inkişafına imkan yaradın və bunu təşviq edin.

<u>*Nümunə:*</u>

*Ədliyyə Nazirliyi <…> mediasiya proseduru və onu həyata keçirmək səlahiyyətinə malik mediasiya xidməti göstərən subyektlər haqqında məlumatların xüsusi reklam kampaniyaları vasitəsilə, xüsusən də internet vasitəsilə ictimaiyyətə çatdırılmasını təmin edir.*[109]

### 8.2. Statistik məlumatlar

a) Konfidensiallıq prinsipinə riayət etməklə, fərdi mediatorlardan və ya mediasiya xidməti göstərən subyektlərdən, habelə məhkəmə ilə əlaqəli mediasiya və milli səviyyəli digər mediasiya mexanizmlərindən statistik məlumatların toplanmasını və ümumiləşdirilməsini təmin edin.
b) Avropa Şurasına üzv dövlətlər arasında bu cür məlumatların toplanmasına və müqayisəsinə imkan yaratmaq üçün CEPEJ tərəfindən qəbul edilmiş Mediasiya üzrə əsas effektivlik göstəriciləri üçün ilkin cədvəli (Mediasiyaya dair ilkin statistika)[110] statistika sisteminə inteqrasiya etdirin. Minimum standart olaraq, orada qeyd olunan məlumatların təqdim edilməsini tələb edin.

<u>*Nümunə:*</u>

*İşlərin növləri və digər göstəricilər milli qanunvericilik və praktika nəzərə alınmaqla uyğunlaşdırıla bilər. Bununla belə, Avropa Şurasının müxtəlif üzv dövlətləri arasında müqayisəli təhlilin aparılmasını təmin etmək üçün statistikanın elə aparılması məqsədəuyğundur ki, o, aşağıda təqdim olunmuş cədvələ uyğun olaraq əsas göstəricilərin çıxarılmasına imkan versin.*
*Cədvəl yalnız ilkin statistikanı əks etdirir. Mediasiya xidməti göstərənlər, assosiasiyalar, institutlar və/və ya federasiyalar, fərdi mediatorlar və üzv dövlətlər öz konkret məqsədləri üçün ağlabatan və faydalı olan digər effektivlik göstəricilərini əks etdirən məlumatları toplaya və qiymətləndirə bilərlər.*
*Mümkün olarsa, statistik məlumatların toplanması və qiymətləndirilməsi ildə bir dəfədən çox həyata keçirilməlidir.*
*Mediasiyaya dair statistik qeydlərin aparılması və təhlili işinin sürətləndirilməsi və səmərəliliyinin artırılması üçün informasiya və elektron kommunikasiya texnologiyalarından və xüsusi proqram təminatından istifadə etmək məqsədəuyğundur.*
*İstənilən halda statistik məlumatların toplanması və təhlili mediasiya üçün fundamental əhəmiyyət daşıyan konfidensiallıq prinsipinə zidd olmamalıdır.*[111]

[109] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 21.
[110] CEPEJ, Mediasiya üzrə əsas effektivlik göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika). Mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 40-49.
[111] CEPEJ, Mediasiya üzrə əsas effektivlik göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika). Mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 41.

*Mediator aşağıdakıları etməyə borcludur:*
*<…> məlumatların konfidensiallığı prinsipinə riayət etməklə mübahisənin növü, mediasiya prosedurunun aparıldığı yer və mediasiya prosedurunun başa çatdırılması qaydası barədə məlumatları özündə əks etdirən keçirilmiş mediasiya proseslərinə dair illik hesabatı Ədliyyə Nazirliyinə təqdim etmək.*[112]

c) Statistik məlumatları ictimaiyyətin əldə edə bilməsini, o cümlədən onların internetdə əlçatan olmasını təmin edin.

<u>*Nümunə:*</u>
*Departamentin vəzifələri aşağıdakılardır:*
*<…> Ölkə miqyasında mediasiya təcrübəsinin monitorinqi, müvafiq statistikanın aparılması və dərc edilməsi.*[113]

## 9. Keçid müddəaları

a) Mediasiya sahəsində innovasiyaların tətbiqi imkanını nəzərdən keçirin, bunun üçün əvvəlcə milli kontekstdə ən uyğun və effektiv olduğu təsdiqlənmiş metodları hərtərəfli sınaqdan keçirməyə, monitorinq etməyə, təhlil etməyə, uyğunlaşdırmağa və son nəticədə tənzimləməyə imkan verən pilot layihələri tətbiq edin.
b) Pilot layihə qismində bu cür tədbirlərin məhdud müddətə, məhdud miqyasda (yalnız müəyyən mübahisə növləri üçün) və ya müəyyən ərazidə (müəyyən rayonlarda və ya konkret məhkəmələrdə) tətbiqi imkanını nəzərdən keçirin.

<u>*Nümunə:*</u>
*Birgə mülkiyyət, daşınmaz əmlak, əmlak bölgüsü, vərəsəlik, ailə münasibətləri, icarə, girov, kommersiya icarəsi, həkimlərin və/və ya digər tibb işçilərinin səhvlərinə görə dəymiş zərərin ödənilməsi, yaxud mətbuat vasitəsilə və ya hər hansı digər təbliğat vasitələrinin köməyi ilə böhtan yayma, sığorta, bank və maliyyə müqavilələri ilə əlaqədar mübahisələrdə məhkəmə icraatına başlamaq niyyətində olan şəxslərin əvvəlcə vəkilin köməyi ilə bu fərmanda nəzərdə tutulmuş mediasiya prosesində və ya 8 oktyabr 2007-ci il tarixli 179 nömrəli qanunvericilik fərmanında nəzərdə tutulmuş barışıq prosedurunda və yaxud da Bank fəaliyyəti və ya kredit haqqında qanunlar toplusunun 128- bis maddəsində (1 sentyabr 1993-cü il tarixli 385 nömrəli qanunvericilik fərmanı, müvafiq dəyişikliklərlə) müəyyən edilmiş prosedurda iştirak etməsi tələb olunur. Mediasiya yolu ilə barışığa cəhd etmək məhkəmə icraatı üçün ilkin şərtdir. Bu bənd qüvvəyə mindiyi tarixdən sonra dörd il müddətində qüvvədə olacaq. Onun qüvvəyə mindiyi gündən iki il keçdikdən sonra Ədliyyə Nazirliyi mediasiya eksperimentinin nəticələrinin monitorinqinə başlayacaq. <…>*[114]

Dörd il ərzində bu bənddə dəyişikliklər edilib və müvafiq olaraq, onun mətni aşağıdakı kimidir:

*Birgə mülkiyyət, daşınmaz əmlak, əmlak bölgüsü, vərəsəlik, ailə münasibətləri, icarə, girov, kommersiya icarəsi, həkimlərin və/və ya digər tibb işçilərinin səhvlərinə görə dəymiş zərərin ödənilməsi, yaxud mətbuat vasitəsilə və ya hər hansı digər təbliğat vasitələrinin köməyi ilə böhtan yayma, sığorta, bank və maliyyə müqavilələri ilə əlaqədar mübahisələrdə məhkəmə icraatına başlamaq niyyətində olan şəxslərin əvvəlcə vəkilin köməyi ilə bu fərmanda nəzərdə tutulmuş mediasiya prosesində və ya 8 oktyabr 2007-ci il tarixli 179 nömrəli qanunvericilik fərmanında nəzərdə tutulmuş barışıq prosedurunda və yaxud da Bank fəaliyyəti və ya kredit haqqında qanunlar toplusunun 128- bis maddəsində (1 sentyabr 1993-cü il tarixli 385 nömrəli qanunvericilik fərmanı, müvafiq dəyişikliklərlə) müəyyən edilmiş prosedurda iştirak etməsi tələb olunur. Mediasiya yolu ilə barışığa cəhd etmək məhkəmə icraatı üçün ilkin şərtdir. 2018-ci ildən etibarən Ədliyyə naziri bu bəndin müddəalarına uyğun olaraq onun tətbiqinin təsirləri və əldə edilmiş nəticələr barədə hər il Parlamentə hesabat verir. <…>*[115]

---

[112] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 34.
[113] Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325, maddə 30(1d).
[114] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 5(1bis).
[115] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 5(1bis), 21 iyun 2017-ci il tarixli 96 nömrəli Qanunla edilmiş dəyişikliklərlə.

**İzahedici qeydlər**

## 1. Əhatə dairəsi

Mediasiya prosesi həqiqətən də tətbiq olunduğu hüquq sahəsindən asılı olaraq özünəməxsus xüsusiyyətlərə malikdir. Eyni sözlər mübahisələrin fərdi həllindən tutmuş məhkəmə mediasiyası sistemlərinə və ya beynəlxalq və ölkədaxili mübahisələrə qədər müxtəlif növ həll yolları üçün müraciətlərə də aiddir. Bununla belə, mübahisənin növündən asılı olmayaraq, mediaisya prosesində eyni olan xüsusiyyətlər daha çoxdur. Bu onu deməyə əsas verir ki, mediasiya haqqında qanunvericiliyin əhatə dairəsinə münasibətdə ən yaxşı yanaşma bütün müddəaların bir qanunvericilik aktında cəmləşdirilməsindən, xüsusiyyətlərin nəzərə alınması zəruri olduqda və ya müəyyən aspektlərin tənzimlənməsi lazım gəldikdə isə istisnalara yol verilməsindən və milli qanunvericilikdə digər fərqli hüquqi aktlara istinadlar edilməsindən ibarətdir.

Mediator peşəsinə, eləcə də prosedurun özünə ardıcıl yanaşma bu sahədə baza səviyyəli keyfiyyət standartını müəyyən etməyə imkan verir və eyni zamanda qanunverici orqanların zəruri hallarda daha yüksək standartları tətbiq etməsinə mane olmur. Hər növ mediasiyaya şamil edilə bilən əsas standartların qəbulu istifadəçilərin mənfi hallar yaşaması ehtimalının minimuma endirilməsini təmin edir. Bu, geniş ictimaiyyətin inamını artırmağa, sonradan prosedurun əlçatanlığını yaxşılaşdırmağa imkan verir. Üstəlik, bu yanaşma əsaslı praktik səbəb olmadan prosedurun hissələri ayrı-ayrı hüquqi aktlarda fərqli şəkildə tənzimləndiyi hallarda uyğunsuzluqların qarşısını alır. O həmçinin mediasiya prosesinin ümumi keyfiyyətinin monitorinqinə cavabdeh olan səlahiyyətli orqanlar və intizam qurumları da daxil olmaqla, mediasiya infrastrukturunun inkişafına kömək edə bilər. Bu, ictimaiyyət üçün proseduru aydınlaşdırır və nəticədə proseduru asanlaşdırmış olur. Beləliklə, bu yanaşma Mediasiyaya dair rəhbər prinsiplərdə əks olunmuş mövcudluq/əlçatanlıq/məlumatlılıq (*Availability/Accessibility/Awareness – AAA*) metodologiyasına uyğundur.

Buna görə də, mediasiya haqqında qanunun əhatə dairəsi geniş qalmalı və eyni zamanda yalnız milli qanunvericiliyə uyğun olaraq həll edilə bilən mübahisələrlə məhdudlaşmalı, 1.1-1.3-cü bölmələrdə qeyd olunan həll üsulları daxil olmaqla ən azı məhkəmədənkənar və məhkəmə ilə əlaqəli mediasiya, beynəlxalq mübahisələr üzrə mediasiya, habelə müxtəlif hüquq sahələri üzrə mediasiya (məsələn, mülki, əmək, inzibati və cinayət işləri üzrə mediasiya) proseslərini əhatə etməlidir.

### 1.1. Məhkəmədənkənar və məhkəmə ilə əlaqəli mediasiya

Eyni ümumi prinsiplər həm məhkəmədənkənar, həm də məhkəmə ilə əlaqəli mediasiyaya şamil edilir. Bununla belə, bəzi aşkar fərqlər var, belə ki, bunlardan ikincisi mübahisə artıq məhkəməyə təqdim edilmiş olduğu halda həyata keçirilir. O həmçinin xüsusən mediasiyanın başlanması, müddəti və məhkəmə icraatının dayandırılması ilə bağlı müəyyən rəsmiyyətləri əhatə edir. Bu onu deməyə əsas verir ki, mediasiya üzrə əsas hüquqi akt həm məhkəmədənkənar, həm də məhkəmə ilə əlaqəli mediasiyaya şamil oluna bilər, prosessual fərqlər isə bu cür fərqləndirməyə ehtiyac olduqda eyni və ya digər hüquqi akt ilə tənzimlənə bilər. Nəzərə almaq lazımdır ki, məhkəmə ilə əlaqəli mediasiya mütləq hakim və ya məhkəmə katibi tərəfindən aparılmalı deyil, belə ki, bu, mümkün modellərdən yalnız biridir. Məhkəmə ilə əlaqəli mediasiyada mübahisə məhkəmədənkənar müstəqil mediatora da həvalə oluna bilər. Məsələn, Sloveniyada "*məhkəmə mübahisələrin alternativ həlli proqramını qəbul edə və həyata keçirə bilər, həmin proqram bilavasitə məhkəmədə təşkil oluna (məhkəməyə təhkim olunmuş proqram) və yaxud mübahisələrin alternativ həlli üzrə müvafiq xidmətlər göstərən subyekt tərəfindən müqavilə əsasında (məhkəmə ilə əlaqəli proqram) həyata keçirilə bilər*".[116]

Bu araşdırmanın obyekti olan ölkələrin əksəriyyəti (məsələn, Belçika, Xorvatiya, Kipr, Çexiya, Fransa, İrlandiya, Litva, Polşa, Serbiya, İsveçrə, Türkiyə) yuxarıda verilmiş tövsiyəyə əməl edir və birbaşa bildirir ki, müvafiq qanunvericilik aktı məhkəmədənkənar və məhkəmə ilə əlaqəli mediasiyaya şamil edilməli və yaxud ən azı məhkəmə ilə əlaqəli mediasiyanı mediasiya haqqında milli qanunun əhatə dairəsindən birmənalı şəkildə xaric etməməlidir. Bununla belə, hələ də sırf məhkəmə ilə əlaqəli mediasiyanı tənzimləyən, məhkəmədənkənar mediasiyanı isə tənzimləməyən ölkələr var. Məsələn, "Mülki işlər üzrə mediasiya və barışıq sazişlərinin ümumi məhkəmələrdə təsdiqi haqqında" Finlandiyan Qanunu yalnız məhkəmə ilə əlaqəli mediasiyaya şamil edilir, məhkəmədənkənar mediasiya və barışıq sazişlərinin icrası məsələsinə isə sadəcə toxunulur.

---

[116] Sloveniya Respublikası, Mübahisələrin alternativ həlli haqqında Qanun. *Uradni list*, № 97/2009, maddə 5(1).

Yuxarıda qeyd olunan yanaşmalardan birincisi, yəni bu sahəyə aid müddəaların bir qanunvericilik aktında cəmləşdirilməsi təşviq edilir. Qabaqcıl təcrübə nümunəsi Belçika və Litva modelləri hesab edilir və həmin modellərdə birmənalı şəkildə bildirilir ki, başqa hal nəzərdə tutulmayıbsa, qanunvericilik aktı məhkəmədənkənar və məhkəmə ilə əlaqəli mediasiyaya şamil olunur. Həm Belçikanın Məhkəmə Məcəlləsində, həm də Litvanın "Mediasiya haqqında" Qanununda məhkəmə ilə əlaqəli mediasiyaya ayrıca fəsil ayrılıb və orada bu cür mediasiyanın üsulları qeyd olunub. Oxşar yanaşma Azərbaycanda da tətbiq edilir. Məhkəmə ilə əlaqəli mediasiya haqqında ayrıca fəslin daxil edilmədiyi digər hüquqi aktlarda bu cür mediasiya üsulları barədə müddəalar digər fəsillərə daxil edilib. Bununla belə, yuxarıda qeyd edildiyi kimi, əgər bu, prosesə daha çox aydınlıq gətirərsə, məhkəmə ilə əlaqəli mediasiya üsulları da ayrıca hüquqi aktla tənzimlənə bilər.

Bütün prosessual tələblər İzahedici qeydlərin digər fəsillərində ətraflı müzakirə edilsə də, aşağıda təqdim olunan siyahının yeganə məqsədi diqqəti məhkəmə ilə əlaqəli mediasiyanın mümkün fərqlərinə və xüsusiyyətlərinə cəlb etməkdir. Müvafiq olaraq, burada verilən izahatlar qısadır və sənədin digər hissələrinə istinadları özündə ehtiva edir.

a) mediasiyaya yönləndirmənin vaxtı

CEPEJ tərəfindən qəbul edilmiş "Hakim tərəfindən mediasiyaya yönləndirilmə üzrə Təlimat"da[117] qeyd edildiyi kimi, baxmayaraq ki mediaisyaya yönləndirmənin vaxtı icraatdakı işin növündən və konkret işin tələbatlarından asılı olaraq fərqli ola bilər, prinsipcə, tərəflərin mediasiyada iştirakla bağlı məlumatlı seçim edə bilməsi üçün bu yönləndirmə mümkün qədər tez həyata keçirilməlidir. Bununla belə, bəzi hallarda mediasiya tərəflərinin artıq məhkəmə icraatı zamanı mediasiyaya yönləndirilməsi daha effektiv ola bilər, çünki belə olduqda onlar emosiyalarını üzə çıxarmaq və məhkəmə prosesinin mümkün maneələrini duymaq şansı əldə edirlər. Hətta mediasiyaya gec müraciət edilməsi məhkəmənin və tərəflərin resurslarına qənaət edə bilər. Buna görə də, bütün hallarda mübahisənin məhkəmə prosesinin istənilən mərhələsində (məsələn, Azərbaycan, Belçika, Fransa, Polşa, Serbiya, İsveçrədə olduğu kimi) mediasiyaya yönləndirilməsinə icazə verilməsi tövsiyə olunur. Bununla belə, bəzi ölkələrdə işin mediasiyaya yönləndirilməsinə müddət məhdudiyyəti qoyulur və bu yönləndirmə işin hazırlanmasının başa çatmasına (məsələn, Finlandiyada) və ya ilk məhkəmə iclasının başlanmasına qədər həyata keçirilməlidir (məsələn, İrlandiyada bu, "işin dinlənilmək üçün ilk dəfə siyahıya alındığı tarixdən 14 gündən gec olmayaraq" baş verməlidir[118]).

b) məhkəmə ilə əlaqəli mediasiyada mediatorlar üçün tələblər (əgər digər mediasiya proseslərinə aid tələblərdən fərqlidirsə)

3.4-cü bölmədə müzakirə olunduğu kimi, bəzi ölkələr reyestrdəki digər mediatorlarla yanaşı hakimlərin də məhkəmə ilə əlaqəli mediasiyada mediator kimi çıxış etməsinə icazə verir, hərçənd ki, onların siyahıya daxil edilməsi üçün tələblər bir qədər fərqlidir. Məsələn, Litvada mediator qismində çıxış edən hakimlər üçün Milli Məhkəmə Administrasiyası tərəfindən ayrıca reyestr aparılır. Lakin bu halda mediator qismində çıxış edən hakimlər yalnız məhkəmə ilə əlaqəli mediasiyanı apara bilərlər.[119] Bu cür yanaşma təşviq olunur, çünki hazırlıq keçmiş və mediator kimi fəaliyyət göstərən hakimlər tərəflərə mübahisələrini mediasiyaya yönləndirməyi tövsiyə etməyə daha çox meylli ola bilərlər. Hakimlər mediasiyanı özləri aparmaqla, 4-cü fəsildə izah ediləcəyi kimi, daha yaxşı müəyyənləşdirə bilərlər ki, hansı tərəflərin mübahisəsi mediasiyaya yönləndiriləcəyi təqdirdə onların mübahisəni barışıq yolu ilə həll etməsi ehtimalı daha çox olacaq.

Digər tərəfdən, məsələn, Finlandiya kimi ölkələr var ki, onlar hakim olmayan digər mediatorların məhkəmə ilə əlaqəli mediasiyanı aparmasına icazə vermirlər. Bu cür yanaşma tövsiyə edilmir, çünki bəzi hallarda mediasiyanın aparılması üçün kənar mediator daha uyğun ola bilər. Əgər milli qanunverici orqanlar məhkəmə prosesinin xərclərini artırmamaq üçün ehtiyatlı davranırlarsa, tərəflər öz seçimləri əsasında kənar mediatorların qonorarını öz hesablarına ödəyə bilərlər.

c) məhkəmə ilə əlaqəli mediasiyanın xərcləri

---

[117] CEPEJ, Hakim tərəfindən mediasiyaya yönləndirilmə üzrə Təlimat. CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 14-18, 1-ci bölmə.

[118] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 16(4).

[119] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 23(2).

Milli qanunverici orqanlar məhkəmə ilə əlaqəli mediasiyanı kommersiyalaşdırmaqdan çəkinməlidirlər, çünki bahalı xidmət geniş ictimaiyyətin nümayəndələri arasında narazılıq yarada bilər və ondan istifadə etməmək istəyini gücləndirə bilər. Belə bir senarinin qarşısını almaq üçün bəzi ölkələrdə mediatora ödənilməli olan dəqiq məbləğ saatlıq tariflər üzrə və ya başqa formada müəyyən edilir (məsələn, Litva, Polşa, Sloveniyada). Məhkəmə ilə əlaqəli mediasiyada maksimum tarif dərəcələrinin müəyyən edilməsi onun tərəflər üçün əlçatan olmasını təmin edə bilər. Digər tərəfdən, mediatorların işlərinə görə layiqli haqq almasının təmin edilməsinə də diqqət yetirilməlidir.

Bundan başqa, məhkəmə ilə əlaqəli mediasiyanın haqqı da dövlət tərəfindən ödənilə bilər. Elə ölkələr var ki, məhkəmə ilə əlaqəli mediasiya müəyyən edilmiş saatlar ərzində tərəflər üçün ödənişsiz həyata keçirilir. Məsələn, Sloveniyada məhkəmə yalnız valideyn-uşaq münasibətlərində yaranan mübahisələrdə və əmək müqaviləsinə xitam verilməsi ilə bağlı əmək mübahisələrində mediatorun qonorarını tam ödəyir, digər mübahisələrdə isə xidmətin yalnız ilk 3 saatı ödənilir (kommersiya mübahisələri istisna olmaqla – bu halda məhkəmə tərəfindən heç bir ödəniş edilmir).[120] Litvada məhkəmə ilə əlaqəli hər bir mediasiya prosesinin ilk 4 saatı ödənilir və yaxud hakim mediator kimi fəaliyyət göstərirsə, bütün mediasiya prosesi ödənişsiz həyata keçirilə bilər.[121] Bu cür yanaşma da təşviq edilir, çünki o, 7.2-ci bölmədə qeyd edildiyi kimi, mediasiya üçün əlavə stimul rolunu oynayır.

Xərclərin bölgüsünə gəlincə, əksər ölkələrdə 5.1.2-ci bölmədə qeyd olunanlarla eyni müddəalar tətbiq edilir (yəni, hər bir tərəf öz xərclərini öz üzərinə götürür, mediatorun qonorarının ödənişi isə bərabər şəkildə bölünür). Bununla belə, bəzi ölkələr məhkəmə ilə əlaqəli mediasiyanın xərclərini məhkəmə prosesinin ümumi xərclərinə daxil edir və hakim xərclər haqqında qərar qəbul edərkən onları nəzərə alır (məsələn, Fransada).

d) mediasyanın başladılması

Məhkəmədənkənar mediasiya kimi məhkəmə ilə əlaqəli mediasiya da tərəflərdən birinin vəsatəti və digərinin razılığı ilə və ya hər iki tərəfin vəsatəti ilə başlana bilər. Milli qanunverici orqanlara tövsiyə olunur ki, belə bir vəsatətin necə veriləcəyinə dair addımları müəyyən etsinlər. Məsələn, vəsatət yazılı və ya şifahi şəkildə verilə bilər, bu şərtlə ki, məhkəmə iclasının protokoluna daxil edilsin. Mübahisə tərəfləri buna razılıq verərsə, mediasiya üçüncü tərəf (məsələn, bank və ya sığortaçı) tərəfindən də təklif oluna bilər. Bununla belə, məhkəmədənkənar mediasiyadan fərqli olaraq, məhkəmə ilə əlaqəli mediasiya hakimin tövsiyəsi və ya qərarı ilə də başlana bilər. 4-cü fəsildə ətraflı müzakirə ediləcəyi kimi, hakim tərəfindən mediasiyanın başladılmasının hər iki metoduna icazə verilməsi ciddi surətdə tövsiyə olunur.

e) mediasiyaya yönləndirmənin sənədləşdirilməsi

Tərəflər mübahisənin mediasiya yolu ilə həllinə razılıqlarını bildirdikdən və ya hakim tərəfindən mediasiya təyin edildikdən sonra mediasiyaya yönləndirmənin sənədləşdirilməsi tövsiyə olunur, bunu məhkəmə icraatını tənzimləyən milli hüquqi aktların müddəalarına uyğun olaraq hakimin qərarı, əmri və ya digər sənəd formasında etmək tövsiyə olunur. 4.2.2-ci bölmədə daha ətraflı müzakirə ediləcəyi kimi, sənədləşdirmə ən azı mediasiya müddətində məhkəmə icraatının dayandırılması haqqında qərardadı özündə ehtiva etməli,[122] orada mediator və mediasiyaya xitam verildikdən sonra növbəti məhkəmə iclasının tarixi göstərilməlidir.

f) mediasiyanın maksimum müddəti və onun uzadılması imkanı

Gecikdirilmiş ədalət mühakiməsi ədalət mühakiməsindən imtina deməkdir; buna görə də, səmərəli məhkəmə müdafiəsi hüququnun həyata keçirilməsinə mane olmamaq üçün məhkəmə ilə əlaqəli mediasiyanın maksimum müddəti milli qanunverici orqanlar tərəfindən müəyyən edilir. 4.2.2-ci bölmədə izah ediləcəyi kimi, əksər ölkələr məhkəmə ilə əlaqəli mediasiya üçün 3 aya qədər vaxt ayrılmasına icazə verir. Bununla belə, ayrı-ayrı hallarda bu müddətin uzadılmasının mümkünlüyü, xüsusən də tərəflərin sayı, işin mürəkkəbliyi və mübahisənin xarakteri nəzərə alınmaqla, nəzərdən keçirilməlidir. Məsələn, bəzi ölkələr mediatorun (məsələn, Fransa) və ya tərəflərin (məsələn, Kipr, Polşa, Türkiyə) vəsatəti ilə müddətin uzadılmasına icazə verir.

g) məhkəmə ilə əlaqəli mediasiyanın başa çatması

[120] Sloveniya Respublikası, Mübahisələrin alternativ həlli haqqında Qanun. *Uradni list*, № 97/2009, maddə 22.
[121] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 23(7).
[122] Bunun səbəbləri 5.4.4-cü bölmədə izah olunur.

Mediasiya başa çatdıqda hakim mediasiya prosesinin gedişi və ya nəticəsi barədə məlumat alır. Müvafiq olaraq, milli qanunverici orqanlar bunun üçün proseduru nəzərdə tutmalı, 5.5-ci bölmədə izah olunduğu kimi, mediatordan mediasiyanın başa çatdığı barədə bildiriş təqdim etməsi tələb olunmalıdır. Məsələn, Belçikada "*mandatının sonunda mediator tərəflərin razılığa gəlib-gəlmədiyi barədə yazılı şəkildə məlumat verməlidir*".

### 1.2. Beynəlxalq mübahisələr üzrə mediasiya

Kommersiya, ailə, əmək və digər ictimai münasibətlər çoxdan milli sərhədləri aşmışdır ki, bu da müxtəlif ölkələrdə məskunlaşmış tərəflər arasında mübahisələrə qapılar açır. Mediasiyaya dair Tövsiyədə (ailə hüququ) beynəlxalq mediasiya ilə bağlı lazımi tədbirlərin görülməsinə çoxdan ehtiyac olduğu etiraf edilmişdir.[123] O vaxtdan bəri mediasiyanın potensial istifadəçilərinin dəyişən ehtiyaclarını ödəmək üçün bir sıra uzlaşdırma təşəbbüsləri irəli sürülmüşdür.

İlk təşəbbüs Avropada (məsələn, Belçika, Xorvatiya, Sloveniyada) və bütün dünyada bir neçə qanunvericilik aktının əsasını təşkil etmiş və ya onlara təsir göstərmiş UNCITRAL-ın Nümunəvi Qanununun (2002) qəbulu ilə başlamışdır.[124] Nümunəvi Qanunda (2002) əsas diqqət beynəlxalq kommersiya mediasiyasına yönəlsə olsa da, ölkələr onun əhatə dairəsini genişləndirmək və geniş çeşidli ölkədaxili mübahisələrdəki (adətən hələ də mülki hüquq sahəsi daxilində) məsələlərə tətbiq etmək üçün ondan istifadə etmişlər.[125]

İkinci təşəbbüs üzv dövlətlərin riayət etmələri üçün transsərhəd mübahisələrində mediasiya üzrə minimum hüquqi baza təşkil edən, o cümlədən bu mübahisələrdən irəli gələn barışıq sazişlərinin icra olunması tələb edən Mediaisya haqqında Aİ Direktivi oldu. Bir çox hallarda Direktiv ilk növbədə üzv dövlətlərin mediasiyanı tənzimləməyə başlamasına səbəb oldu. Bir sıra hallarda, xüsusən də bu sahə tənzimlənmədiyi və ya tənzimləmə qeyri-müəyyən olduğu hallarda orada əks olunmuş standartlar milli mübahisələrə də tətbiq edildi.[126] Bu tədqiqatın obyekti olan bir çox ölkələr (məsələn, Belçika, Xorvatiya, Kipr, Litva, İspaniya) Direktivin əhatə dairəsini Aİ daxilindəki münasibətlərdən yaranan transsərhəd mübahisələrlə məhdudlaşdırmaq əvəzinə, daha da genişləndirərək bütün beynəlxalq mübahisələrə şamil etmək yolunu seçmişlər. Bununla belə, bəziləri daha formalist mövqe tutmuş və öz qanunlarını Direktivin mətninin ruhuna uyğun olaraq əsasən Aİ və ya daha çox Avropa İqtisadi Zonası daxilindəki mübahisələrə tətbiq etmişlər (məsələn, Çexiya, Finlandiya, Serbiya).

Üçüncü təşəbbüs isə UNCITRAL-ın Mediasiya haqqında Sinqapur Konvensiyası oldu. 2018-ci ildə qəbul edilmiş bu Konvensiya beynəlxalq mediasiya vasitəsilə əldə edilmiş barışıq sazişlərinin həyata keçirilməsi rejimini nəzərdə tutur. Bununla yanaşı, icra mexanizmini də təklif edən yenidən işlənmiş UNCITRAL-ın Nümnunəvi Qanunu (2018) işıq üzü gördü. Konvensiyanın praktikada istifadə edilməsi üçün onun əhəmiyyətli sayda ölkədə ratifikasiya edilməsinə qədər uzun bir vaxt keçməlidir. Bununla belə, milli qanunverici orqanlar öz milli qanunlarını hazırlayarkən Konvensiyanın müddəalarını nəzərə almağa təşviq edilirlər ki, orada müəyyən edilmiş beynəlxalq standartlara riayət edilmiş olsun.

Yuxarıda göstərilən siyahı tam deyil və heç bir şəkildə bunların mediasiya ilə bağlı yeganə beynəlxalq sənədlər olduğunu deməyə əsas vermir. Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı adətən qəbul etdiyi konvensiyalara mediasiya haqqında müddəa daxil edir;[127] Aİ mübahisələrin alternativ həlli ilə bağlı bir sıra digər hüquqi aktlar qəbul etmişdir;[128] Amerika Birləşmiş Ştatlarında (bundan sonra – ABŞ) ABŞ daxilindəki ştatların

---

123 Mediasiyaya dair Tövsiyə (ailə hüququ), Ailə mediasiyasının prinsipləri, VI (c) bəndi.

124 Nümunəvi Qanun (2002) əsasında və ya onun təsiri ilə qanunvericilik aktları qəbul etmiş ölkələrin tam siyahısı ilə burada tanış olmaq olar: https://uncitral.un.org/en/texts/arbitration/modellaw/commercial_conciliation/status.

125 Bu sözlər bu tədqiqatın obyekti olan hər üç ölkəyə aiddir, onlar Nümunəvi Qanunun müddəalarının təsiri ilə qanunvericilik aktları qəbul etmişlər.

126 Hopt, K. J. və Steffek, F. *Mediasiya: Qanunların müqayisəsi, tənzimləmə modelləri, mediasiyanın fundamental məsələləri: Müqayisə nöqteyi-nəzərindən prinsiplər və tənzimləmə*. Oksford: Oksford Universitetinin nəşriyyatı, 2013, səh. 6-7.

127 Misal üçün bax: Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı, Valideynlərin məsuliyyəti məsələlərində və uşaqların müdafiəsi üzrə tədbirlərdə yurisdiksiya, tətbiq olunacaq hüquq, tanıma, hüquqtətbiqetmə və əməkdaşlıq haqqında Haaqa Konvensiyası, 1996, Haaqa. Onu burada tapmaq olar: https://assets.hcch.net/docs/f16ebd3d-f398-4891-bf47-110866e171d4.pdf, maddə 31; Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı, Beynəlxalq uşaq oğurluğunun mülki-hüquqi aspektlərinə dair 25 oktyabr 1980-ci il tarixli Haaqa Konvensiyası üzrə qabaqcıl təcrübəyə dair Təlimat: Mediasiya, 2012. Onu burada tapmaq olar: https://assets.hcch.net/upload/guide28mediation_en.pdf.

128 Misal üçün bax: İstehlakçı mübahisələrinin alternativ həlli haqqında və (EC)2006/2004 saylı Reqlamentdə və 2009/22/EC saylı Direktivdə dəyişiklik edilməsi barədə Avropa İttifaqı Parlamentinin və Şurasının 21 may 2013-cü il tarixli 2013/11/EU saylı Direktivi, OJ, L 165/63, 2013; Avropa İttifaqı Parlamenti və Şurası, İstehlakçı mübahisələrinin onlayn həllinə dair (EU) 524/201 saylı Reqlament, OJ, L 165/1, 2013.

istifadəsi üçün "Mediasiya haqqında vahid qanun" qəbul edilmişdir. Bununla belə, əvvəlki bəndlərdə qeyd olunan üç sənəd Avropa Şurasının üzv dövlətləri üçün ən aktualdır və buna görə də onlar İzahedici qeydlərdə daha sonra istinad ediləcək beynəlxalq standartların əsas mənbəyi olaraq qalacaqlar.

Qanunvericiliyin uzlaşdırılması baxımından milli qanunverici orqanları məcbur etmək olmaz ki, fərqlilikləri tamamilə aradan qaldırsınlar və beynəlxalq sənədlərdə göstərilən hər bir müddəanı qanunvericiliyə olduğu kimi daxil etsinlər. Bununla belə, onlar həmin sənədlərdə müəyyən edilmiş standartlara riayət etməyə ciddi şəkildə təşviq olunurlar (bu, İzahedici qeydlərdə də öz əksini tapmışdır). Birincisi, bu, iqtisadiyyata beynəlxalq podratçıları cəlb etməyə və ölkənin özünün iqtisadi artımına kömək edə bilər. İkincisi, beynəlxalq səviyyədə ümumi standartların müəyyən edilməsi dünyanın müxtəlif yerlərindən olan istifadəçilər üçün mediasiyanın əlçatanlığını artırar. Bununla əlaqədar olaraq, bu sahənin beynəlmiləlləşdirilməsini əngəlləməmək və mübahisə tərəflərinin daimi yaşayış yeri və ya adətən yaşadığı yer müxtəlif dövlətlərdə olduğu hallarda onların mübahisələrini tənzimləmək üçün qanunvericiliyin tətbiq dairəsini genişləndirmək tövsiyə olunur.

### 1.3. Hüququn müxtəlif sahələri

Bu tədqiqatın əsasını təşkil edən mediasiya üzrə milli hüquqi aktların əksəriyyəti yalnız mülki hüquq sahəsinə aid qanunları əhatə edir, cinayət və ya inzibati işlər üzrə mediasiyanı isə istisna edir (məsələn, Kipr, Çexiya, İrlandiya, İtaliya, Litva, Sloveniya, İspaniya). Bu milli qanunverici orqanlar ya cinayət və ya inzibati mübahisələr üzrə mediasiyanı tənzimləməyiblər və beləliklə onun tətbiqi nəzərdə tutulmayıb, ya da bu məsələni icra hakimiyyəti orqanlarının aktlarında və ya digər qanunların tərkib hissəsi kimi tənzimləmək variantını seçiblər (məsələn, cinayət işlərində mediasiya Çex Respublikasında və Litvada ayrı-ayrı hüquqi aktlarla tənzimlənir). Bəzi ölkələrdə ümumiyyətlə mediasiya haqqında hərtərəfli vahid qanun yoxdur və onlar mediasiya ilə bağlı müddəaları əsasən prosessual məcəllələrə daxil etmək (məsələn, Belçika, Polşa, Fransa, İsveçrə) və yaxud mülki, cinayət və inzibati mediasiya üzrə ayrıca qanunvericilik aktları qəbul etmək variantını seçiblər.

Bununla belə, bütün sahələrin cəmləşdirilməsi baxımından yaxşı nümunələr var. Azərbaycan modeli indiyədək ən əhatəlisi hesab olunur, belə ki, o, təkcə qanunun əhatə dairəsinə daxil olan müxtəlif növ mübahisələri (o cümlədən mülki, kommersiya, ailə, əmək, inzibati hüquq münasibətlərindən, habelə cinayət hüququ münasibətlərindən və inzibati hüquqpozmalardan irəli gələn mübahisələri[129]) sadalamır, həm də bu müxtəlif növ mübahisələrin xüsusiyyətlərinə toxunan ayrıca maddələr təqdim edir. Cinayət və inzibati işlər üzrə mediasiya Mübahisələrin həllində mediasiya haqqında Serbiya Qanununun da əhatə dairəsinə düşür. Almaniyada mediasiya hüquqi yolla işin həllinin mümkün olduğu hər bir mübahisədə, o cümlədən az əhəmiyyətli hüquqpozmalara dair cinayət işlərində tətbiq oluna bilər.

Mülki hüquq sahəsinə aid mübahisələrdən savayı digər sahələrə aid mübahisələr üzrə mediasiyanın ümumi icmalını təqdim etmək mümkün deyil, ona görə ki, Hopt və Steffek tərəfindən haqlı olaraq qeyd edildiyi kimi, "*çox zaman onların strukturları üzvi surətdə formalaşır, sistemli şəkildə planlaşdırılan qanunvericilik tərəfindən daha az əhatə olunur və həmçinin müvafiq hüquq sistemi kontekstində başa düşülür*".[130] Bununla belə, Mediasiyaya dair tövsiyələrdə və rəhbər prinsiplərdə (inzibati hüquq) və Bərpaedici ədalət mühakiməsinə dair tövsiyədə vurğulandığı kimi, inzibati və cinayət işlərində mediasiya ilə bağlı müəyyən aspektlərə diqqəti cəlb etmək olar. Mediasiya haqqında qanun layihəsi hazırlanarkən bu aspektlər nəzərə alınmalıdır.

a) İdarəetmə orqanları ilə əlaqədar işlərdə mediasiya

Mediasiyaya dair rəhbər prinsiplərdə haqlı olaraq vurğulandığı kimi, "*idareətmə orqanları və özəl tərəflər arasında məhkəmə çəkişmələrinin alternativləri yalnız mübahisələrin həlli üçün bu vasitələrdən istifadəni nəzərdə tutan siyasət qəbul ediləcəyi təqdirdə üzv dövlətlərdə yaranmış olacaq*".[131] Mediasiyaya dair tövsiyələr və rəhbər prinsiplər ölkələri həmin tərəflər arasında mübahisənin həlli üçün alternativ vasitələrdən istifadə imkanını təmin etməyə təşviq etsə də,[132] bu tədqiqatın obyekti olan ölkələrdən yalnız üçündə, yəni Fransa, Polşa və İsveçrədə inzibati işlər üzrə mediasiya birbaşa tənzimlənir. Onların hər üçü müvafiq müddəaları inzibati icraat haqqında məcəllələrinə daxil ediblər. Bununla belə, Fransada və ya İsveçrədə inzibati mübahisələr üçün nəzərdə tutulmuş prosedur mahiyyətcə mülki mübahisələrdə tətbiq olunandan fərqli

---

[129] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 3.1.

[130] Hopt, K. J. və Steffek, F. *Mediasiya: Qanunların müqayisəsi, tənzimləmə modelləri, mediasiyanın fundamental məsələləri: Müqayisə nöqteyi-nəzərindən prinsiplər və tənzimləmə*. Oksford: Oksford Universitetinin nəşriyyatı, 2013, səh. 72.

[131] Mediasiyaya dair rəhbər prinsiplər (inzibati hüquq), 10-cu bənd.

[132] Mediasiyaya dair tövsiyə (inzibati hüquq), Əlavə, 1(i) bəndi; Mediasiyaya dair rəhbər prinsiplər (inzibati hüquq), 10-11-ci bəndlər.

deyil və inzibati münasibətlərə xas olan bəzi mühüm xüsusiyyətləri özündə ehtiva etmir. Digər tərəfdən, Polşada inzibati proseduru mülki prosedurdan fərqləndirən bir neçə müddəa var. Bununla belə, bu müddəaların əksəriyyəti konkret mübahisədən asılı olmayaraq mediasiya üçün ümumi xarakter daşıyır. Almaniyada isə, yuxarıda qeyd edildiyi kimi, mediasiya haqqında milli qanun inzibati hüquq da daxil olmaqla digər sahələri də əhatə edir[133] və İnzibati Məhkəmə İcraatı Məcəlləsi Mülki Prosessual Məcəllədə nəzərdə tutulmuş mediasiya haqqında müddəaların müvafiq qaydada tətbiqinə imkan verir.[134] Serbiyada Mübahisələrin həllində mediasiya haqqında Qanun inzibati məsələlərə də şamil edilir.[135] Bu nümunələr vahid qanunvericilik aktı barədə tövsiyəni dəstəkləyir, belə ki, prinsiplərin əksəriyyəti bütün mediasiya növləri üçün ümumidir.

Mülki (xüsusi) hüquq sahəsindəki mediasiya ilə publik (ümumi) hüquq sahəsindəki mediasiya arasında əsas fərqlər tərəflərin statusundan irəli gəlir. Mediasiya nəinki inzibati prosedurun tərəfləri arasında aparıla bilər, həm də inzibati proseduru həyata keçirən orqanla barəsində həmin prosedurun aparıldığı şəxs arasındakı mübahisələrə də şamil edilə bilər (məsələn, Polşada *"mediasiyanın tərəfləri 1) prosesi aparan orqan və bu prosesdə iştirak edən tərəf və ya tərəflər; yaxud 2) prosesdə iştirak edən tərəflər"* ola bilər[136]). Müvafiq olaraq, sonuncu halda mediasiya tərəfləri arasında münasibət açıq-aydın tabelilik xarakteri daşıyır. Bu baxımdan mediasiyanın neytrallığı və qərəzsizliyi ilə bağlı əlavə müddəalar faydalı ola bilər. Birincisi, 3.1-ci bənddə müzakirə olunacağı kimi, mediasiyanın yalnız sertifikatlaşdırılmış və lazımi hazırlıq keçmiş mediator tərəfindən aparılmasına icazə verilməlidir. İnzibati işlər üzrə mediasiya aparan mediatorlar üçün təlimin xüsusiyyətləri CEPEJ tərəfindən qəbul edilmiş "Mediatorlar üçün baza səviyyəli təlim proqramı"nda[137] öz əksini tapmışdır. İkincisi, mübahisə tərəfi olan dövlət orqanının əməkdaşlarına bu cür mübahisələrdə mediasiya aparmağa icazə verilmir[138] (məsələn, Polşada *"dövlət idarəçiliyi orqanının əməkdaşı həmin orqanda aparılan icraatda mediator qismində çıxış edə bilməz"*[139]).

Bundan əlavə, ümumi (publik) hüquqla tənzimlənən hakimiyyət səlahiyyəti statusu o deməkdir ki, səlahiyyətli tərəf yalnız qanunla dəqiq şəkildə müəyyən edilmiş hüdudlar çərçivəsində hərəkət sərbəstliyi hüququna malikdir. Bu, həm də onu nəzərdə tutur ki, mediasiya yalnız milli qanunvericiliyin birmənalı şəkildə məsələnin mediasiya yolu ilə həllinə icazə verdiyi hallarda mümkün ola bilər ki, bu da işin mediasiya üçün uyğunluğu sualını doğurur. Məsələn, Niderlandda vergi orqanları ilə vergi ödəyiciləri arasında mübahisələr mediasiya yolu ilə həll edilə bilər;[140] mediasiya həmçinin rəqabət haqqında qanunvericilik sahəsində şirkətlərin birləşməsi üzrə öhdəliklərə, rəqabət haqqında qanunvericiliyin pozulmasına görə dəymiş zərərin ödənilməsinə dair xüsusi iddialara və rəqabət haqqında qanunvericiliyin pozulmasına görə cərimələrin azaldılmasına imkan verən həll prosedurlarına dair mübahisələrə potensial olaraq tətbiq edilə bilər.

Mediasiya prosesinin özü də rəsmiləşdirilməlidir, çünki mübahisə sonradan məhkəmə baxışına təqdim edilə bilər (məsələn, Polşada "*mediasiya prosesində əldə edilmiş razılaşmalar əsasında dövlət orqanı mübahisələndirilən aktı ləğv edir və ya ona dəyişiklik edir və yaxud işin hallarına uyğun olaraq öz səlahiyyətləri daxilində digər hərəkətləri icra edir*",[141] amma müvafiq şəxs belə hərəkətdən voyevodalığın inzibati məhkəməsinə şikayət verə bilər[142]). Buna görə də, milli qanunverici orqanlar, xüsusilə 5-ci fəsildə qeyd olunduğu kimi, mediasiyadan əvvəl və sonra zəruri prosessual addımları təfərrüatlı şəkildə müəyyən etməyə təşviq olunurlar. Bundan əlavə, üçüncü tərəflərin iştirakını qanunda əks etdirmək tövsiyə olunur, çünki mediasiyanın nəticəsi onların maraqlarına da təsir edə bilər.

---

[133] Zimmer, D. və Höft, J., Antiinhisar işlərində mediasiya. "*European Competition Law Review*" ("Rəqabət haqqında Avropa qanunvericiliyinin icmalı") jurnalı, 2013, səh. 434-442.
[134] Almaniya Federativ Respublikası, İnzibati Məhkəmə İcraatı Məcəlləsi. *Bundesgesetzblatt* I, səh. 686, 1991, maddə 173.
[135] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 3.
[136] Polşa Respublikası, İnzibati Prosessual Məcəllə, maddə 96a(4).
[137] CEPEJ, Mediatorlar üçün baza səviyyəli təlim proqramı. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV [10.03.2019-cu ilə tarixinədək olan məlumatlar], onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 19-23, 4-cü bənd.
[138] Mediasiyaya dair rəhbər prinsiplər (inzibati hüquq), 31-ci bənd.
[139] Polşa Respublikası, İnzibati Prosessual Məcəllə, maddə 96f(3).
[140] Vos, R. Nidelandda vergi mübahisələri üzrə mediasiya. *Dutch-Flemish Magazine for Mediation and Conflict Management* (Mediasiya və mübahisələrin idarə edilməsi üzrə holland-flamand jurnalı), 2014, cild (18)3.
[141] Polşa Respublikası, İnzibati məhkəmələrdə icraat haqqında 30 avqust 2002-ci il tarixli Qanun, *Dziennik Ustaw*, 2002, № 1302, 2018, maddə 117(1).
[142] Polşa Respublikası, İnzibati məhkəmələrdə icraat haqqında 30 avqust 2002-ci il tarixli Qanun, *Dziennik Ustaw*, 2002, № 1302, 2018, maddə 118(1).

b) Mediasiya və cinayət işləri

Mediasiyaya dair tövsiyədə (cinayət hüququ) "*zərərçəkmişin və hüquqpozanın və tərəf qismində zərərə məruz qala biləcək digər şəxslərin cinayət prosesində aktiv şəxsi iştirakının, eləcə də cəmiyyətin cəlb edilməsinin zəruriliyi*" artıq vurğulanmışdır. Bununla belə, Mediasiyaya dair rəhbər prinsiplərdə (cinayət hüququ) cinayət işləri üzrə mediasiyanın tətbiqində bir sıra maneələrin olduğu qeyd edilmişdir ki, onların da sırasına bərpaedici ədalət mühakiməsi və mediasiya haqqında məlumatlılığın olmaması, zərərçəkənlə hüquqpozan arasında mediasiya imkanının mövcud olmaması, ixtisaslaşdırılmış təlimin olmaması[143] daxildir. Bununla belə, bu tədqiqatın obyekti olan ölkələrin heç də hamısı yuxarıda qeyd olunan problemlərin həlli üçün probasiya xidmətlərində və digər qurumlarda zərərçəkənlə hüquqpozan arasında mediasiya təklif etmir və ya onu tənzimləmir. Amma bunu edənlər də var. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan mediasiya haqqında əsas qanunvericilik aktının əhatə dairəsinə cinayət işləri üzrə mediasiyanı daxil etmişdir; Çexiya və Litva probasiya orqanlarında mediasiya üçün hüquqi baza təşkil edən ayrıca qanunvericilik aktları qəbul etmişlər. Fransa, Polşa, İsveçrə (yetkinlik yaşına çatmayanlarla bağlı[144]) və Türkiyə öz cinayət məcəllələrinə və ya cinayət prosessual məcəllələrinə mediasiya ilə bağlı bir neçə müddəa daxil etmişlər. Serbiya mediasiya haqqında əsas qanunvericilik aktının tətbiq dairəsini cinayət işləri üzrə mediasiyanı əhatə edəcək dərəcədə genişləndirmiş, Almaniya isə bu sahədə əsas qanunvericilik aktının tətbiq dairəsini yalnız az əhəmiyyətli cinayətlər üzrə işlərlə məhdudlaşdırmışdır.

Avropa Şurası Nazirlər Komitəsi tərəfindən bu yaxınlarda qəbul edilmiş Bərpaedici ədalət mühakiməsinə dair tövsiyədə qeyd olunduğu kimi, cinayət işlərində zərərçəkən və hüquqpozan arasında mediasiya bərpaedici ədalət mühakiməsinin mühüm aləti olmaqla, "*cinayət nəticəsində zərər çəkmiş şəxslərə və buna görə məsuliyyət daşıyanlara könüllü razılıqları olduğu təqdirdə hazırlıq keçmiş qərəzsiz üçüncü tərəfin iştirakı ilə hüquqpozmadan irəli gələn məsələlərin həllində fəal iştirak etmək imkanı verən prosesdir*"[145]. Əgər səmərəli istifadə edilərsə, bərpaedici ədalət mühakiməsi təhlükəsizliyi artıra bilər, belə ki, hüquqpozanlar öz hərəkətlərinin nəticələrini daha yaxşı başa düşə bilərlər. Bundan əlavə, o, zərərçəkənlər və hüquqpozanlar arasında münasibətləri qura və ya bərpa edə, təkrar cinayət törətmə hallarını azalda bilər. O həmçinin hüquqpozma və ya cinayət nəticəsində yetirilmiş psixoloji zərərin azaldılmasına və maddi ziyanın kompensasiyasına kömək edə bilər. Lazımi təminatlar olduqda cəmiyyət bərpaedici metodlardan yüksək dərəcədə faydalana bilər, belə ki, müəyyən şəxsləri cəmiyyətdən kənarlaşdırmaq əvəzinə, bu metodlar onların davranışını müsbət istiqamətdə dəyişdirməyə və onları yenidən cəmiyyətə qaytarmağa qadirdir. Bərpaedici ədalət mühakiməsinin özü bu tədqiqatın əsas mövzusu olmasa da, bu bölmənin sonrakı bəndlərində də müəyyən detallar təsvir ediləcəkdir ki, onlar yalnız cinayət hüququ sahəsində mediasiya tətbiq edilərkən nəzərə alınmalıdır. Bu təfərrüatlar zərərçəkən və hüquqpozan arasında mediasiyanın ən mühüm aspektlərini işıqlandıran Bərpaedici ədalət mühakiməsinə dair tövsiyəyə,[146] eləcə də müəyyən hallarda daha dərin tənzimləməni təmin edən milli hüquq normalarına əsaslanır.

Bir daha qeyd edək ki, cinayət işləri üzrə mediasiyanın fərqləndirici xüsusiyyətləri ilk növbədə tərəflərin statusu ilə bağlıdır. Zərərçəkmişlə hüquqpozanın münasibəti zəif tərəfə münasibətdə təminatların zəruriliyini nəzərdə tutur. Müvafiq olaraq, mediasiya zərər çəkmiş şəxsin və hüquqpozanın birmənalı və məlumatlı razılığı olmadan aparıla bilməz[147] (belə müddəa Çexiya, Fransa, Almaniya, Litva, Polşanın qanunvericilik aktlarında mövcuddur). Milli qanunverici orqanlar həmçinin məişət zorakılığı halları ilə bağlı əlavə təminatlar müəyyən etməyə təşviq olunurlar (məsələn, Fransada məişət zorakılığı halında zərərçəkən birmənalı şəkildə tələb etmədikcə mediasiya həyata keçirilə bilməz; mediasiya başlandıqdan sonra məişət zorakılığı yenidən baş verərsə, heç bir sonrakı mediasiya sessiyası keçirilə bilməz[148]). Nəhayət, yetkinlik yaşına çatmayanların cinayət işlərində probasiya xidmətləri tez-tez tətbiq edilir. Buna görə də, Bərpaedici ədalət mühakiməsinə dair tövsiyələrdə[149] vurğulandığı kimi, milli qanunverici orqanlar mediasiyada iştirak edən uşaqların qanuni nümayəndələri tərəfindən müşayiət olunmalarını, habelə mediasiya zamanı belə bir zərurət yaranarsa, sosial işçilərin və ya məsul rəsmi orqanların nümayəndələrinin iştirakını təmin etməlidirlər. Məsələn, Çex Respublikasında "*Probasiya və Mediasiya Xidməti öz missiyasını yerinə yetirərkən xüsusi qanunla uşaqların*

[143] Mediasiyaya dair rəhbər prinsiplər (cinayət hüququ), Əlavə, 7-ci bənd.
[144] Yetkinlik yaşına çatmayanlar üçün. Böyüklər üçün isə cinayət işləri üzrə mediasiya yalnız Friburqda və Cenevrədə tətbiq edilmişdir.
[145] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 3-cü bənd.
[146] Həmin sənəd Mediasiyaya dair rəhbər prinsiplər (cinayət hüququ) nəzərə alınmaqla Mediasiyaya dair tövsiyələr (cinayət hüququ) əsasında hazırlanmışdır.
[147] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 16 və 19-cu bəndlər.
[148] Fransa Respublikası, Cinayət Prosessual Məcəlləsi, maddə 41-1(5).
[149] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 24-cü bənd.

*sosial-hüquqi müdafiəsini həyata keçirmək və cəmiyyətə uyğunlaşa bilməyən, sosial qayğıları olan vətəndaşlar üçün güzəştləri təmin etmək səlahiyyəti verilmiş orqanlarla sıx əməkdaşlıq edirlər*".[150]

Həmçinin prosedurun özü ilə bağlı əlavə təminatlar tətbiq edilməlidir. Birincisi, mediasiya üçün uyğun işlərin seçilməsi təkrarən qurbana çevrilmənin qarşısının alınmasını, habelə hüquqpozanın aqressiv və ya hər hansı başqa formada təhlükəli olmamasını təmin etməlidir. Bu baxımdan, Litvada tətbiq olunan ikipilləli seçim proseduru[151] tətbiq edilə bilər. Bu cür prosedur təkcə bir sıra meyarlar əsasında ilkin nəzəri qiymətləndirmənin aparılmasına imkan vermir, həm də işin mediasiyaya göndərilməsi barədə qərar qəbul etməzdən əvvəl tərəflərlə fərdi qaydada görüşməyə imkan verir. İkincisi, əgər təkrarən qurbana çevrilmə riski yüksək olaraq qalarsa, mediatorlara bütün mediasiya prosesini tərəflərin bir-biri ilə görüşmədən fərdi iclaslarda aparmasına icazə verilməli və bu, təşviq edilməlidir.[152] Üçüncüsü, zərərçəkən və hüquqpozan arasında mediatorluq etmək istəyən mediatorların cinayət mühakimə icraatı sistemi və digər fərqləndirici mövzular haqqında baza səviyyəli biliklər daxil olmaqla, ixtisaslaşdırılmış hazırlıq keçməsi də tələb olunur,[153] bu barədə Mediatorlar üçün baza səviyyəli təlim proqramında qeyd olunub.[154] Məsələn, Serbiyada belə hazırlıq keçmə "*mübahisələrin konkret sahələri və ya növləri üzrə xüsusi təlim təşkil edilməsini*" nəzərdə tutan ümumi müddəa əsasında tələb oluna bilər.[155]

Bundan başqa, həmçinin hüquqpozanla bağlı müəyyən prosessual təminatlar tətbiq edilməlidir. Birincisi, mediator və ya məsul orqanlar mediasiyanın hüquqi nəticələrini və bununla bağlı əldə olunan razılaşmanı, habelə prosesin özünü, proses istifadəçilərinin hüquq və vəzifələrini birmənalı izah etməyə borcludurlar.[156] İkincisi, cinayət işləri üzrə mediasiya konfidensial qalmalı və orada əldə edilmiş məlumatlar cinayət törətdiyi güman edilən şəxsdən əlavə sübutlar almaq və ya təqsirini etiraf etmək üçün istifadə edilməməlidir,[157] çünki bu, mediasiyanın bərpaedici məqsədinə maneə yaratmış olar. Beləliklə, cinayət işlərində mediasiya tərəflər və məsul orqanlar arasında ən azı faktlar üzrə zəruri konsensus olduqda baş verir.[158] Bununla belə, mediasiya zamanı iş üzrə başqa bir cinayət aşkar edilərsə və ya şəxsin fiziki və ya psixoloji toxunulmazlığı üçün təhlükə yaranarsa, 5.4.1-ci bənddə qeyd edilən konfidensiallıq şərtindən ümumi istisnalar tətbiq edilir.[159]

Nəhayət, polis, prokurorluq və məhkəmə orqanlarından tutmuş ictimai təşkilatlara qədər müxtəlif qurumların bərpaedici ədalət mühakiməsi prosesinə cəlb olunmasının zəruriliyi nəzərə alınmalıdır. Birincisi, rəsmi orqanlar və məhkəmə orqanlarının üzvləri arasında lazımi kommunikasiya və məlumat mübadiləsi sistemi yaradılmalıdır[160] (Litvada mediatorlar işin qiymətləndirilməsi, mediasiya prosesi və mediasiyanın nəticələri haqqında məlumatların verilməsi və s. də daxil olmaqla, prosedurun müxtəlif mərhələlərində rəsmi orqanlar, eləcə də ictimai təşkilatlarla bu cür əlaqə qurmalıdırlar[161]). İkincisi, ictimai təşkilatlar prosesə cəlb edilməli və iştiraka təşviq edilməlidir, məsələn, onlar potensial işləri mediasiyaya yönləndirə bilərlər.[162] Qabaqcıl təcrübəni Çex Respublikasının nümunəsində görmək olar, orada "*Probasiya və Mediasiya Xidməti, əgər bu faydalı olarsa, sosial təminat orqanları, məktəblər və təhsil müəssisələri, səhiyyə xidmətləri göstərən qurumlar, qeydiyyatdan keçmiş kilsələr və dini icmalar, vətəndaş cəmiyyəti təşkilatları, fondlar və humanitar məqsədlər daşıyan digər təsisatlar ilə əməkdaşlıq edir və ehtiyac olduqda, cinayət prosesində probasiya və mediasiyadan istifadə etmək baxımından bu cür əməkdaşlığı əlaqələndirirlər*".[163]

## 2. Anlayışlar

---

[150] Çex Respublikası, Probasiya və Mediasiya Xidməti haqqında Qanun, 2000, № 257/2000, Qanunlar toplusu, maddə 5(2).
[151] Litva Respublikası, Probasiya orqanlarında mediasiya qaydaları, 2017, № V-532, maddə 9.
[152] Mediasiyaya dair rəhbər prinsiplər (cinayət hüququ), 33-cü bənd; Litva Respublikası, Probasiya orqanlarında mediasiya qaydaları, 2017, № V-532, maddə 10.1.
[153] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 42-ci bənd.
[154] CEPEJ, Mediatorlar üçün baza səviyyəli təlim proqramı. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV [10.03.2019-cu il tarixinədək olan məlumatlar], onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 22, 4-cü bənd.
[155] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 43.
[156] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 16-cı bənd.
[157] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 30-cu bənd.
[158] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 30-cu bənd.
[159] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 49-cu bənd.
[160] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 28-ci bənd.
[161] Litva Respublikası, Probasiya orqanlarında mediasiya qaydaları, 2017, № V-532, maddə 19.
[162] Bərpaedici ədalət mühakiməsinə dair tövsiyə, Əlavə, 56-cı bənd.
[163] Çex Respublikası, Probasiya və Mediasiya Xidməti haqqında Qanun, 2000, № 257/2000, Qanunlar toplusu, maddə 5(1).

Mediasiyanın hər bir milli qanunvericilik aktında tapa biləcəyimiz vahid anlayışı yoxdur. Bununla belə, müxtəlif anlayışlar daha çox mediasiya prosesinə münasibətdə tətbiq edilən minimum tələblər əsasında tərtib edilir[164] və buna görə də nisbətən oxşardır. Bu, prosesin əsas xüsusiyyətlərinə dair kifayət qədər ziddiyyətsiz anlayışın mövcud olduğunu göstərir. Anlayışlar mediasiyanı əsasən iki və ya daha çox tərəfin qərar qəbul etmə səlahiyyəti olmayan neytral üçüncü tərəfin – bir və ya bir neçə mediatorun rəhbərliyi ilə öz mübahisəsinin barışıq yolu ilə həllini tapmağa çalışdığı strukturlaşdırılmış proses kimi müəyyən edir. Həmçinin anlayışlara çox zaman prosesin qərəzsizliyi, müstəqilliyi və konfidensiallığı şərtləri daxil edilir.

Beynəlxalq sənədlər də hamıya uyğun olan universal yanaşmanı təmin etmir. Anlayışlarda cüzi fərqlərin olması təbiidir, çünki hər bir sənədin konkret məqsədi, əhatə dairəsi və ya auditoriyası var. Müəyyən edilmiş anlayışların bəziləri daha ümumidir və onların mətni həmçinin mübahisələrin barışıq yolu ilə həllinin digər növlərini, məsələn, barışıq proesdurlarını əhatə edə bilər (misal üçün bax: Mediasiya haqqında Direktivdə verilmiş anlayış: *“Mediasiya, necə adlandırılmasından və ya necə istinad edilməsindən asılı olmayaraq, elə bir strukturlaşdırılmış prosesdir ki, onun vasitəsilə mübahisənin iki və ya daha çox tərəfi könüllü olaraq mediatorun köməyi ilə mübahisənin həlli ilə bağlı razılığa gəlməyə cəhd edirlər. Bu proses tərəflərin təşəbbüsü ilə, yaxud məhkəmənin təklifi və ya qərarı ilə başladıla və ya üzv dövlətin qanunvericiliyində nəzərdə tutula bilər. Müvafiq mübahisə ilə bağlı hər hansı məhkəmə icraatına cavabdeh olmayan hakim tərəfindən aparılan mediasiya da buraya daxildir. Müvafiq mübahisə ilə bağlı məhkəmə icraatı zamanı mübahisəni barışıq yolu ilə həll etmək üçün məhkəmə və ya hakimin göstərdiyi cəhdlər buraya daxil deyil*[165]), digərləri isə mediasiyanı mübahisələrin barışıq yolu ilə həllinin digər üsullarından, məsələn, ombudsman xidmətlərindən ayırd etməyə kömək edə biləcək fərqləri vurğulayır (misal üçün bax: Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı tərəfindən verilmiş anlayış: *“Mediasiyaya elə bir könüllü, strukturlaşdırılmış proses kimi anlayış vermək olar ki, onun vasitəsilə “mediator” mübahisə tərəfləri arasında ünsiyyəti asanlaşdırmaqla onlara mübahisələrinin həll yolunu tapmaq üçün məsuliyyəti üzərlərinə götürmək imkanı yaradır"*[166]). CEPEJ-in Qlossarisinin (terminlərin izahı) layihəsində nəzərdə tutulmuş "mediasiya" anlayışı da (*“mediator kimi tanınan qərəzsiz üçüncü şəxsin mübahisəli məsələlərin həlli məqsədilə tərəflər arasında əlaqəni asanlaşdırmaqla onlara kömək etdiyi strukturlaşdırılmış və konfidensial proses”*)[167] daha çox ümumi xarakter daşıyır, belə ki, qlossarinin əsas funksiyası tətbiq sahəsini müəyyən etmək deyil, daha çox məlumatlandırmaqdan və izah etməkdən ibarətdir.

İzahedici qeydlər hər bir milli qanunda istifadə oluna bilən nümunəvi anlayış təqdim etmir. Bununla belə, "mediasiya" anlayışı qanunvericilik aktının tətbiq dairəsini genişləndirə və ya məhdudlaşdıra bildiyindən mediasiya haqqında qanun layihəsi hazırlanarkən nəzərə alınmalı olan bəzi məqamlar burada vurğulanır. Birincisi, əhatə dairəsini istəmədən genişləndirməmək üçün layihəni hazırlayanlar öz ölkələrində mübahisələrin barışıq yolu ilə digər həlli prosedurlarından hansıların tətbiq edildiyini və mediasiya haqqında qanunvericilik aktının əhatə dairəsinə onların daxil edilməməsi üçün hansı fərqlərin qeyd edilməli olduğunu diqqətlə qiymətləndirməlidirlər. Bu fərqlər mediatorun müstəqilliyi, qərarın məcburi xarakter daşımaması və digər amillər nəzərə alınmaqla qeyd edilə bilər. İkincisi, bir çox mediasiya növləri (məsələn, fasilitativ (asanlaşdırıcı), evaluativ (qiymətləndirici), transformativ (dəyişdirici), narrativ (təsviredici) mediasiya) mövcuddur ki, bütün dünyada mediasiya sessiyası zamanı işin hallarından asılı olaraq ayrı-ayrılıqda və ya bir neçəsinin kombinasiyası formasında istifadə edilir. Müvafiq olaraq, anlayış bu müxtəlif növlərin istifadəsinə mane olmamalıdır, çünki onların hamısı düzgün istifadə edildikdə tərəflərə mübahisələrini həll etməyə kömək edə bilər. Bu baxımdan mediasiyanın yalnız fasilitativ (asanlaşdırıcı) xarakter daşımalı olmasının vurğulanması qiymətləndirici (evaluativ) mediasiyaya ümumiyyətlə icazə verilib-verilmədiyinə şübhə yarada bilər.

Eyni sözlər anlayışın mediatorun təklif vermək hüququnu məhdudlaşdırdığı hallara da aiddir. Birincisi, bəzi ölkələr (məsələn, Azərbaycan, Xorvatiya, Finlandiya, İrlandiya, İtaliya, Polşa) adətən mübahisənin bütün tərəflərinin müraciəti və ya razılığı əsasında belə təkliflərin verilməsinə birmənalı şəkildə icazə verir. Məsələn: "*Mediator mübahisənin barışıq yolu ilə həllinə aparan müxtəlif üsullardan istifadə etməklə, o cümlədən tərəflərə*

[164] Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı, Beynəlxalq uşaq oğurluğunun mülki-hüquqi aspektlərinə dair 25 oktyabr 1980-ci il tarixli Haaqa Konvensiyası üzrə qabaqcıl təcrübəyə dair Təlimat: Mediasiya, Haaqa, 2012. Onu burada tapmaq olar: https://assets.hcch.net/upload/guide28mediation_en.pdf, səh. 7.
[165] Avropa İttifaqı Parlamentinin və Şurasının Mülki və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair 2008/52/EC saylı Direktivi, OJ, L-136, 2008, maddə 3(a).
[166] Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı, Beynəlxalq uşaq oğurluğunun mülki-hüquqi aspektlərinə dair 25 oktyabr 1980-ci il tarixli Haaqa Konvensiyası üzrə qabaqcıl təcrübəyə dair Təlimat: Mediasiya, Haaqa, 2012. Onu burada tapmaq olar: https://assets.hcch.net/upload/guide28mediation_en.pdf, səh. 7.
[167] CEPEJ, CEPEJ tərəfindən istifadə edilən anlayışların uzlaşdırılmasının həvalə edildiyi CEPEJ-in Xüsusi işçi qrupu, 4-cü iclasa dair hesabat, 23-24 yanvar 2019-cu il, Əlavə II: CEPEJ(2018)2PROV8 sənədi. Onu buradan əldə etmək olar: https://rm.coe.int/rapport-reunion-bologne-en-23-24-janvier-2019/1680933333.

*həll barədə təkliflərini formalaşdırmaqda dəstək verməklə vasitəçilik etməlidir. Tərəflərin birgə müraciəti ilə mediator mübahisənin həllindən ötrü tərəflər üçün məcburi olmayan variantları göstərə bilər*".[168] İtaliya mediatorların tərəflər hər dəfə razılığa gələ bilmədikdə təkliflər verməsinə imkan yaratmaqla irəliyə doğru addım atmışdır: "<*…*> *Razılıq əldə edilmədikdə, mediator həll üçün təklif verə bilər. Hər bir halda, tərəflər proses zamanı istənilən vaxt mediatora birgə müraciət etdikdə, mediator barışıq təklifi formalaşdırır.* <*…*>".[169] Mediatorların təkliflər verməsinə icazə verilməsi müsbət təcrübə hesab olunur, bu şərtlə ki, bu təkliflər tərəflər üçün məcburi olmasın.

"Mediator" termininin anlayışı nəzərdən keçirilmiş bütün milli qanunlarda nisbətən sabitdir. Vurğulanan əsas xüsusiyyətlər müstəqil, neytral üçüncü tərəfin roluna, tərəfləri nizamlanmaya yönəltmək funksiyasına və qərar qəbul etmə səlahiyyətinin olmamasına əsaslanır. Bunlar nəzərə alınmalı əsas meyarlar olsa da, qanunvericilik aktını hazırlayanlar həmin aktda şəxsin mediator kimi qəbul edilməsi üçün milli reyestrdə qeydiyyata alınmalı olduğunu da qeyd edə bilərlər. Məsələn: *"Mediator dedikdə mediasiya fəaliyyətini həyata keçirən və Nazirlik tərəfindən tənzimlənən mediatorların reyestrinə daxil edilən fiziki şəxs başa düşülür"*.[170] 3.1-ci bölmədə müzakirə ediləcəyi kimi, mediatorların siyahısında/reyestrində olmaq mediasiyanı həyata keçirən şəxsin lazımi hazırlığa malik olmasını, bacarıqlarının yoxlanılmasını və professional inkişafını davam etdiməsini təmin edə bilər. Bu, bütövlükdə mediasiyanın keyfiyyətini artıra bilər.

## 3. Mediator

### 3.1. Mediatorlara münasibətdə tələblər

Bütün Avropada ölkələr arasında səyahətlər yüksək dərəcədə artdığına görə mediatorların akkreditasiyası üçün ümumi beynəlxalq meyarların yaradılmasının vacibliyi Mediasiyaya dair təlimatlarda öz əksini tapmışdır.[171] Mediatorlar, təlim keçirənlər və mediasiya xidməti göstərən subyektlər üçün siyahıların/reyestrlərin tətbiqi bu məqsədə nail olmağa kömək edə bilər. Siyahının/reyestrin aşkar funksiyası mediatorlar (yaxud analoji olaraq, mediasiya xidməti göstərən subyektlər və ya təlim keçirənlər) haqqında məlumatları sistemləşdirmək və lazım gəldikdə maraqlı tərəflərə təqdim etməkdən ibarət olsa da, o həmçinin mediasiyanın yüksək keyfiyyətinin təmin edilməsi üçün son dərəcə faydalı vasitədir. Bunun səbəbi siyahıya daxil edilmək istəyənlər üçün aydın tələblər və yüksək standartlar tətbiq etmək imkanının olmasıdır. Beləliklə, getdikcə daha çox sayda qanunverici orqan öz milli qanunlarına (məsələn, Avstriya, Azərbaycan, Xorvatiya, Kipr, Litva, Serbiya, Türkiyə) mediatorların rəsmi siyahılarının aparılması barədə müddəa daxil edir, digər ölkələr isə bu cür siyahıları ən azı məhkəmə ilə əlaqəli mediasiyaya şamil etmək (məsələn, Çexiya, Polşa, Sloveniya) variantını seçirlər.

Səriştəsiz mediatorlar geniş ictimaiyyət qarşısında bu peşənin nüfuzuna xələl gətirə və mediasiyaya müraciətlərin sayını azalda bilər. Milli qanunvericilikdə yalnız siyahıda olan şəxsin mediasiya ilə məşğul ola biləcəyinin nəzərdə tutulması səriştəsiz şəxslərin mediasiya fəaliyyətlərinin qarşısını almaq iqtidarında olan adekvat təminatların həyata keçirilməsinə imkan verir. Bu cür təminatlara aşağıdakılar daxil edilə bilər: (a) siyahıya daxil edilmək istəyənlər üçün müəyyən edilmiş tələblər; (b) adekvat hazırlıq; (c) hərtərəfli yoxlama; (d) davamlı professional inkişaf və müəyyən sayda mediasiya prosesinin aparılması tələbi; (e) mediatorun fəaliyyətini dayandırmaq və ya onu siyahıdan çıxarmaq səlahiyyətinə malik olan intizam orqanının olması; (f) siyahıda olmayan şəxslərin mediasiya fəaliyyəti ilə məşğul olmasına görə sanksiyaların tətbiqi.

(a) tələblər

Mediasiyanın aparılması mürəkkəb zehni fəaliyyətə bərabərdir. Müvafiq olaraq, bu iş şəxsdən müəyyən sosial yetkinlik tələb edir. Potensial mediatorun hələ belə səviyyəyə çatmaması ehtimalını azaltmaq üçün qanunverici orqanlar ali təhsilə malik olma tələbini (məsələn, Kipr, Litva, Serbiya, Sloveniya, İspaniya) nəzərdə tuturlar. Bəzi hallarda tələblər daha yüksəkdir – şəxs magistr dərəcəsinə malik olmalı (məsələn, Çexiyada) və ya hüquq fakültəsini bitirməlidir (məsələn, Türkiyədə). Məsələn, Polşa yaşa əsaslanan tələb irəli sürüb – yalnız yaşı 26-dan az olmayan şəxs daimi mediatorlar siyahısına daxil edilə bilər. Eyni sözlər Avstriyaya da aiddir, amma burada şəxsin ən azı 28 yaşı olmalıdır. Azərbaycanda bu tələb ikiqatdır və həm ali təhsil dərəcəsinin olmasına, həm də yaş səviyyəsinə (ən azı 25 yaş) əsaslanır. Universitet bitirmə və ya ali təhsil dərəcəsinə malik olma

[168] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595, maddə 183[3a].
[169] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 11(1).
[170] Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325, maddə 2(a).
[171] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 24-cü bənd; cinayət hüququ: 22-ci bənd; inzibati hüquq: 36-cı bənd).

əldə edilən biliklərin müəyyən səviyyəsini təmin edə və eyni zamanda sosial yetkinlik şansını artıra bilər. Buna görə də bunlar müsbət təcrübə hesab olunur. Bununla belə, digər meyarları yerinə yetirmək şərti ilə hüquq təhsili olmayan mütəxəssislərin mediasiya ilə məşğul olmasına icazə verilməsi də tövsiyə olunur.

Mediator mediasiyanı apararkən çox həssas məsələlərlə məşğul olmalı olur. Qərəzsizlik və neytrallığın mənəvi standartları yüksək olduğu kimi, mediatorun reputasiyası üçün də standartlar mövcud olmalıdır. Nəzərdən keçirilmiş ölkələrin əksəriyyəti hesab edir ki, məhkumluğu olmuş şəxs mediator kimi fəaliyyət göstərmək hüququna malik olmamalıdır. Bununla belə, standartlar bir qədər fərqlidir: bəzi ölkələr ağır cinayətə və ya korrupsiya ilə bağlı cinayətə (məsələn, Litva), şərti azad edilmə hüququ olmadan azadlıqdan məhrum etmə cəzası nəzərdə tutan cinayətə (məsələn, Serbiya), qəsdən törədilən cinayətə və ya hüquqpozmaya (məsələn, Sloveniya) görə məhkum edilmiş şəxslərin mediasiya fəaliyyəti ilə məşğul olmasını birmənalı şəkildə qadağan edir. Digərləri qəsdən törədilmiş cinayətlərə mediator tərəfindən həyata keçirilən fəaliyyətlə əlaqədar ehtiyatsızlıqdan törədilmiş cinayətləri də əlavə edirlər (məsələn, Çex Resublikası). Avstriyada şəxsin məhkumluğu onun "*mediasiya fəaliyyətinin etibarlılığına şübhə yaradarsa*", mediasiya fəaliyyəti ilə məşğul olmasına icazə verilmir.[172] Litva və Fransa vəzifə borcunu pozmağa görə inzibati və ya intizam sanksiyasının tətbiqi səbəbindən vəzifəsindən azad edilənləri də bu siyahıya əlavə edir. Analoji olaraq, Belçika təkcə məhkumluğu olan şəxslərin deyil, həm də sertifikatlı mediatorun funksiyaları ilə bir araya sığmayan davranışa görə intizam və inzibati sanksiyaya məruz qalmış şəxslərin mediasiya ilə məşğul olmasına icazə vermir.

Ölkələr adətən uzun müddətdir ki, digər peşələr kontekstində nələrin yaxşı reputasiya hesab edildiyini müəyyən edən milli hüquq normalarına malik olduğundan, belə hesab edilir ki, mediatorlar da eyni milli standartlara riayət etməlidirlər. Bununla belə, milli qanunverici orqanlar ömür boyu davam edən bu cür məhdudiyyətlərin residivizm riskini azaltmaq üçün mütənasib olub-olmadığını və mütləq dərəcədə zəruri olub-olmadığını qiymətləndirməlidirlər. Beləliklə, müəyyən müddətə məhdudiyyətin tətbiqi nəzərdə tutula bilər. Belə bir yanaşma, məsələn, Belçika və Litvada tətbiq olunur.

Mediasiyaya dair rəhbər prinsiplərdə davranış qaydalarına riayət etməyin vacibliyi vurğulanır, mülki və kommersiya işlərində Mediatorlar üçün Avropa davranış kodeksindən[173] beynəlxalq səviyyədə qəbul edilmiş minimum standart kimi istifadə etmək tövsiyə olunur, həmçinin konkret olaraq inzibati və cinayət işləri üzrə mediasiya ilə bağlı davranış kodekslərinin qəbulu təşviq edilir.[174] Milli və ya beynəlxalq davranış kodeksinə riayət etmək bu tədqiqatın obyekti olan ölkələrdə (məsələn, Belçika, Xorvatiya, Kipr, İrlandiya, Litva, Serbiya, İspaniya) mediatorlar üçün nisbətən ümumi tələbdir (və ya bəzi hallarda təklifdir). Serbiyanın müsbət nümunəsinə əsasən, mediasiya lisenziyasının müddətinin uzadılması proseduru zamanı bu kodeksə riayət edilməsi nəzərə alınır (*"Mediasiya lisenziyasının müddətinin uzadılması proseduru zamanı mediatorun bu Qanunda və qanun qüvvəli aktlarda nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən etik davranış kodeksinə riayət etməsinə xüsusi diqqət yetirilməlidir"*[175]). Bundan əlavə, 3.2.3-cü bənddə qeyd edildiyi kimi, davranış kodeksinin pozulmasına görə intizam mexanizmləri yaradılmalıdır.[176]

Bütün üzv dövlətlərdə həyata keçirilən Avropa İttifaqının (Aİ) 2008/52/EC Direktivinə (Mediasiya haqqında Direktiv[177]) əsasən, onlar bu cür tədbirlərə görə müəyyən dərəcədə cavabdehdirlər. Direktivin 4-cü bəndində deyilir ki: "Üzv dövlətlər uyğun hesab etdikləri istənilən vasitə ilə mediatorların və mediasiya xidmətləri göstərən təşkilatların könüllü davranış kodeksinin işlənib hazırlanmasını və onlara əməl etməsini təşviq etməlidirlər <...>". Mediasiya haqqında Direktiv həmçinin yuxarıda qeyd olunan Mediatorlar üçün Avropa davranış kodeksinə diqqəti cəlb edir və onun haqqında məlumatlılığın olmasını tələb edir. Davranış kodeksləri, xüsusən də beynəlxalq səviyyədə tanınanlar, xidmətlərin daha yüksək keyfiyyətini, habelə beynəlxalq standartlara uyğunluğu təmin etmək üçün daha bir imkan yaradır və onların qəbulu ciddi surətdə tövsiyə olunur.

(b) təlim

---

[172] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 11(2).

[173] Avropa İttifaqı Komissiyası, Ədliyyə Direktorluğu, Mediatorlar üçün Avropa davranış kodeksi, 2004. Onu burada tapmaq olar: http://ec.europa.eu/civiljustice/adr/adr_ec_code_conduct_en.pdf.

[174] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 28-29-cu bəndlər; cinayət hüququ: 27-28-ci bəndlər; inzibati hüquq: 38-39-cu bəndlər).

[175] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 38.

[176] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 30-cu bənd; cinayət hüququ: 29-cu bənd; inzibati hüquq: 40-cı bənd).

[177] Avropa İttifaqı Parlamentinin və Şurasının Mülki və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair 2008/52/EC saylı Direktivi, OJ, L-136, 2008, səh. 3-8, maddə 4.

Mediatorlar üçün yüksək keyfiyyətli hərtərəfli təlim mediasiyanın keyfiyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Milli qanunvericiliyə mediatorların mediatorlar üçün nəzərdə tutulan hazırlıq keçməli olduğu barədə müddəanın daxil edilməsi adi hal olsa da, belə bir qeyri-müəyyən müddəa kifayət etmir. Milli qanunverici orqanlar təlimin keyfiyyətini təmin etməyə təşviq olunurlar. Buna aşağıdakıların vasitəsilə nail olmaq olar:

(1) təlim verənlərin lisenziyalaşdırılması və ya təlim verənlərin rəsmi siyahısının aparılması (məsələn: *"Ədliyyə Nazirliyi bu Nazirliyin sərəncamı ilə mediasya üzrə təlimçilərin siyahısını müəyyən edir. Sərəncamda mediatorların yüksək səviyyədə hazırlığının təmin edilməsi məqsədi ilə qeydiyyat, qeydiyyatın dayandırılması və ləğv edilməsi, habelə təlimlərin keçirilməsi meyarları müəyyən edilir. Həmin sərəncamla müəyyən edilir ki, hansı tarixdən etibarən onlar bu bənddə nəzərdə tutulmuş təlim fəaliyyətində iştirak etmişlər və peşə tələblərinə cavab verən hazırlığa malikdirlər"'*[178]);

(2) siyahıdan çıxarılma üçün aydın əsasların müəyyən edilməsi (məsələn: *"Federal ədliyyə naziri qeydiyyat tələblərindən birinin tətbiqinin dayandırılması və ya yerinə yetirilməməsi, təlim məqsədlərinin prinsipcə yerinə yetirilməməsi, verilmiş sertifikatlarda ciddi yanlışlıqların olması, xəbərdarlığa baxmayaraq təlim müəssisəsinin hesabat vermək öhdəliyini pozması və ya fəaliyyətinin davamlılığına zəmanətin olmaması barədə ona məlumat verildikdə, zərurət olduqda Məşvərət Şurasının rəyini almaqla, rəsmi qərarla təlim müəssisəsini və ya kursunu siyahıdan çıxarır"*[179]);

(3) təlim proqramlarının həyata keçirilməsinə icazə verilməsi (məsələn: *"Mediasiya təlimi proqramında hüquq fakültəsini bitirdikdən sonra alınan biliklər, o cümlədən mediasiya fəaliyyətinin aparılması, ünsiyyət metodları, danışıqlar və mübahisələrin həlli üsulları və davranış psixologiyası və tənzimləyici aktda əks etdiriləcək digər nəzəri və praktiki məlumatlar əks olunmalıdır"*[180]). Təlim müəssisələri və proqramları üçün standartları təyin edərkən, milli qanunverici orqanlar "Mediasya bacarıqlarının inkişafı üzrə alətlər dəsti"ndə yer alan "Mediatorlar üçün baza səviyyəli təlim proqramı"nı[181] nəzərə almağa təşviq edilirlər;

(4) təlimin minimum müddətinin müəyyən edilməsi (məsələn: *"Kipr Ticarət və Sənaye Palatasının və ya Kipr Elmi-Texniki Palatasının üzvü olan, tanınan universitet dərəcəsinə malik olan və mediator olmaq üçün Kipr Ticarət və Sənaye Palatası və ya Kipr Elmi-Texniki Palatası tərəfindən təşkil edilmiş ümumilikdə qırx (40) saatlıq xüsusi təlim proqramında və ya ona ekvivalent proqramda iştirak etmiş <…> istənilən şəxs Mediatorlar Reyestrində qeydiyyatdan keçə bilər"*[182]);

(5) təlim məşğələlərinin monitorinq edilməsi və ya təlim təminatçılarından hesabatların tələb olunması (məsələn: *"Fəaliyyətlərinin davamlılığını sübut etmək üçün qeydiyyatdan keçmiş təlim müəssisələri ötən il ərzində təlim kursunun həcmi, məzmunu və uğurları barədə Federal ədliyyə nazirinə yazılı hesabat verməlidirlər"*[183]).

İxtisaslaşdırılmış təlimlər mediasiyanın müxtəlif növləri kontekstində nəzərdən keçirilməli, xüsusən bu təlimlərdə uşaqların üstün mənafeləri və ya zərərçəkənlə hüquqpozan arasında mediasiya kimi incə məsələlər nəzərə alınmalıdır. Məsələn, Çex Respublikasında ailə işləri üzrə mediatorlardan əlavə bacarıqlar, eləcə də ayrıca əlavə imtahandan keçmək tələb olunur, Azərbaycanda isə istehlakçı, ailə və əmək mübahisələri üzrə müxtəlif təlim tələblərinin müəyyən edilməsinə icazə verilir.[184] Serbiya da müəyyən növ mübahisələr üzrə mediasiya aparmaq istəyən mediatorlardan ikiqat təlim (baza səviyyəli və xüsusi) tələb etmək imkanını nəzərdən keçirir. Bu cür fərqləndirmə yaxşı təcrübədir, çünki bu, mediasiyanın keyfiyyətinə müsbət təsir göstərə bilər.

---

[178] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 16(5).
[179] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 28(1).
[180] Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325, maddə 22(1).
[181] CEPEJ, Mediatorlar üçün baza səviyyəli təlim proqramı. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV [10.03.2019-cu ilə tarixinədək olan məlumatlar], onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 19-23.
[182] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 7.
[183] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 27.
[184] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddələr 25.2; 26.6; 27.2.

(c) imtahan

Məcburi imtahan təkcə təlimin daha yüksək səviyyəsini təmin etməyə imkan vermir, həm də səriştəsiz şəxslərin siyahıya düşməsinin və sonradan mediasiya fəaliyyətini həyata keçirməsinin qarşısını alır. O, Belçika, Çexiya, Litva və Türkiyədə tətbiq olunur. Bununla belə, imtahan tətbiq edildiyi təqdirdə lüzumsuz formallığa çevrilməməlidir. Onun iki hissədə formalaşdırılması tövsiyə olunur: nəzəri və praktiki; həmçinin aydın qiymətləndirmə meyarlarını müəyyən etmək; yekun qiymətləndirməyə yenidən baxılması və ya şikayət edilməsi üçün tətbiq edilən imkanları və proseduru nəzərdən keçirmək tövsiyə olunur. İmtahan üçün ödəniş, əgər varsa,[185] imtahanın təşkili ilə bağlı inzibati xərcləri ödəmək üçün nəzərdə tutulmalı və gəlir səviyyəsi aşağı olan şəxslərin imtahanda iştirakına mane olmamalıdır.

(d) davamlı professional inkişaf

Mediatorlar karyeralarının əvvəlində yüksək keyfiyyətli təlim keçib siyahıya daxil edilmək üçün imtahandan keçə bilsələr də, təcrübə keçmədikləri halda əldə etdikləri biliklər tez unudulur. Buna görə də, siyahıdakı mediatorların təcrübə keçə bilmələrini və son inkişaf proseslərindən xəbərdar olmalarını təmin etmək üçün milli qanunverici orqanlar onlardan davamlı professional inkişaf üçün ixtisasartırma təlimində iştirak etmələrini (məsələn, Kiprdə 3 ildən bir 24 saat,[186] Litvada 5 ildən bir 20 akademik saat,[187] Serbiyada ildə 10 saat,[188] Avstriyada 5 ildən bir 50 saat,[189] Azərbaycanda hər 2 ildən bir[190]) və ya müəyyən müddət ərzində müəyyən sayda mediasiya prosesi apardıqlarının sübutunu təqdim etmələrini (məsələn, Serbiyada 3 ildə 5 mediasiya prosesi[191]) tələb etməlidirlər. Əgər aparılan mediasiya proseslərinin sayı milli səviyyədə hələ çox aşağıdırsa, mediatorlardan müəyyən sayda mediasiya proseslərində müşahidəçi olmaları tələb oluna bilər (mübahisə tərəfləri razılıq verərsə). Belə bir tələb Mediasiyaya dair rəhbər prinsiplərdə yer alan belə bir tövsiyəyə uyğundur ki, ilkin təlimdən sonra "*davamlı professional inkişafa nəzarət, onun monitorinqi və izlənilməsi*" həyata keçirilməlidir.[192]

(e) intizam orqanı

Siyahı və ya reyestr yaradılarsa, onun idarə edilməsinə, o cümlədən namizədlər haqqında məlumatların toplanması, siyahıya daxil edilmiş mediatorların bacarıqlarının davamlı inkişafı, onların siyahıya daxil edilməsinin, fəaliyyətinin müvəqqəti dayandırılmasının və ya siyahıdan çıxarılmasının təsdiqlənməsi, əgər varsa onlardan illik haqqın alınması məsələlərinə cavabdeh olan dövlət orqanı və ya peşə qurumu olmalıdır. Milli qanunverici orqanlar həmçinin mediatorların peşə davranışı pozuntularına, məsələn, davranış kodeksinin müddəalarını pozmağa və yaxud neytrallıq və ya qərəzsizlik kimi vəzifələrini yerinə yetirməməyə görə intizam sanksiyaları tətbiq edə biləcək intizam orqanları yaratmağa təşviq olunurlar. Bu həmçinin mediasiyanın keyfiyyətini artıra və funksiyalarını yerinə yetirmək üçün meyarlara uyğun olmayan mediatorların mediasiya ilə məşğul olmasının qarşısını ala bilər. Mümkün intizam məsuliyyəti sanksiyalarına dair nümunələr İzahedici qeydlərin 3.2.3-cü bölməsində təqdim edilir. İntizam orqanları ayrıca olaraq və yaxud siyahının aparılmasına cavabdeh olan orqanın və ya qurumun tərkibində yaradıla bilər. İntizam orqanının qərarlarından yuxarı instansiyaya və ya məhkəməyə şikayət verilməsini təmin etmək çox vacibdir.

(f) siyahıda olmadan fəaliyyət göstərmə

Təkcə siyahının müəyyən edilməsi fiziki şəxslərin siyahıda olmadıqda mediasiya ilə məşğul olmamasını təmin etmir. Bu cür icazəsiz fəaliyyətin qarşısını almaq üçün təminedici tədbirlər görülməlidir. Onlar cərimələrin tətbiqindən (məsələn: "(1) Fiziki şəxs Reyestrdə qeydiyyatda olmamasına baxmayaraq 11-ci maddəyə zidd olaraq özünü "qeydiyyatdan keçmiş Mediator" adlandırmaqla və ya oxşar ifadədən istifadə etməklə hüquq

[185] Məsələn, Çex Respublikasında imtahanda iştirak haqqı 5000 CZK (təxminən 200 avro) təşkil edir.

[186] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 12.

[187] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 8.

[188] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 38.

[189] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 20.

[190] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 12.2.2.

[191] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 38.

[192] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 23-cü bənd; cinayət hüququ: 21-ci bənd; inzibati hüquq: 35-ci bənd).

pozuntusu törədibsə, (2) 1-ci bənddə nəzərdə tutulmuş hüquqpozmaya görə 100.000 CZK-ya qədər cərimə tətbiq edilə bilər"[193]) və ya praktik nəticəyə nail olmağa yönələn digər tədbirlərdən ibarət ola bilər.

Birincisi, siyahıya daxil edilməyən mediator tərəfindən imzalanmış barışıq sazişi məhkəmələrdə homoloqasiya (rəsmi təsdiqlənmə) yolu ilə və ya notariat aktları vasitəsilə icra sənədinə çevrilə bilməz. Məsələn, Belçikada *"yalnız 'barışıq sazişi əldə edildikdə və yalnız mediasiyanı aparan mediator 1727-ci maddəyə uyğun olaraq sertifikat almış şəxs olduqda, tərəflər və ya onlardan biri 1731 və 1732-ci maddələrə uyğun olaraq əldə edilmiş barışıq sazişini homoloqasiya üçün səlahiyyətli hakimə təqdim edə bilər"*.[194] 3.2.1-ci bölmədə müzakirə ediləcəyi kimi, bir çox ölkələrdə mediatorun barışıq sazişini imzalaması tələb olunur və bu imza barışığın sübutu kimi beynəlxalq səviyyədə tanınır. Beləliklə, belə bir sənədin homoloqasiya üçün və sonrakı icrası üçün qəbul edilməməsi tərəfləri belə şəxslərin xidmətlərindən istifadə etməkdən çəkindirmiş olar.[195]

Bununla belə, bu cür praktik üsulların tərəflərin təkcə həmin konkret şəxsin xidmətlərindən istifadə etməsinə deyil, ümumiyyətlə, mediasiyadan istifadə etməsinə mane ola biləcəyi təhlükəsi mövcuddur. Buna görə də, belə şəxslərin cəzalandırılması və siyahıya daxil edilmədən mediasiya ilə məşğul olmaqdan çəkindirilməsi üçün cərimə sanksiyası üstünlük verilən metod olmalıdır.

## 3.2. Öhdəliklər, icazələr, məsuliyyət

### 3.2.1. Öhdəliklər

Mediatorun bir çox öhdəlikləri artıq ənənəvi hal alıb və birbaşa və ya dolayısı ilə mediasiya haqqında hər bir milli qanunda və ya ən azı mediatorların əməl etməli olduğu davranış kodeksində onlara rast gəlmək olar. Bu öhdəliklərə mediatorun müstəqillik, qərəzsizlik, konfidensiallıq şərtlərinə əməl etməsi (həm ümumi iclasa, həm də tərəflərdən biri ilə ayrıca iclasa münasibətdə), qərəzsizliyi ilə bağlı hər hansı narahatlığı olduqda bu barədə məlumat verməsi və mediasiya prosesi və peşə təcrübəsi ilə bağlı məlumatları tərəflərə təqdim etməsi daxildir.

Bununla belə, son dövrlərdə yeni öhdəliklər meydana çıxır və  bir qayda olaraq, onlar prosessual xarakter daşıyır. Bir çox ölkələr mediatorun mediasiya vasitəsilə əldə edilmiş barışıq saizşini imzalamasını tələb edir (məsələn, Kipr, Çexiya, Finlandiya, Serbiya, Türkiyə). Bu tələb mediatorun imzasını barışıq sazişinin sübutu kimi və sazişin məhz mediasiya nəticəsində əldə edildiyinin təsdiqi kimi tanıyan UNCITRAL-ın Mediasiya haqqında Sinqapur Konvensiyası[196] kimi beynəlxalq sənədlərə uyğundur və buna görə də belə saziş onların əhatə dairəsinə düşür.

Bundan əlavə, 5.5-ci bölmədə daha ətraflı müzakirə ediləcəyi kimi, milli qanunverici orqanlar (məsələn, Kipr, İrlandiya, Polşa, İspaniya, Türkiyədə) mediatorlardan mediasiyanın başa çatması haqqında bildiriş hazırlamağı tələb edirlər. Bəzi ölkələr (məsələn, Türkiyə[197]) mediasiya fəaliyyətinin yekunlaşdığı barədə məlumatdan savayı belə bildirişin daha nələri əhatə etməli olduğu barədə tərəflərin özlərinin qərar verməsinə icazə verir, digərləri isə oraya nələrin daxil edilməli olduğunu daha dəqiq müəyyən edir (məsələn, İrlandiya,[198] Polşa,[199] İspaniya[200]). Mediasiyanın başa çatması haqqında bildiriş statistik məqsədlər üçün və mediasiyanın aparıldığını sübut etmək üçün faydalı ola bilər. Bununla belə, mediasiyanın başa çatması haqqında bildirişi hazırlayan mediatorlar, eləcə də belə bildirişə nələrin daxil edilməli olduğunu müəyyən edən qanunverici orqanlar diqqətli olmalıdırlar ki, mediasiyanın konfidensiallığı pozulmasın.

---

[193] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 25.
[194] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1733.
[195] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 22(1).
[196] Birləşmiş Millətlər Təşkilatının Mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında Konvensiyası, maddə 4(1b(i)).
[197] Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325, maddə 17(3).
[198] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 17(1).
[199] Polşa Respublikası, İnzibati Prosessual Məcəllə, maddə 96m.
[200] İspaniya Krallığı, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Boletín Oficial del Estado*, № 5/2012, maddə 22.

Digər öhdəliklər (və ya icazələr) yalnız məhkəmə ilə əlaqəli mediasiya kontekstində aktuallıq kəsb edir. Bunlara işin nəticəsi barədə məhkəməyə və ya digər orqana məlumat vermək öhdəliyi və ya işin materialları ilə tanış olmaq icazəsi daxildir.

### 3.2.2. İcazələr

Analoji olaraq, mediatorun bəzi öhdəlikləri kimi, müəyyən icazələr alması da nəzərdə tutulur. Məsələn, mediatorun tərəflərlə ayrı-ayrılıqda iclas keçirmək hüququ, xüsusən də belə iclasın tərəflərin razılığı ilə və konfidensiallıq müddəalarına uyğun olaraq keçirilməsi bir çox milli qanunlarda (məsələn, Azərbaycan, Xorvatiya, Finlandiya, Almaniya, İspaniya, Türkiyədə) təsbit edilmişdir.

Başqa bir misal mediatorun qonorar almaq hüququ ola bilər (mediator hakim deyilsə). Mediatora işinə və mediasiya ilə bağlı digər xərclərinə görə kompensasiya ödənilməli olduğu ümumən qəbul edilsə də (məsələn, Azərbaycan, Çexiya, İtaliya, Fransa, Polşa, İspaniya, Türkiyədə), kompensasiyanın həcmi barədə sual hələ də açıq qalır. Bir tərəfdən, bu sualı bazar iqtisadiyyatı cavablandıra bilər və buna görə də bəzi ölkələrin milli qanunlarında qononrarın hesablanması ilə bağlı hər hansı məlumat təqdim edilmir. Digər tərəfdən, mediasiya xidmətləri əlçatan və münasib olmalıdır (xüsusən 1.1-ci bölmədə izah edildiyi kimi, məcburi və ya məhkəmə ilə əlaqəli mediasiya halında). Bəzi ölkələr sadəcə olaraq bildirirlər ki, xərclər mütənasib olmalıdır (məsələn, İrlandiya qanununda deyilir ki, *"mediasiyanın haqqı və xərcləri ağlabatan olmalı və müzakirə olunan məsələlərin əhəmiyyətinə və mürəkkəbliyinə və mediator tərəfindən yerinə yetirilmiş işin həcminə mütənasib olmalıdır"*[201]). Digər ölkələr mediatorlar üçün və ya bəzi hallarda konkret olaraq məhkəmə mediatorları üçün (məsələn, İtaliya, Litva, Polşa, Serbiya, Türkiyə) qonorarların cədvəllərini qəbul etmişlər. Bununla belə, bu cür cədvəlləri tətbiq etmək qərarına gəldikdə, milli qanunverici orqan rəqabət haqqında qanunvericiliyin pozulmamasına diqqət yetirməli və mediasiyanı ictimaiyyət üçün əlçatan etməklə yanaşı, peşəkarların haqlı olaraq gözlədiyi kompensasiyanı almasını və işləmək üçün motivasiyasının olmasını dəstəkləməlidir.

Digər hüquqlar, məsələn, barışıq sazişinin hazırlanması daha çox mübahisəlidir, çünki onlar imperativ hüquq normalarından xeyli dərəcədə asılıdır. Xorvatiyada,[202] Serbiyada,[203] Sloveniyada,[204] əgər prosesdəki tərəflər razılaşarsa, mediatorun sazişin hazırlanmasında və mətninin tərtibində iştirak etməsinə icazə verilir. Müxtəlif barışıq sazişləri ilə bağlı geniş təcrübəyə malik olan mediator tərəflərə, xüsusən də vəkillərin müşayiəti olmadıqda, çox kömək edə bilər. Bununla belə, hüquqi sahəsində təcrübəsi olmayan mediatorlar hüquqi məsləhət verməməlidirlər, çünki bəzi yurisdiksiyalarda bu, lisenziyasız vəkillik fəaliyyətinə bərabər sayıla bilər. Məsələn, Türkiyədə mediatorların hüquqi məsləhət verməsinə icazə verilmir,[205] baxmayaraq ki mediatorlar siyahısına daxil edilmək üçün hüquq təhsilinin olması şərtdir.[206] Bundan əlavə, 2-ci fəsildə müzakirə edildiyi kimi, mediatorların tərəflər üçün məcburi olmayan təkliflər verməsinə icazə verilməlidir.

### 3.2.3. Məsuliyyət

Mediasiya haqqında milli qanunlarda mediatorun intizam məsuliyyətindən savayı digər məsuliyyət növlərindən geniş bəhs edilmir. İntizam sanksiyaları ilə yanaşı, mediatorlar adətən mülki hüquqi məsuliyyətə də məruz qalırlar. Məsələn, Serbiyada "*vurulmuş ziyana görə məsuliyyət müəyyən edən qanunvericiliyə uyğun olaraq, mediator etika kodeksinə əməl etməməsi, qanunsuz davranışı, qəsdən və ya kobud səhlənkarlığı nəticəsində tərəflərə dəymiş hər hansı zərərə görə ümumi qaydalar əsasında məsuliyyət daşıyır*"';[207] Xorvatiyada "*mediator bu maddənin 1-ci bəndində* göstərilən *öhdəliyi [konfidensiallıq öhdəliyini] pozması nəticəsində dəymiş zərərə görə məsuliyyət daşıyır*".[208] Mediatorun üzərinə düşən öhdəlikləri pozmasına görə ən sərt sanksiyalara Avstriya, Belçika və Türkiyədə rast gəlmək olar. Türkiyədə mediatorlar, eləcə də tərəflər konfidensiallığın pozulmasına görə 6 aya

[201] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 20(2).
[202] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 10(2).
[203] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 26.
[204] Sloveniya Respublikası, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Uradni list*, № 56/2008, maddə 14.
[205] Türkiyə Respublikası, Hüquqi mübahisələrdə mediasiyanın tətbiqi haqqında Sərəncam. *Rəsmi Qəzet*, 2018, № 30439, maddə 17(5).
[206] Türkiyə Respublikası, Hüquqi mübahisələrdə mediasiyanın tətbiqi haqqında Sərəncam. *Rəsmi Qəzet*, 2018, № 30439, maddə 30 (2b).
[207] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 35.
[208] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 14 (2).

qədər həbslə üzləşə bilər,[209] eyni müddət Avstriya qanunlarında da nəzərdə tutulur.[210] Avstriyalı mediatorlar və ya tərəflər həm də cərimə ilə üzləşə bilərlər. Belçikada mediatorlar konfidensiallığın pozulmasına görə 1 ildən 3 ilə qədər həbs edilə və ya 100-1.000 avro arasında cərimələnə bilər.[211]

İntizam məsuliyyəti ilə bağlı ən çox yayılmış sanksiyalar bunlardır: xəbərdarlıq; töhmət (ictimai və ya xüsusi); lisenziyanın qüvvəsinin dayandırılması və ya siyahıdan müvəqqəti çıxarılma; siyahıdan həmişəlik çıxarılma (məsələn, Azərbaycan, Belçika, Litva). Belçikalı qanunverici orqan daha yaradıcı davranmış və məcburi müştərək mediatorluq və müəyyən müddət ərzində mediasiya sahəsində təcrübə keçmək öhdəliyi kimi sanksiyaları buraya əlavə etmişdir. Onların hər ikisi mediatorun davranışını islah etmək və ona təcrübəsini artırmaqdan yayınmaq əvəzinə əlavə bacarıqlar öyrətmək məqsədi daşıyır və buna görə də təşviq edilməlidir.

Hesab edilir ki, mülki və intizam məsuliyyəti, habelə düzgün tətbiq edildiyi təqdirdə vurulmuş zərərin kompensasiya edilməsi öhdəliyi mediatorların öz öhdəliklərini pozmaqdan çəkindirilməsi üçün kifayət etməlidir. Bununla belə, hansı sanksiya olursa-olsun, intizam orqanının qərarından yuxarı orqana və ya məhkəməyə şikayət verilməsi mümkün olmalıdır (məsələn, Belçikada Dövlət Şurasının inzibati məhkəmə işləri üzrə bölməsi ərizə əsasında İntizam və Şikayətlər Komissiyası tərəfindən qəbul edilmiş qərarların qüvvəsini dayandıra və ya onları ləğv edə bilər[212]). Bundan əlavə, mediasyanın potensial istifadəçiləri, eləcə də mediatorların özləri hansı davranışın intizam məsuliyyətinin tətbiqinə səbəb ola biləcəyini daha yaxşı başa düşməlidirlər. Odur ki, intizam orqanının qərarlarının məhkəmə qərarlarının açıqlanmasına bənzər şəkildə və konkret adlar göstərilmədən açıqlanması tövsiyə olunur.

### 3.3. Mediasiya xidməti göstərən subyektlər

Mediasiyanın keyfiyyəti ilə bağlı əsas diqqət mediatorlara yönəlsə də, mediasiya xidməti göstərən subyektlərin fəaliyyəti heç də az əhəmiyyət kəsb etmir. Mübahisə tərəflərinin istifadəçi məmnunluğu və işlərin geri qaytarılma faizi böyük ölçüdə bilavasitə onların mediasiyanı düzgün idarə etməsindən asılıdır. Buraya tərəflər və mediator arasında ilkin ünsiyyət, ixtisaslı  mediatorların şəffaf təyinatı, ödənişin təşkili və uyğun yerin ayrılması daxildir. Bundan əlavə, mediasiya xidməti göstərən subyektlər həmçinin mediasiya prosesləri haqqında ilkin məlumatları yaymalı və ümumiləşdirilmiş statistik məlumatları toplamalıdır (bu məsələ 8.2-ci bölmədə müzakirə olunacaq). Mediasiya xidməti göstərən subyektlər həm də mediasiyanın yüksək keyfiyyətini təmin edə bilərlər, çünki onlar mübahisələri idarə edən lazımi hazırlıq keçmiş personalla yanaşı, səriştəli mediatorların cəlb olunmasına, habelə onların fəaliyyətlərinin adekvat olmasını təmin etmək üçün həmin fəaliyyətlərə nəzarətin həyata keçirilməsinə cavabdehdirlər. Bu nəzarət üçün CEPEJ tərəfindən qəbul edilmiş "Mediasiyaya dair rəylərin öyrənilməsi üçün nümunəvi sorğu anketi"ndən istifadə edilə bilər.[213]

Baxmayaraq ki mediatorların yaxşı (eləcə də pis) fəaliyyəti ictimaiyyətin mediasiyanı necə qəbul etməsinə əhəmiyyətli təsir göstərə bilər, nadir istisnalarla mediatorların fəaliyyəti milli qanunlarda yetərincə tənzimlənmir (və ya ümumiyyətlə tənzimlənmir). Milli qanunverici orqanlar bu durumu dəyişməyə təşviq edilirlər. Birincisi, mediasiya xidməti göstərən subyektlər öz prosedur qaydalarını təqdim etməkdə sərbəstdirlər, belə ki, 5.4.2-ci bölmədə müzakirə ediləcəyi kimi, bütün prosessual aspektlər mediasiya haqqında milli qanunlarda nəzərdə tutulmalı və ya tənzimlənməli deyil. Bununla belə, prosedur qaydalarının müddəalarının milli qanunvericiliyə uyğun olması yoxlanılmalıdır. İkincisi, mediatorlar üçün davranış kodeksləri olduğu kimi, mediasiya xidməti göstərən subyektlər də mediatorların davranış qaydalarını rəhbər tutmaqdan fayda əldə edə bilərlər. Mediasiya xidməti göstərən subyektlərin fəaliyyətinin tənzimlənmədiyi ölkələrdə bu, həlledici əhəmiyyətə malikdir. İstənilən halda, milli qanunverici orqanlara ciddi şəkildə tövsiyə olunur ki, mediasiya xidməti göstərən subyektlərin rəhbər tuta biləcəyi

---

[209] Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325, maddə 33.

[210] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 31(1).

[211] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1728 (2); və Cinayət Məcəlləsi. *Moniteur Belge*, 1867, maddə 458.

[212] Belçika Krallığı, Cinayət Məcəlləsi. *Moniteur Belge*, 1867, maddə 1727/6.

[213] CEPEJ, Mediasiyaya dair rəylərin öyrənilməsi üçün nümunəvi sorğu anketi. Mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV [10.03.2019 tarixinədək olan məlumatlar], sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 37-38.

nümunəvi davranış kodeksi təklif etsinlər. Belə kodeksin nümunəsi CEPEJ tərəfindən də qəbul edilmişdir və özünü doğrultmuş standart kimi istifadə edilə bilər.[214]

Mediasiya xidməti göstərən subyektlərin fəaliyyətinin tənzimlənməsinə gəlincə, İtaliya modeli qabaqcıl təcrübə nümunəsidir. İtaliya Respublikasının Ədliyyə Nazirliyi mediasiya xidməti göstərən subyektlərin reyestrini aparır. Reyestrə daxil edilmək üçün mediasiya xidməti göstərən subyektlər öz prosedur qaydalarını (mediasiya xidməti göstərən subyektlər tərəfindən istifadə oluna bilən onlayn prosedurlar daxil olmaqla), riayət etdikləri davranış kodeksini tətbiq olunan qonorarlar cədvəli ilə birlikdə Nazirliyə təqdim etməlidirlər. Onları qeydiyyata almazdan əvvəl Ədliyyə Nazirliyi bu sənədlərin uyğunluğunu qiymətləndirir.[215] Kifayət qədər oxşar model Azərbaycanda da tətbiq edilir.[216] Belə bir model keyfiyyət standartlarına riayət edilməsini təmin edə və prosedur qaydalarının və digər sənədlərin mediasiya haqqında milli qanunvericiliyə uyğun olmasını yoxlamağa imkan yarada bilər. Bundan əlavə, bu, tərəflər üçün şəffaflıq imkanı yaradır, belə ki, onlar yuxarıda göstərilən sənədlərlə sonradan tanış ola və mediasiyadan nə gözləməli olduqlarını müəyyənləşdirə bilərlər. Buna görə də belə bir modelin tətbiq edilməsi təkidlə tövsiyə olunur.

### 3.4. Digər hüquqşünaslar

Hüquqi baza mediasiya fəaliyyəti üçün nə məcburi ilkin şərt, nə də maneə kimi qəbul edilir. Bununla belə, milli qanunvericilikdə, xüsusən də məhkəmə sistemi ilə bağlı qanunvericilikdə bəzi maneələrə rast gəlmək olar. Məsələn, Polşada yalnız təqaüdə çıxmış hakimlər mediator ola bilər;[217] Belçikada hakimlər mediator kimi fəaliyyət göstərdiklərinə görə ödəniş ala bilməzlər;[218] Serbiyada hakimlər ödənişsiz mediasiya aparmaqla yanaşı, həm də bunu yalnız qeyri-iş saatlarında etməyə borcludurlar;[219] Litvada mediatorlar siyahısına daxil edilmiş məhkəmə sisteminin fəaliyyətdə olan iştirakçıları yalnız məhkəmə ilə əlaqəli mediasiya prosesində mediator kimi çıxış edə bilərlər,[220] Finlandiyada isə məhkəmə ilə əlaqəli mediasiya sxemlərində yalnız hakimlər mediator kimi çıxış edə bilərlər.[221]

Digər tərəfdən, bəzi ölkələrdə vəkillər mediasiya ilə məşğul olmağa təşviq olunurlar. Məsələn, İtaliyada Vəkillər Assosiasiyasında qeydiyyatdan keçmiş bütün vəkillər mediatorluqla məşğul olmaq hüququna malikdirlər, lakin mediasiya xidməti göstərən subyektlərdə qeydiyyatdan keçmiş vəkillər adekvat hazırlıq keçməli və bacarıqlarını qoruyub saxlamalıdırlar;[222] Kiprdə illik lisenziyası olan hər bir vəkil Mediatorlar Reyestrində qeydiyyatdan keçə və heç bir əlavə təhsil almadan kommersiya mübahisələrində mediatorluq edə bilər (lakin vəkil kommersiya mübahisələrindən savayı digər mübahisələrdə mediator kimi çıxış etmək istəyirsə, hazırlıq keçməsi mütləqdir).[223]

Digər hüquq peşələrinin nümayəndələri üçün təlim (və mümkün olduqda imtahan) digər namizədlərlə birlikdə ümumi qaydada təşkil edilməli və ya müvafiq dövlət orqanı və ya məsul peşə qurumu tərəfindən təşkil olunmalıdır. Sonuncu model, məsələn, Çex Respublikasında (Vəkillər Assosiasiyası mediasiya sahəsində vəkillərin təlimini təşkil edir[224]) və ya Litvada (Məhkəmə Şurası mediator olmaq istəyən hakimlərin təliminə cavabdehdir[225]) tətbiq edilir. Peşəkar şəxs tərəfindən artıq əldə edilmiş biliklər də nəzərə alına bilər. Məsələn, Avstriyada "*peşə bacarıqlarının qiymətləndirilərkən müəyyən edilmiş peşələrin <…> nümayəndələrinin təlimlər və*

---

[214] CEPEJ, Mediasiya xidməti göstərənlər üçün Avropa davranış kodeksi, mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV [10.03.2019 tarixinədək olan məlumatlar], sənədi burada tapmaq olar: [https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52](https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52), səh. 24-27.
[215] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 16(3).
[216] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 11.
[217] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595, maddə $183^2$(2).
[218] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 298.
[219] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 33.
[220] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 23(2).
[221] Finlandiya Respublikası, Mülki işlər üzrə mediasiya və barışıq sazişlərinin ümumi məhkəmələrdə təsdiqi haqqında Qanun, № 394/2011, maddə 14(1).
[222] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 16(4bis).
[223] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 7(a).
[224] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), 7-ci hissə.
[225] Məcburi mediasiya çərçivəsində. Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 21(5).

*peşə fəaliyyəti zamanı əldə etdikləri biliklərin və müvafiq hazırlığa sahib olmasının səviyyəsi mediasiya fəaliyyətinə kömək edə biləcək amillər kimi nəzərə alınır*".[226]

Üzərinə ikiqat peşə vəzifəsi götürmək istəyən belə şəxslər üçün müəyyən məhdudiyyətlər tətbiq edilir. Bu cür məhdudiyyətlər adətən mediasiya zamanı qərar qəbul etmək və ya mediasiya prosesində əldə edilmiş məlumatlardan istifadə etmək üzrə sonrakı səlahiyyətlərlə bağlıdır. Sloveniyada mediator, əgər tərəflər arasında başqa cür razılaşdırılmayıbsa, "*mediasiya predmeti olmuş və ya olan mübahisədə və yaxud eyni hüquqi münasibətdən yaranan və ya onunla əlaqəli olan başqa mübahisədə arbitr kimi çıxış edə bilməz*".[227] Eyni qayda Xorvatiyadakı arbitrlər və hakimlər üçün də keçərlidir; bununla belə, "*tərəflər mediatora barışıq sazişi əsasında arbitr qismində qərar çıxarmaq səlahiyyəti verə bilərlər*".[228] Serbiyada "*mübahisə ilə bağlı məhkəmə icraatında hakim qismində çıxış etmiş şəxs və mübahisə ilə bağlı inzibati və ya digər icraatda tərəflərin iddiası üzrə qərar qəbul etmiş vəzifəli şəxs mediator qismində çıxış edə bilməz*".[229] Türkiyə[230] və Çex Respublikasında[231] mediatorlara tərəflərin vəkili kimi çıxış etmək və ya mediatorluq etdiyi mübahisə ilə bağlı hüquqi xidmət göstərmək qadağandır. Azərbaycanda "*mediator tərəflərə hüquqi və ya digər xidmət göstərə və ya mediasiya predmeti olan mübahisə üzrə məhkəmə və ya arbitraj (münsiflər məhkəməsi) prosesində tərəflərdən hər hansı birini təmsil edə və arbitr (münsif) qismində çıxış edə bilməz*".[232] Mediatorlar işin içərisində olan tərəflərin onlarla özəl qaydada paylaşdıqları məlumatları əldə etdikləri üçün bu cür məhdudiyyətlər ağlabatandır. Bununla belə, tərəflər başqa cür qərar verməkdə sərbəstdirlər və Avstriyada olduğu kimi mediatorun başqa rolda çıxış etməsinə icazə verə bilərlər ("*mediasiya başa çatdıqdan sonra bütün aidiyyəti tərəflərin razılığı ilə o [mediator] mediasiyanın nəticəsini həyata keçirmək üçün özünün digər peşə səlahiyyətləri çərçivəsində hərəkət edə bilər*"[233]).

Xülasə, vəkil, hakim, notarius və ya icra məmuru kimi fəaliyyət göstərən şəxslərin aşağıdakı şərtlərlə mediator kimi fəaliyyət göstərməsinə icazə verilməlidir: bu, milli imperativ normalara zidd olmamalı; onlar tərəflərin məlumatlı razılığı olmadan eyni mübahisədə başqa rolda çıxış etməməli; və adekvat hazırlıq keçməlidirlər.

## 4. Mediasiyanın başladılması

Mediasiya könüllü və ya məcburi qaydada başlana bilər. Bunlardan birincisi daha geniş yayılmışdır və hər yurisdiksiyada rast gəlinə bilər. Könüllü mediasiya üç əsas formada ola bilər: müqavilədə nəzərdə tutulmuş mediasiya haqqında maddə (qeyd) əsasında, tərəflərdən birinin və ya hər ikisinin təşəbbüsü əsasında və vəzifəli şəxsin tövsiyəsi əsasında aparılan mediasiya. Bütün bu könüllü təşəbbüs modelləri hamısı birlikdə tətbiq edilə bilər və buna görə də həmin modellərə icazə və dəstək verilməlidir. İlkin mediasiya sessiyasına və ya mediatorun keçirəcəyi ilk iclasa məcburi qaydada yönləndirmə də tərəfləri mediasiyaya həvəsləndirmək üçün əlavə vasitə kimi getdikcə daha çox sayda ölkələrdə tətbiq edilir. Artıq Azərbaycan, Çexiya, Fransa, İtaliya, Litva, Polşa, Serbiya, Sloveniya, İspaniya, Türkiyə milli səviyyədə bu və ya digər formada ilkin mediasiya sessiyasına məcburi yönləndirməni tətbiq ediblər.

### 4.1. Könüllü əsasda

#### 4.1.1. Mediasiya haqqında maddə

Mediasiya haqqında maddə hətta mübahisə yaranmamışdan əvvəl tərəflər arasında bağlanmış müqaviləyə daxil edilir. "Müqavilənin mediasiya haqqında nümunəvi maddəsi"[234] CEPEJ tərəfindən qəbul edilmişdir və ondan istinad kimi istifadə edilə bilər. Bu cür maddələrin nümunələrini mediaisya xidməti göstərən subyektlərin qaydalarında və ya internet saytlarında da tapmaq olar, onlar çox zaman müqavilə tərəflərinin seçim imkanının olması üçün bir neçə fərqli variantı təqdim edilir. Məsələn, Beynəlxalq Ticarət Palatası (ICC) mediasiya

---

[226] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 10(2).
[227] Sloveniya Respublikası, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Uradni list*, № 56/2008, maddə 8.
[228] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 16.
[229] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 21.
[230] Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325, maddə 9(4).
[231] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 8(2).
[232] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 12.3.
[233] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 16(1).
[234] CEPEJ, Model contract clause on mediation. From *Mediation Development Toolkit Ensuring implementation of the CEPEJ Guidelines on mediation*, CEPEJ(2018)7REV, available at: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, p. 39;

haqqında maddənin dörd fərqli mətnini təklif edir, onlar mediasiyanın sərbəst surətdə seçilməsindən tutmuş mediasiyadan istifadə öhdəliyinin götürülməsinə qədər dəyişir və həm də qeyd olunur ki, müvəffəqiyyət əldə edilmədikdə iş sonradan arbitraj məhkəməsinə veriləcək.[235] Maddənin dəqiq mətnindən asılı olmayaraq, tərəflərin digər icraatlara müraciət etməzdən əvvəl mediasiyaya cəhd göstərməyə borclu olduqları hallarda, milli qanunverici orqanlar tərəflər bu şərti yerinə yetirmədikcə mübahisənin məhkəmədə və ya arbitrajda qəbul edilməməsini təmin etməlidirlər. Belə yanaşma bir çox ölkələrdə qəbul edilib və istifadə olunur. Məhkəmə icraatı adətən yalnız qarşı tərəfin vəsatəti əsasında dayandırılır (məsələn, İspaniya, Macarıstan, Belçikada).

Milli qanunverici orqanlar həmçinin mediasiyanın həqiqətən keçirildiyini göstərən lazımi sübut kimi nəyin qəbul edilməli olduğunu müəyyən etməyə təşviq olunurlar və beləliklə mediasiya haqqında maddə artıq aktuallıq kəsb etmir. 5.5-ci bölmədə müzakirə ediləcəyi kimi, meditasiya başa çatdıqdan sonra mediator tərəfindən hazırlanmış mediasiyanın başa çatması barədə bildiriş bu məqsədə xidmət edə bilər.

### 4.1.2. Mediasiyanın tərəflərdən birinin və ya hər ikisinin təşəbbüsü ilə başladılması

Mediasiya təşəbbüsünün irəli sürülməsi proseduru mediasiyanın başlanma anı ilə müqayisədə o qədər də vacib deyil. Bununla belə, bu proseduru aydın şəkildə müəyyən etmək tövsiyə olunur, çünki bu, sonrakı mərhələlərdə əhəmiyyət kəsb edə bilər. Bu əsasən tərəflərin mediasiyaya müraciət etmək öhdəliklərini yerinə yetirdiklərini sübut etməli olduqları hallara aiddir (məsələn, müqavilədə mediasiya haqqında maddə olduqda və ya məcburi mediasiya halında). Təşəbbüsün irəli sürülməsi prosedurunu tənzimləyən ölkələr təklifin yazılı şəkildə verilməsini və yazılı şəkildə rədd və ya qəbul edilməsini tələb edir (məsələn, Serbiya) və qarşı tərəfin cavab verməli olduğu müddəti müəyyən edirlər. O, Azərbaycanda 10 gündən[236] və Serbiyada 15 gündən[237] tutmuş Türkiyədə 30 günə[238] qədər dəyişir. CEPEJ tərəfindən qəbul edilmiş "Müqavilənin mediasiya haqqında nümunəvi maddəsi"ndə 15 günlük müddət nəzərdə tutulub[239] və buna görə də bu müddət tərəflər üçün qeyri-məcburi istinad nöqtəsi kimi tövsiyə olunur. Müəyyən edilmiş müddət başa çatdıqdan sonra heç bir cavabın olmaması faktiki imtina kimi qəbul edilir. Bu, həmçinin UNCITRAL-ın Nümunəvi Qanununun (2018) müddəalarına uyğundur.[240] Nəzərə almaq lazımdır ki, elektron vasitələrlə verilən təklif yazılı təklifə bərabərdir.

### 4.1.3. Vəzifəli şəxsin tövsiyəsi

Hakim və ya digər vəzifəli şəxs tərəfindən verilən tövsiyə tərəfləri mediaisya barədə məlumatlandırmaq və öz mübahisələrində mediasiyanı sınaqdam keçirməyə təşviq etmək üçün ən az müdaxiləedici (amma effektiv) bir üsuldur. Birincisi, tərəflər digər tərəfdən gələn təklifdən fərqli olaraq neytral tərəfin belə bir təklifini qəbul etməyə daha çox istəkli ola bilər. İkincisi, tərəflər bilirlər ki, mediasiya təklifini vermiş vəzifəli şəxs sonradan onların mübahisəsi üzrə məcburi qüvvəyə malik qərar qəbul etməli olacaq. Beləliklə, onlar əməkdaşlıq etməyən tərəf kimi görünməmək üçün üzrlü səbəb olmadan belə bir tövsiyəni rədd etməyə daha az meylli olurlar.

Tədqiqatın əhatə dairəsinə daxil olan bir çox ölkələrdə belə müddəalar var (məsələn, Belçika, Çexiya, Fransa, Almaniya, İrlandiya, Litva, İsveçrə, Türkiyədə). Hətta onların bəziləri hakimlərin üzərinə belə təkliflə çıxış etmək və ya tərəflərə mediasiya haqqında məlumat vermək vəzifəsi qoyurlar. Sloveniyada mübahisələrin alternativ həlli proqramı çərçivəsində "*məhkəmələr tərəflərə mediasiya imkanı təqdim etməyə borcludur və həmçinin mübahisələrin alternativ həllinin digər formalarını da təqdim edə bilərlər*";[241] Serbiyada "*məhkəmə və ya xüsusi qanun əsasında tərəfləri mediasiyadan istifadə imkanı barədə təlimatlandırmağa borclu olan digər orqan tərəfləri mediasiyadan istifadənin mümkünlüyü haqqında tam məlumatlandırmaq məqsədilə onlara*

---

[235] Beynəlxalq Ticarət Palatası, Mediasiya haqqında maddələr [interaktiv]. 09.03.2019 tarixinədək olan məlumatlar. Sənədi burada tapmaq olar: https://iccwbo.org/dispute-resolution-services/mediation/mediation-clauses/.
[236] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 21.7.
[237] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 17.
[238] Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325, maddə 13(2).
[239] CEPEJ, Müqavilənin mediasiya haqqında nümunəvi maddəsi. mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 39.
[240] Beynəlxalq kommersiya mediasiyası və mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında UNCITRAL-ın Nümunəvi Qanunu, 2018 (Beynəlxalq kommersiya barışığı proseduru haqqında UNCITRAL-ın Nümunəvi Qanununa (2002) dəyişiklik edilməsi), maddə 5.
[241] Sloveniya Respublikası, Mübahisələrin alternativ həlli haqqında Qanun. *Uradni list*, № 97/2009, maddə 4(2).

*bütün zəruri məlumatları təqdim etməli və ya onları mediatora yönləndirməlidir*".[242] Təbii ki, qeyri-məcburi tövsiyədən sonra mediasiya yalnız mübahisənin hər iki tərəfinin razılığı ilə başlaya bilər.

## 4.2. Məcburi əsasda

### 4.2.1. Məhkəmə icraatı üçün ilkin şərt kimi ilkin mediasiya iclasında iştirak etmək

Mediasiyaya müraciəti təşviq etmək üçün mümkün vasitələrdən biri məhkəmə icraatının ilkin şərti kimi tərəflərin peşəkar mediatorla ilkin mediasiya iclasında iştirakını tələb etməkdir. Ödənişsiz və ya aşağı qiymətə təqdim edilən bu ilkin sessiya zamanı tərəflər və onların vəkilləri mediasiyadan imtina etmək və ya mediasiyada tam həcmdə iştirak etmək barədə könüllü qərar qəbul edə bilərlər. Hər hansı qeyri-müəyyənliyə yol verməmək üçün vurğulanmalıdır ki, mediatorla ilk iclasda məcburi iştirakın tələb edilməsi tərəflərin üzərinə barışığa nail olmaq öhdəliyi qoymur və tərəflər başqa cür qərar qəbul etmədiyi halda tam mediasiya prosesini davam etdirə bilərlər. Əksinə, tərəflər sadəcə olaraq ilkin iclasda iştirak etməyə borcludurlar və qərarlarının səbəblərini göstərmədən istənilən an iclası tərk etməkdə sərbəstdirlər. Belə bir modelin bir sıra ölkələrdə mediasiyadan istifadəni təşviq etmək üçün effektiv üsul olduğu təsdiq edilmişdir. Məsələn, İtaliyada bu model il ərzində aparılan mediasiya proseslərinin sayını əhəmiyyətli dərəcədə artıraraq təxminən 150.000-ə çatdırmış, tərəflərin ilk iclasdan sonra mediasiyaya davam etmək qərarına gəldiyi işlərdə müvəffəqiyyət nisbətinin, demək olar ki, 50 faizə qədər yüksək səviyyədə saxlanmasına nail olmağa imkan yaratmışdır. 2018-ci ilin yanvar ayında mediator ilə ilk iclasda iştirak tələbini nəzərdə tutan italyan modelinin tətbiq edildiyi Türkiyədə ilkin rəqəmlər (əmək mübahisələri üçün) mediasiya proseslərinin sayının ildə 13.000-dən 600.000-ə yüksəldiyini və müvəffəqiyyət nisbətinin 68 faiz olduğunu göstərir.[243] Üstəlik, İtaliyada məhkəmə icraatı üçün ilkin mediasiya iclasının ilkin şərt olduğu müəyyən növ mübahisələr üzrə daxil olmuş məhkəmə işlərinin sayında azalma bu modelin tətbiqindən əvvəlki dövrdəki 28 faiz göstəricisindən 49 faizə endirmişdir. Həmçinin hesab edilir ki, ilkin mediasiya iclasında iştirakın tələb edilməsi ilk növbədə işin məhkəmədə həlli üçün lazım olan vaxtı azalda bilər ki, bu da birinci növbədə məhkəməyə gəlib çatan iddiaların sayının daha az olmasının nəticəsidir.[244]

Təəccüblü deyil ki, daha çox ölkə öz milli yurisdiksiyalarında mediasiyadan istifadəni təşviq etmək məqsədilə məhkəmə icraatları üçün ilkin şərt kimi tərəflərdən ilkin mediasiya sessiyasında iştirakı tələb etməyə üstünlük verir. İtaliyanı[245] bu sahədə qabaqcıl adlandırmaq olarsa, digər ölkələr, məsələn, Azərbaycan (iqtisadi, ailə və əmək mübahisələri[246]), Litva (ailə mübahisələri[247]); İspaniya (əmək mübahisələri), Türkiyə də (əmək mübahisələri, debitor borcları və kompensasiya tələbləri ilə bağlı kommersiya mübahisələri; 2020-ci ildə ailə və istehlakçı mübahisələrinin də buraya daxil edilməsi planlaşdırılır) ilkin mediasiya iclasında iştirak etmək tələbini məhkəmə icraatları üçün ilkin şərt kimi müəyyən etməyi qərara alıblar. Mübahisələrin həllində mediasiya haqqında Qanunda Serbiya da belə bir tələbin tətbiqinə yol açıb və qeyd edib ki, "*xüsusi qanunla məhkəmə və ya digər prosessual hərəkətlərin aparılmasının ilkin şərti kimi mediasiya prosedurunun başladılmasının nəzərdə tutulduğu mübahisələr istisna olmaqla, mediasiya proseduru könüllü şəkildə, tərəflərin birmənalı razılığı əsasında həyata keçirilir*".[248] Birləşmiş Krallıqda əksər ailə işlərində işi məhkəməyə verməzdən əvvəl MIAM-ın (mediasiya barədə məlumatlandırma və qiymətləndirmə iclası) keçirilməsi də qanunla tələb olunur.

Bununla belə, yuxarıda göstərilən modellər bir qədər fərqlidir. İtaliyada tərəflər mediatorla ilk iclasda iştirak etdikdə tələb yerinə yetirilmiş sayılır, tərəflər razılaşarsa, bu, tam mediasiya prosesinə çevrilə bilər[249] (başqa sözlə, mediasiyadan imtina modeli). Azərbaycandakı model buna oxşardır, lakin mediator tərəflərə mediasiya prosesinin mahiyyətini, üstünlüklərini və qaydalarını izah edir, tərəflərlə birgə və ayrılıqda görüşlər keçirir. Həmin gün və ya

---

[242] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 9.
[243] G. De Palo tərəfindən dərc olunmuş məlumatlar.
[244] G. De Palo, *Aİ-nin on illik "mediasiya paradoksu": Aİ Direktivindən daha çox şeylər tələb olunduqda…: JURI komitəsi tərəfindən tələb olunan brifinq, Avropa Parlamenti* [interaktiv], 2018. Onu burada tapmaq olar: http://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2018/608847/IPOL_BRI(2018)608847_EN.pdf, səh. 6 və 9.
[245] İtaliyada mediasiya barədə məlumatlandırma sessiyaları aşağıdakılarla bağlı mübahisələrdə məcburidir: birgə mülkiyyət, daşınmaz əmlak, əmlak bölgüsü, miras, ailə münasibətləri, icarə, girov, biznes icarəsi, həkimlərin və/və ya digər tibb işçilərinin səhvlərinə görə dəymiş zərərin ödənilməsi, yaxud mətbuat vasitəsilə və ya hər hansı digər təbliğat vasitələrinin köməyi ilə böhtan yayma, sığorta, bank və maliyyə müqavilələri. İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 5.
[246] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 28. Bu barədə müddəa 1 iyul 2020-ci ildə qüvvəyə minib.
[247] Bu barədə müddəa 1 yanvar 2020-ci ildə qüvvəyə minib. Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 21.
[248] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 9.
[249] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 8(1).

tərəflərin müraciəti ilə mediatorun təyin etdiyi başqa gün tərəflər sonrakı mediasiya sessiyalarında iştirak etmək istəyib-istəmədiklərinə dair qərar verməlidirlər.[250] Birləşmiş Krallıqda müvafiq ailə mübahisəsi ilə bağlı məhkəməyə müraciəti etməzdən əvvəl mediasiya barədə məlumatlandırma və qiymətləndirmə iclasında iştirak etmək qanunun tələbidir.[251] Bu iclaslarda həm ayrı-ayrılıqda, həm də birlikdə iştirak etmək olar. Hər iki tərəf razılaşarsa, növbəti mediasiya sessiyası üçün görüş təyin olunur (başqa sözlə, mediasiyaya qoşulma modeli). Həm qoşulma, həm də imtina modelləri effektiv ola bilər; lakin tərəflər ilkin məlumatlandırma sessiyasında birlikdə iştirak etmək məcburiyyətində olmadıqda, əlavə tədbirlər görülməli olduğu üçün həmin gün tam mediasiya prosesini davam etdirə bilməzlər. Bu, tam mediasiya prosesində faktiki iştirak faizini bir qədər azalda bilər.

Tərəflərin mediatorıla ilk iclasda iştirakının tələb edilməsi prosesin başlanması ilə bağlı müəyyən məcburiyyət səviyyəsini hələ də saxlamış olur. Buna görə də, milli qanunverici orqanlar "*üzv dövlətlər üçün ümumi olan,[252] İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6 və 13-cü maddələrində təsbit edilmiş[253] və eyni zamanda Avropa İttifaqının Əsas hüquqlar haqqında Xartiyasının 47-ci maddəsi ilə təsdiq edilmiş[254] konstitusiya ənənələrindən irəli gələn*" səmərəli məhkəmə müdafiəsi prinsipini pozmamaq üçün diqqətli olmalıdırlar. Buna görə də onlar belə bir tələbin əsas məqsədlərinə, yəni həyata keçirilən (uğurlu) mediasiya proseslərinin sayının artırılması və məhkəmədə baxılan işlərin sayının azaldılması məqsədlərinə nail olmaqla yanaşı, eyni zamanda səmərəli məhkəmə müdafiəsini təmin edə bilmək üçün aşağıda müəyyən edilmiş konkret meyarlara diqqət yetirməyə təşviq olunurlar.

AİƏM səmərəli məhkəmə müdafiəsi prinsipinə əməl edilməklə mediasiyaya cəhd etmə tələbi ilə bağlı ayrı-ayrı iki iş üzrə qərar qəbul etmişdir: iş № C-317/08-C-320/08, *Alassini və başqalarının işi* üzrə 18 mart 2010-cu il tarixli qərar və iş № C-75/16, *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərar. Onların heç birində AİƏM mediasiyaya cəhd tələbinin səmərəli məhkəmə müdafiəsi prinsipini, ekvivalentlik və effektivlik prinsiplərini və ya nəzərdən keçirilən Aİ qanunvericiliyini pozduğu qənaətinə gəlməmişdir.[255] Bununla belə, pozuntunun baş vermədiyi qənaətinə yalnız bu şərtlə gəlinmişdir ki, "*həmin prosedur tərəflər üçün məcburi olan qərarla nəticələnməsin, məhkəmə icraatının başlanması üçün əhəmiyyətli ləngiməyə səbəb olmasın, iddia müddətinin axımını dayandırsın və bu, tərəflər üçün xərclərə səbəb olmasın (və ya çox az xərclərə səbəb olsun) və elektron vasitələr barışıq yolu ilə həll proseduruna müraciət etmək üçün yeganə vasitə olmasın və vəziyyətin təxirəsalınmazlığının tələb etdiyi müstəsna hallarda aralıq (müvəqqəti təminedici) tədbirlərin görülməsi mümkün olsun*".[256] AİƏM həmçinin qeyd edib ki, sözügedən Aİ qanunu "*istehlakçıya yalnız əsaslı səbəbə görə öncə mediasiya prosedurunda iştirak etməkdən imtina hüququ verən milli qanunvericiliyin tətbiqinə mane olmur, bu şərtlə ki, mediatorla ilk iclasdan dərhal sonra onun mediasiya prosedurundan imtina etmək hüququ məhdudlaşdırılmasın*".[257] Milli qanunverici orqanlar, ölkələrinin Aİ-yə daxil olub-olmamasından asılı olmayaraq, öz milli qanunlarında mediasiyaya cəhd etmə tələbini nəzərdə tutarkən bu meyarları nəzərə almağa təşviq olunurlar.

Bundan əlavə, tərəflərin hüquqlarının daha yaxşı qorunması üçün mediatorla ilk iclasda iştirak tələbindən istisnalar müəyyən edilə bilər. Məsələn, Birləşmiş Krallıqda ailə mübahisəsində iştirak edən tərəfin MİAM-da iştirak etmək məcburiyyətində qalmadığı bir neçə istisna hal nəzərdə tutulub. Bu istisnalara, məsələn, təxirəsalınmaz işlər, müflisləşmə işləri, məişət zorakılığı işləri, uşaqların müdafiəsi ilə bağlı məsələlər və digərləri daxildir.[258] CEPEJ tərəfindən qəbul edilmiş bir neçə sənəddə, daha dəqiq desək, "Hakim tərəfindən mediasiyaya

---

[250] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 29.1.
[251] Birləşmiş Krallıq, Uşaqlar və ailələr haqqında Qanun, 2014, maddə 10(1).
[252] Avropa İttifaqına üzv dövlətlər.
[253] 4 noyabr 1950-ci ildə Romada imzalanmış İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası.
[254] AİƏM, iş № C-317/08-C-320/08, *Alassini və başqalarının işi* üzrə 18 mart 2010-cu il tarixli qərar, 61-ci bənd.
[255] AİƏM-in *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərarı (iş № C-75/16) "İstehlakçı mübahisələrinin alternativ həlli haqqında və (EC)2006/2004 saylı Reqlamentdə və 2009/22/EC saylı Direktivdə dəyişiklik edilməsi barədə" Avropa İttifaqı Parlamentinin və Şurasının 21 may 2013-cü il tarixli 2013/11/EU saylı Direktivinin (OJ, L 165/63, 2013), *Alassini və başqalarının işi* üzrə 18 mart 2010-cu il tarixli qərarı isə (iş № C-317/08-C-320/08) Avropa İttifaqı Parlamentinin və Şurasının "Elektron kommunikasiyalar, şəbəkələr və xidmətlərlə bağlı universal xidmət və istifadəçilərin hüquqları haqqında" 7 mart 2002-ci il tarixli 2002/22/EC saylı Direktivinin (OJ, L 108/51, 2002) işığında qəbul edilmişdir.
[256] AİƏM, iş № C-317/08-C-320/08, *Alassini və başqalarının işi* üzrə 18 mart 2010-cu il tarixli qərar, 67-ci bənd.
[257] AİƏM, iş № C-75/16, *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərar, 70-ci bənd.
[258] Birləşmiş Krallıq, "Ailə işləri üzrə prosessual qaydalar", qayda 3.8.

yönləndirilmə üzrə Təlimat"da[259] və "Mediasiyaya dair tez-tez verilən suallar (FAQ)" [260] sənədində mediasiyanın məqsədəuyğun ola biləcəyi hallar təsvir edilir. Bu hallar həm də istisnaların siyahısını formalaşdırarkən nəzərə alına bilər. Lakin bu sənədlərin məqsədi fərqli olduğundan, orada göstərilən halların heç də hamısı aktual deyil. Bundan əlavə, istisnalar, əgər tətbiq olunarsa, aydın və birmənalı şəkildə ifadə edilməlidir.

Tərəflərin birinci əldən məlumat ala biləcəyi və prosesin mahiyyətini başa düşə biləcəyi mediatorla tanışlıq xarakterli ilk iclasda iştirak etmək tələbi tərəflərə mübahisələrini həll etmək üçün mediasiyanın uyğun üsul olub-olmaması barədə məlumatlı şəkildə qərar qəbul etməyə imkan verir. Xüsusilə mediasiyadan imtinanın mümkünlüyünü nəzərdə tutan belə bir model tərəflərin səmərəli məhkəmə müdafiəsi hüquqlarının məhdudlaşdırılmadan qalmasına imkan verə və onları mediasiyaya cəhd göstərməyə təşviq edə bilər, belə ki, onlar nediasiyanı davam etdirmək istəmədikdə səbəb göstərmədən prosesi tərk edə bilərlər. Düzgün şəkildə həyata keçirilərsə, yuxarıda təsvir edilən bəzi ölkələrin uğurlu nümunələrindən göründüyü kimi, bu model mediasiyaya müraciətlərin sayını artırmaq üçün güclü alət ola bilər. Bununla belə, bu cür modelin işləməsi üçün milli qanunverici orqanlar belə bir tələbin nə vaxt yerinə yetirilmiş hesab edildiyinin hüquq normalarında dəqiq şəkildə göstərilməsini, zəruri hallarda istisnaların nəzərdə tutulmasını və yuxarıda qeyd olunan ədalətli məhkəmə araşdırması hüququ ilə bağlı meyarlara riayət ediiməsini təmin etməlidirlər.

### 4.2.2. Hakim tərəfindən mediasiyaya yönləndirilmə

Mediasiyaya cəhd etmə tələbinə bu cür yanaşmanın ən yaxşı xüsusiyyəti ondan ibarətdir ki, o, hakimə tərəfləri mediatorla ilk iclasa yönləndirməzdən əvvəl vəziyyəti qiymətləndirmək imkanı verir. Bu, tərəflərin razılığa gəlməsi ehtimalını artırır. Bununla belə, hakim tərəfindən mediasiyaya yönləndirilmə ətrafındakı iki ümumi yanlış təsəvvür belə bir yönləndirilmənin geniş ictimaiyyətin gözündə etibarını azaldır. Birincisi, qeyd etmək lazımdır ki, mediasiyanın hakim tərəfindən təyin edilməsi faktı o demək deyil ki, mediasiya zamanı yalnız mübahisənin hüquqi məsələləri müzakirə oluna və ya nəzərə alına bilər. Tərəflər həll yolu axtararkən yaradıcı şəkildə həll yolu tapmaqda və maraqlarını və ehtiyaclarını nəzərə almaqda sərbəstdirlər. İkincisi, dəqiqləşdirməyə dəyər ki, hakimlər tərəflərə mübahisəni həll etmək barədə göstəriş verməməli, sadəcə olaraq onların mübahisəsinin mediasiya yolu ilə həllinə çalışmalıdırlar. Mediasiya zamanı həll yolu tapılmadıqda, tərəflər hakimin iş üzrə qərar çıxarması üçün məhkəməyə müraciət etmək imkanını saxlayırlar.

Adətən hakimlər məhkəmə icraatının ilkin mərhələlərində (məsələn, Belçika,[261] Litva) tərəfləri mediasiyaya yönləndirməyə təşviq olunurlar. Məsələn, Belçikada "*hakim tərəflər arasında barışığın mümkün olduğunu hesab edərsə, hazırlıq iclasında, öncə işin icraata qəbul edilməsi məsələsinə baxıldığı iclasda, yaxud cavabdehin ilk arqumentlərini təqdim etdiyi ayın son günündən gec olmayan tarixə təyin olunmuş iclasda tərəfləri dinlədikdən sonra öz təşəbbüsü ilə və ya tərəflərdən birinin müraciəti ilə tərəflərin mediasiyaya müraciət etməsi barədə qərar verə bilər*".[262] Lakin həmin ilkin mərhələdə hakim tərəflər və baxılan işlə tam tanış olmaya bilər. Bundan başqa, məhkəmə icraatı zamanı tərəflərin mövqeləri və barışmaq istəyi dəyişə bilər. Ona görə də, hakimin iş üzrə qərar qəbul edilənə qədər prosesin istənilən mərhələsində tərəflərin mediasiyaya müraciət etmələrini tələb edən qərar qəbul etməsinə icazə verilməsi tövsiyə olunur. Məsələn, İtaliyada "*hakim hətta apellyasiya instansiyasında da işin mahiyyətini, məhkəmə araşdırmasının mərhələsini və tərəflərin davranışını qiymətləndirdikdən sonra tərəflərə mediasiyaya cəhd etmə barədə göstəriş verə bilər; bu halda mediasiya, hətta apellyasiya şikayəti verildiyi halda belə, həmin apellyasiya icraatına buraxılma üçün şərtdir. Mediasiya iş üzrə yekun çıxışlardan əvvəl və yaxud iş üzrə dinləmə keçirilməsi gözlənilmirsə, tərəflərin arqumümtlərinin şifahi müzakirəsindən əvvəl istənilən vaxt keçirilə bilər*".[263]

---

[259] CEPEJ, Hakim tərəfindən mediasiyaya yönləndirilmə üzrə Təlimat. Mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 16.

[260] CEPEJ, Mediasiyaya dair tez-tez verilən suallar (FAQ): Hakimlər, məhkəmələrin qeyri-hakim əməkdaşları, mediatorlar, mediasiya xidmətləri göstərənlər, hüquqşünaslar və digər peşəkarlar, mediasiyadakı maraqlı tərəflər və mediasiya istifadəçiləri üçün Təlimat. Mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 54.

[261] Belçikada mediasiya yalnız qismən məcburidir – tərəflərdən heç biri buna razılıq vermədikdə o təyin edilə bilməz. Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1734(1).

[262] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1734(1).

[263] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 5.

Hakimlər tərəflərin üzərinə mediasiyanı sınaqdan keçirmək öhdəliyi qoyan əmrdə və ya qərarda növbəti prosessual addımları müəyyən edir və proseduru tərəflərə izah edir. Bu addımlara mediasiyanın aparılmalı olduğu müddətin müəyyən edilməsi daxildir və mediatorun və ya tərəflərin müraciəti ilə həmin müddətin uzadılması mümkündür. Məsələn, Litvada mübahisənin məhkəmə ilə əlaqəli mediasiyaya verilməsi barədə qərar çıxarıldıqda "*icraat təxirə salınmalı və növbəti məhkəmə iclasının dəqiq vaxtı təyin edilməlidir. Məhkəmə ilə əlaqəli mediasiya növbəti məhkəmə iclasının keçiriləcəyi gündən gec olmayaraq başa çatır. Mediatorun müraciəti ilə məhkəmə iclasının təxirə salınmasının müddəti işi araşdıran hakimin (və ya məhkəmə kollegiyasının) verdiyi qərarla uzadıla bilər*".[264] Məhkəmə ilə əlaqəli mediasiyanın aparılması üçün müddət (bu müddət məcburi olmaya bilər) nadir istisnalarla[265] 3 ay üçün təyin olunur (məsələn, Kipr, Çexiya, Fransa, İtaliya, Polşa, Sloveniya, Türkiyə), amma müddətin müəyyən edilməsi həm də hakimin öhdəsinə buraxıla bilər.

Bu cür qərardan şikayət etmək imkanı ilə bağlı müddəalar ölkədən-ölkəyə fərqlidir. Məsələn, Belçikada[266] və ya Çex Respublikasında şikayət verilə bilməz,[267] Sloveniyada isə verilə bilər.[268] Tərəflərin üzərinə mediatorla ilk iclasda iştirak etmək öhdəliyinin qoyulması, əvvəlki fəsildə qeyd olunan şərtlər yerinə yetirildiyi təqdirdə, tərəflərin hüquqlarını pozmur.[269] Beləliklə, bu şərtlər milli qanunvericilikdə təmin olunduğu təqdirdə şikayət proseduruna ehtiyac olmaya bilər.

## 5. Mediasiya prosesi

### 5.1. Mediasiyadan əvvəl

#### 5.1.1. Mediatorun təyin edilməsi

Bir qayda olaraq, tərəflər istədikləri təqdirdə mediator və ya müştərək mediatorlar seçməkdə sərbəstdirlər (məsələn, Azərbaycan, Belçika, Xorvatiya, Almaniya, Fransa, Litva, Polşa, Serbiya, Türkiyə). Bununla belə, praktikada tərəflər digər tərəfin təklif etdiyi mediatorla bağlı razılaşmaqda çətinlik çəkir və mübahisələrində kimin mediatorluq etməli olduğuna dair həmişə konsensusa gələ bilmirlər. Milli qanunveriiclik aktları adətən münaqişə tərəflərini mediatoru təyin edə və ya tövsiyə edə biləcək üçüncü tərəfə yönləndirir. Sloveniya, UNCITRAL-ın Nümunəvi Qanununda[270] tövsiyə olunduğu kimi, tərəflərin bu çətinliklərini aradan qaldırmaq və mediatorların qərəzsizliyini və neytrallığını təmin etmək üçün daha da irəli getmişdir: "*Şəxs və ya qurum mediatorun müstəqilliyini və qərəzsizliyini təmin etmək üçün və ya digər əsaslı səbəblərə görə lazım gəldikdə vətəndaşlığı tərəflərinkindən fərqli olan mediatoru tövsiyə edə və ya təyin edə bilər*".[271]

Milli hüquq normalarından asılı olaraq, mediatoru təyin edən və ya tövsiyə edən üçüncü tərəf mediasiyaya cavabdeh olan dövlət orqanı ola bilər (məsələn, Litvada məcburi mediasiya çərçivəsində tərəflər ya özləri mediator seçə bilər, ya da mediator mediatorların siyahısını idarə edən Dövlət Hüquqi Yardım İdarəsi tərəfindən təyin edilə bilər[272]); tərəflər razılaşarsa, bunu mediasiya xidməti göstərən subyekt də edə bilər (məsələn, İtaliyada "*mediasiya üçün vəsatəti aldıqdan sonra mediasiya xidməti göstərən subyektin direktoru mediator təyin edir və vəsatətin verildiyi tarixdən otuz gündən gec olmamaq şərti ilə tərəflər arasında ilk iclası təyin edir*"[273]).

Məhkəmə ilə əlaqəli mediasiyaya gəlincə, tərəflər üstünlük verdikləri mediatoru təklif etməkdə sərbəstdirlər, bu adətən hakim tərəfindən nəzərə alınır (mediatorun müəyyən edilmiş meyarlara cavab vermədiyi hallar istisna olmaqla). Tərəflər özləri qərar verə bilmirlərsə, o zaman mediator hakim tərəfindən təyin edilir. Məsələn, Belçikada

[264] Litva Respublikası, Mülki Prosessual Məcəllə, *Valstybės žinios*, 2002, № 36-1340, maddə $231^1$(3).
[265] Serbiya Respublikasında Mübahisələrin həllində mediasiya haqqında Qanunun 18-ci maddəsində 60 günlük müddət nəzərdə tutulub.
[266] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1737.
[267] Çex Respublikası, Mülki Prosessual Məcəllə. 1963 (2012-ci ildə edilmiş dəyişikliklərlə), № 99/1963 (Qanunlar toplusu), maddə 202.
[268] Sloveniya Respublikası, Mübahisələrin alternativ həlli haqqında Qanun. *Uradni list*, № 97/2009, maddə 19(3).
[269] AİƏM, iş № C-75/16, *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərar, 61-ci bənd.
[270] Beynəlxalq kommersiya mediasiyası və mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında UNCITRAL-ın Nümunəvi Qanunu, 2018 (Beynəlxalq kommersiya barışığı proseduru haqqında UNCITRAL-ın Nümunəvi Qanununa (2002) dəyişiklik edilməsi), maddə 6(5).
[271] Sloveniya Respublikası, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Uradni list*, № 56/2008, maddə 7(3).
[272] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 21(2 və 3).
[273] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 8(1).

“*tərəflər və ya onlar iştirak etmədikdə vəkilləri birlikdə hakimə onun özünün seçəcəyi və ya onların göstərdiyi mediatoru təyin etməsi üçün vəsatət verə bilərlər. Tərəflərin göstərdiyi mediatorun və ya mediatorların 1726-cı maddədə müəyyən edilmiş şərtlərə cavab vermədiyi hallar istisna olmaqla, hakim bu vəsatəti təmin edir. Tərəflər hansı mediatorun və ya mediatorların təyin edilməsi barədə razılığa gəlmədikdə, hakim, öz növbəsində, 1727-ci maddədə göstərilən mediatorlar siyahısından akkreditə olunmuş mediatoru və ya mediatorları təyin edir <…>*”.[274]

### 5.1.2. Xərclərlə bağlı qərar

Xərclərin bölüşdürülməsi ilə bağlı qərar vermək ilk növbədə tərəflərin öhdəsinə qoyulmalı olsa da və onlarla mediator arasındakı müqavilədə göstərilməli olsa da, konsensus əldə olunmadığı hallarda, xüsusən də məhkəmə ilə əlaqəli mediasiya hallarında bu məsələ ilə bağlı qayda müəyyən etmək faydalıdır. Xərclərin bölüşdürülməsini tənzimləyən milli qanunların əksəriyyətində göstərilir ki, tərəflər öz xərclərini öz üzərinə götürməli, mediasiya xərcləri isə bərabər ödənilməlidir (məsələn, Xorvatiya, Çexiya, İrlandiya, Serbiya, Sloveniya, Türkiyə). Onu da qeyd etmək lazımdır ki, bəzi hallarda, xüsusən də məhkəmə ilə əlaqəli mediasiya hallarında hakim tərəflərin maddi vəziyyətindən asılı olaraq xərclərin bölgüsünü fərqli nisbətdə müəyyən edə bilər.[275] Digər hallarda (uğursuz nəticələnən) mediasiyanın xərcləri sonradan aparılan məhkəmə icraatının xərclərinə daxil edilə bilər (məsələn, Polşada “*barışıq sazişi ilə nəticələnməyən mediasiya başa çatdıqdan və ya barışıq sazişini təsdiq etməkdən imtina barədə məhkəmə qərarı qanuni qüvvəyə mindikdən sonra üç ay ərzində iş üzrə mülki icraat başlandıqda, icraatın aparılması üçün zəruri olan xərclərə mediasiya haqqının dörddə birindən artıq olmayan məbləğdə mediasiya xərcləri daxil edilir*"[276]). Hakimin təyin edilən xərclərin bərabər bölgüsü prinsipindən kənara çıxmasına mənfi baxılmamalıdır. Bununla belə, milli qanunverici orqanlar, 7.2.1-ci bölmədə müzakirə ediləcəyi kimi, hakimlərin hansı hallarda və hansı meyarlar əsasında bir tərəfin üzərinə mediasiyadan irəli gələn xərclərin daha böyük hissəsini ödəmək öhdəliyi qoymaq səlahiyyətinə malik olduğunu aydın şəkildə müəyyən etməlidirlər.

### 5.1.3. Mediasiya barədə razılaşma

Mediasiyanın tənzimlənmədiyi və ya zəif tənzimləndiyi ölkələrdə mediasiya barədə razılaşma həlledici əhəmiyyətə malikdir. Tərəflər mediaisya ilə bağlı bəzi məsələləri, məsələn, iddia müddətlərinin axımının dayandırılmasını razılaşdırmaq hüququna malik olmasalar da, hər halda öz mediasiya proseslərinin ən azı əsas standartlarını müəyyən edə bilərlər. Bu standartlar konfidensiallığa, mediasiya vasitəsilə əldə edilmiş barışıq sazişinin yalnız yazılı şəkildə tərtib edildiyi və imzalandığı andan məcburi xarakter almasının dərkinə və digər amillərə əsaslana bilər.

Mediaisya prosesinin təfərrüatlı şəkildə tənzimləndiyi ölkələr də tərəflərdən mediasiyadan əvvəl mediasiya haqqında müqavilə imzalamağın tələb edilməsinə üstünlük vermişlər (məsələn, Azərbaycan, Belçika, Çexiya, Kipr, İrlandiya, Polşa, İspaniya). Onlar mediasiya müqaviləsində nələrin əks etdirilməli olduğunu da müəyyən etmişlər. Belə bir yanaşma üç əsas səbəbə görə təşviq edilir. Birincisi, bu, tərəflər üçün proseslə bağlı məsələlərə aydınlıq gətirir və xüsusən də sonradan xidmət haqqı ilə bağlı mübahisələrdən onların qurtulmasına kömək edir. Məsələn, Litvada "*mediasiya ödəniş müqabilində təmin edildikdə <…> mediasiya prosesi yalnız tərəflər və mediator qonorarın həcmi və ödəniş qaydası barədə yazılı razılığa gəldikdən sonra başlaya bilər*".[277] İkincisi, həmin müqavilə sübut kimi istifadə oluna bilər, məsələn, müəyyən mediatorun mübahisədə mediatorluq etdiyini və buna görə də məhkəmədə ifadə verməyə məcbur edilə bilməyəcəyini sübut etmək üçün həmin müqaviləyə ehtiyac ola bilər. Üçüncüsü, bir çox müddəalar tərəflərin qanunvericilik aktında göstəriləndən fərqli razılığa gəlməsinə imkan verir və ya onların birmənalı razılığını tələb edir. Məsələn, tərəflər:

a) mediasiya əvəzinə müştərək mediasiyanı seçə bilər (məsələn, Xorvatiyada “*tərəflər mediasiyanın bir və yaxud bir neçə mediator tərəfindən həyata keçiriləcəyini və kimin mediator qismində təyin ediləcəyini razılaşdırırlar*”[278]);

b) mediasiya xərclərini tərəflərin özləri ödədiyi halda onların bərabər bölüşdürülməsi ilə bağlı ümumi qaydadan kənara çıxa bilər (məsələn, Serbiyada "*əgər tərəflər başqa cür razılaşdırmayıbsa, mediasiya prosedurunda hər bir tərəf öz xərclərini ödəyir, ümumi xərcləri isə tərəflər bərabər paylarla ödəyirlər*"[279]);

---

[274] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1734(1/1).
[275] Fransa Respublikası, İnzibati işlər üzrə ədalət mühakiməsi məcəlləsi, maddə L213-8.
[276] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595, maddə 98$^1$(2).
[277] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 18(6).
[278] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 7(2).
[279] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 29.

c) üçüncü tərəflərin və ya ekspertlərin iştirakını nəzərdə tuta bilər (məsələn, Almaniyada "*yalnız bütün tərəflərin razılığı ilə üçüncü tərəflər mediasiyada iştirak edə bilər*"[280]);

d) mediatorun təkliflər verməsinə razılıq verə bilər (məsələn, İrlandiyada "*mediator bütün tərəflərin müraciəti ilə mübahisənin həlli üçün təkliflər verə bilər, amma belə təklifləri qəbul edib-etməmək barədə tərəflər özləri qərar verməlidirlər*"[281]);

e) mediasiya xidməri göstərən müəyyən subyekt tərəfindən və digərləri tərəfindən müəyyən edilmiş prosedur qaydalarını rəhbər tuta bilər (məsələn, Serbiyada "*tərəflər müəyyən prosedur qaydalarına və ya hər hansı digər qaydalara istinad etməklə mediasiya proseduru qaydaları barədə sərbəst şəkildə danışıqlar apara bilərlər*"[282]);

f) mediatora ayrı-ayrılıqda keçirilən sessiyalardan (iclaslardan) istifadə etməyə və onlardan istifadə qaydasını müəyyən etməyə icazə verə bilərlər.

Onu da qeyd etmək lazımdır ki, mediasiyanın gedişində ehtiyac yaranarsa, mediasiya haqqında müqavilələrdə dəyişikliklər edilə bilər.

Tərəflər mediasiya haqqında müqaviləyə lazım bildikləri istənilən müddəaları daxil etməkdə sərbəst olsalar da, həmin müddəalar imperativ hüquq normalarına zidd olmamalıdır. Buna görə də belə müqavilənin nümunəvi formasının təsdiq edilməsi tövsiyə olunur. Nümunəvi formanın nümunəsini CEPEJ tərəfindən qəbul edilmiş "Mediasya bacarıqlarının inkişafı üzrə alətlər dəsti"ndə[283] tapmaq olar. Tövsiyə olunan, xüsusilə beynəlxalq səviyyədə tanınan nümunəvi formanın tətbiqi tərəflərin mediasiya barədə razılığa gəlməsini və mediasiyanın başladılmasını asanlaşdıra bilər. Beləliklə, milli qanunverici orqanlar "Mediasiyaya dair nümunəvi müqavilə"dən minimum standart kimi istifadə etməyə təşviq olunurlar.

### 5.2. Mediasiyanın başladılması

Bir qayda olaraq, mediaisya tərəflərinə konfidensiallığn qorunması və yaxud iddia müddətinin və digər prosessual müddətlərin axımının dayandırılması kimi prosessual təminatlar verilir. Bundan əlavə, bəzi ölkələr mediaisya prosesi üçün müddət məhdudiyyətləri müəyyən edir (məsələn, Kipr, Çex Respublikası, Fransa, İtaliya, Serbiya, Sloveniya, Türkiyə). Buna görə də, bu təminatların nə vaxt tətbiq olunmağa başlaması və ya müddətlərin tətbiqinin nə vaxtdan başlanması ilə bağlı aydınlığa ehtiyac var. Buna görə də, mediasiyanın başlandığı (və 5.5-ci bölmədə müzakirə ediləcəyi kimi, başa çatdığı) dəqiq anı müəyyən etmək təkidlə tövsiyə olunur.

Bəzi milli qanunlar bu cür tövsiyələrə uyğundur (məsələn, Xorvatiya, Kipr, Çexiya, Sloveniya, Türkiyə), digər ölkələr isə bir qədər fərqli yol tutmuş və mediasiyanın başlandığı anı yalnız müəyyən müddət ilə və ya konkret prosessual təminatla əlaqəli şəkildə müəyyən etmişlər. Məsələn, İrlandiyada "*Müddət məhdudiyyətləri haqqında Qanunla müəyyən edilmiş iddia müddəti axımının məqsədləri üçün hesablanan müddət mediasiya haqqında müqavilənin imzalandığı gündən başlayır və (a) mediasiya vasitəsilə barışıq haqqında sazişin tərəflər və mediator tərəfindən imzalanmasından və ya (b) mediasiya prosesinin başa çatmasından 30 gün sonra bitir (hansının birinci baş verməsindən asılı olaraq)*";[284] İtaliyada: "*1. Mediasiya proseduru üç aydan çox davam etməməlidir. 2. 1-ci bənddə göstərilən müddət mediasiya üçün vəsatətin verildiyi gündən və ya məhkəmə tərəfindən həmin vəsatətin verilməsi üçün müəyyən edilmiş müddət bitdikdən sonra başlayır* <…>".[285]

Mediasiyanın başlanma anının özü bir neçə fərqli anla əlaqələndirilə bilər. Bu tədqiqatın əhatə etdiyi ölkələrdə aşkar edilmiş nümunələrdə başlanma anı kimi aşağıdakılar götürülür:

a) mediasiya haqqında müqavilənin imzalanması (məsələn, Çex Respublikası[286]);

---

[280] Almaniya Federativ Respublikası, Mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I, səh. 1577, 2012, maddə 2(4).

[281] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 8(4).

[282] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 23.

[283] CEPEJ, Standart mediasiya formaları. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV [10.03.2019 tarixinədək olan məlumatlar], sənədi burada tapmaq olar:: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 30-33.

[284] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 18.

[285] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 6.

[286] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 4.

b) mediasiyanın davam etdirilməsi ilə bağlı razılığın əldə edildiyi və protokolla sənədləşdirildiyi ilk iclasın keçirilməsi (məsələn, Türkiyə[287]);
c) qarşı tərəfdən mediasiyaya başlamaq barədə təklifin alınması (məsələn, Sloveniya[288]);
d) mediasiyaya təklifinin qəbul edilməsi (məsələn, Xorvatiya[289]);
e) mediasiya xidməti göstərən subyektə (məsələn, İtaliya[290]) və ya mediatora (məsələn, Türkiyə) müraciət edilməsi;
f) məhkəmə ilə əlaqəli mediasiya çərçivəsində qərarın qəbul edildiyi tarix (məsələn, Kipr[291]).

Məhkəmə ilə əlaqəli mediasiyaya gəlincə, mediasiyanın başlanma anını tənzimləyən milli hüquq normaları nisbətən oxşardır. Onların əksəriyyəti mediasiyanın başlanğıc gününü tərəflərin mediasiyaya müraciət etmək qərarına gəldiyi və ya mediasiyaya yönləndirildiyi barədə hakimin əmr və ya qərar verdiyi günlə əlaqələndirir. Lakin bu halda milli qanunverici orqanlar belə qərarın faktiki icrasının mümkünlüyünü təmin etməlidirlər. Məsələn, hakim qərarda mediasiyaya başlamaq üçün müddətləri göstərə bilər. Məhkəmə icraatının dayandırılmasından və ya digər prosessual təminatlardan sui-istifadə edilməsi hallarının qarşısını almaq üçün mediasiya faktiki olaraq başlanmadığı təqdirdə sanksiyalar nəzərdə tutula bilər.

Məhkəmədənkənar mediasiyaya gəlincə, qaydalar və imkanlar məhkəmə ilə əlaqəli mediasiya ilə müqayisədə daha da müxtəlifdir. Yuxarıda sadalanan mümkün istinad anları arasında mediasiyanın başlanma anı kimi mediasiya haqqında müqavilənin imzalandığı tarixdən istifadə etmək tövsiyə olunur. Birincisi, təklifin verilməsindən və yaxud hətta qəbul edilməsindən fərqli olaraq, mediasiya müqaviləsi hər iki tərəf və mediator tərəfindən imzalandıqdan sonra mediasiyanın baş tutacağı qətiləşmiş olur. İkincisi, mediasiya barədə təklifin verildiyi və ya qəbul edildiyi tarixin müəyyənləşdirilməsi ilə müqayisədə (xüsusən də bu, yazılı şəkildə baş verməyibsə) mediasiya haqqında müqavilənin imzalandığı dəqiq tarixi müəyyən etmək daha asandır. Üçüncüsü, mediasiya haqqında müqavilədə mediatorun kimliyi də göstərilir və konfidensiallığın qorunması və ya mediasya zamanı əldə edilmiş məlumatlarla bağlı ifadə verməkdən imtina etmə kimi prosessual təminatlar ona da şamil olunur. Beləliklə, bu, təkcə tərəflər üçün deyil, həm də mediator üçün aydınlıq və müəyyənlik yaradır.

Tövsiyə olunur ki, ardıcıl yanaşma tətbiq edilməklə, tərəflərin üzərinə mediasiya müqaviləsini imzalamaq öhdəliyi qoyulsun və mediasiyanın başlanma anı müqavilədə göstərilən gün ilə əlaqələndirilsin. Lakin belə bir modelin tətbiqi mümkün olmadıqda, yuxarıda adları çəkilən digər tarixlər də qarşılıqlı surətdə əvəzlənməklə istifadə edilə bilər, bir şərtlə ki, həmin tarix mübahisənin mahiyyəti ilə bağlı hər hansı müzakirələrin başlanmasından əvvəlki tarix olsun və mediasiyanın başlanmasının dəqiq tarixinin tərəflər və mediator tərəfindən asanlıqla və birmənalı şəkildə müəyyənləşdirilməsi mümkün olsun.

### 5.3. Mediasiya zamanı

Mediasiya prosesi və onun strukturu mediatorun iradəsindən və mediasiya xidməti göstərən subyektin qaydalarından asılıdır. Nə qədər ki prosessual təminatlar (onlar 5.4-cü bölmədə daha ətraflı müzakirə olunacaq) mövcuddur və mediatorlar qərəzsizlik və neytrallıq standartlarına riayət etməklə öz vəzifələrini yerinə yetirirlər (3.2.1-ci bölmədə qeyd edildiyi kimi), milli qanunverici orqanlar prosesə çox da müdaxilə etməməlidir. İlk növbədə tövsiyə olunur ki, tərəflərin razılığının olması şərti ilə, mediatorların prosesi uyğun hesab etdikləri şəkildə təşkil etmələrinə icazə verilsin. Bununla belə, mediasiya prosesinin özü ilə bağlı milli qanunlarda həll oluna bilən və həll edilməli olan bir neçə məsələ var, yəni söhbət elektron vasitələrin istifadəsindən, vəkillərin iştirakından və üçüncü tərəflərin cəlb olunmasından gedir.

a) Elektron vasitələrin istifadəsi

Ənənəvi olaraq, mediasiya üzbəüz aparılır. Bununla belə, tərəflər prosesə elektron vasitələrin daxil edilməsindən faydalana bilərlər. Buna görə də beynəlxalq sənədlər elektron və onlayn alətlərdən istifadəni

[287] Məhkəməyə iddia ərizəsi hələ verilmədiyi halda. Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325, maddə 16(1).
[288] Tərəflər mediasiya haqqında maddəni yerinə yetirməyə borcludursa. Sloveniya Respublikası, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Uradni list*, № 56/2008, maddə 6(1).
[289] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 6(2).
[290] Məcburi mediasiya halında. İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 6.
[291] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 17.

təşviq edir.[292] Bir sıra ölkələrin (məsələn, Kipr, İtaliya, Litva) milli qanunlarında da onlardan istifadənin mümkünlüyü qeyd olunur. İspaniyada tərəflər hətta elektron vasitələrdən istifadə etməyə birbaşa təşviq olunurlar (“*Tərəflərdən hər hansı birinin belə bir imkanının olmadığı hallar istisna olmaqla, məbləği 600 avrodan çox olmayan iddia üzrə mediasiyanın elektron vasitələrlə həyata keçirilməsinə üstünlük verilməlidir*"[293]). Elektron vasitələrin istifadəsi prosesin əlçatanlığını artıra bilər. Bunun səbəbləri aşağıdakılardır: birincisi, müxtəlif növ video və telekonfrans həllərindən istifadə səyahət etmə zərurətini və nəticədə mediasiya xərclərini azaldır; ikincisi, danışıq aparma alətləri mediatora və tərəflərə prioritet həlləri daha qısa müddətdə müəyyənləşdirməyə və tələbatlara daha yaxşı uyğunlaşdırılmış həllər tapmağa kömək edə bilər. Buna görə də bu, müsbət təcrübə hesab olunur.

Bununla belə, bu cür imkan təklif edən mediatorlar, mediasiyanın seçilmiş formasından asılı olmayaraq, mediasiyaya və mediatorun davranışına dair prosessual tələblərin yerinə yetirilməsini təmin etməlidirlər. Bu məsələyə mediasiya xidməti göstərən subyektin qaydalarında (məsələn, İtaliyada *“mediasiya prosesi mediasiya xidməti göstərən subyektin qaydalarında nəzərdə tutulmuş elektron üsullardan istifadə etməklə həyata keçirilə bilər*”[294]) və ya qanunvericilik aktının özündə istinad edilə bilər (İspaniyada elektron vasitələrlə mediasiya yalnız “*maraqlı tərəflərin identikləşdirilməsinin təmin edilməsi və bu Qanunla müəyyən edilmiş mediasiya prinsiplərinə riayət edilməsi*” şərti ilə həyata keçirilə bilər[295]). Üstəlik, hər kəsin internetə çıxışı yoxdur və çıxışı olanların heç də hamısı ondan rahat istifadə edə bilmir. Beləliklə, elektron vasitələr mübahisələrin həlli üçün yeganə yol olaraq qalmamalı və tərəflər mediasiya zamanı hansı üsula müraciət edəcəklərini seçməkdə sərbəst olmalıdırlar. Bu, xüsusən məhkəmə icraatının ilkin şərti kimi tərəflərin mediatorla ilk iclasda iştirak etməsinin tələb olunduğu və ya onların hakim tərəfindən mediasiyaya yönləndirildiyi hallarda vacibdir.[296]

b) Vəkillərin iştirakı

Mübahisə tərəfləri öz vəkilləri tərəfindən təmsil olunmaq istəyib-istəməmələri və nə dərəcədə təmsil olunmaq istədikləri barədə qərar verməkdə sərbəstdirlər. Bununla belə, tərəflərin vəkillərinin mediaisya prosesində iştirakı müsbət hal kimi qiymətləndirilir. Bəzi mediatorluq fəaliyyəti ilə məşğul olanlar qeyd edirlər ki, bəzi hallarda tərəflərin özləri barışmağa hazır olduqları halda, mediasiyanın çıxılmaz vəziyyətə salınmasında vəkillər günahkardırlar, amma bununla belə, vəkillərin tərəflərin mənafeyinin müdafiəsini təmin etmələrini nəzərə almamaq olmaz. Bu, məsələn, məişət zorakılığı işlərində olduğu kimi, tərəflərin mövqeləri arasında güc balanssızlığı olduqda xüsusilə vacibdir. Məsələn, Avstriyada mediator “*tərəfləri xüsusən mediasiya konteksində yaranan hüquqi məsələlərə əlaqədar konsultasiyaya yönləndirmək*” öhdəliyi daşıyır.[297]

Bundan başqa, vəkillər[298] tərəflərə köməklik göstərərkən mediasiya vasitəsilə barışıq haqqında sazişi tərtib edir və bu zaman onun imperativ hüquq normalarına və ya ictimai qaydaya zidd olmamasını təmin edirlər ki, bunun da nəticəsində onun zərurət yarandıqda icra olunacağı və ya icra sənədi qüvvəsinə malik olacağı ehtimalı artmış olur. Bu, mediasiyanın ümumi keyfiyyətini yüksəldə və nəticəsini yaxşılaşdıra bilər. Digər tərəfdən, mediasiyada şəxsi təcrübəyə malik olmaq və müştəriləri məmnun görmək vəkilləri sonrakı müştərilər üçün də mediatorluğa cəhd etməyə təşviq edə bilər ki, bu da vəkil assosiasiyaları tərəfindən mediasiya fəaliyyətlərinin təşviqinə gətirib çıxara bilər.

---

[292] Misal üçün bax: Avropa İttifaqı Parlamenti və Şurası, İstehlakçı mübahisələrinin onlayn həllinə dair (EU) 524/201 saylı Reqlament, OJ, L 165/1, 2013 (İstehlakçı mübahisələrinin onlayn həllinə dair Reqlament); Mübahisələrin önlayn həlli üzrə UNCITRAL-ın texniki qeydləri, Nyu-York: Birləşmiş Millətlər Təşkilatı, 2017 [10.03.2019 tarixinədək olan məlumatlar], sənədi burada tapmaq olar: http://www.uncitral.org/pdf/english/texts/odr/V1700382_English_Technical_Notes_on_ODR.pdf.

[293] İspaniya Krallığı, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Boletín Oficial del Estado*, № 5/2012, maddə 24(2).

[294] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 3(4).

[295] İspaniya Krallığı, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Boletín Oficial del Estado*, № 5/2012, maddə 24(1).

[296] Misal üçün bax: AİƏM, iş № C-317/08-C-320/08, *Alassini və başqalarının işi* üzrə 18 mart 2010-cu il tarixli qərar, 58-ci bənd – həmin bənddə deyilir ki, “*əgər barışıq proseduruna yalnız elektron vasitələrlə qatılmaq mümkün olsaydı, Universal xidmət haqqında Direktivin müəyyən etdiyi hüquqların həyata keçirilməsi bəzi şəxslər, xüsusən də internetə çıxışı olmayanlar üçün praktiki olaraq qeyri-mümkün və ya həddindən artıq çətin olardı*”.

[297] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 16(3).

[298] Ətraflı sənəd olan "Vəkillər üçün mediasya üzrə təlimat" da "Mediasya bacarıqlarının inkişafı üzrə alətlər dəsti"nə daxil edilib: CEPEJ, CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV [10.03.2019 tarixinədək olan məlumatlar], sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 58-73.

Vəkillərin mediasiyada iştirakına icazə verilib-verilməməsi məsələsi şübhə doğurmasa da, mediasiyada vəkillə təmsil olunmaq öhdəliyi bir sıra suallar doğurur. Birincisi, AİƏM qərar verib ki, "*milli qanunvericilik mübahisələrin alternativ həlli prosedurunda iştirak edən istehlakçının vəkil yardımından istifadə etməsini tələb edə bilməz*".[299] Lakin nəzərə almaq lazımdır ki, belə bir qənaətə yalnız İstehlakçı mübahisələrinin alternativ həlli haqqında Avropa İttifaqı Direktivinin[300] işığında gəlinmişdir. İkincisi, mediasiya zamanı vəkillə təmsil olunmanın məcburi tələb olması əlavə xərclərə səbəb ola və mediasiyanın əlçatanlığı imkanını azalda bilər.

Bununla belə, bu tədqiqatın obyekti olan bütün milli qanunlar arasında belə bir öhdəliyə yalnız İtaliya qanunvericiliyində rast gəlinmişdir ki, "*ilk iclasda və proses başa çatana qədər sonrakı iclaslarda tərəflər vəkilin yardımından istifadə etməlidirlər*".[301] Bu tədqiqatın obyekti olmayan Yunanıstanda da oxşar tələb irəli sürülüb.[302] Bununla belə, Yunanıstanın Ali Məhkəməsi bununla bağlı tənqidi fikirlər səsləndirib ki, onlar da əsasən məhkəmə prosesi üçün ilkin şərt kimi tələb olunan mediatorla ilk iclasın keçirilməsinin tərəflərin xərclərini artırması ilə bağlıdır.[303] Odur ki, mediasiya zamanı tərəfləri vəkillə təmsil olunmağa təşviq etmək, amma bunu məcburi şərtə çevirməmək tövsiyə olunur.

c) Üçüncü tərəflərin iştirakı

Nəzərdən keçirilən milli qanunvericilik aktlarının heç biri mübahisə tərəfləri müraciət etdikdə və ya buna razılıq verdikdə üçüncü tərəflərin mediasiyada iştirakını qadağan etmir. Belə bir qadağaya ehtiyac yoxdur, lakin mediasiyadakı statusundan asılı olmayaraq bütün iştirakçılar konfidensiallıq öhdəliyinə əməl etməlidirlər və mediasiya zamanı əldə edilmiş məlumatlarla bağlı məhkəmə və ya arbitraj prosesində ifadə vermələri tələb olunmamalıdır. Məsələn, Xorvatiyada "*tərəflər başqa cür razılığa gəlməyibsə, mediator və hər hansı formada mediasiya prosesində iştirak edən şəxslər mediasiya prosesi nəticəsində yaranan və ya onunla əlaqədar olan informasiya və xəbərlə bağlı arbitraj, məhkəmə icraatında və ya hər hansı digər icraatda ifadə verməyə məcbur edilə bilməzlər*".[304]

Bundan əlavə, ailə hüququ sahəsində (və bəzən həm də digər sahələrdə) mediasiya uşaqların maraqlarına birbaşa və ya dolayısı ilə təsir göstərə bilər. Məsələn, Çex Respublikasında "məhkəmə, məqsədəuyğun olarsa, (a) yetkinlik yaşına çatmayan şəxsi himayə etməsi, yaxud müvafiq hallarda yetkinlik yaşına çatmayan şəxslə təmasda olmaması və ya uşağı geri qaytarması ilə bağlı məhkəmə qərarını və ya məhkəmə tərəfindən təsdiq edilmiş müqaviləni könüllü surətdə yerinə yetirməyən şəxsi 3 saat müddətində mediatorla ilk iclasa yönləndirə bilər".[305] Buna görə də, qanunverici orqanlar uşaqların hüquq və mənafelərini daha yaxşı qorumaq üçün məqsədəuyğun olduqda ailə mübahisələrində, yaxud mübahisənin və ya onun nəticələrinin onlara təsir edə biləcəyi digər hallarda uşaqların mediasiyada iştirak hüquqlarını təmin etməyə təşviq olunurlar.

Ekspertlərin iştirakı ilə bağlı daha ətraflı müddəalara da ehtiyac ola bilər. Əvvəla, bəzi hallar istisna olmaqla, ekspertlər xidmət haqqı almalıdırlar. Buna görə də, mümkün olduqda, bu xərclərin bölünməsi və hesablanması üsullarını əvvəlcədən razılaşdırmaq tövsiyə olunur. Məsələn, İtaliyada "*mediatorun prosedur qaydaları ekspertlərin xidmət haqlarının hesablanması və ödənilməsi üsullarını özündə ehtiva etməlidir*".[306] İkincisi, müvafiq hallarda ekspertlərin peşə standartlarına riayət etməsi və ya öhdəliklərin pozulmasına görə daha ciddi məsuliyyət daşıması tələb olunur. Məsələn, Belçikada ekspert konfidensiallığın pozulmasına görə mediatorla eyni cəza ilə üzləşə, 1 ildən 3 ilədək həbsə alına bilər.[307] Bununla belə, bu standartlar milli qanunvericilikdə ekspert statusundan çox asılıdır; buna görə də, mediasiyada iştirak edən hər hansı üçüncü şəxsə tətbiq edilən müddəalardan başqa ekspertlər barəsində ümumi müddəaların müəyyən edilməsi mümkün deyil.

---

[299] Avropa İttifaqının Ədalət Məhkəməsi, iş № C-75/16, *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərar, 61-ci bənd.
[300] İstehlakçı mübahisələrinin alternativ həlli haqqında və (EC)2006/2004 saylı Reqlamentdə və 2009/22/EC saylı Direktivdə dəyişiklik edilməsi barədə Avropa İttifaqı Parlamentinin və Şurasının 21 may 2013-cü il tarixli 2013/11/EU saylı Direktivi, OJ, L 165/63, 2013, səh. 63-79.
[301] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 8(1).
[302] Yunanıstan Respublikası, İqtisadi tənzimləmə proqramlarında və digər müddəalarda nəzərdə tutulan struktur islahatlarının həyata keçirilməsi mexanizmləri haqqında 4512/2018 saylı Qanun.
[303] Yunanıstan Respublikası Ali Məhkəməsinin Böyük İnzibati Palatası, 34/2018 saylı qərar.
[304] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 14(2).
[305] Çex Respublikası, Konkret məhkəmə icraatları haqqında Qanun, 2013, 292/2013 (Qanunlar toplusu), maddə 503(1-a).
[306] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 8(4).
[307] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1728(2); və Cinayət Məcəlləsi, maddə 458.

### 5.4. Prosessual təminatlar

#### 5.4.1. Konfidensiallıq

Mediasiyaya dair rəhbər prinsiplərdə[308] mediasiyada konfidensiallığın təmin edilməsinin vacibliyi bir daha vurğulanır və bu prinsipdən istisnalar aydın şəkildəı göstərilir. Tərəflərin prosesə inamı olmadığı və buna görə də ondan istifadə etmək istəmədiyi halda mediasiya imkanının mövcud olduğunu söyləmək olmaz. Mediasiyanın konfidensiallığı tərəflərin mediasiyaya inamının yaradılması üçün əvəzsiz komponentdir. Beləliklə, milli qanunların konfidensiallıq öhdəliyinin yerinə yetirilməsi üçün minimum standartları müəyyən etməsini təmin etmək vacibdir, hərçənd ki, tərəflər bu öhdəliyi mediasiya ilə bağlı razılığa gəldikləri zaman daha ətraflı işləyib hazırlamaqda sərbəstdirlər. Minimum standartlar bütün iştirakçılardan və mediasiyada iştirak edən şəxslərdən bu öhdəliyə riayət etməyin tələb olunmasını, onu pozanlara sanksiya tətbiq edilməsini və konfidensiallıq şərtindən istisnaların mühüm əhəmiyyət kəsb edən hallarla məhdudlaşdırılmasını özündə ehtiva etməlidir. Mediatorlar, 3.2.1-ci bölmədə müzakirə olunduğu kimi, tərəflərlə təkbətək görüşlərdə (iclaslarda) konfidensiallığın ikinci səviyyəsini özündə ehtiva edən daha yüksək standartlara riayət etməlidirlər. Onlar həmçinin bu öhdəliklərini pozduqlarına görə daha sərt sanksiyalarla üzləşməlidirlər. Digər tərəfdən, tərəflər özlərinin mediaisya müqaviləsində başqa cür razılığa gələ və ya yazılı şəkildə bu cür öhdəlikdən imtina edə bilərlər.

Müsbət cəhət ondan ibarətdir ki, bu tədqiqatın əhatə etdiyi hər bir ölkə bu və ya digər şəkildə milli qanunvericilikdə mediasiyanın konfidensiallığını təsbit edib. Bununla belə, bəzi ölkələr hələ də bunu mediasiya iştirakçıları üçün ümumi öhdəlik kimi deyil, ilk növbədə mediatorun vəzifəsi kimi görürlər (məsələn, Finlandiyada məhkəmə ilə əlaqəli mediasiya məlumatlarının açıqlığı "Ümumi məhkəmələrdəki icraatlarda  aşkarlıq haqqında" Qanunun müddəaları ilə tənzimlənir, mediasiyanın konfidensiallığı məsələsində isə yalnız mediatorla onun köməkçisindən bəhs edilir;[309] Çex Respublikasının "Mediasiya haqqında" Qanununda da tərəflərin konfidensiallığı qorumaq öhdəliyindən bəhs edilmir, konfidensiallığı qorumaq yalnız mediatorun vəzifəsi kimi müəyyən edilir[310]). Digər ölkələrdə bu öhdəliyin kimə aid olduğu dəqiq göstərilmədən ümumi şəkildə bildirilir ki, mediasiya prosesi konfidensialdır (məsələn, Belçika, İrlandiya, Sloveniya). Amma milli qanunverici orqanların aydın şəkildə konfidensiallıq öhdəliyinin prosesdə iştirak edən bütün şəxslərə şamil edildiyini göstərməsi və bu öhdəliyin mediatora, tərəflərə, mediasiyanı idarə edən hər hansı şəxslərə və mediasiyada iştirak edən bütün üçüncü tərəflərə şamil edildiyini qeyd etməsi tövsiyə olunur. Belə yanaşma Avstriya, Xorvatiya, Almaniya, Litva, Polşa, Serbiya, İspaniya, Türkiyədə tətbiq edilir.

Bundan əlavə, konfidensiallıq öhdəliyinin obyektinin nədən ibarət olduğunu müəyyən etmək tövsiyə olunur. Bir qayda olaraq, konfidensiallıq yalnız mediasiya zamanı baş verən ünsiyyətlərə şamil olunur. Buna görə də, 5.2 və 5.5-ci bölmələrdə müzakirə edildiyi kimi, mediasiyanın başlanma və bitmə anlarını dəqiq şəkildə müəyyən etmək çox vacibdir. Bununla belə, tərəflər başqa cür razılaşa bilərlər. Məsələn, Belçikada "*tərəflər mediasiya proseduru başlanmazdan əvvəl qurulmuş əlaqələrin və tərtib edilmiş sənədlərin konfidensial saxlanmalı olduğuna dair yazılı razılığa gələ bilərlər*".[311] Konfidensial saxlanmalı məlumatların özünə gəldikdə, bəzi ölkələr nisbətən qeyri-müəyyən şəkildə mediasiya zamanı əldə edilmiş *məlumat və ya faktlardan* bəhs edir (məsələn, Almaniya, Litva, Polşa), digərləri isə mediasiya zamanı əldə edilmiş və ya yaradılmış sənədləri, qeydləri və ya məlumatları daha aydın şəkildə göstərir (məsələn, Belçika, Xorvatiya, İrlandiya, Türkiyə, İspaniya) və yaxud da məxfi saxlanmalı olan məlumatların əhatə dairəsinə daxil olanların tam olmayan nümunəvi siyahısını təqdim edirlər (Azərbaycan[312]). Aydınlıq üçün sonuncu yanaşma təşviq edilməlidir. Bundan əlavə, məsələn, Belçikada hansı sənədlərə konfidensiallıq öhdəliyinin şamil edilməli olmadığı bildirilir (təbii ki, tərəflər başqa cür razılaşmazsa). Konkret olaraq, buraya mediasiya müqaviləsi, barışıq sazişi və mediasiyanın uğursuz nəticələndiyi barədə mediator tərəfindən tərtib edilmiş yekun protokol daxildir.[313] Bu cür aydınlığın olması da təşviq edilir.

Yuxarıda qeyd edildiyi kimi, konfidensiallıq prinsipindən istisnalar aydın şəkildə müəyyən edilməli və yalnız əsaslı səbəblərə əsaslanmalıdır. Bu istisnalar adətən iki səbəbə əsaslanır. Birincisi ictimai qayda və imperativ hüquq norması ilə bağlıdır. Bunlara insanın fiziki və ya psixoloji toxunulmazlığına təhdidlər, cinayətin qarşısının

---

[308] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 16-cı bənd; cinayət hüququ: 17-ci bənd; inzibati hüquq: 38-ci bənd).
[309] Finlandiya Respublikası, Mülki işlər üzrə mediasiya və barışıq sazişlərinin ümumi məhkəmələrdə təsdiqi haqqında Qanun, № 394/2011, maddələr 12 və 13.
[310] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 9.
[311] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1728(1).
[312] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 8.2.
[313] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1728(1).

alınması və uşağın maraqlarının qorunması daxildir. İkincisi isə mediasiya vasitəsilə barışıq sazişinin əldə edilməsi və icrası ilə bağlıdır. Belə yanaşma Xorvatiya, Kipr, Fransa, İrlandiya, Litva, Serbiya, Sloveniyada tətbiq olunur. Həmçinin Çex Respublikası öz milli qanunvericiliyinə belə bir müddəa daxil etmişdir ki, "*əgər icraatın predmeti mediatorun yerinə yetirdiyi fəaliyyətlərdən irəli gələn mübahisədirsə və mübahisə tərəfi və ya onun qanuni nümayəndəsi ilə arasındakı münasibətlərdirsə, mediator konfidensiallıq öhdəliyinə məhkəmədə və ya digər müvafiq orqanda aparılan icraat üçün zəruri olan dərəcədə, habelə mediatorun fəaliyyətinə nəzarətin həyata keçirilməsi çərçivəsində və ya intizam icraatında onun müdafiəsi üçün zəruri olan dərəcədə riayət etməyə bilər*".[314] Oxşar müddəaya "Mediasiya haqqında" İrlandiya Qanununda rast gəlmək olar.[315] Yuxarıda sadalanan istisnalar həqiqətən zəruri olsa da, konfidensiallıq prinsipi öz məqsədindən məhrum ola biləcəyi üçün milli qanunverici orqanların bu siyahını çox uzatmaması tövsiyə olunur.

Konfidensiallıqla bağlı qeyd edilməli olan sonuncu aspekt onun ikinci səviyyəsi adlandırılan konfidensiallıqdan və ya ayrı-ayrı sessiyalarda (iclaslarda) "daxili" konfidensiallıqdan ibarətdir. Başqa sözlə, mediatorun borcudur ki, bir tərəflə təkbətək iclas zamanı əldə etdiyi məlumatı həmin tərəfin birmənalı icazəsi olmadan digər tərəfə açıqlamasın. Bu vəzifəyə münasibətdə iki fərqli yanaşma ola bilər – bunlardan birincisi tərəf açıqlamağa icazə vermədiyi halda bütün məlumatların məxfi qalmalı olduğunu müdafiə edən yanaşmadır (məsələn, İtaliyada "*ayrı-ayrı sessiyalar zamanı verilən bəyanatlara və əldə edilmiş məlumatlara münasibətdə konfidensiallıq qorunmalı, əgər həmin bəyanatı verən və ya məlumatı təqdim edən şəxsin razılığı yoxdursa, mediator həmçinin digər tərəflərə münasibətdə onları konfidensial saxlamalıdır*"[316]); ikincisi isə əksi deyilmədiyi təqdirdə hər şeyin digər tərəfə açıqlana biləcəyini nəzərdə tutan yanaşmadır (belə yanaşma UNCITRAL-ın Nümunəvi Qanununda (2018)[317] tövsiyə olunur və bəzi ölkələrdə tətbiq edilir; məsələn, Sloveniyada "*mediator hər hansı tərəfdən mübahisəyə dair məlumat aldıqda, əgər həmin tərəf xüsusi olaraq bu məlumatı konfidensiallıq şərti ilə təqdim etməyibsə, həmin məlumatın məzmununu mediasiyanın digər tərəfinə açıqlaya bilər*"[318]). Birinci yanaşmaya ilk növbədə ona görə üstünlük verilir ki, mediator peşəkar şəxsdir; buna görə də məlumatın paylaşılmalı olub-olmadığını aydınlaşdırmaq vəzifəsi tərəfin üzərinə deyil, onun üzərinə düşməlidir. Üstəlik, tərəflər onların birmənalı icazəsi olmadan qarşı tərəflə heç bir məlumatın paylaşıla bilməyəcəyini bildikdə məlumatları açılmağa daha çox meylli ola bilərlər.

### 5.4.2. Könüllülük

Bir çox ölkələr mediasiyanın könüllü xarakterini vurğulayır (məsələn, Avstriya, Azərbaycan, Belçika, Xorvatiya, Kipr, Almaniya, İrlandiya, Polşa, Sloveniya, İspaniya, Türkiyə). Məhkəmə icraatı və arbitrajla müqayisədə mediasiyanı fərqləndirən əsas amillərdən biri də könüllülük prinsipidir. Birincisi, tərəflər barışıq sazişinin məzmunu ilə bağlı razılığa gəlməkdə və istənilən vaxt mediasiyaya xitam verməkdə sərbəstdirlər. İkincisi, tərəflər həmçinin mediatoru və ya mediatorları seçməkdə və mediasiya prosesinin digər təşkilati təfərrüatları barədə qərar verməkdə və ya sadəcə olaraq üstünlük verdiyi mediatorun qaydalarını rəhbər tutmaqda sərbəstdirlər. Tərəflərə onların ehtiyaclarına daha çox uyğun olan prosessual aspektlər üzrə qərar vermək sərbəstliyinin verilməsi mübahisənin nizamlanması ehtimalını artıra bilər. Tərəflərin hətta prosessual aspektlər üzrə razılığa gələ bilməməsi də baş verər bilər ki, belə hallarda milli qanunverici orqanlar prosedurun əsas istiqamətlərini müəyyən edirlər, amma onlar həm də tərəflərin başqa cür razılığa gəlmək imkanına malik olmasını təmin etməyə təşviq olunurlar. Aydınlıq üçün milli qanunverici orqanlar hansı prosessual müddəaların məcburi olmadığını və tərəflərin razılığı ilə tətbiq oluna biləcəyini açıq şəkildə bildirməlidirlər. Gələcəkdə mümkün mübahisələrin qarşısını almaq üçün məcburi olmayan müddəalarda dəyişiklik edilməsi barədə razılaşmalar yazılı şəkildə rəsmiləşdirilməlidir.

Könüllülük prinsipi mediasiyanın əsas prinsiplərindən biri olsa da, xüsusilə məhkəmə icraatının ilkin şərti kimi və ya hakim tərəfindən mediasiyaya yönləndirilmədən sonra şərt kimi tərəflərin mediatorla ilk iclasda iştirak etməsi tələbi fonunda hələ də müəyyən çaşqınlıq və anlaşılmazlıqlar yaradır. Bununla belə, qeyd etmək lazımdır ki, bu məsələ AİHM tərəfindən qərarlarından birində həll edilmişdir. Məhkəmə mediasiya prosesinin könüllü xarakteri ilə mediasiyaya yönləndirilmə arasında dəqiq fərq qoymuşdur. O qeyd etmişdir ki, "*beləliklə, mediasiyanın könüllü xarakteri tərəflərin bu prosesdən istifadə edib-etməmək barədə seçim etmək azadlığından ibarət deyil,*

---

[314] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 9(3).
[315] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 10(2).
[316] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 9(2).
[317] Beynəlxalq kommersiya mediasiyası və mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında UNCITRAL-ın Nümunəvi Qanunu, 2018 (Beynəlxalq kommersiya barışığı proseduru haqqında UNCITRAL-ın Nümunəvi Qanununa (2002) dəyişiklik edilməsi), maddə 9.
[318] Sloveniya Respublikası, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Uradni list*, № 56/2008, maddə 10.

*tərəflərin özlərinin prosesə görə cavabdeh olmasından və onu istədikləri kimi təşkil edə bilməsindən və istədikləri vaxt ona xitam verə bilməsindən ibarətdir*”.[319] AİƏM-in bu cür şərhi aydınlıq gətirir ki, könüllülük prinsipinə riayət edilməsi milli qanunverici orqanların tərəflərin mediatorla ilk iclasda iştirakını tələb etməsinə mane olmur; amma eyni zamanda mediasiyaya müraciət edilməsi tərəflərin mübahisəni mediasiya yolu ilə həll edib-etməmək və ya mübahisənin həlli üçün digər üsulları, o cümlədən məhkəmə icraatını seçməklə bağlı sərbəst qərar vermək hüququna təsir göstərmir.

### 5.4.3. Sübutlar və ifadələr

Mediasiya zamanı əldə edilmiş sübutların məhkəmə, arbitraj və ya analoji icraatlarda təqdim edilməsinə qadağa qoyulmasının əsas məqsədi tərəflərin mediasiya prosesindən yalnız “informasiya ovu” üçün istifadə etməkdə və ya başqa sözlə, qiymətli məlumat əldə etmək imkanı qazanmaqda və daha sonra bu məlumatdan məhkəmədə istifadə etmək üçün barışıq olmadan mediasiyaya xitam verməkdə maraqlı olduğu halların qarşısını almaqdır. Mediatorun, tərəflərin və ya mediasiyada iştirak edən digər şəxslərin digər icraat zamanı ifadə verməyə məcbur edilməsinin qadağan olunması da eyni məqsədə xidmət edir. Konfidensiallıq öhdəliyinin nəticələri ilə yanaşı, yuxarıda qeyd olunan qadağaların olmaması da mediasiyanın əlçatanlığını azalda bilər, çünki tərəflər dedikləri hər şeyin məhkəmədə onlara qarşı istifadə olunacağından ehtiyatlana və beləliklə, mediasiyanın bütün potensialı istifadə olunmamış qala bilər. Bununla belə, konfidensiallıq tələbindən fərqli olaraq, bu qadağaların mediasiya haqqında müqaviləyə daxil edilməsi kifayət etməyə bilər, çünki onlar prosessual qanunvericiliyin məcburi tələblərindən asılı ola bilər. Müvafiq olaraq, bu halda tərəflərin onları dəyişdirməsi mümkün deyil. Milli qanunverici orqanlara bu qadağaları mediasiya haqqında milli qanunlara və ya müvafiq prosessual məcəllələrə daxil etmək tövsiyə olunur.

Bu qadağalarla bağlı iki əsas yanaşmaya rast gəlmək olar. Bəzi ölkələr (məsələn, Azərbaycan, Belçika, Fransa, İrlandiya, İspaniya, İsveçrə) bu qadağaya konfidensiallıq öhdəliyinin genişləndirilməsi kimi baxırlar (məsələn, Belçikada “*mediasiyanın gedişində və onun ehtiyacları üçün hazırlanmış sənədlər və baş vermiş ünsiyyətlər konfidensialdır. Onlardan hər hansı digər məhkəmə, inzibati və ya arbitraj icraatında və ya mübahisənin həlli ilə bağlı hər hansı digər prosedurda istifadə oluna bilməz. Onlar heç vaxt sübut kimi və ya məhkəmədənkənar etiraflar kimi qəbul edilə bilməz*"[320]). Digər ölkələr (məsələn, Xorvatiya, Litva, Sloveniya, Türkiyə) bu qadağanı ayrıca prosessual təminat kimi nəzərdə tuturlar (məsələn, Sloveniyada "*mediasiyada iştirak etmiş tərəflər, mediatorlar və ya üçüncü şəxslər arbitraj, məhkəmə və ya digər analoji proseslərdə aşağıdakılardan hər hansı birinə istinad edə, onları sübut kimi təqdim edə və ya onlarla bağlı ifadə verə bilməz: a) tərəfin mediasiya icraatında iştirak etmək üçün ona dəvəti və ya tərəfin mediasiya prosesində iştirak etmək istəməsi faktı; b) mediasiya zamanı mübahisənin mümkün həlli ilə bağlı tərəfin ifadə etdiyi fikirlər və ya verdiyi təkliflər; c) tərəflərin mediasiya zamanı verdiyi bəyanatlar və ya etirafları; d) mediatorun verdiyi təkliflər; e) tərəflərdən birinin mübahisənin barışıq yolu ilə həllinə dair mediatorun təklifini qəbul etməyə hazır olduğunu bildirməsi faktı; f) yalnız mediasiya prosesinin məqsədləri üçün tərtib edilmiş sənədlər*"[321]). Hər iki yanaşma, təfərrüatlı şəkildə işlənməsi şərti ilə, effektiv və məqsədəuyğun ola bilər. Bu baxımdan  yuxarıda qeyd edilən Sloveniya modelinə Belçika nümunəsi ilə müqayisədə üstünlük verilir.

Digər tərəfdən, mediasiya zamanı əldə edilmiş məlumatların və ya sənədlərin təqdim edilməsinə qadağa qoyulması tərəflərin kələyə əl atmasına imkan verə bilər, belə ki, onlar müxtəlif sənədlərin sonrakı icraatlarda qəbuledilməz olmasını təmin etmək üçün onları mediasiya prosesində təqdim edə bilərlər. Buna görə də, Sloveniya nümunəsinə uyğun olaraq, qanunvericiliyə aşağıdakı məzmunda müddəa daxil edilməlidir: “*arbitraj, məhkəmə və ya analoji icraatlarda qəbul edilə bilən sübutlar sadəcə mediasiya prosesində istifadə olunduğu üçün qəbuledilməz hesab oluna bilməz*”.[322] Bu, mediasiyadan əvvəl artıq ictimaiyyətə açıqlanmış olan və ya qarşı tərəfin almış olduğu sənədlərə şamil edilə bilər. Bundan əlavə, tərəflər mediasiya zamanı istifadə edilib-edilməməsindən asılı olmayaraq, öz sübutlarını təqdim etməkdə sərbəstdirlər. Bununla belə, təcrübə əsasında hər bir vəziyyəti öncədən nəzərdə tutmaq mümkün deyil və sübutların qəbul edilməsi ilə bağlı bəzi suallar cavablandırılmamış qala bilər. Beləliklə, sənədin ictimaiyyətə açıqlanmış olub-olmaması, mediasiyadan əvvəl əldə edilib-edilməməsi və ya milli qanunvericiliyə uyğun olaraq digər əsaslarla qəbuledilən olması məsələsi ilə bağlı hər bir konkret halda qərar verilməsi milli məhkəmə təcrübəsinin öhdəsinə buraxıla bilər.

---

[319] AİƏM, iş № C-75/16, *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərar, 50-ci bənd.
[320] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1728(1).
[321] Sloveniya Respublikası, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Uradni list*, № 56/2008, maddə 12(1).
[322] Sloveniya Respublikası, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Uradni list*, № 56/2008, maddə 12(5).

İfadə verməyə gəldikdə, heç də bütün ölkələr belə bir qadağanı birbaşa qeyd etmirlər. Bununla belə, özü-özlüyündə aydın deyil ki, sübut təqdim etməyə qoyulan qadağa ifadə verməyə də şamil olunurmu? Buna görə də, məsələn, Belçika, Polşa, Xorvatiya, İtaliya, Litva, Sloveniya, İsveçrə və Türkiyədə olduğu kimi, bu qadağanın qanunvericilikdə birbaşa qeyd edilməsi tövsiyə olunur. Belə bir prosessual təminatı nəzərdə tutan bəzi ölkələr onun tətbiq dairəsini mediatorla məhdudlaşdırırlar (məsələn, Belçika, Litva, Polşa, İsveçrə), digərləri isə onu mediasiyanın bütün iştirakçılarına (məsələn, Xorvatiya, Sloveniya, Türkiyə) və ya ən azı tərəflərə (məsələn, İtaliyada) şamil edirlər. Milli qanunverici orqanlar bu prosessual təminatın ən geniş tətbiqinə, yəni onu bütün mediasiya iştirakçılarına şamil olunmasına təşviq edilirlər.

### 5.4.4. İddia müddətləri və prosessual müddətlər

Mübahisə tərəfləri mediasiya uğursuz olacağı halda məhkəmədə öz hüquqlarını müdafiə etmək imkanlarını itirə biləcəklərini bilsələr, mediasiyaya müraciət etməyəcəklər. Bununla belə, mediasiya zamanı iddia müddətlərinin və prosessual müddətlərin axımı dayandırılmasa, belə vəziyyət yarana bilər. Mediasiyaya dair təlimatlarda aydın şəkildə qeyd olunur ki, prosessual müddətlərin başa çatması təhlükəsi tərəflərin mediasiyadan istifadəsinə mane olmamalıdır.[323] Buna görə də, milli qanunverici orqanlar həm məhkəmədənkənar, həm də məhkəmə ilə əlaqəli mediasiya proseslərində mediasiyanın əlçatanlığını azaltmamaq üçün bu cür təminatları tətbiq etməyə təşviq olunurlar. Mediatorla ilk iclasda iştirak məhkəmə icraatı üçün ilkin şərt olduğu təqdirdə bu çox vacibdir, belə ki, milli qanunverici orqanlar İHAK-ın 6-cı maddəsi ilə təmin edilən ədalətli məhkəmə araşdırması hüququnu məhdudlaşdırmamaq üçün diqqətli olmalıdırlar. Bu həmçinin *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə (iş № C-75/16) AİƏM-in 14 iyun 2017-ci il tarixli qərarına[324] uyğundur.

Bu tədqiqatın obyekti olan ölkələrin böyük əksəriyyətinin müvafiq milli qanunveiriciliyində mediasiya zamanı iddia müddətlərinin və ya prosessual müddətlərin axımının dayandırılması nəzərdə tutulur (məsələn, Avstriya, Azərbaycan, Belçika, Xorvatiya, Kipr, Çexiya, Fransa, İrlandiya, İtaliya, Litva, Polşa, Serbiya, Sloveniya, İspaniya, İsveçrə (yalnız məhkəmə ilə əlaqəli mediasiyada), Türkiyə). Çox vaxt bu müddəalarda dayandırmanın dəqiq anı müəyyən edilir və iddia müddətlərinin və ya prosessual müddətlərin axımının hansı andan davam etməyə başladığı bildirir (məsələn, Litvada "*mediasiyanın başlanması ilə iddia müddəti dayandırılır. İddia müddətinin axımının dayandırılması mübahisə tərəfinin bilavasitə və ya başqa şəxs (nümayəndə, mediator, mediasiya xidməti göstərən subyekt və ya hüququ olan digər şəxs) vasitəsilə mediasiya üçün yazılı müraciət göndərdiyi gündən başlayır. Tərəflər mübahisənin həllinə nail olmadıqda, iddia müddətinin axımı bərpa olunur*"[325]).

Bununla belə, bəzi ölkələr müəyyən şərtlər əlavə edirlər. Məsələn, Serbiyada iddia müddəti yalnız 60 gün müddətinə dayandırılır,[326] Xorvatiyada isə "*mediasiya mübahisə həll edilmədən başa çatarsa, iddia müddəti dayandırılmamış hesab olunur*",[327] lakin "*mediasiya başa çatdıqdan sonra 15 gündən gec olmayaraq tərəflərin məhkəməyə və ya digər səlahiyyətli orqana iddia ərizəsi verdiyi, yaxud iddia tələbinə dair qərar verilməsi, iddianın təmin edilməsi və ya iddia tələbinə baxılması üçün digər prosessual hərəkətləri icra etdiyi hallar istisna təşkil edir*".[328] Bir tərəfdən, bu cür müddəalar tərəfləri daha cəld hərəkət etməyə təşviq edir; digər tərəfdən, xüsusən də mürəkkəb mübahisələrə münasibətdə belə müddətlər çox qısa ola bilər. Bundan əlavə, tərəflər barışığa nail ola bilmədiklərinə görə cəzalandırılmamalıdır. Məsələn, Avstriya tərəflərə iddia müddəti ilə bağlı müddəaların əhatə dairəsini genişləndirməyə və "*müddətin dayandırılmasının onların arasında mövcud olan və mediasiyanın predmeti olmayan digər iddiaları da əhatə etməsi*" barədə yazılı razılığa gəlməyə icazə verir.[329]

Aydınlıq üçün iddia müddətinin dayandırıldığı və bərpa edildiyi dəqiq anları müəyyən etmək vacibdir. Bunu müəyyən etməyin yollarından biri, 5.2 və 5.5-ci bölmələrdə qeyd edildiyi kimi, bu anları mediasiyanın başlandığı və başa çatdığı anlarla əlaqələndirməkdir. Bununla belə, bəzi ölkələr (məsələn, Litva) bir tərəfin mübahisəni mediatora yönləndirmək barədə digər tərəfə təklif etdiyi (adətən yazılı şəkildə) andan və ya mediasiya xidməti göstərən subyektə müraciət etdiyi andan (məsələn, İtaliya) etibarən iddia müddətinin axımını dayandırır, digərləri isə yalnız mediasiyanın başa çatmasının ardınca müəyyən bir müddət keçdikdən sonra (məsələn, Belçikada bir

---

[323] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 36-cı bənd; cinayət hüququ: 35-ci bənd; inzibati hüquq: 43-cü bənd).
[324] Avropa İttifaqının Ədalət Məhkəməsi, iş № C-75/16, *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərar, 61-ci bənd.
[325] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 18(1-3).
[326] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 25.
[327] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 17(3).
[328] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 17(4).
[329] Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003, maddə 22(2).

ay[330] və ya İrlandiyada 30 gün[331]) iddia müddətinin axımını bərpa edir. Dəqiq tarixi asanlıqla müəyyən etmək mümkün olduğu təqdirdə yuxarıda qeyd olunan bütün yanaşmalardan istifadə edilə bilər.

#### 5.4.5. Aralıq tədbirlər (müvəqqəti təminedici tədbirlər)

Tərəflərin vasitəçilik prosesində aralıq (müvəqqəti təminedici) tədbirlər tələb etməsinə icazə verilməsi nəzərdən keçirilən milli qanunvericilik aktları arasında standart müddəa deyil (belə tədbirlər barədə birbaşa qeydə yalnız Belçika,[332] İtaliya[333] və Litvanın[334] qanunvericilik aktlarında rast gəlinir). Bununla belə, AİƏM bir sıra qərarlarında məhkəmə icraatı üçün ilkin şərt kimi tələb olunan mübahisələrin alternativ həlli metodlarının fonunda tərəflərə aralıq (müvəqqəti təminedici) tədbirlərin görülməsini tələb etmək imkanının verilməsinin vacibliyini vurğulamışdır.[335] O bildirmişdir ki, "*məhkəməyə müraciət etmək üçün ilkin şərt kimi mediasiya proseduruna müraciət etmə tələbi səmərəli məhkəmə müdafiəsi prinsipinə uyğun hesab edilə bilər, bu şərtlə ki, müstəsna hallarda <…> vəziyyətin təxirəsalınmazlığının tələb etdiyi aralıq tədbirlər görülmüş olsun*".[336] AİƏM-in qərarına Avropa İttifaqının üzvləri riayət etməyə borclu olsalar da, digər ölkələrin milli qanunverici orqanları da mediasiya prosesinin gedişində, xüsusən mediatorla ilk iclasda iştirakın məhkəmə icraatı üçün ilkin şərt olduğu və ya tərəflərin hakim tərəfindən belə iclasa yönləndirildiyi hallarda aralıq tədbirlərin tətbiqinə təşviq edilirlər.

### 5.5. Xitam

Öncə ondan başlayaq ki, mediasiyanın nə vaxt başa çatmış (xitam verilmiş) hesab edilməli olduğunu müəyyən edən aydın qaydaların müəyyən edilməsi strukturlaşdırılmış, aydın və beləliklə həm də asan başa düşülən və etibar edilən mediasiya prosesində "son nöqtə qoyan" detaldır. Xitam anı prosessual təminatlar baxımından da mühüm əhəmiyyət kəsb edir, belə ki, mediasiya iştirakçıları, məsələn, hansı andan etibarən tərəflər arasında ünsiyyətin artıq məxfi olmadığını və ya məhkəmə icraatı üçün ilkin şərtin artıq yerinə yetirildiyini dəqiq müəyyən edə bilməlidirlər. Buna görə də, milli qanunverici orqanların mediasiyanın nə vaxt başa çatdığını qanunda dəqiq göstərmələri tövsiyə olunur.

Tədqiqat obyekti olan milli qanunların əksəriyyəti mediasiyaya xitam verilməsi üçün əsasları əks etdirir (məsələn, Azərbaycan, Xorvatiya, Kipr, Çexiya, Finlandiya, Fransa, Almaniya, Litva, Polşa, Serbiya, Sloveniya, İspaniya, Türkiyə). Bu əsaslardan üçünü ümumi adlandırmaq olar, belə ki, onlar yuxarıda qeyd olunan ölkələrdə mediasiya haqqında hər bir milli qanunda oxşar ifadələrlə öz əksini tapmışdır. Onlar aşağıdakılardır: (1) barışıq sazişinin bağlanması, (2) tərəflər arasında barışıq ehtimalının az olduğunu hesab etdiyi halda mediatorun mediasiyaya xitam verən bəyanatı; (3) tərəflərin və ya bir tərəfin (mediasiyada yalnız iki tərəfin olması şərti ilə) mediasiyanı davam etdirməkdən imtina etdiyini bildirən bəyanatı. Müvafiq əsaslar həmçinin UNCITRAL-ın Nümunəvi Qanununda (2018)[337] nəzərdə tutulub. O qədər də tez-tez qeyd edilməyən, amma məntiqə uyğun olan dördüncü əsas mediasiya üçün qabaqcadan ayrılmış müddətin başa çatmasıdır, bu şərtlə ki, həmin müddət öncədən mediasiya müqaviləsində və ya qanunda nəzərdə tutulmuş olsun.

Bəzi ölkələr daha konkret əsaslar təqdim edir. Məsələn, Çex Respublikasının qanunvericiliyində mediatorun xidmət göstərə bilməsi ilə bağlı əsaslar geniş şəkildə təsvir edilmişdir. Orada deyilir: "*(1) Mediator a) 5-ci maddənin 1-ci bəndinə uyğun olaraq onun qərəzsizliyi ilə bağlı hər hansı səbəb yaranarsa və ya b) Mübahisə Tərəfləri 1 ildən artıq müddət ərzində Mediatorla görüşməzsə, başlanmış mediasiyaya xitam veril*; *(2) Mediator 5-ci maddənin 2-ci bəndində qeyd olunan səbəbə görə*[338] *və ya Mübahisə Tərəflərindən biri razılaşdırılmış beh ödənişini etmədikdə, artıq başlanmış mediasiyaya xitam verə bilər; Aşağıdakı hallarda mediasiyaya xitam verilir: <…> f)*

---

[330] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1731(4).
[331] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 18(1).
[332] Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967, maddə 1725(3).
[333] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 5(3).
[334] Litva Respublikası, Mülki Prosessual Məcəllə, maddə 147.
[335] Misal üçün bax: Avropa İttifaqının Ədalət Məhkəməsi, iş № C-317/08-C-320/08, *Alassini və başqalarının işi* üzrə 18 mart 2010-cu il tarixli qərar, 67-ci bənd; Avropa İttifaqının Ədalət Məhkəməsi, iş № C-75/16, *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərar, 61-ci bənd.
[336] Avropa İttifaqının Ədalət Məhkəməsi, iş № C-75/16, *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərar, 61-ci bənd.
[337] Beynəlxalq kommersiya mediasiyası və mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında UNCITRAL-ın Nümunəvi Qanunu, 2018 (Beynəlxalq kommersiya barışığı proseduru haqqında UNCITRAL-ın Nümunəvi Qanununa (2002) dəyişiklik edilməsi), maddə 12.
[338] *Mediator onunla Mübahisə Tərəflərindən hər hansı biri arasında zəruri etimad münasibəti pozulduqda, mediasiya aparılması haqqında müqavilənin bağlanmasından imtina edə bilər.* – Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 5(2).

*Mediatorun fəaliyyətini həyata keçirmək səlahiyyəti dayandırıldıqda və ya Mediator Reyestrdən çıxarıldıqda; g) Mübahisə Tərəflərindən biri öldükdə və ya ölmüş elan edildikdə və yaxud mediasiyada iştirakına son qoyduqda; və ya h) Mediator öldükdə və ya ölmüş elan edildikdə*";[339] Kipr qanunvericiliyində birbaşa bildirilir ki, "*aşağıdakı hallarda mediasiya prosesinə xitam verilir: mediator əldə olunan barışıq sazişinin qeyri-qanuni olduğunu hesab edərsə <…>; mediator mübahisənin məhkəmə tərəfindən baxılmağa qəbul edilə bilməyəcəyini hesab edərsə*".[340] Qanunvericilikdə mediasiyaya xitam verilməsinin ümumi əsasları nəzərdə tutulubsa, bu cür dəqiqləşdirmələrə mənfi baxılmır, bu şərtlə ki, xitam anını asanlıqla müəyyənləşdirmək mümkün olsun.

Mediasiyaya xitam verildikdən sonra bəzi ölkələr mediatorların üzərinə mediasiyanın nəticəsini qısaca əks etdirən sənəd hazırlamaq öhdəliyi qoyurlar. Belə ölkələrin siyahısı uzun deyil (bu barədə birbaşa qeydə yalnız Avstriya qanunvericiliyində rast gəlinib (orada belə sənəd yalnız tərəflərin müraciəti əsasında verilir)) və buraya Azərbaycan,[341] Kipr, İrlandiya, Litva, Polşa, İspaniya, Türkiyə daxildir, belə bir sənədin adı isə "protokoldan" tutmuş "hesabata" qədər dəyişir.[342] Təcrübədə o, müxtəlif məqsədlərə xidmət edir. O, aşağıdakı məqsədlər üçün istifadə edilə bilər:

a) dayandırılmış iddia müddətlərinin davam etdirilməsi üçün dəqiq tarixi müəyyən etməyin asan olması üçün mediasiyanın nə vaxt dayandırıldığını göstərən sübut kimi. Məsələn, Kiprdə "*mediasiya prosesində heç bir razılıq əldə edilmədikdə, mediator heç bir razılaşmanın əldə olunmadığını bildirən protokol hazırlamalı və protokolu özü və istədikləri təqdirdə həm də tərəflər imzalamalıdır*".[343]

b) mediasiya məhkəmə icraatı üçün ilkin şərt olduğu hallarda tərəflərin mediasiyaya müraciət etdiyini təsdiqi etmək lazım gəldikdə; mediasiya barədə maddə müqaviləyə daxil edildikdə; tərəflərin məhkəməyə müraciət etməzdən əvvəl mübahisələrini mediasiya yolu ilə həll etmək cəhdlərinə görə güzəştli qeydiyyat rüsumundan yararlana bildikləri halda; tərəflər üçün digər maddi stimullar nəzərdə tutulduğu hallarda, habelə tərəflərin tələb etdiyi digər hallarda. Məsələn, Litvada məhkəmədə qeydiyyat rüsumunun azaldılması üçün tərəflər mediasiyanın baş verdiyini sübut edən yazılı sənəd təqdim etməyə borcludurlar.[344] Bu halda mediasiyaya xitam verilməsi barədə sənəd yazılı sübut rolunu oynaya bilər.

c) məhkəmə ilə əlaqəli mediasiya və ya cinayət və inzibati işlər üzrə mediasiya zamanı, habelə səlahiyyətli orqanlara məlumat verilməli olan digər hallarda məhkəməyə verilən hesabat kimi. Məsələn, İrlandiyada "*müvafiq icraatdakı tərəflər mediasiyada iştirak etdikdə və sonradan məhkəmə icraatının bərpası üçün müraciət etdikdə, mediator aşağıdakıları əks etdirən yazılı hesabat hazırlayıb məhkəməyə təqdim etməlidir: (a) mediasiyanın baş tutmadıqda onun baş tutmamasının səbəbləri barədə bəyanat və ya (b) mediasiya baş tutduqda: (i) icraatın predmeti olan mübahisə ilə bağlı tərəflər arasında mediasiya yolu ilə barışıq sazişinin əldə edilib-edilmədiyi barədə bəyanat və (ii) bu mübahisəyə aid olan məsələlərin hamısı və yaxud yalnız bir neçəsi üzrə mediasiya yolu ilə barışıq sazişi əldə olunubsa, barışıq sazişinin şərtləri barədə bəyanat*".[345]

Yuxarıda izah edildiyi kimi, mediasiyaya xitam verilməsi haqqında bildiriş bir növ sübut ola bilər və beləliklə, üçüncü şəxslərə açıqlana bilər. Buna görə də, müvafiq milli qanunda və davranış kodeksində qeyd olunduğu kimi, konfidensiallıq prinsipini və mediasiya üzrə digər öhdəlikləri pozmamaq çox vacibdir. Buna görə də konfidensial sayıla biləcək məlumatların həmin bildirişə daxil edilməsini tələb etmək tövsiyə olunmur. Tərəflər haqqında məlumatın mediator və mediasiya xidməti göstərən subyekt (əgər varsa), tarix və yer barədə məlumatla birlikdə göstərilməsi konfidensiallıq prinsipi ilə bağlı narahatlıq yaratmamalıdır, amma İspaniyada olduğu kimi "*əldə edilmiş razılaşmaların aydın və başa düşülən şəkildə əks etdirilməsini*"[346] tələb etmək konfidensiallıqla bağlı bəzi şübhələrə səbəb ola bilər. Beləliklə, milli qanunverici orqanlar xitam bildirişində göstərilən məlumatları

---

[339] Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu), maddə 6.
[340] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 28(1).
[341] Yalnız mediator tərəfindən və ya mediatorla bağlı səbəblərə görə medfiasiyaya xitam verildikdə.
[342] Belə bir sənədə nələrin daxil ediləcəyi ilə bağlı yanlışlığın olmaması üçün onun "xitam bildirişi" adlandırılması üstünlük verilən üsuldur.
[343] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 31(1).
[344] Litva Respublikası, Mülki Prosessual Məcəllə, *Valstybės žinios*, 2002, № 36-1340, maddə 80(8).
[345] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 17(1).
[346] İspaniya Krallığı, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Boletín Oficial del Estado*, № 5/2012, maddə 22(3).

mübahisənin ümumi təsviri və mediasiyanın uğurlu olub-olmadığını göstərən məlumatla məhdudlaşdırmağa təşviq edilirlər.

## 6. Mediaya vasitəsilə barışıq haqqında saziş

### 6.1. Forma və məzmun

Nadir hallar istisna olmaqla,[347] məhkəmədə homologasiya edilmədikdə və ya notariat qaydasında təsdiqllənmədikdə, mediaisya vasitəsilə əldə edilmiş barışıq sazişi müqavilə statusuna malikdir. Beləliklə, nə qədər ki mübahisə predmeti olan məsələ milli qanunvericiliyə uyğun olaraq həll edilə bilər, tərəflər uyğun hesab etdikləri hər bir şeyi razılaşdırmaqda sərbəstdirlər (məsələn, Fransada "*tərəflərin əldə etdiyi razılaşma tərəflərin sərbəst istifadə edə bilməyəcəyi hüquqlara təsir göstərmir*"[348]). Lakin sözügedən mübahisə ilə bağlı məhkəmə icraatı artıq başlandıqdan sonra sazişin əhatə dairəsi daha çox suallar yarada bilər. Birincisi, mübahisənin yalnız bir hissəsi üzrə razılaşma həm də məhkəmənin yükünü yüngülləşdirə və məhkəmə icraatının müddətini azalda bilər və buna görə də buna icazə verilməlidir. İkincisi, eyni prinsipdən çıxış edərək, gələcəkdə məhkəmə çəkişmələrinin qarşısını almaq üçün iddia və ya qarşılıqlı iddia tələbində göstəriləndən daha çox məsələlər üzrə razılaşma təşviq edilməlidir. Milli qanunverici orqanlara, məsələn, Belçika, Finlandiya, Fransa və ya İspaniyada olduğu kimi, öz milli qanunlarında mediasiya yolu ilə əldə edilmiş barışıq sazişinin əhatə dairəsini, xüsusən də məhkəmə ilə əlaqəli mediasiya halında, tənzimləmək tövsiyə olunur.

Nə qədər ki mediasiya vasitəsilə barışıq sazişi müqavilə statusuna malikdir, müqavilənin formasını tənzimləyən milli müddəalar tətbiq edilir. Bununla belə, onları beynəlxalq standartlara uyğunlaşdırmaq üçün əsas tələblər yerinə yetirilməlidir. Mediasiya haqqında Sinqapur Konvensiyası,[349] UNCITRAL-ın Nümunəvi Qanunu (2018)[350] və Mediasiya haqqında Direktiv[351] belə sazişin məcburi icraya yönəldilə bilməsi üçün yazılı şəkildə bağlanmasını tələb edir. UNCITRAL-ın sənədləri həmçinin barışıq sazişini tərəflərin və daha yaxşı olar ki, həm də mediatorun imzalamasını tələb edir. Bu tədqiqatda araşdırılmış ölkələrin əksəriyyəti artıq bu standartlara riayət edir, mediasiya vasitəsilə barışıq haqqında sazişin tərəflər və mediator tərəfindən imzalanmasını və beləliklə də yazılı şəkildə bağlanmasını tələb edir (məsələn, Azərbaycan, Belçika, Kipr, Çexiya, Finlandiya, İtaliya, Serbiya, İspaniya). Serbiya[352] və İtaliyada[353] bəzi hallarda mediasiya vasitəsilə barışıq sazişi həm də vəkillər tərəfindən imzalanır. Mediasiya vasitəsilə barışıq haqqında nümunəvi sazişi CEPEJ tərəfindən qəbul edilmiş Mediasiyaya dair alətlər dəstində[354] tapmaq olar. Müvafiq milli qanunvericilikdə daha ciddi standartlar nəzərdə tutula bilər.

### 6.2. Məcburi icra

Bir qayda olaraq, mediasiyanın tərəfləri barışıq sazişinə daxil etdikləri hər bir müddəa üzrə konsensusa gəlirlər. Deməli, orada nəzərdə tutulan öhdəliklərə tərəflərin könüllü riayət etməsi ehtimalı onlara hər hansı qərarın tətbiq edildiyi hallara nisbətən daha çoxdur. Lakin hətta belə hallarda da insanlar öz fikirlərini dəyişməyə və vədlərinə əməl etməkdən yayınmağa meylli olurlar. Buna görə də, milli qanunverici orqanlar mediasiyada vicdanla iştirak etmiş, mübahisənin həllinə pul və vaxt sərf etmiş tərəflərin səylərinin əbəs olmamasını təmin etməlidirlər. Əks halda, geniş ictimaiyyətin nəzərində mediasiyaya olan inam və nəticədə ona müraciətlər azalmış olar.

---

[347] Məsələn, Xorvatiyada *"mediasiya prosesi zamanı bağlanmış barışıq sazişi tərəflərin razılaşdırdığı hərəkəti yerinə yetirmək öhdəliyini özündə ehtiva edirsə və bu sazişdə borclunun sazişin dərhal məcburi icraya yönəldilməsinə razılığı barədə bəyanatı (məcburi icra haqqında maddə) varsa, həmin saziş icra sənədi sayılır*" – Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 13(2). Beləliklə, mediasiya vasitəsilə barışıq haqqında sazişin, o cümlədən onun məcburi icra haqqında maddəsinin sadə müqavilə ilə eyni hüquqi dəyərə malik olduğunu söyləmək olmaz.

[348] Fransa Respublikası, İnzibati işlər üzrə ədalət mühakiməsi məcəlləsi, maddə L213-3.

[349] Birləşmiş Millətlər Təşkilatının Mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında Konvensiyası, maddə. 1.

[350] Beynəlxalq kommersiya mediasiyası və mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında UNCITRAL-ın Nümunəvi Qanunu, 2018 (Beynəlxalq kommersiya barışığı proseduru haqqında UNCITRAL-ın Nümunəvi Qanununa (2002) dəyişiklik edilməsi), maddə 16 (1).

[351] Avropa İttifaqı Parlamentinin və Şurasının "Mülki və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair" 2008/52/EC saylı Direktivi, OJ, L-136, 2008, səh. 3-8, maddə 6.

[352] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 27.

[353] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 12(1).

[354] CEPEJ, Standart mediasiya formaları. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV [10.03.2019 tarixinədək olan məlumatlar], sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 34-36.

Aİ-yə üzv dövlətlər Mediasiya haqqında Direktivə[355] əsasən transsərhəd mübahisələrin həlli barədə razılaşmaların icrası üçün mexanizmə malik olmağa borcludurlar. Beynəlxalq icra rejiminin tərkib hissəsi olmaq istəyən digər ölkələr də milli icra mexanizmini tətbiq etməlidirlər, belə ki, Mediasiya haqqında Sinqapur Konvensiyası[356] kimi son beynəlxalq sənədlər də milli müddəalara əsaslanır. Təəccüblü deyil ki, bu tədqiqatın obyekti olan bütün ölkələr mediasiya yolu ilə əldə edilmiş barışıq sazişlərinin icrası üçün müəyyən üsul nəzərdə tuturlar. Ölkələrin əksəriyyəti həm məhkəmədənkənar, həm də məhkəmə ilə əlaqəli mediasiya vasitəsilə barışıq haqqında sazişin icrası üçün həll yolu təklif etsə də, bəziləri (məsələn, İsveçrə) barışıq sazişinin məcburi icrasını məhkəmə ilə əlaqəli mediasiya halı ilə məhdudlaşdırır. Bu yanaşmadansa, birinci yanaşma tövsiyə olunur.

Mediasiya vasitəsilə barışıq haqqında sazişlər sadələşdirilmiş icraat qaydasında təsdiqlənmək üçün məhkəməyə təqdim edilməklə (məsələn, Azərbaycan, Belçika, Xorvatiya, Kipr, Çexiya, Finlandiya, Fransa, İrlandiya, İtaliya, Litva, Polşa (mülki işlər üzrə icraat), Serbiya, İspaniya, və İsveçrə (məhkəmə ilə əlaqəli mediasiya)); homologasiya üçün digər dövlət orqanına təqdim edilməklə (məsələn, Polşada inzibati icraatda); notariat qaydasında təsdiqlənməklə (məsələn, Xorvatiya, Serbiya, İspaniya); arbitraj qərarı üçün arbitraj orqanına verilməklə (məsələn, Xorvatiya, Almaniya) və ya barışıq sazişinə birbaşa icra sənədi statusu verməklə (məsələn, Xorvatiya, İtaliya) icraya yönəldilə bilər. Bəzi ölkələrdə bu üsullar qarşılıqlı surətdə istifadə edilə bilər.

Məhkəmə yolu ilə homologasiya iki səbəbə görə üstünlük verilən üsuldur. Birincisi, mediasiya zamanı tərəflər nadir hallarda vəkillər tərəfindən təmsil olunmaq öhdəliyi daşıyırlar (5.3-cü bölmədə izah edildiyi kimi, bu yalnız İtaliyada nəzərdə tutulub). Mediatorların həm də vəkil olması mütləq şəkildə tələb olunmur (belə bir tələbə yalnız Türkiyənin milli qanunvericiliyində rast gəlinib). Beləliklə, məhkəmə mediasiya yolu ilə əldə edilmiş barışıq sazişinin müddəalarının imperativ milli hüquq normalarına və ictimai qaydaya, o cümlədən uşaqların üstün mənafelərinə uyğun olmasını təmin edə bilər. Məhkəmə həm də sazişin icrasından imtina üçün başqa əsasların olub-olmadığını yoxlamaq üçün ən münasib orqandır. İkincisi, barışıq sazişi məhkəmə qərarı ilə icraya yönəldildikdə məhkəmə qərarı ilə eyni hüquqi qüvvəyə malik olur, o cümlədən mübahisə artıq həll edilmiş sayılır ki, bu da gələcək məhkəmə çəkişmələrinin qarşısının alınmasına kömək edə bilər. Məsələn, Litvada "*məhkəmənin yekun qərarı ilə təsdiq edilmiş barışıq sazişi tərəflər üçün yekun məhkəmə qərarı statusuna malikdir (res judicata) və icra oluna bilər*".[357]

Notarius və ya digər dövlət orqanı tərəfindən homoloqasiya da imperativ milli hüquq normasına və ictimai qaydaya uyğunluğu təmin edə və buna görə də istifadə edilə bilər. Digər tərəfdən, birbaşa icra yalnız o şərtlə mümkün ola bilər ki, imperativ hüquq normasına əməl olunması sazişin tərtib edilməsi prosesində digər üsullarla təmin edilmiş olsun (məsələn, İtaliyada "*saziş imzalanarkən vəkillər təsdiq və şahidlik edir ki, sazişin müddəaları imperativ hüquq normalarına və ictimai qadaya uyğundur*"[358]).

Bir çox ölkələrdə mediasiya vasitəsilə barışıq sazişi yalnız hər iki tərəfin müraciəti olduqda və yaxud bir tərəfin müraciəti və digər tərəfin birmənalı razılığı olduqda mümkündür (məsələn, Kipr, Finlandiya, Fransa, Litva). Bu həm də Mediasiya haqqında Direktivin 6-cı maddəsində öz əksini tapıb. Bununla belə, vicdanla hərəkət edən tərəfin mənafeyini və mediasiya prosesinin nəticələrinə ümumi etimadı qorumaq üçün tərəfləri mediasiya vasitəsilə əldə ediləcək barışıq sazişinə onun icrasının məcburiliyi haqqında maddə (bənd) daxil etməyə təşviq etmək tövsiyə olunur (məsələn, Polşada "*barışıq sazişini imzalamaqla tərəflər onun nəticələrinin təsdiqlənməsi üçün məhkəməyə müraciət etməyə razılıq vermiş olurlar ki, bu barədə mediator tərəflərə məlumat verməlidir*";[359] Xorvatiyada "*mediasiya yolu ilə əldə edilmiş barışıq sazişi icra edilməli olan öhdəliyi özündə ehtiva edirsə, icra sənədi sayılır, bu şərtlə ki, bununla bağlı tərəflər kompromis əldə etmiş olsunlar və sazişdə onun birbaşa icraya yönəldilməsinə icazə verildiyi barədə bəyanat (məcburi icra haqqında maddə) yer alsın*"[360]). Barışıq sazişinə məcburi icra haqqında məlumatın daxil edilməsini tələb etmək müsbət təcrübədir, belə ki, bu, homologasiya prosesinə yardımçı ola və gələcək mübahisələrin qarşısını almağa kömək edə bilər.

## 7. Stimullaşdırma vasitələri

---

[355] Avropa İttifaqı Parlamentinin və Şurasının "Mülki və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair" 2008/52/EC saylı Direktivi, OJ, L-136, 2008, səh. 3-8, maddə 6.

[356] Birləşmiş Millətlər Təşkilatının Mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında Konvensiyası.

[357] Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053, maddə 16(3).

[358] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 12(1).

[359] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595, maddə $183^{12}(2^{1})$.

[360] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 13(2).

Milli qanunlarda potensial mediasiya istifadəçilərini faktiki olaraq mediasiyaya müraciət etməyə həvəsləndirmək üçün istifadə edilən üç əsas motivasiya kanalı aşkar edilmişdir. Birincisi, insanlar artıq mübahisə ilə üzləşdikdə mediasiya və onun üstünlükləri haqqında məlumat almaqla motivasiya oluna bilərlər ki, bu da onları təkliflərə daha diqqətlə yanaşmağa sövq edə bilər; ikincisi, maddi subsidiyalar və ya sanksiyalar insanlarda müsbət və ya mənfi motivasiya yarada bilər; üçüncüsü, mediasiyaya cəhd etməmək barədə məlumatsız qərar qəbul etmək əvəzinə, onlardan mediatorla ilk iclasda iştirak etmək tələb oluna bilər. Bunlardan sonuncusu 4.2-ci bölmədə geniş şəkildə müzakirə olunduğuna görə, bu bölmədə yalnız əvvəlki ikisinə daha ətraflı toxunulacaq.

## 7.1. Məlumat vermək öhdəliyi

Mediasiyaya dair rəhbər prinsiplərdə mediasiyanın əlçatanlığından bəhs edilərkən hakimlərin və vəkillərin rolunun vacibliyi aydın şəkildə vurğulanır.[361] Təkcə vəkillərin müştərilər və ya məhkəmədə mübahisə edən tərəflər kimi potensial mediasiya istifadəçilərini məlumatlandırmaq öhdəliyi mediasiyaya müraciətlərin sayının əhəmiyyətli dərəcədə artması ilə nəticələnə bilməz.[362] Bununla belə, Rəhbər prinsiplərdə[363] haqlı olaraq qeyd edildiyi kimi, müxtəlif vəzifəli şəxslər tərəfindən yayılan məlumatlar geniş ictimaiyyəti maarifləndirməyə və məlumatlılıq səviyyəsini artırmağa kömək edə bilər, hakimlər və vəkillər isə potensial istifadəçilərə mübahisələrin üstünlük verilən həlli üsulu ilə bağlı öncədən məlumatlı şəkildə qərarlar qəbul etməkdə kömək edə bilər. Buna görə də, milli qanunverici orqanlar belə bir öhdəliyi tətbiq etməyə təşviq olunurlar. Ölkələr arasında geniş yayılmış olmasa da, bununla bağlı müsbət təcrübənin bir neçə nümunəsi var.

### 7.1.1. Vəkillər

Vəkillərin müştərilərini mediasiyadan istifadə imkanları haqqında məlumatlandırmaları üçün birbaşa tələblərə yalnız Kipr, İrlandiya və İtaliyada rast gəlinir. Kipr qanunvericiləri vəkillərin üzərinə "*müştərilərini bu Qanunun əhatə dairəsinə daxil olan mübahisələrin həlli üçün bu Qanunda nəzərdə tutulmuş mediasiya imkanları haqqında məlumatlandırmaq*" kimi yalnız ümumi öhdəlik qoymağı seçdikləri halda,[364] İrlandiya və İtaliya nəinki məlumatın verilməli və necə təqdim edilməli olduğu barədə, həm də öhdəliyə əməl edilməməsinin mümkün nəticələri haqqında daha ətraflı müddəalar nəzərdə tutmuşlar. Məsələn, İrlandiyada "*vəkillik fəaliyyəti ilə məşğul olan şəxs müştərinin adından məhkəmə icraatına başlamazdan əvvəl*:

*(a) məhkəmə icraatının predmeti olan mübahisənin həllinə cəhd etmə üsulu kimi mediasiyanı nəzərdən keçirməyi müştəriyə tövsiyə edir;*

*(b) müştəriyə mediasiya xidmətləri ilə bağlı məlumatları, o cümlədən mediasiya xidmətləri göstərən şəxslərin adlarını və ünvanlarını təqdim edir;*

*(c) müştəriyə:*

*(i) mübahisənin təklif olunan məhkəmə icraatı yolu ilə deyil, başqa üsullarla həllinin üstünlükləri və*

*(ii) mediasiyanın faydaları barədə məlumat verir;*

*(d) müştəriyə mediasiyanın könüllü olduğunu və müştərinin və/və ya onun uşaqlarının təhlükəsizliyinin risk altında olduğu mübahisənin həlli üçün uyğun vasitə ola bilməyəcəyi barədə məlumat verir və*

*(e) 2 və 3-cü bəndlərdə və 10 və 11-ci maddələrdə qeyd olunan məsələlər barədə müştərini məlumatlandırır*".[365]

Həm İrlandiya, həm də İtaliya məhkəmə icraatına başlanarkən bu öhdəliyin yerinə yetirildiyinə dair sübut təqdim edilməsini tələb edir. İrlandiyada vəkilin qanunla nəzərdə tutulmuş bəyannaməni təqdim etməsi kifayətdir.[366] İtalyanın qanunverici orqanı mediasiya haqqında məlumatları özündə ehtiva edən, tərəflərin imzalamış olduqları sənədin olmasını tələb edir.[367] Sonuncu daha yaxşı təcrübə hesab olunur, çünki müştəridən aktiv davranışın tələb edilməsi onun öz hərəkətlərini daha çox dərk etməsinə gətirib çıxarmış olur.

---

[361] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 1.2. və 1.3-cü bəndlər; cinayət hüququ: 1.2 və 1.4-cü bəndlər; inzibati hüquq: 1.4 və 1.5-ci bəndlər).

[362] Avropa İttifaqı, Daxili Siyasət üzrə Baş Direktorluq, *Mediasiya haqqında Direktivin "yenidən nəzərdən keçirilməsi": Onun həyata keçirilməsinin məhdud təsirinin qiymətləndirilməsi və Aİ-də mediatorların sayının artırılması üçün tədbirlərin təklif edilməsi: tədqiqat* [interaktiv], 2014. Sənədi burada tapmaq olar: http://www.europarl.europa.eu/RegData/etudes/etudes/join/2014/493042/IPOL-JURI_ET(2014)493042_EN.pdf, səh. 136.

[363] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 3.1 və 3.2-ci bəndlər; cinayət hüququ: 3.2-ci bənd; inzibati hüquq: 54-cü bənd).

[364] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 13(2).

[365] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 14(1).

[366] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 14(2).

[367] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 4(3).

Üstəlik, hər iki ölkədə həm də bu öhdəliyin yerinə yetirilməməsinin nəticələri nəzərdə tutulmuşdur. Məsələn, İrlandiyada "*müvafiq məhkəmə vəkillik fəaliyyəti ilə məşğul olan müvafiq şəxsin 1-ci bəndin müddəalarına riayət etməsinə və məhkəməyə bu cür bəyannamə təqdim edə bilməsinə imkan vermək üçün və yaxud əgər vəkil 1-ci bəndin müddəalarına artıq əməl edibsə, məhkəməyə belə bir bəyannaməni təqdim etməsi üçün icraatı mövcud vəziyyətdə ağlabatan hesab etdiyi müddətə təxirə salır*".[368] İtaliyada sanksiyalar daha sərtdir. Tərəflərin imzaladığı yazılı sənəd olmadıqda, məhkəmə nəinki "*tərəfi mediaisya üçün müraciət etmək hüququ barədə məlumatlandırır*",[369] həm də belə məlumatın verilməməsinin vəkillə müştəri arasındakı müqaviləni etibarsız edəcəyini bildirir.

İrlandiya və İtaliya qanunvericiləri tərəfindən təklif olunan vəkillərin müştərilərinə məlumat vermək öhdəliyinin tətbiqi modelləri bir qədər fərqlənir, belə ki, birincisi vəkillərə münasibətdə daha yumşaq yanaşmanı nəzərdə tutur. Bununla belə, onların hər ikisi kifayət qədər işlənib hazırlanmışdır və hansı məlumatın çatdırılmalı olduğunu, məhkəməyə təqdim edilməli olan sübutun növünü və bu hərəkətləri yerinə yetirməməyin nəticələrini aydın şəkildə müəyyən edir. Beləliklə, onların hər ikisi müsbət təcrübə kimi tövsiyə edilə bilər.

### 7.1.2. Hakimlər və digər vəzifəli şəxslər

Hakimlər nadir hallarda tərəfləri mediasiya haqqında məlumatlandırmaq öhdəliyi daşıyırlar (yalnız Serbiyada belə bir tələb qeyd olunub: "*məhkəmə və ya xüsusi qanun əsasında tərəfləri mediasiyadan istifadə imkanı barədə təlimatlandırmağa borclu olan digər orqan tərəfləri mediasiyadan istifadənin mümkünlüyü haqqında tam məlumatlandırmaq məqsədilə onlara bütün zəruri məlumatları təqdim etməli və ya onları mediatora yönləndirməlidir*"[370]). Bir çox hallarda mediasiya haqqında milli qanunlar hakimlərə mübahisə tərəflərini məlumatlandırmaq imkanı verir (məsələn, Xorvatiya, Kipr, Çexiya, İrlandiya, Polşa, Türkiyə). Adətən bu, 4.1-ci bölmədə müzakirə olunduğu kimi, onların tərəflərə mediasiyanı tövsiyə etmək hüququ ilə birlikdə nəzərdə tutulur (məsələn, İrlandiyada "*məhkəmə prosesdə iştirak edən tərəfin vəsatəti əsasında və ya işin bütün hallarını nəzərə alaraq məqsədəuyğun hesab etdiyi təqdirdə öz təşəbbüsü ilə: (a) məhkəmə icraatının tərəflərini icraatın predmeti olan mübahisənin həlli üsulu kimi mediasiyanı nəzərdən keçirməyə dəvət edə bilər; (b) icraatın tərəflərinə icraat predmeti olan mübahisəni həll etmək üçün mediasiyanın faydaları barədə məlumat verə bilər*"[371]).

Məhkəmə icraatı başlandıqdan sonra hakimlər vəziyyət barədə daha ətraflı təsəvvürə malik olur və tərəflər arasında barışıq yolu ilə həllin mümkünlüyü barədə daha məlumatlı qərarlar qəbul edə bilirlər. Deməli, hakimlərin üzərinə hər bir mübahisənin tərəflərini məlumatlandırmaq öhdəliyi qoymaq, xüsusən də vəkillərin üzərinə artıq belə bir öhdəlik qoyulubsa, zəruri deyil. Bununla belə, milli qanunverici orqanlara tövsiyə olunur ki, hakimlərin zəruri hesab etdikləri hallarda mediasiya haqqında məlumat verməsinə imkanı yaradan birbaşa müddəa nəzərdə tutsunlar və daha yaxşı olar ki, hansı məlumatın verilməli olduğunu göstərsinlər (7.1.1-ci bölmədə təqdim edilən nümunələrə bax). Həmçinin məhkəmə orqanlarının vaxtına qənaət etmək üçün hakimlərin tərəfləri həmin məlumatları təqdim edə biləcək digər şəxsə və ya şəxslərə yönləndirməsinə icazə vermək tövsiyə olunur. Məsələn, Polşada "*sədrlik edən hakim tərəfləri mübahisənin barışıq yolu ilə həlli üsulları, o cümlədən mediasiya haqqında məlumatlandırma iclasında iştirak etməyə dəvət edə bilər. Bu cür məlumatlandırma iclası hakim, məhkəmə katibi, səlahiyyətli məhkəmə əməkdaşı, hakim köməkçisi və ya daimi mediator tərəfindən keçirilə bilər*".[372] Bununla belə, hakimlərin işin mediasiyaya uyğunluğu barədə əsaslandırılmış qərarlar qəbul edə bilmələri üçün məhkəmə sistemi əməkdaşları üçün mediasiya üzrə ilkin və davamlı təlimlər keçirilməsi tövsiyə olunur.[373]

Yuxarıda göstərilən qaydalar digər icraatları həyata keçirən vəzifəli şəxslərə (onlar hakim olmaya bilər) də şamil edilir, çünki onlar da mübahisələri baxılmağa qəbul edirlər. Məsələn, Xorvatiyada "*məhkəmə icraatı, inzibati və ya digər icraat zamanı icraatı həyata keçirən orqan mübahisənin mediasiya yolu ilə həlli imkanının mövcud olduğunu hesab edərsə, bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş mübahisələr üzrə tərəflərə mübahisəni mediasiya prosesi vasitəsilə həll etməyi tövsiyə edə bilər. Bu maddənin 1-ci bəndində qeyd edilən orqan tərəfləri mediasiyanın istifadəsi qaydası ilə tanış etmək üçün məlumatlandırıcı iclasa dəvət edə bilər*".[374] Milli qanunverici orqanlar həmçinin mübahisələrə baxan vəzifəli şəxsləri (onlar mübahisələri həll etmək səlahiyyətinə malik olmaya da bilər) ərizəçilərə mediasiya haqqında məlumat verməyə təşviq etmək üçün öz milli qanunlarına uyğun olaraq

---

[368] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 14(3).
[369] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 4(3).
[370] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 9.
[371] İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27, maddə 16(1).
[372] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595, maddə $183^8$(4).
[373] Hazırda CEPEJ-GT-MED-də Hakimlərin mediasiya haqqında məlumatlılıq səviyyəsinin artırılması proqramı hazırlanır.
[374] Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11, maddə 19(1 və 2).

başqa imkanları nəzərdən keçirməyə təşviq edilirlər. Cinayət işlərində məlumatlandırma öhdəliyi polis, prokurorluq və probasiya orqanları əməkdaşlarının üzərinə düşür. Bu orqanlar arasında mediasiya üçün uyğun olan işlər barəsində məlumat mübadiləsi aparılmalıdır. Məsələn, Çexiyada "*polis və prokuror əsasən yetkinlik yaşına çatmayan şəxslərin cinayət işlərində mediasiya üçün uyğun olan məsələlər barədə öz idarələrinə məlumat verirlər ki, bu şəxslərə qarşı ittiham yenicə irəli sürülərkən və ya hələ irəli sürülməmiş cinayət prosesi əvəzinə mediasiyadan istifadə olunsun*".[375] Amma bu, digər dövlət qurumlarına da şamil edilə bilər. Məsələn, Litva Mediasiyaya dair rəhbər prinsiplərdə[376] yer alan tövsiyələrə uyğun olaraq, belə bir öhdəliyi hüquqi yardım göstərən səlahiyyətli şəxslərin üzərinə qoyur.[377] Geniş ictimaiyyət mediasiyanın faydaları barədə əsasən məlumatsız qalsa da, müxtəlif kanallardan istifadə edərək onların məlumatlılığını artırmaq imkanlarından yararlanmaq təkidlə tövsiyə olunur.

### 7.2. Maddi stimullar

Yuxarıda qeyd edildiyi kimi, geniş ictimaiyyət mediasiya və onun faydaları haqqında o qədər də məlumatlı deyil. Buna görə də, milli qanunverici orqanlar mediasiyadan istifadəni təşviq etmək üçün maddi stimullar və sanksiyalar tətbiq etməyə təşviq olunurlar. Bundan əlavə, milli qanunverici orqanlar maliyyə imkanları məhdud olan ictimaiyyət nümayəndələrinin mediasiyadan pulsuz və ya ağlabatan dərəcədə azaldılmış xərc müqabilində faydalana bilməsini təmin etməklə mediasiyanın əlçatanlığını təmin etməlidirlər.[378] Milli qanunlarda üç əsas maddi stimul növünə rast gəlmək olar: (1) sanksiyalar (məsələn, İrlandiya, İtaliya, Litva, Polşa, Sloveniya); (2) gerb yığımlarının və digər məhkəmə rüsumlarının azaldılması və ya alınmaması (məsələn, Litva, Polşa, Serbiya); (3) mediasiyada istifadə üçün yardımlar (subsidiyalar) (məsələn, İtaliya, Litva, İsveçrə).

#### 7.2.1. Sanksiyalar

Mediasiyaya dair rəhbər prinsiplərdə deyilir ki, "*tərəflər mübahisələrin barışıq yolu ilə həllindən istifadə imkanını aktiv şəkildə nəzərdən keçirməsələr, sanksiyaya məruz qala bilərlər*".[379] Beləliklə, milli qanunverici orqanlar bu cür stimulları tətbiq etməyə təşviq olunurlar, bu şərtlə ki, bu cür həll yoluna müraciətin şərtləri müəyyənləşdirilmiş olsun. Mediasiya ilə bağlı tərəflərə sanksiyaların tətbiqi məsələsini nəzərdən keçirərkən, (a) hansı növ sanksiyaların tətbiq oluna biləcəyinə və (b) onların hansı davranış növünə tətbiq oluna biləcəyinə dair qərar verməк vacibdir. Bu suallara mümkün cavablar aşağıda verilmişdir.

a) Sanksiyaların növləri

Tərəflərin mediasiya ilə bağlı üzləşə biləcəyi sanksiyalar cərimə formasında tətbiq edilə və ya prosessual xərclərin bölüşdürülməsi yolu ilə həyata keçirilə bilər. Birinci növə yalnız İtaliyada rast gəlinir, burada "*tərəf mediasiya prosesində iştirak etmədikdə, iştirak etməməsinin üzrlü səbəbdən baş verdiyini sonrakı iclasda sübut etməzsə, məhkəmə həmin tərəfin mediasiya prosesində iştirak etməməsinin üzrlü səbəbinin olmadığı qənaətinə gələ bilər <…>. Bundan sonra hakim 5-ci maddədə nəzərdə tutulmuş hallarda üzrlü səbəb olmadan mediasiya prosesində iştirak etməyən tərəfə məhkəmə araşdırması üçün ödənilməli olan məhkəmə rüsumunun məbləğinə uyğun məbləği dövlət büdcəsinə ödəmək sanksiyası tətbiq edir*".[380] İkinci növ sanksiyalar daha çox yayılmışdır və onlara İrlandiya, Sloveniya, Litva, Polşa və Türkiyədə təsadüf edilir.

Digər tərəfdən, bu ölkələrdəki qaydalar həm də çəkilən xərclərlə bağlı fərqlənir. Məsələn, Sloveniyada mediasiyaya müraciətlə bağlı işlərdə bunlar məhkəmə icraatının xərcləri ilə eynidir ("*hər hansı tərəf mediasiyaya müraciətə açıq-aydın əsassız olaraq etirazını bildiribsə, məhkəmə prosedurunun nəticəsindən asılı olmayaraq, məhkəmə qarşı tərəfin vəsatəti ilə həmin tərəfin üzərinə məhkəmə proseduru üçün tələb olunan və açıq-aydın əsassız etirazdan irəli gələn xərclərin hamısının və ya bir hissəsinin ödənilməsi öhdəliyini qoya bilər*"[381]). Oxşar müddəalar İrlandiyada, Litvada və Türkiyədə də mövcuddur. Polşada isə yalnız mediasiya ilə bağlı xərclər mediasiyada iştirak etməyən tərəfin üzərinə qoyula bilər ("*sədrlik edən hakim məhkəmə baxışı üçün nəzərdə tutulan ilk iclasdan əvvəl tərəflərin mediasiyaya müraciət etməli olub-olmadığını müəyyən edir. Bu məqsədlə tərəfləri dinləmək zərurəti yaranarsa, sədrlik edən hakim onları qapalı*

---

[375] Çex Respublikası, Probasiya və Mediasiya Xidməti haqqında Qanun, 2000, № 257/2000, Qanunlar toplusu, maddə 4(9).
[376] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 48-ci bənd; inzibati hüquq: 56-cı bənd).
[377] Litva Respublikası, Dövlət tərəfindən təmin edilən hüquqi yardım haqqında Qanun, *Valstybės žinios*, 2000, № 30-827, maddə 15(6).
[378] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 34-cü bənd).
[379] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 49-cu bənd).
[380] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 8(4bis).
[381] Sloveniya Respublikası, Mübahisələrin alternativ həlli haqqında Qanun. *Uradni list*, № 97/2009, maddə 19(5).

*dinləmədə iştirak etmək üçün şəxsən çağıra bilər. Tərəf üzrlü səbəb olmadan məhkəmə iclasında və ya qapalı dinləmədə iştirak etmədikdə, məhkəmə onun qarşı tərəfin çəkdiyi məcburi iştirak xərclərini ödəməsi barədə qərar çıxara bilər*"[382]*).*

Hər iki sanksiya növü eyni məqsədə – tərəfləri mediasiya ilə bağlı xoş məramlı olmayan niyyətlə hərəkət etməkdən çəkindirmək məqsədinə nail olmağa imkan yarada bilər. Digər tərəfdən, "uduzan ödəyir" prinsipindən kənara çıxmaq və xoş məramlı olmayan niyyətlə hərəkət edən tərəfin üzərinə, onun işi udub-udmamasından asılı olmayaraq, xərcləri ödəmək öhdəliyini qoymaq geniş ictimaiyyət tərəfindən müsbət qarşılana bilər, belə ki, həmin tərəf bu cür davranmasaydı, mediasiya uğurla nəticələndiyi təqdirdə bu xərcləri ümumiyyətlə çəkməli olmazdı. Eyni səbəbdən milli qanunverici orqanlar bu cür sanksiyanın təkcə mediaisya xərclərinə deyil, həm də məhkəmə prosesi ilə bağlı xərclərə şamil edilməsi imkanını nəzərdən keçirməlidirlər.

b) Davranış

Açıq-aydın sanksiya tələb edən davranış məcburi mediasiya iclasında iştirak etməmək və yaxud məhkəmənin və ya digər tərəfin mübahisənin həllində mediasiyanı sınaqdan keçirmək üçün dəvətini üzrlü səbəb olmadan rədd etməkdir. Bu cür davranışa İrlandiya, İtaliya, Polşa və Sloveniyada sanksiya tətbiq edilir. Litva daha da irəli gedib və mediasiya zamanı vicdanlı niyyətlə davranmayan tərəfə sanksiya tətbiq etməyə icazə verib. Vicdanlı niyyətlə davranmamağın nədən ibarət olduğu ətraflı izah edilməsə də, hər bir konkret iş üzrə qərar verilməsi haqlı olaraq hakimin öhdəsinə buraxılıb. Belə bir müddəa vicdanlı niyyətlə davranan tərəflərin mediasiya prosesi zamanı özlərini daha arxayın hiss etmələrinə və malik olduqları prosessual təminatlara əməl ediləcəyinə əmin olmalarına imkan verir.

İtaliyada sanksiyanın şamil ediləbiləcəyi davranışa münasibətdə olduqca qeyri-adi yanaşma var. Bu, 2-ci fəsildə qısaca müzakirə edildiyi kimi, mediasiya uğurlu olmadıqda mediasiyanın sonunda mediatorun həll təklifi irəli sürməsinə icazə verilməsi ilə bağlıdır. Orada "*məhkəmənin qərarı barışıq təklifinin məzmununun tam ekvivalenti olarsa, hakim ilkin olaraq verilmiş barışıq yolu ilə həll təklifini qalib tərəf rədd etmiş olduğu təqdirdə onun çəkdiyi xərclərin ona qaytarılmasını istisna edir. Həmin xərclər təklifin tərtib edilməsindən sonrakı dövrdə çəkilən xərclərdir. Bu halda məhkəmə qalib tərəfdən uduzmuş tərəfin həmin dövrdə çəkdiyi xərclərin ödənilməsini, habelə ödənilməli olan məhkəmə rüsumunun məbləğinə bərabər məbləğin dövlət büdcəsinə ödənilməsini tələb edir. <...> Bu bənddə qeyd olunan müddəalar 8-ci maddənin 4-cü bəndində qeyd olunan Mediatora ödənilməli qonorara və ekspertə ödənilməli xidmət haqqına da şamil edilir*".[383]

İtaliya belə bir modeli təklif edən yeganə ölkədir və bu model, şübhəsiz ki, tərəfləri masada ağlabatan təklif olarkən mediasiyadan imtina etməzdən əvvəl iki dəfə düşünməyə sövq edir və eyni zamanda onları təklifi qəbul etməyə məcbur etmir. Bununla belə, bu cür müddəa tərəflərin daha sonra cərimə ödəməsi tələb olunacağı qorxusundan özlərini təklifi qəbul etmək məcburiyyətində hiss etmələrinə gətirib çıxara bilər. Beləliklə, müvafiq milli qanunvericiliyə belə bir müddəanın daxil edilməsini nəzərdən keçirərkən, milli qanunverici orqanlar diqqətli olmalıdırlar ki, mediasiyanın könüllü xarakterinə zidd hərəkət etməsinlər, belə ki, tərəflər mübahisəni barışıq yolu ilə həll edib-etməmək barədə sərbəst seçim etmək hüququna və seçimləri müsbət olduqda barışıq şərtlərini müəyyənləşdirmək hüququna malikdirlər.

### 7.2.2. Gerb yığımları və məhkəmə rüsumları

Potensial istifadəçilər pozitiv stimullar vasitəsilə, məsələn, gerb yığımlarının və ya digər rüsumların azaldılması və ya ləğv edilməsi yolu ilə mediasiyanı sınaqdan keçirməyə cəlb edilə bilərlər. Mediasiyaya dair rəhbər prinsiplərdə də təklif edilir ki, milli qanunverici orqanlar "*mübahisəni məhkəməyə müraciət etməzdən əvvəl və ya məhkəmə icraatı zamanı həll etmək üçün məhkəmə çəkişmələrinin alternativlərindən istifadə edilərsə, konkret hallarda məhkəmə rüsumlarının azaldılması, ləğv edilməsi və ya geri qaytarılması məsələsini nəzərdən keçirə bilərlər*".[384] Bu, qısamüddətli perspektivdə dövlət büdcəsinə əlavə maliyyə yükü yarada bilsə də, uzunmüddətli perspektivdə mediasiyanın populyarlığının artması ilə bağlı məhkəmə araşdırmalarının sayının azalması baş vermiş itkini sıfıra endirə və ya üstələyə bilər. Üstəlik, xərclərin bu cür azaldılması mediasiya və onun əlçatanlığı haqqında məlumatlılıq səviyyəsini artırır. Bu baxımdan iki modelə rast gəlinir. Birincisi, tərəflər məhkəmədə iddia qaldırmazdan əvvəl mediasiyanı sınaqdan keçirdiklərinə dair sübut təqdim edə bilsələr, gerb yığımları müəyyən faizədək azaldıla bilər. Bu halda mediasiyaya xitam verildiyi barədə bildiriş işə yaraya bilər.

[382] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595, maddə $183^8$(5 və 6).
[383] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 13(1).
[384] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 47-ci bənd; inzibati hüquq: 55-ci bənd).

Belə bir stimul, məsələn, Litvada nəzərdə tutulub. İkincisi, əgər tərəflər məhkəmə icraatı zamanı mübahisəni mediasiya yolu ilə həll edərlərsə, onların ödədiyi məhkəmə rüsumu tam və ya qismən qaytarıla bilər (məsələn, Litva,[385] Polşa[386] və Serbiyada[387] belədir). Milli qanunverici orqanlara hər iki modeli tətbiq etmək və onları apellyasiya və ya kassasiya instansiyasındakı icraatlara şamil etmək tövsiyə olunur.

Qaytarılan rüsumların məbləği barışıq sazişinin bağlandığı vaxtdan asılı olaraq fərqlənə bilər. Məsələn, Litvada apellyasiya və ya kassasiya instansiyasındakı işə mahiyyəti üzrə baxılmağa keçməzdən əvvəl barışıq sazişi ilə xitam verilirsə, gerb yığımının 100 faizi geri ödənilir. Lakin barışıq sazişi sonrakı mərhələdə bağlanarsa, yalnız 75 faiz geri qaytarılır.[388] Milli qanunverici orqanlar öz milli qanunvericilik normalarını və gerb yığımının həcmini nəzərə alaraq, azaldılacaq məbləğ barədə qərar qəbul edirlər.

#### 7.2.3. Yardımlar

Potensial istifadəçilərin maddi imkanı olmadıqda mediasiya əlçatan olmur. Buna görə də, milli qanunverici orqanların əsas məqsədi aztəminatlı təbəqədən olan şəxslərin mediasiyaya müraciət edə bilməsini təmin etmək olmalıdır. Bu cür yanaşma Mediasiyaya dair rəhbər prinsiplərə uyğundur, belə ki, orada aydın şəkildə bildirilir ki, "*əhalinin bəzi kateqoriyalarının maliyyə mülahizələrinə görə bu xidmətdən kənarlaşdırılması yolverilməzdir*".[389] Bundan əlavə, orada həmçinin vurğulanır ki, "*hüquqi yardım xərclərinin qarşılanmadığı bahalı mediasiya proseduru mediasiya üçün maneə ola bilər*".[390] Bu araşdırmanın obyekti olan ölkələr belə bir yardımı nəzərdə tutsalar da, onun göstərilməsi formaları fərqlidir. Birincisi, mediasiya ya tamamilə ödənişsiz təmin oluna bilər, ya da müəyyən tələblər nəzərə alınmaqla həyata keçirilə bilər (məsələn, Polşada, "*tərəflər arasında başqa cür razılaşma olmayıbsa, məhkəmənin qərarı ilə baş tutan və barışıq sazişi ilə başa çatan mediasiyanın xərclərində güzəşt nəzərdə tutulur*"[391]). İkincisi, o həmçinin bütün aztəminatlı şəxslər üçün ödənişsiz təmin edilə bilər (məsələn, Azərbaycan,[392] Türkiyə[393] və Litvada[394] mediasiya hüquqi yardım sxeminin bir hissəsini təşkil edir və imkanı olmayanlar üçün ödənişsiz həyata keçirilir; İtaliyada "*mediaisya bu Fərmanın 5-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq məhkəmə icraatı üçün ilkin şərt olduqda və ya onun 5-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq məhkəmənin qərarı ilə keçirildikdə, mediasiya xidməti göstərən subyekt pulsuz hüquqi yardım alma meyarlarına uyğun gələn tərəfdən heç bir kompensasiya tələb edə bilməz*"[395]). Üçüncüsü, o yalnız müəyyən növ mübahisələrdə ödənişsiz təmin edilə bilər (məsələn, İsveçrədə "*uşaq hüququna aid məsələlərdə tərəflər: a. lazımi maliyyə imkanlarına malik deyillərsə və b. məhkəmə tərəfindən mediasiya tövsiyə edilirsə, ödənişsiz mediasiya hüququna malikdirlər*"[396]).

Bundan əlavə, yardımların aşağı gəlir səviyyəsinə əsaslanmadığı hallara rast gəlmək olar. Məsələn, İtaliyada mediasiya uğurla yekunlaşdıqda tərəflər mediasiya xidməti göstərən subyektə ödənilməli olan xidmət haqqının tam şəkildə ödənilməsi və ya barışığa nail olunmadıqda qismən ödənilməsi üçün vergi krediti ala bilərlər.[397] Müxtəlif növ yardımlar mediasiyadan istifadəni təşviq edə bilər və bu, təbii ki, dəstəklənir. Bununla belə, prioritetlər müəyyən edilməlidirsə, milli qanunverici orqanlar ilk növbədə obyektiv olaraq mediasiya üçün imkanları olmayan şəxslərə dövlət tərəfindən yardım göstərilməsini və onların mediasiyadan istifadə edə bilməsini təmin etməlidirlər. Yaxşı olar ki, bu yardım istənilən növ mübahisələrdə, həm məhkəmə ilə əlaqəli, həm də məhkəmədənkənar mediasiyada göstərilmiş olsun.

## 8. Mediasiya haqqında məlumat

### 8.1. Məlumatların yayılması və yayılmasının təşviqi

---

[385] Litva Respublikası, Mülki Prosessual Məcəllə, *Valstybės žinios*, 2002, № 36-1340, maddə 87(2).
[386] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595, maddə 104.
[387] Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014, maddə 31.
[388] Litva Respublikası, Mülki Prosessual Məcəllə, *Valstybės žinios*, 2002, № 36-1340, maddə 87(2).
[389] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 34-cü bənd; inzibati hüquq: 42-ci bənd).
[390] Mediasiyaya dair rəhbər prinsiplər (cinayət hüququ: 34-cü bənd).
[391] Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595, maddə $104^1$.
[392] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 36.7.
[393] Türkiyə Respublikası, Hüquqi mübahisələrdə mediasiyanın tətbiqi haqqında Sərəncam. *Rəsmi Qəzet*, 2018, № 30439, maddə 15(3).
[394] Litva Respublikası, Dövlət tərəfindən təmin edilən hüquqi yardım haqqında Qanun, *Valstybės žinios*, 2000, № 30-827, maddələr 2(11) və 14(3 və 4).
[395] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 17(5bis).
[396] İsveçrə Konfederasiyası, Mülki Prosessual Məcəllə, 2008, maddə 218(2 və 3).
[397] İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28, maddə 20(1).

Mediasiya ilə bağlı bir sıra beynəlxalq sənədlərdə, o cümlədən Mediasiyaya dair rəhbər prinsiplərdə[398] və Mediasiya haqqında Direktivdə[399] əsasən internet, eləcə də media, informasiya mərkəzləri, seminarlar vasitəsilə və digər kommunikasiya vasitələrinin köməyi ilə geniş ictimaiyyətin mediasiya haqqında məlumatlılıq səviyyəsinin artırılmasının zəruriliyi vurğulanır. Müxtəlif Avropa ölkələrindən gələn bir çox ekspertlər də geniş ictimaiyyət üçün maarifləndirmə tədbirlərinin olmamasından narahat olduqlarını bildiriblər.[400] Bunu nəzərə alaraq, milli qanunverici orqanlar dövlət qurumlarının və ya idarəetmə orqanlarının üzərinə mediasiya haqqında məlumatları yaymaq və mediasiyanı təşviq etmək vəzifəsi qoyan qanunvericilik tədbirlərini qəbul etməyə təşviq edilirlər.

İlk növbədə dövlət qurumları və ya idarəetmə orqanları mediasiya haqqında geniş ictimaiyyət üçün asan başa düşülən və əlçatan olan ümumi məlumatları yaymalıdırlar. Bu cür məlumatlarla yanaşı, mediatorlar və ya mediasiya xidməti göstərən subyektlər barədə təfərrüatlı məlumatlar və onların əlaqə məlumatları da açıqlanmalı və bu məlumatların xüsusən internet vasitəsilə asanlıqla əldə edilməsi mümkün olmalıdır. Məsələn, Kiprdə Ədliyyə və İctimai Asayiş Nazirliyi “mediatorlarla necə əlaqə saxlanacağı barədə hər hansı vasitələrlə, xüsusən də İnternet vasitəsilə geniş ictimaiyyətə məlumat vermək” vəzifəsi daşıyır.[401] İkincisi, dövlət qurumları və ya idarəetmə orqanları mediasiyanın təbliğatını təşkil etməlidirlər. Məsələn, Türkiyədə Mediasiya Departamentinin funksiyalarından biri “mediasiya institutunu təbliğ etmək, bu mövzuda ictimaiyyəti məlumatlandırmaq, milli və beynəlxalq konqres, simpozium və seminarlar kimi elmi tədbirləri təşkil etmək və ya dəstəkləməkdir”.[402] Bununla belə, təbliğat kampaniyalarının kreativliyini və ümumi effektivliyini məhdudlaşdırmamaq üçün onların tam siyahısını təqdim etməyə ehtiyac yoxdur.

Mediasiyaya cavabdeh olan orqanların və ya mediasiya sahəsində fəaliyyət göstərən qurumların funksiyaları adətən milli qanunlarda öz əksini tapır (misal üçün bax: Belçika, Xorvatiya, Çexiya, İrlandiya, Litva, Polşa və Türkiyənin milli qanunvericilik aktları). Buna görə də, belə bir öhdəliyin milli qanunlara daxil edilməsinin ən asan yolu onun konkret dövlət orqanının funksiyaları sırasına daxil edilməsidir. Mediasiyanın təşviqi və mediasiyaya dair məlumatların yayılması funksiyası adətən nazirliklərə (məsələn, Kipr, İtaliya, Litva, Sloveniya) və ya digər məsul orqanlara (məsələn, Türkiyədə bu, Mediasiya Departamentinin, Belçikada Federal Mediasiya Komissiyasının funksiyasıdır) həvalə edilir. Milli qanunverici orqanlar həmçinin mediasiya xidməti göstərənlərin mediasiyanın təbliğinə cəlb olunmasını təşviq edə bilərlər, bu şərtlə ki, onların təbliğatı aldadıcı xarakter daşımasın. Məsələn, İspaniya qanunvericiliyində deyilir ki, “*mediasiya təşkilatları mübahisələrin həllinin bu sistemi ilə maraqlana biləcək şəxslər üçün açıq məlumatlandırıcı sessiyalar təşkil edə bilərlər*”;[403] Azərbaycanda "*mediasiya təşkilatları mediasiyanın inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə, mediasiya xidmətlərinin marketinqini*" həyata keçirir.[404]

Bununla belə, mediasiyanı təşviq etməyin ən dayanıqlı üsulu təhsillə bağlıdır. Bu qənaət ikili xarakter daşıyır. Birincisi, mediasiya proqramlarının məktəblərdə həmyaşıdlar arasında tətbiqi vasitəsilə uşaqlara mediasiyanı öyrətmək vacibdir. Bu cür proqramlar həm qısa, həm də uzunmüddətli perspektivdə mühüm üstünlüklər gətirə bilər. Qısamüddətli perspektivdə məktəblərdə həmyaşıdlar üçün mediasiya proqramları məktəb daxilində və xaricində zorakılıqdan istifadə hallarını azalda bilər.[405] Uzunmüddətli perspektivdə isə bu, anlaşılmazlıq, problem və münaqişə vəziyyətində olan hər bir gələcək vətəndaşda “medisaiya refleksi” yarada bilər, həm də insanlara şəxsiyyətlər arasındakı fərqləri qəbul etməyi öyrədə bilər. İkincisi, mediasiya barədə məlumatlılıq səviyyəsinin artırılması həm də gələcək hakimlərin, vəkillərin və digər hüquqşünasların yetişdirilməsində və hazırlanmasında mühüm əhəmiyyət kəsb edir. CEPEJ-GT-MED-in Yol Xəritəsində göstərildiyi kimi, “*hakimlərin təhsil aldıqları müddətdə və ya məhkəmə təcrübəsinin birinci ilində məcburi qaydada mediasiya üzrə məlumatı/hazırlığı olmazsa, mülki, ailə, cinayət (böyüklər və yetkinlik yaşına çatmayanlar) və inzibati*

---

[398] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 40-42-ci bəndlər; cinayət hüququ: 39-40-cı bəndlər; inzibati hüquq: 48-50-ci bəndlər).

[399] Avropa İttifaqı Parlamentinin və Şurasının "Mülki və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair" 2008/52/EC saylı Direktivi, OJ, L-136, 2008, səh. 3-8, maddə 9.

[400] Avropa İttifaqı, Daxili Siyasət üzrə Baş Direktorluq, *Mediasiya haqqında Direktivin “yenidən nəzərdən keçirilməsi”: Onun həyata keçirilməsinin məhdud təsirinin qiymətləndirilməsi və Aİ-də mediatorların sayının artırılması üçün tədbirlərin təklif edilməsi: tədqiqat* [interaktiv], 2014. Sənədi burada tapmaq olar: http://www.europarl.europa.eu/RegData/etudes/etudes/join/2014/493042/IPOL-JURI_ET(2014)493042_EN.pdf, səh. 157.

[401] Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012, maddə 13(1).

[402] Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325, maddə 30(1ç).

[403] [403] İspaniya Krallığı, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Boletín Oficial del Estado*, № 5/2012, maddə 17(2).

[404] Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019, maddə 11.1.

[405] MIRIMANOFF, J. *Médiation et Jeunesse, Partie II: Médiation en milieu scolaire*. Bruxelles: Larcier, 2013.

*icraatlarda mediasiyaya yönləndirilən işlərin sayı dəyişməyərək eyni işlər üzrə məhkəmə icraatlarının sayı ilə müqayisədə faktiki olaraq əhəmiyyətsiz miqdarda qalar. Eynilə, hüquq fakültələrində və vəkil assosiasiyalarında vəkillər/barristerlər üçün mübahisələrin alternativ həlli üzrə tədris və təlim olmazsa, mübahisənin həlli barədə sistematik və avtomatik düşüncə olmadan məhkəmə çəkişməsi sisteminə (dövlət məhkəmə və arbitraj icraatlarına) müraciət etmək kimi ənənəvi vərdiş qalacaq*".[406] Buna görə də məktəblərin və universitetlərin tədris proqramlarına mediasiyanın daxil edilməsinə icazə vermək və bunu təşviq etmək tövsiyə olunur.

### 8.2. Statistik məlumatlar

Mediasiya haqqında Direktivin effektivliyi ilə bağlı araşdırma[407] nəticəsində məlum olmuşdur ki, hələ 2014-cü ildə İtaliya istisna olmaqla, Aİ-nin 28 üzv dövlətinin heç birində mediatorların sayına dair rəsmi milli statistika mövcud deyil. Bəzi üzv dövlətlər məhkəmə ilə əlaqəli mediasiya, dövlət tərəfindən maliyyələşdirilən mediasiya və ya konkret layihələrlə bağlı qismən statistik məlumatlar təqdim edə bildilər. Lakin tam olmayan məlumatlar mediatorların faktiki sayını əks etdirmir. 2017-ci ildə CEPEJ tərəfindən mediasiya ilə bağlı keçirilmiş sorğu oxşar nəticələr ortaya qoydu: "Avropa Şurasına üzv dövlətlər arasında uçotun aparılmasında və mediasiya sistemlərinin əsas fəaliyyət göstəricilərinin ölçülməsində əsaslı fərqlər var. Bəzi üzv dövlətlərdə bu cür statistika ümumiyyətlə milli səviyyədə toplanılmır".[408] Hazırkı tədqiqat da bu sualla bağlı daha müsbət nəticələr verə bilməz. Mediasiya haqqında milli qanunlarında statistik məlumatların toplanılması və ya dərc edilməsinə birbaşa istinad edən yeganə ölkələr Azərbaycan, İtaliya, Litva, Serbiya və Türkiyədir.[409]

Statistik məlumatların toplanılması və sistemləşdirilmiş hesabatların təqdim edilməsi aşağıdakı səbəblərə görə vacibdir. Birincisi, o, mövcud qanunvericiliyin effektivliyini qiymətləndirməyə imkan verir və müəyyən hissələrin "*gələcək siyasətin hazırlanmasında irəliləyiş əldə etməyə daha yaxşı imkan yaradan*" dəyişikliklər tələb edib-etmədiyini göstərir.[410] Mediasiyaya dair rəhbər prinsiplərdə təsbit edildiyi kimi, kəmiyyət meyarlarının hazırlanması tətbiq edilən mediasiya sxemlərinin müqayisəsinə də imkan verir.[411] İkincisi, mediasiya statistikasının monitorinqi mediasiyanın yüksək keyfiyyətini təmin edə bilər, belə ki, aşağı uğur faizləri zəif təlimlərdən xəbər verə bilər. Beləliklə, problemlər nisbətən erkən mərhələdə həll edilə bilər. Üçüncüsü, o, mediasiyanı təşviq etməyə kömək edir, bu yolla geniş ictimaiyyət onun effektivliyinə əmin ola bilər. Dördüncüsü, o, yüksək keyfiyyətli tədqiqatlar üçün qapıları açır ki, bu da mediasiya haqqında qanunvericiliyin daha da təkmilləşdirilməsinə kömək edə bilər. Buna görə də ümummilli statistikanın toplanılması ciddi şəkildə tövsiyə olunur. Bununla yanaşı, konfidensiallıq prinsipini pozmamağa diqqət yetirilməlidir. Məsələn, "Mediasiya üzrə əsas effektivlik göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika")[412] sənədində göstərildiyi kimi, məlumatlar təqdim edilərkən, məsələn, aparılmış mediasiya proseslərinin sayı və eyni zamanda mübahisələrin növlərinə görə bölgüsü və bu proseslərdən neçəsinin qismən və ya tamamilə həll edildiyini göstərən rəqəmlər əks olunmalıdır, konfidensiallığın təhlükə altına düşməməsi üçün məlumatların məcmu halında toplanılması vacibdir. Bundan əlavə, yuxarıda göstərildiyi kimi, uzlaşdırılmış və dəqiq statistik məlumatların müntəzəm toplanılması bir tərəfdən məhkəmələr tərəfindən mediasiyaya yönləndirilmələrin sayını, digər tərəfdən isə ümumi mənada mediasiya prosesinin səmərəliliyini ölçə bilən elementləri müəyyənləşdirməyə imkan yarada bilər.

---

[406] CEPEJ, "CEPEJ-in rəhbər prinsiplərinin mülki, ailə, cinayət və inzibati işlər üzrə mediasiyaya təsiri" mövzusunda məruzəsi əsasında CEPEJ-GT-MED-in Yol Xəritəsi", CEPEJ-GT-MED(2018)8, səh. 4.

[407] Avropa İttifaqı, Daxili Siyasət üzrə Baş Direktorluq, *Mediasiya haqqında Direktivin "yenidən nəzərdən keçirilməsi": Onun həyata keçirilməsinin məhdud təsirinin qiymətləndirilməsi və Aİ-də mediatorların sayının artırılması üçün tədbirlərin təklif edilməsi: tədqiqat* [interaktiv], 2014. Sənədi burada tapmaq olar: http://www.europarl.europa.eu/RegData/etudes/etudes/join/2014/493042/IPOL-JURI_ET(2014)493042_EN.pdf.

[408] CEPEJ, Mediasiya üzrə əsas effektivlik göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika). Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 40-49.

[409] Belə bir tələbin bu tədqiqatın obyekti olmayan digər qanunvericilik aktlarında və ya normativ sənədlərdə nəzərdə tutulması ehtimalı qalır.

[410] CEPEJ, Mediasiya üzrə əsas effektivlik göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika). Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 41.

[411] Mediasiyaya dair rəhbər prinsiplər (ailə hüququ və mülki hüquq: 15-ci bənd; cinayət hüququ: 15-ci bənd).

[412] CEPEJ, Mediasiya üzrə əsas effektivlik göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika). Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 40-49.

Məlumatların toplanılmasına yanaşma sistemli olmalıdır. 3.1-ci bölmədə izah edildiyi kimi, mediatorların ümummilli reyestri aparılırsa və mediatorlar bu reyestrdə qalmaq üçün müəyyən sayda mediasiya həyata keçirməlidirlərsə, məlumatlar birbaşa mediatorlardan asanlıqla əldə edilə bilər. 5.5.-ci bölmədə müzakirə olunduğu kimi, sözügedən mediasiya proseslərinin uğurlu olub-olmadığını göstərən mediasiyaya xitam verilməsi haqqında bildirişi hazırlamaq öhdəliyi də mediasiyanın həqiqətən həyata keçirildiyinin sübutu kimi faydalı ola bilər. Məsələn, Türkiyədə mediatorlar mediasiya başa çatdıqdan sonra bir ay ərzində səlahiyyətli orqana xitam bildirişi göndərməyə borcludurlar.[413] Alternativ olaraq, 3.3-cü bölmədə müzakirə olunduğu kimi, mediasiya xidməti göstərən subyektlərin reyestri yaradılarsa və ya onların fəaliyyəti hər hansı başqa yolla tənzimlənərsə, artıq ümumiləşdirilmiş məlumatlar mediasiya xidməti göstərən subyektlərdən əldə edilə bilər. Nəhayət, analoji olaraq, məhkəmə ilə əlaqəli mediasiya üzrə (məsələn, Finlandiya, Litva, Sloveniyada olduğu kimi) və ya müxtəlif növ mübahisələr üzrə (məsələn, Çexiyada cinayət işləri və ya İspaniyada əmək mübahisələri üzrə) ayrıca sxemlər mövcud olduqda, məlumatları toplamaq və təqdim etmək məsul orqanlara tapşırılmalıdır.

## 9. Keçid müddəaları

Milli hakimiyyət orqanları mediasiya ilə bağlı yeni ideyaları cəmiyyətə təqdim etməzdən əvvəl mərhələli yanaşma tətbiq etməyə və onları daha geniş səviyyədə həyata keçirməzdən əvvəl daha kiçik miqyasda sınaqdan keçirməyə təşviq edilirlər. Mediasiya haqqında qanun qəbul edilməzdən əvvəl, eləcə də belə bir qanun artıq mövcud olduqda və yeni konsepsiyaların tətbiqi nəzərdə tutulduqda pilot layihələrdən istifadə oluna bilər. Pilot layihələr bir sıra səbəblərə görə faydalı ola bilər. Birincisi, potensial problemləri müəyyən etmək və dəyişikliklərin lazım ola biləcəyi sahələri göstərmək üçün yeni ideyaların tətbiqinə və həyata keçirilməsinə nəzarət etmək olar. Bu, milli kontekstdə ən uyğun olan metodun müəyyən edilməsinə kömək edə bilər. İkincisi, həmin layihələr müəyyən ideyaların effektivliyini sübut edə bilər və öncə onlardan istifadə etmək istəyi olmadığı hallarda bu cür istəksizliyi azalda bilər. Üçüncüsü, uğurlu pilot layihənin icraçıları layihənin idarə olunması zamanı əldə etdikləri bilikləri və çıxardıqları dərsləri ötürə bilərlər.

Pilot layihələr müxtəlif formaya və əhatə dairəsinə malik ola bilər və milli qanunverici orqanlar sınaqdan keçirmək istədikləri ideyadan və əldə etmək istədikləri nəticələrdən asılı olaraq model seçməlidirlər. Pilot layihələrin hərtərəfli təhlilini və həyata keçirilməsini təmin etmək bu sənədin məqsədi deyil. Bunun əvəzinə, modelləri nümayiş etdirmək və bu layihələrin necə həyata keçirilə biləcəyi barədə ümumi təsəvvür yaratmaq üçün bir neçə uğurlu pilot layihə və müəyyən mediasiya sxemlərinin inkişaf yolları təqdim ediləcək.

a) Məhkəmə tərəfindən mediasiyaya yönləndirilmənin və məhkəmə ilə əlaqəli mediasiyanın inkişafı

Niderland məhkəmə tərəfindən mediasiyaya yönləndirilməni birdəfəlik akt kimi tətbiq etmək əvəzinə, mərhələli yanaşma seçmişdir.[414] Bu işin yekunlaşması 10 il çəksə də, sxemin uğurlu olduğu təsdiqlənmişdir. Sxemin tətbiqi üç mərhələyə, bölünmüşdür: pilot mərhələ, tətbiqetmə mərhələsi və konsolidasiya mərhələsi. Birinci mərhələ bu məqsədlə yaradılmış Məhkəmə ilə Əlaqəli Mediasiya üzrə Niderland Agentliyinin rəhbərliyi altında beş birinci instansiya məhkəməsi və bir apellyasiya məhkəməsində həyata keçirilmişdir. Birinci mərhələnin məqsədi "*məhkəmə təşkilatı daxilində mediasiyaya müraciət etmək üçün strukturların yaradılmasının əsasll olub-olmadığını və əgər əsaslıdırsa, nə dərəcədə effektiv və səmərəli şəkildə təşkil oluna biləcəyini*" göstərmək idi.[415] Altı pilot layihənin ardınca qiymətləndirmə, ümummilli səviyyədə tətbiqetmə imkanlarının tədqiqi və proqnoz üçün tədqiqat aparılmışdır. Pilot layihələr uğurla həyata keçirildikdən sonra ikinci mərhələnin – ümummilli səviyyədə məhkəmə tərəfindən mediasiyaya yönləndirilmənin həyata keçirilməsinin vaxtı gəlib çatmışdır. İkinci mərhələdə məhkəmələr Agentlikdən dərsliklər, təlim kursları, məlumat broşürləri almış, məlumatlandırma görüşləri keçirilmiş və məsləhət xidmətləri göstərilmişdir. Üçüncü mərhələ olan konsolidasiya mərhələsi hər bir məhkəmədə mediasiyaya yönləndirilmə proqramı tətbiq

---

[413] Türkiyə Respublikası, Hüquqi mübahisələrdə mediasiyanın tətbiqi haqqında Sərəncam. *Rəsmi Qəzet*, 2018, № 30439, maddə 20(4).

[414] Layihə haqqında əlavə məlumat üçün bax: Pel M. və Kombrink L., Niderland məhkəmə sistemi tərəfindən mediasiyaya yönləndirilmə. *"The Judiciary Quarterly" jurnalı. Mübahisələrin fərdiləşdirilmiş həlli: Niderlandda məhkəmə ilə əlaqəli mediasiya, 1999-2009*. Haaqa: "Sdu Publishers BV", 2011. Onu burada tapmaq olar: https://www.rechtspraak.nl/SiteCollectionDocuments/Customized-conflict-resolution-Court-connected-Mediation-in-The-Netherlands-1999-2009.pdf, səh. 25-52.

[415] Pel M. və Kombrink L., Niderland məhkəmə sistemi tərəfindən mediasiyaya yönləndirilmə. *"The Judiciary Quarterly" jurnalı. Mübahisələrin fərdiləşdirilmiş həlli: Niderlandda məhkəmə ilə əlaqəli mediasiya, 1999-2009*. Haaqa: "Sdu Publishers BV", 2011. Onu burada tapmaq olar: https://www.rechtspraak.nl/SiteCollectionDocuments/Customized-conflict-resolution-Court-connected-Mediation-in-The-Netherlands-1999-2009.pdf, səh. 25.

edildikdən sonra həyata keçirilmişdir. O, "*mediasyanın təşkilini və dəstək bazasını gücləndirməyə və ən yaxşı təcrübələri inkişaf etdirməyə*" yönəlmişdir.[416] O həmçinin tərəflərə mübahisələrin həllinin ən uyğun üsulunu seçməkdə kömək etmək üçün hakimlərə və məhkəmə əməkdaşlarına təlim keçmək üçün istifadə edilmişdir. Layihənin tam həyata keçirilməsi uzun vaxt aparsa da və Agentliyin böyük təşkilati və koordinasiya səylərini tələb etsə də, layihə rəhbəri vurğulamışdır ki, bu işlər təkcə mediasiyaya yönləndirilmənin uğurlu sxeminin tətbiqinə kömək etməmiş, həm də onun rolu barədə hakimlərin təsəvvürünün dəyişməsinə şərait yaratmışdır.[417]

Bununla belə, müsbət nəticələr verməsi üçün pilot layihənin bu qədər uzun vaxt aparması və ya geniş miqyaslı olması vacib deyil. Məsələn, İsveçrənin Lozanna şəhərindəki birinci instansiya məhkəmələrində bir il ərzində mediasiyaya yönləndiriımə ilə bağlı pilot sxem həyata keçirilmişdir. Daha sonra o, kantonun bütün birinci instansiya məhkəmələrində tətbiq olunmuşdur. Həmçinin Slovakiya Respublikasında ailə mübahisələri üzrə pilot layihə 4 məhkəmədə həyata keçirilir. Orada psixologiya üzrə təhsil almış ali təhsilli ixtisaslı məhkəmə əməkdaşları tərəflərlə görüşür və məqsədəuyğun olarsa, onları mediasiyaya yönləndirir və ya psixoloji dəstək üçün göndərir. 2018-ci ilin sentyabrından tətbiq edilən pilot layihə, belə görünür ki, ilkin müsbət nəticələrini verir. Litvada məhkəmə ilə əlaqəli mediasiya modeli ilk dəfə bir rayon məhkəməsində tətbiq edilib, yalnız 2 ildən sonra o, digər on dörd məhkəmədə istifadə edilib və nəhayət, daha sonra ümummilli səviyyədə tətbiq edilib.

b) Məcburi mediasiyanın sınaqdan keçirilməsi üçün pilot layihələr

2016-cı ildə Fransada "XXI əsrdə ədalət mühakiməsinin müasirləşdirilməsi haqqında" Qanun[418] qəbul edilib. Qanunun 7-ci maddəsi bəzi ailə mübahisələrində məhkəmə icraatının ilkin şərti kimi məcburi mediasiyanın eksperimental əsaslarla tətbiqini nəzərdə tutur.[419] Həmin maddədə nəzərdə tutulur ki, onun müddəaları Ədliyyə naziri tərəfindən müəyyən ediləcək bəzi Yüksək Məhkəmələrin yurisdiksiyalarında üç il müddətində tətbiq ediləcək. 31 dekabr 2019-cu il tarixinədək davam etməsi nəzərdə tutulan eksperimentə 11 Yüksək Məhkəmə daxil edilib. Modelin milli səviyyədə tətbiqi yalnız pilot layihə zamanı müsbət nəticələr aşkar ediləcəyi təqdirdə nəzərdə tutulub. Layihədə iştirak edən Yüksək Məhkəmələrin nümayəndələri və aidiyyəti qurumların vəzifəli şəxsləri irəliləyişləri müzakirə etmək və müsbət təcrübələri, eləcə də qarşıya çıxan problemləri bölüşmək üçün bir araya gəlirlər.

Layihə həyata keçirilərkən həmçinin müxtəlif səviyyələrdə monitorinq edilir və qiymətləndirilir. Ədliyyə Nazirliyinin statistika şöbəsi məcburi mediasiyanın tətbiqinin təsirini ölçmək üçün statistik məlumatlar toplayır. Parisin Nanter Universitetində IDHES laboratoriyası[420] tərəfindən Pontua Yüksək Məhkəməsindəki pilot layihənin xarici tədqiqi həyata keçirilir və sonradan nəticələr digər iştirakçı Yüksək Ali Məhkəmələrin nəticələri ilə müqayisə ediləcək. Həmin tədqiqatda təkcə statistik göstəricilər deyil, həm də paylanmış sorğu anketləri vasitəsilə eksperimentdə iştirak edən əsas personajların – peşəkarların (hakimlər, mediatorlar, vəkillər) və məhkəmə proseslərindəki tərəflərin rəyləri qiymətləndirilir. Yekun nəticələr 2020-ci ilin sonunda təqdim olunacaq; lakin həm də aralıq hesabat hazırlanacaq. Pilot layihənin yekun nəticələri hələ bəlli olmasa da, belə bir model yeni ideyaların məhdud vaxtda və yalnız müəyyən edilmiş ərazidə həyata keçirilməsinin sonradan onların milli səviyyədə tətbiq edilməli olub-olmaması barədə qərarlar qəbul edimədən əvvəl necə sınaqdan keçirilə biləcəyinə və qərar müsbət olarsa, onun uğuru üçün hansı dəyişikliklərin zəruri olduğuna dair nümunədir.

Məcburi mediasiyanı tətbiq edən digər ölkələr də bunu müəyyən eksperimentlər vasitəsilə həyata keçiriblər. Məsələn, İtaliyada məcburi mediasiyanın sınaqdan keçirilməsi barədə müddəa ilk dəfə dörd il müddətində tətbiq edilmiş, iki ildən sonra nəticələrin monitorinqinə başlanması nəzərdə tutulmuşdu. Bu müvəqqəti müddəa vasitəsilə tətbiq edilən model hazırda daimi əsasda mövcuddur və müsbət

[416] Eyni mənbə, səh. 27.
[417] Pel M. Ön söz. *"The Judiciary Quarterly" jurnalı. Mübahisələrin fərdiləşdirilmiş həlli: Niderlandda məhkəmə ilə əlaqəli mediasiya, 1999-2009*. Haaqa: "Sdu Publishers BV", 2011. Onu burada tapmaq olar: https://www.rechtspraak.nl/SiteCollectionDocuments/Customized-conflict-resolution-Court-connected-Mediation-in-The-Netherlands-1999-2009.pdf, səh. 4.
[418] Fransa Respublikası, XXI əsrdə ədalət mühakiməsinin müasirləşdirilməsi haqqında Qanun, 2016, № 2016-1547.
[419] Əlavə məlumat üçün bax: https://www.justice.fr/tentative-m%C3%A9diation-familiale-pr%C3%A9alable-obligatoire.
[420] İqtisadiyyatın və Cəmiyyətin İnstitutları və Tarixi Dinamikası laboratoriyası.

nəticələr verir.[421] Türkiyədə məcburi mediasiyanın sınaqdan keçirilməsinin tətbiqi hələ də mərhələli şəkildə həyata keçirilir. O, 2018-ci ildə əmək mübahisələri ilə bağlı tətbiq edilib və nəticələri bəlli olduqdan sonra 2019-cu ildə tətbiq dairəsi genişləndirilərək müəyyən kommersiya mübahisələrinə də şamil olunub.

Bunlar mediasiya üzrə yeni ideyaları sınaqdan keçirmək və ya artıq qüvvədə olan qanunları təkmilləşdirmək üçün həyata keçirilə biləcək mümkün pilot layihələrin yalnız bir neçə nümunəsidir. Milli hakimiyyət orqanlarına tövsiyə olunur ki, bu layihələri milli ehtiyaclara uyğunlaşdırıb praktikada tətbiq etməzdən əvvəl pilot layihələri həyata keçirmiş xarici ölkə nümayəndələri ilə əlaqə saxlasınlar. Həmçinin pilot məhkəmə mediasiyası layihəsinin hazırlanması üçün yoxlama siyahısı[422] və pilot mediasiya layihəsinin monitorinqi üçün yoxlama siyahısı[423] CEPEJ tərəfindən qəbul edilmişdir ki, bunda da məqsəd sistemin yaradılmasına və effektiv tətbiqinə kömək etməkdir. Seçilmiş formadan asılı olmayaraq, pilot layihənin rəhbərləri statistik məlumatların, layihənin monitorinqinin və qiymətləndirilməsinin, habelə birbaşa iştirakçılar və pilot layihəni ümumi istifadə olunan layihəyə çevirməli olanlar üçün davamlı təlimlərin vacibliyini unutmamalıdırlar. Seçilmiş sxemdən asılı olaraq, yeni ideyaları özündə əks etdirən bu pilot layihələr ya mediasiya haqqında yeni (və ya dəyişiiklik edilmiş) qanunvericiliyə bəzi müddəaların tətbiq dairəsini, əhatə etdiyi ərazini və ya tətbiq edilmə müddətini məhdudlaşdıran keçid müddəaları kimi daxil edilə, ya da sınaq müddətinin sonunadək qanunvericilikdə dəyişiklik edilmədən daha kiçik miqyasda tətbiq edilə bilər. Milli qanunverici orqanlar mediasiya haqqında yeni qanunvericiliyin uğurlu icrası və real nəticələrin mümkünlüyünü artırmaq üçün pilot layihələrin mümkün istifadəsini və mediasiya ilə bağlı yeniliklərin mərhələli şəkildə tətbiqini nəzərdən keçirməyə dəvət olunurlar.

[421] G. De Palo, *Aİ-nin on illik "mediasiya paradoksu": Aİ Direktivindən daha çox şeylər tələb olunduqda…: JURI komitəsi tərəfindən tələb olunan brifinq, Avropa Parlamenti* [interaktiv], 2018. Onu burada tapmaq olar: http://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2018/608847/IPOL_BRI(2018)608847_EN.pdf;

[422] CEPEJ, Pilot məhkəmə mediasiyası layihəsinin hazırlanması üçün yoxlama siyahısı. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV [10.03.2019-cu ilə tarixinədək olan məlumatlar], onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 4-6.

[423] CEPEJ, Pilot mediasiya layihəsinin monitorinqi üçün yoxlama siyahısı. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV [10.03.2019-cu ilə tarixinədək olan məlumatlar], onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 7-13.

**Yoxlama siyahısı**

| | | |
|---|---|---|
| 1 | ƏHATƏ DAİRƏSİ | Qanunla barışıq yolu ilə həll oluna bilən mübahisələr |
| | | Ümumi əhatə dairəsi: milli və beynəlxalq mübahisələr, o cümlədən məhkəmədənkənar və məhkəmə ilə əlaqəli mediasiya, müxtəlif hüquq sahələrində mediaisya |
| | | Həssas xarakterli mübahisələr istisna edilmir – əvəzində təminatlar təqdim edilir |
| **Error! Reference source not found.** | MƏHKƏMƏDƏNKƏNAR VƏ MƏHKƏMƏ İLƏ ƏLAQƏLİ MEDİASİYA | Vahid qanunda məhkəmə ilə əlaqəli mediasiyaya dair ayrıca fəsil |
| | | Qərar qəbul edilənədək məhkəmə icraatının istənilən anında mediasiyaya müraciət etmək imkanı |
| | | Hazırlıq keçmiş hakimlərin və akkreditə olunmuş mediatorların məhkəmə ilə əlaqəli mediasiya proseslərini aparmasına icazə verilir |
| | | İlk 2-4 saatlıq mediasiyanın haqqı dövlət/məhkəmə tərəfindən ödənilir |
| | | İşin başlanması və mediasiyaya yönləndirilməsi qaydası müəyyən edilir |
| | | Mediasiyanın maksimum müddəti uzadılma imkanı ilə 3 ay müəyyən edilir |
| | | Mediasiyaya xitam verilməsi və məhkəmə icraatının davam etdirilməsi qaydası nəzərdə tutulur |
| | | Mediatorun məhkəməyə mediasiyaya xitam verilməsi haqqında bildiriş təqdim etməsi tələb olunur; onun məzmununa dair tələblər müəyyən edilir |
| 1.2 | BEYNƏLXALQ MÜBAHİSƏLƏR ÜZRƏ MEDİASİYA | Beynəlxalq elementi olan mübahisələr qanunun əhatə dairəsinə düşür |
| | | Milli qanun beynəlxalq standartlara uyğundur |
| 1.3 | HÜQUQUN MÜXTƏLİF SAHƏLƏRİ | Qanun mülki hüquq (ailə, əmək, kommersiya, istehlakçı mübahisələri və digərləri daxil olmaqla); inzibati hüquq (idarəetmə orqanı ilə özəl tərəf arasında); cinayət hüququ (zərərçəkənlə hüquqpozan arasında) münasibətlərdən irəli gələn mübahisələrə şamil edilir |
| | İNZİBATİ HÜQUQİ MÜBAHİSƏLƏR | Qaydalar hansı inzibati hüquqi mübahisələrin həll oluna biləcəyini müəyyən edir |
| | | İdarəetmə orqanının mübahisələri həll etmək səlahiyyətlərinin hədləri müəyyən edilir |
| | | Mediatorlar sertifikatlaşdırılır və lazımi qaydada hazırlıq keçirlər; onlar idarəetmə orqanının əməkdaşı deyillər |
| | | Mediasiyadan əvvəl və sonra atılmalı olan zəruri prosessual addımlar müəyyən edilir |
| | CİNAYƏT İŞLƏRİ | İşlərin seçilməsi qaydası zərərçəkənlərin təkrarən qurbana çevrilməsinin, habelə hüquqpozanların aqressiv və ya təhlükəli olmasının qarşısını alır |
| | | Mediatorlar xüsusi hazırlıq keçməlidirlər |
| | | Mediasiya yalnız hər iki tərəfin razılığı ilə həyata keçirilə bilər |
| | | Məişət zorakılığı hallarında əlavə təminatlar tətbiq edilir |
| | | Yetkinlik yaşına çatmayanları valideynləri və ya qanuni nümayəndələri müşayiət edə bilərlər; sosial işçilərin iştirakı da mümkündür |
| | | Mediasiya tərəflər bir-biri ilə görüşmədən də aparıla bilər |
| | | Müxtəlif subyektlər, o cümlədən polis, prokurorluq, məhkəmə, probasiya orqanları, ictimai təşkilatlar arasında məlumat mübadiləsi təmin edilir |

| | | |
|---|---|---|
| | | Prosedura ictimai təşkilatlar cəlb olunur |
| 2 | ANLAYIŞLAR | "Mediasiya" termininin anlayışı müxtəlif mediasiya növlərinin (fasilitativ, qiymətləndirici, transformativ, təsviredici və s.) tətbiqinə mane olmur |
| 3 | MEDİATOR | |
| 3.1 | MEDİATORLARA MÜNASİBƏTDƏ TƏLƏBLƏR / SİYAHI | Mediatorlar mediasiya fəaliyyəti ilə məşğul olmaq üçün siyahıya daxil edilməlidirlər |
| | | Mediasiya fəaliyyətini dayandırmaq və ya mediatoru siyahıdan çıxarmaq səlahiyyətinə malik olan dövlət qurumu və ya idarəetmə orqanı siyahının idarə edilməsinə cavabdehdir |
| | | Siyahıya daxil edilmək və siyahıda qalmaq tələbləri, o cümlədən təhsil, yaxşı reputasiya, davranış qaydalarına riayət, təlim, imtahan, davamlı professional inkişaf tələbləri müəyyən edilir |
| | | Siyahıda olmayan şəxslər mediator kimi fəaliyyət göstərdiklərinə görə sanksiyalara məruz qalırlar |
| | TƏLİM | Təlim proqramlarına dair minimum tələblər, o cümlədən təlimin minimum müddəti müəyyən edilir |
| | | Təlim və imtahan baza səviyyəli və ixtisaslaşdırılmış, habelə nəzəri və praktik təlim və imtahandan ibarətdir |
| | | Təlim verənlər akkreditasiyadan keçir, təlim verənlərin reyestri yaradılır, fəaliyyətinə nəzarət edilir |
| | | Davamlı professional inkişaf tələb olunur |
| 3.2 | ÖHDƏLİKLƏR, İCAZƏLƏR, MƏSULİYYƏT | |
| **Error! Reference source not found.** | ÖHDƏLİKLƏR | Mediatorlar davranış qaydalarına riayət etməyə borcludurlar |
| | | Mediatorların konfidensiallıq, qərəzsizlik, neytrallıq, müstəqillik prinsiplərinə riayət etmələri tələb olunur |
| | | Mediatorlar qərəzsizlik, neytrallıq və ya müstəqilliklə bağlı hər hansı problemləri barədə məlumat verməyə borcludurlar |
| | | Mediatorlar öz təcrübələri, təlimləri, peşə hazırlığı ilə bağlı məlumatları, habelə mediasiyanın prosessual aspektləri, mübahisənin həll edilməsinin və edilməməsinin hüquqi nəticələri barədə məlumatları açıqlamağa borcludurlar |
| | | Mediatorların barışıq sazişini imzalaması, mediasiyaya xitam verildiyi barədə bildirişi hazırlaması, səlahiyyətli orqanlara və ya mediasiya xidməti göstərən subyektlərə statistik məlumatları təqdim etməsi tələb olunur |
| **Error! Reference source not found.** | İCAZƏLƏR | Mediator qonorar almaq və çəkdiyi xərclərin kompensasiya edilməsi hüququna malikdir |
| | | Mediatorların tərəflərlə fərdi iclas keçirməsinə; tərəflərin müraciəti əsasında təkliflər verməsinə; barışıq sazişini hazırlamağa kömək etməsinə icazə verilir |
| | | Barışığa nail olunması ehtimalı az olduqda mediatorların mediasiyaya xitam verməsinə icazə verilir |
| | | Mediatorlar mediasiya məlumatları ilə bağlı məhkəmədə ifadə verməkdən imtina edə bilərlər |

| | | |
|---|---|---|
| | | Mediatorların məhkəmə ilə əlaqəli mediasiya və cinayət işləri üzrə mediasiya zamanı iş materialları ilə tanış olmasına icazə verilir |
| 3.2.3 | MƏSULİYYƏT | Mediatorlar törətdikləri xətalara görə mülki, habelə inzibati və intizam məsuliyyətinə cəlb olunurlar |
| | | Xəbərdarlıq, fəaliyyətin dayandırılması və siyahıdan çıxarılma da daxil olmaqla sanksiyalar müəyyən edilir |
| | | Sanksiyanı təyin etmiş qərardan şikayət verilə bilər |
| | | İntizam orqanlarının qərarları konkret adlar göstərilmədən ictimaiyyətə açıqlanır |
| | | Mediatorların məsuliyyət sığortası əldə etmələri tələb olunur |
| 3.3 | MEDİASİYA XİDMƏTİ GÖSTƏRƏN SUBYEKTLƏR | Mediasiya xidməti göstərən subyektlərin reyestri yaradılır; onların qeydiyyata alınması, qeydiyyatının dayandırılması və reyestrdən çıxarılması üçün meyarlar müəyyən edilir |
| | | Mediasiya xidməti göstərən subyektlər də konfidensiallıq prinsiplərinə riayət etməlidirlər |
| | | Mediasiya xidməti göstərən subyektlərin davranış kodeksinə riayət etməsi, prosedur qaydalarını təqdim etməsi tələb olunur |
| | | Mediasiya xidməti göstərən subyektlərin mediatorlara və mediasiyanın aparılmasına münasibətdə keyfiyyət səviyyəsini qorumaları tələb olunur |
| | | Mediasiya xidməti göstərən subyektlər statistik məlumatları toplamağa borcludurlar |
| 3.4 | DİGƏR HÜQUQŞÜNASLAR | İmperativ hüquq normaları ilə qadağan olunmadıqda, digər hüquq peşələrinin nümayəndələri müvafiq təlim keçmək şərti ilə mediator kimi fəaliyyət göstərə bilərlər |
| | | Hüquqşünasların peşə fəaliyyətinə məsul olan dövlət orqanlarının təlim və imtahan təşkil etməsinə icazə verilir |
| | | Digər hüquq peşələrinin nümayəndələrinin mediator qismində çıxış etdikdən sonra eyni tərəfin (tərəflərin) iştirak etdiyi mübahisələrdə həmin tərəfin (tərəflərin) birmənalı razılığı olmadan rəsmi vəzifələrini icra etmələrinə icazə verilmir |
| **Error! Reference source not found.** | MEDIASIYANIN BAŞLADILMASI | Mediasiyaya könüllü və məcburi əsasda müraciət etmə də daxil olmaqla, mediasiyanın başladılması təşəbbüslərinin müxtəlif növləri müəyyən edilir |
| 4.1 | KÖNÜLLÜ ƏSASDA | Tərəflər mübahisə yaranana qədər mediasiyaya müraciəti nəzərdə tuta və mübahisə yarandıqdan sonra mediasiyaya müraciət edə bilərlər |
| | | Tərəflərin müqavilələrinə mediasiya haqqında maddə (bənd) daxil etmələrinə icazə verilir |
| | | Məhkəmə və arbitraj orqanları mediasiya barədə maddəyə riayət edir və mediasiyaya cəhd edilmədiyi təqdirdə iddianı qəbuledilməz elan edir |
| | | Bir tərəfin mediasiyaya başlamaq təşəbbüsü ilə çıxış etməsi qaydası, o cümlədən mediasiya təklifinin irəli sürülməsi forması və onun qəbul edilməsi və ya qəbulundan imtina üçün standart müddət müəyyən edilir |
| | | Məhkəmə icraatı və digər icraatlar zamanı hakimlər və icraatı aparan məsul şəxslər tərəflərə mediasiyaya müraciət etməyi tövsiyə edə bilərlər |
| 4.2 | MƏCBURİ ƏSASDA | Məhkəmə icraatı üçün ilkin şərt kimi tərəflərin mediatorla ilk iclasda iştirakı tələb oluna bilər; həmçinin hakimlər tərəfləri belə iclasa yönləndirə bilərlər |
| | İLKİN ŞƏRT | Mübahisələrin müəyyən növləri üzrə məhkəmədə iddia qaldırmazdan əvvəl tərəflərdən tələb oluna bilər ki, mediatorla ilk iclasda iştirak |

| | | |
|---|---|---|
| | | etsinlər və ilk iclasdan sonra istəsələr mediasiyada iştirakı davam etdirə bilərlər |
| | | Tərəflər mediatorla ilk iclasdan sonra qərarlarını əsaslandırmadan mediasiyadan imtina etməkdə sərbəstdirlər |
| | | Prosessual təminatlar mövcuddur, o cümlədən prosesin konfidensiallığı, iddia müddətlərinin və prosessual müddətlərin axımının dayandırılması, aralıq (müvəqqəti təminedici) tədbirlərin tətbiqi nəzərdə tutulur |
| | | Mediasiya prosesi əhəmiyyətli xərclərə səbəb olmur |
| | HAKİM TƏRƏFİNDƏN MEDİASİYAYA YÖNLƏNDİRİLMƏ | Hakimlərin tərəflər arasında barışıq sazişinin mümkün olduğunu hesab etdikdə onları mediatorla ilk iclasa yönləndirməsinə icazə verilir; tərəflərin buna razılığı tələb olunmur |
| | | Bu cür yönləndirmənin qaydası müəyyən edilir və orada mediatorun təyin edilməsi, iş materialları ilə tanış olmaq imkanı və mediasiyaya xitam verilməsi haqqında bildirişin hazırlanması qaydası təsvir edilir |
| | | Hakimlərdən tələb olunur ki, tərəflərin mediatorla ilk iclasa yönləndirilməsi barədə qərarda mediasiya üçün müddətləri müəyyən etsinlər və növbəti məhkəmə iclasının tarixini qabaqcadan təyin etsinlər |
| 5 | MEDİASİYA PROSESİ | Mediasiya prosesinin başlandığı andan başa çatana qədər aparılması qaydası sistemli şəkildə müəyyən edilir, prosessual təminatların mövcudluğu təmin edilir |
| 5.1 | MEDİASİYADAN ƏVVƏL | Mediasiya başlamazdan əvvəl tərəflər və mediator mediasiya haqqında müqavilə imzalamağa borcludurlar |
| | | Mediasiya müqaviləsinə daxil ediləcək minimum məlumatlar nəzərdə tutulur; onlar ən azı tərəflər, mediator və mediasiya xidməti göstərən subyekt barədə təfərrüatları; müqavilənin qısa təsvirini, mediatorun qonorarını və onun ödənilmə qaydasını; mediasiya xərclərinin bölgüsünü; və mümkün olduqda mediasiyanın müddətini özündə ehtiva edir |
| | | Mediatorun və ya mediatorların neytral tərəf tərəfindən təyin edilməsi proseduru tərəflərin öz aralarında qarşılıqlı razılığa gələ bilmədiyi hallar üçün müəyyən edilir |
| | | Tərəflər xərclərin öz aralarında bölüşdürülməsi barədə mediatorla birlikdə razılığa gələ bilərlər; onlar öz xərclərini qarşılayırlar, amma belə razılaşma olmadıqda mediasiya xərclərini öz aralarında bərabər şəkildə bölürlər |
| **Error! Reference source not found.** | MEDİASİYANIN BAŞLADILMASI | Mediasiyanın başlanma günü birmənalı olaraq müəyyən edilə bilər |
| | | Başlanma günü barışıq sazişinin imzalandığı günlə; tərəflərin mediasiyaya yönləndirilməsi haqqında məhkəmə qərarının çıxarıldığı günlə; yuxarıda göstərilənlərdən heç biri tətbiq edilmədikdə, asanlıqla müəyyən edilə bilən digər günlə əlaqələndirilir |
| 5.3 | MEDİASİYA ZAMANI | Mediasiya elektron vasitələrdən istifadə edilməklə aparıla bilər, bu şərtlə ki, prosessual təminatlar təmin edilsin və tərəflərin buna razılığı olsun |
| | | Vəkillərin iştirakı təşviq edilir, lakin məcburi deyil |
| | | Üçüncü şəxslərin və ekspertlərin iştirakına tərəflərin razılığı ilə yol verilir; konfidensiallıq, ifadə vermənin qadağan edilməsi prinsipləri üçüncü şəxslərə də şamil edilir |
| 5.4 | PROSESSUAL TƏMİNATLAR | Prosessual təminatlar bütün mediasiya prosesi boyunca, eləcə də ona xitam verildikdən sonra qüvvədədir |

| | | |
|---|---|---|
| 5.4.1 | KONFİDENSİALLIQ | Mediasiyanın bütün iştirakçıları mediasiya zamanı və ya onunla bağlı əldə edilmiş bütün məlumatlara və təqdim edilmiş və ya hazırlanmış sənədlərə şamil edilən konfidensiallıq öhdəliyinə riayət etməlidirlər və öhdəliyin pozulmasına görə məsuliyyət daşıyırlar |
| | | Tərəflərə qarşılıqlı yazılı razılıq əsasında konfidensiallıq öhdəliyindən imtina etməyə icazə verilir |
| | | Konfidensiallıq öhdəliyindən istisnalar dəqiq şəkildə müəyyən edilir; bu siyahıya mediasiya vasitəsilə barışıq haqqında sazişin həyata keçirilməsi və məcburi icrası; uşağın üstün maraqlarının nəzərə alınması, cinayətin açılması və ya qarşısının alınması, şəxsin fiziki və ya psixoloji toxunulmazlığına təhlükənin qarşısının alınması; hüquqa zidd davranışa görə mediatora qarşı icraat daxildir |
| | | Mediator ilə tərəf arasında fərdi iclasların keçirilməsi üçün konfidensiallığın ikinci səviyyəsi nəzərdə tutulur |
| 5.4.2 | KÖNÜLLÜLÜK | Mediasiya prosesi mediatorla ilk iclasda iştirak tələbinə xələl gətirilməməsi şərti ilə könüllü proses kimi müəyyən edilir |
| | | Qanunda aydın şəkildə müəyyən edilir ki, hansı müddəalar məcburi deyil və tərəflərin yazılı razılığı ilə onlardan kənarlaşmaq olar |
| 5.4.3 | SÜBUTLAR VƏ İFADƏLƏR | Mediasiya zamanı əldə edilmiş sübutlar məhkəmə, arbitraj və digər icraatlar zamanı qəbul edilmir |
| | | Əgər hər hansı sübut başqa əsaslarla qəbul edilə bilərsə, ondan sadəcə olaraq mediasiya zamanı istifadə edilməsi həmin materialı qəbuledilməz etməyəcək; tərəflər öz sübutlarını təqdim etməkdə həmişə sərbəstdirlər |
| | | Mediasiya iştirakçıları məhkəmə, arbitraj və digər icraatlarda mediasiya zamanı əldə etdikləri məlumatlarla bağlı ifadə verməyə məcbur edilə bilməzlər |
| | | Bu təminatdan istisnalar sadalanır; konfidensiallıq prinsipində nəzərdə tutulanlarla eyni istisnalar tətbiq edilir |
| 5.4.4 | İDDİA MÜDDƏTLƏRİ VƏ PROSESSUAL MÜDDƏTLƏR | Mediasiya zamanı iddia müddətlərinin və prosessual müddətlərin axımı dayandırılır |
| | | Məhkəmə ilə əlaqəli mediasiya zamanı məhkəmə icraatı dayandırılır |
| | | Dayandırmanın başlandığı və bitdiyi tarixlər müəyyən edilə bilər; onlar mediasiyanın başlandığı və dayandırıldığı günlə və ya asanlıqla müəyyən edilə bilən başqa bir günlə əlaqələndirilir |
| 5.4.5 | ARALIQ TƏDBİRLƏR (MÜVƏQQƏTİ TƏMİNEDİCİ TƏDBİRLƏR) | Vəziyyətin təxirəsalınmazlığı tələb edərsə, tərəflərə mediasiya müddətində aralıq (müvəqqəti təminedici) tədbirlərin görülməsini tələb etməyə icazə verilir |
| **Error! Reference source not found.** | XİTAM | Mediasiyaya xitam verilməsi üçün əsaslar müəyyən edilir |
| | | Mediasiya prosesinə barışıq sazişi imzalandıqdan; bir və ya hər iki tərəfin və yaxud mediatorun mediasiyaya xitam verən yazılı bəyanatından; mediasiya üçün ayrılmış müddət başa çatdıqdan sonra xitam verilir (hansının birinci baş verməsindən asılı olaraq); bütün bəyanatlar yazılı şəkildə tərtib edilir |
| | | Rəsmi orqanlara və ya məhkəməyə mediasiyanın nəticəsi barədə məlumat verilməsi tələb olunduqda mediatorlar mediasiyaya xitam verilməsi haqqında bildiriş hazırlayırlar |
| **Error! Reference source** | MEDİAYA VASİTƏSİLƏ BARIŞIQ HAQQINDA SAZİŞ | Mediasiya vasitəsilə barışıq haqqında sazişin forma və məzmunu üçün minimum standartlar nəzərdə tutulur; barışıq sazişləri məcburi icraya yönəldilə bilər |

| | | |
|---|---|---|
| **not found.** | | |
| 6.1 | FORMA VƏ MƏZMUN | Mediasiya vasitəsilə barışıq haqqında saziş yazılı şəkildə tərtib edilməli, tərəflər tərəfindən imzalanmalı və tərəflərin sazişin məcburi icrasına razılıq verib-vermədiyi, habelə imzalanma tarixi və yeri göstərilməklə mediatorun imzası ilə təsdiq edilməlidir |
| | | Məhkəmə ilə əlaqəli mediasiyada barışıq sazişlərinin əhatə dairəsi iddianın və ya qarşılıqlı iddianın əhatə dairəsindən daha dar, eləcə də daha geniş ola bilər |
| **Error! Reference source not found.** | MƏCBURİ İCRA | Barışıq sazişinin məzmunu tərəflərin hər ikisinin tələbi ilə və ya digərinin birmənalı razılığı olmaqla onlardan birinin tələbi ilə məhkəmədə homologasiya yolu ilə və ya notarial qaydada təsdiqlənməklə məcburi icraya yönəldilə bilər; homologasiyanın hüquqi nəticələri müəyyən edilir |
| | | Tərəflərin barışıq sazişinə icra sənədi statusu verilməsinə razılıq verib-vermədiklərini müqavilədə qeyd etmələri tələb olunur |
| | | Barışıq sazişinin icrasından imtina üçün əsasların dəqiq siyahısı sadalanır, bu siyahıya ən azı onun imperativ hüquq normasına və ya ictimai qaydaya zidd olması daxildir |
| | | Barışıq sazişinin birbaşa icraya yönəldilməsinə yalnız həmin saziş tərtib edilərkən onun imperativ hüquq normasına və ictimai qaydaya uyğunluğunun təmin edilməsi şərti ilə icazə verilir |
| 7 | STİMULLAŞDIRMA VASİTƏLƏRİ | Potensial istifadəçiləri mediasiyaya müraciət etməyə həvəsləndirmək üçün müxtəlif vasitələr mövcuddur. Bunlara ən azı məlumatlandırma öhdəliyi, maddi stimullar, məcburi mediasiya daxildir |
| 7.1 | MƏLUMAT VERMƏK ÖHDƏLİYİ | Vəkillər, hakimlər və digər vəzifəli şəxslər mediasiya proseduru və onun üstünlükləri barədə tərəfləri məlumatlandırmalıdırlar |
| **Error! Reference source not found.** | VƏKİLLƏR | Vəkillərdən mediasiya haqqında məlumatı müştərilərinə yazılı şəkildə təqdim etmələri tələb olunur; müştərilərdən isə məlumatı qəbul etdiklərini və başa düşdüklərini imzaları ilə təsdiq etmələri tələb olunur |
| | | Təqdim olunan məlumatlara ən azı mediasiya prosesinin izahı, mediasiya zamanı tətbiq edilən prosessual təminatlar, xərclərlə bağlı stimullar (əgər varsa), məcburi mediasiya tələbləri (əgər varsa) daxildir |
| | | Məhkəmə icraatı başlayarkən məhkəmə müştəri tərəfindən imzalanmış yazılı bəyannaməni tələb edir |
| | | Öhdəliyin yerinə yetirilməməsinin nəticələri müəyyən edilir |
| 7.1.2 | HAKİMLƏR VƏ DİGƏR VƏZİFƏLİ ŞƏXSLƏR | Hakimlərə tövsiyə olunur ki, məqsədəuyğun hesab etdikdə tərəflərə mediasiya haqqında məlumat versinlər və ya tərəfləri digər vəzifəli şəxslə məlumatlandırma sessiyasına göndərsinlər |
| | | Mübahisə baxılmaq üçün digər məsul şəxslərə, məsələn, hüquqi yardım göstərən vəzifəli şəxslərə və ya polisə verildikdə onların tərəfləri mediasiya haqqında məlumatlandırmaları tələb olunur |
| 7.2. | MADDİ STİMULLAR | Mübahisə tərəfləri mediasiyanı seçmələri üçün mənfi (sanksiyalar) və müsbət maddi stimullar (yardımlar və gerb yığımlarının və məhkəmə rüsumlarının azaldılması) ala bilərlər |
| 7.2.1 | SANKSİYALAR | Hakimlər məhkəmə prosesinin xərclərini bölüşdürərkən və ya tərəfi mediasiyaya münasibətdə vicdanlı olmayan davranışa görə cərimələyərkən "uduzan ödəyir" prinsipindən kənara çıxa bilərlər |
| | | Vicdanlı olmayan davranışa bunlar daxildir: mediasiyaya cəhd etmək üçün tövsiyə və ya dəvətin üzrlü səbəb olmadan rədd edilməsi; mediatorla tələb olunan ilk iclasda iştirak etməmək; mediasiya zamanı vicdanlı olmayan davranışa yol vermək – yekun qiymətləndirmə hakimin öhdəsinə buraxılır |

| | | |
|---|---|---|
| 7.2.2 | GERB YIĞIMLARI VƏ MƏHKƏMƏ RÜSUMLARI | Məhkəmə icraatına müraciət etməzdən əvvəl mübahisələrini mediasiya yolu ilə həll etməyə cəhd etmiş tərəflər üçün gerb yığımları və ya məhkəmə rüsumları azaldılır və ya ləğv olunur |
| | | Məhkəmə icraatı zamanı mübahisələrini mediasiya yolu ilə həll etmiş tərəflər üçün gerb yığımları və ya məhkəmə rüsumları azaldılır və ya ləğv olunur |
| 7.2.3 | YARDIMLAR | Gəlirləri aşağı səviyyədə olan potensial istifadəçilər mediasiya xərclərinə görə mediasiyadan istifadə etməkdən çəkinmirlər, çünki mediasiya hüquqi yardım proqramının bir hissəsini təşkil edir və ya istifadəçilər üçün ödənişsiz təmin edilir |
| | | Mediasiyaya müraciət edənlər üçün digər yardım (subsidiya) növləri və ya vergi güzəştləri tətbiq edilir |
| **Error! Reference source not found.** | MEDİASİYA HAQQINDA MƏLUMAT | |
| **Error! Reference source not found.** | MƏLUMATLARIN YAYILMASI VƏ YAYILMASININ TƏŞVİQİ | Mediasiyaya məsul olan dövlət qurumları və ya idarəetmə orqanları mediasiyaya dair məlumatları, o cümlədən mediatorlar və mediasiya xidməti göstərən subyektlər barədə təfərrüatları, habelə mediasiya haqqında ümumi praktiki və hüquqi məlumatları yaymağa borcludurlar |
| | | Mediasiyaya məsul olan dövlət qurumları və ya idarəetmə orqanları müxtəlif vasitələrlə, o cümlədən internet vasitəsilə mediasiyanı təşviq etməyə borcludurlar |
| | | Mediatorların və mediasiya xidməti göstərən subyektlərin öz xidmətlərini təbliğ etməsinə icazə verilir, bu şərtlə ki, təbliğat aldadıcı olmamalıdır |
| 8.2 | STATİSTİK MƏLUMATLAR | Statistik məlumatlar milli səviyyədə toplanılır və ictimaiyyətə təqdim olunur; konfidensiallıq prinsipinə riayət edilir |
| | | Mediasiya üzrə əsas effektivlik göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika) milli statistika sistemlərinə inteqrasiya olunur |
| | | Mediasiyaya məsul olan dövlət qurumları və ya idarəetmə orqanları statistik məlumatları toplamağa borcludurlar |
| | | Mediatorlar və mediasiya xidməti göstərən subyektlər siyahıda qalmağın şərti kimi statistik məlumatları təqdim etməyə borcludurlar; eyni öhdəlik ayrı-ayrı mediasiya sxemlərinə məsul olan orqanlara da şamil edilir |
| 9. | KEÇİD MÜDDƏALARI | Mediasiya ilə bağlı yeni ideyalar mərhələli şəkildə tətbiq edilir və pilot layihələr vasitəsilə sınaqdan keçirilir |

## Biblioqrafiya

### Beynəlxalq sənədlər


**Avropa Şurası**

1. 4 noyabr 1950-ci ildə Romada imzalanmış İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası;
2. Avropa Şurasının Nazirlər Komitəsi – Ailə işləri üzrə mediasiyaya dair (98)1 saylı Tövsiyə;
3. Avropa Şurasının Nazirlər Komitəsi – Cinayət işləri üzrə mediasiyaya dair (99)19 saylı Tövsiyə;
4. Avropa Şurasının Nazirlər Komitəsi – İdarəetmə orqanları və özəl tərəflər arasında məhkəmə çəkişmələrinin alternativlərinə dair (2001)9 saylı Tövsiyə;
5. Avropa Şurasının Nazirlər Komitəsi – Mülki işlər üzrə mediasiyaya dair (2002)10 saylı Tövsiyə;
6. Avropa Şurasının Nazirlər Komitəsi – Cinayət işləri üzrə bərpaedici ədalət mühakiməsinə dair CM/Rec(2018)8 saylı Tövsiyə;
7. CEPEJ, Cinayət işlərində mediasiyaya dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)13;
8. CEPEJ, Ailə işlərində və mülki işlərdə mediasiyaya dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)14;
9. CEPEJ, İdarəetmə orqanları və özəl tərəflər arasında məhkəmə çəkişmələrinin alternativlərinə dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər, CEPEJ(2007)15;
10. CEPEJ, Mediatorlar üçün baza səviyyəli təlim ıproqramı. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 19-23;
11. CEPEJ, Mediasiya üzrə əsas effektivlik göstəriciləri üçün ilkin cədvəl (Mediasiyaya dair ilkin statistika). Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 40-49;
12. CEPEJ, Mediasiya xidməti göstərənlər üçün Avropa davranış kodeksi, mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 24-27;
13. CEPEJ, Pilot məhkəmə mediasiyası layihəsinin hazırlanması üçün yoxlama siyahısı. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 4-6;
14. CEPEJ, Mediasiyaya dair tez-tez verilən suallar (FAQ): Hakimlər, məhkəmələrin qeyri-hakim əməkdaşları, mediatorlar, mediasiya xidmətləri göstərənlər, hüquqşünaslar və digər peşəkarlar, mediasiyadakı maraqlı tərəflər və mediasiya istifadəçiləri üçün Təlimat. Mənbə: CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, sənədi burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 50-57;
15. Vəkillər üçün mediasya üzrə təlimat. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 58-73;
16. CEPEJ, Hakim tərəfindən mediasiyaya yönləndirilmə üzrə Təlimat. CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 14-18;
17. CEPEJ, Pilot mediasiya layihəsinin monitorinqi üçün yoxlama siyahısı. CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 7-13;
18. CEPEJ, "CEPEJ-in rəhbər prinsiplərinin mülki, ailə, cinayət və inzibati işlər üzrə mediasiyaya təsiri" mövzusunda məruzəsi əsasında CEPEJ-GT-MED-in Yol Xəritəsi", CEPEJ-GT-MED(2018)8;

19. CEPEJ, Standart mediasiya formaları. Mənbə: *CEPEJ-in Mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsinə yönələn mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti*, CEPEJ(2018)7REV, onu burada tapmaq olar: https://rm.coe.int/mediation-development-toolkit-ensuring-implementation-of-the-cepej-gui/16808c3f52, səh. 30 – 39;
20. CEPEJ, CEPEJ tərəfindən istifadə edilən anlayışların uzlaşdırılmasının həvalə edildiyi CEPEJ-in Xüsusi işçi qrupu, 4-cü iclasa dair hesabat, 23-24 yanvar 2019-cu il, Əlavə II: CEPEJ(2018)2PROV8 sənədi. Onu buradan əldə etmək olar: https://rm.coe.int/rapport-reunion-bologne-en-23-24-janvier-2019/1680933333.

**Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı**

21. Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı, Valideynlərin məsuliyyəti məsələlərində və uşaqların müdafiəsi üzrə tədbirlərdə yurisdiksiya, tətbiq olunacaq hüquq, tanıma, hüquqtətbiqetmə və əməkdaşlıq haqqında Konvensiya, 1996, Haaqa. Onu burada tapmaq olar: https://assets.hcch.net/docs/f16ebd3d-f398-4891-bf47-110866e171d4.pdf.
22. Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransı, Beynəlxalq uşaq oğurluğunun mülki-hüquqi aspektlərinə dair 25 oktyabr 1980-ci il tarixli Haaqa Konvensiyası üzrə qabaqcıl təcrübəyə dair Təlimat: Mediasiya, Haaqa, 2012. Onu burada tapmaq olar: https://assets.hcch.net/upload/guide28mediation_en.pdf.

**Avropa İttifaqı**

23. Avropa İttifaqı Parlamentinin və Şurasının "Mülki və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair" 2008/52/EC saylı Direktivi, OJ, L-136, 2008;
24. "İstehlakçı mübahisələrinin alternativ həlli haqqında və (EC)2006/2004 saylı Reqlamentdə və 2009/22/EC saylı Direktivdə dəyişiklik edilməsi barədə" Avropa İttifaqı Parlamentinin və Şurasının 21 may 2013-cü il tarixli 2013/11/EU saylı Direktivi, OJ, L 165/63, 2013;
25. Avropa İttifaqı Parlamenti və Şurası, İstehlakçı mübahisələrinin onlayn həllinə dair (EU) 524/201 saylı Reqlament, OJ, L 165/1, 2013;
26. Avropa İttifaqı Komissiyası, Ədliyyə Direktorluğu, Mediatorlar üçün Avropa davranış kodeksi, 2004. Onu burada tapmaq olar: http://ec.europa.eu/civiljustice/adr/adr_ec_code_conduct_en.pdf;
27. Avropa İttifaqı, Daxili Siyasət üzrə Baş Direktorluq, Mediasiya haqqında Direktivin "yenidən nəzərdən keçirilməsi": Onun həyata keçirilməsinin məhdud təsirinin qiymətləndirilməsi və Aİ-də mediatorların sayının artırılması üçün tədbirlərin təklif edilməsi: tədqiqat [interaktiv], 2014. Sənədi burada tapmaq olar: http://www.europarl.europa.eu/RegData/etudes/etudes/join/2014/493042/IPOL-JURI_ET(2014)493042_EN.pdf.

**UNCITRAL**

28. Beynəlxalq kommersiya mediasiyası və mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında UNCITRAL-ın Nümunəvi Qanunu, 2018 (Beynəlxalq kommersiya barışığı proseduru haqqında UNCITRAL-ın Nümunəvi Qanununa (2002) dəyişiklik edilməsi), onu burada tapmaq olar: http://www.uncitral.org/pdf/english/commissionsessions/51st-session/Annex_II.pdf;
29. Mübahisələrin önlayn həlli üzrə UNCITRAL-ın texniki qeydləri, Nyu-York: Birləşmiş Millətlər Təşkilatı, 2017, sənədi burada tapmaq olar: http://www.uncitral.org/pdf/english/texts/odr/V1700382_English_Technical_Notes_on_ODR.pdf;
30. Birləşmiş Millətlər Təşkilatının Mediasiya nəticəsində əldə edilmiş beynəlxalq barışıq sazişləri haqqında Konvensiyası (hələ imzalanmayıb), Sinqapur. Onu burada tapmaq olar: http://www.uncitral.org/pdf/english/commissionsessions/51st-session/Annex_I.pdf.

**Milli sənədlər**

31. Avstriya Respublikası, Mülki-hüquqi işlərdə mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I № 29/2003;
32. Azərbaycan Respublikası, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, 2019;
33. Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1867;
34. Belçika Krallığı, Məhkəmə Məcəlləsi. *Moniteur Belge*, 1967;
35. Xorvatiya Respublikası, Mediasiya haqqında Qanun. *Narodne Novine*, 2011, № 18/11;
36. Kipr Respublikası, Mülki işlər üzrə mediasiyanın bəzi aspektləri haqqında Qanun, *Rəsmi Qəzet*, Əlavə 1(I): 16.11.2012, № 4365, 2012, № L.159 (I)/ 2012;
37. Çex Respublikası, Mülki Prosessual Məcəllə. 1963 (2012-ci ildə edilmiş dəyişikliklərlə), № 99/1963 (Qanunlar toplusu);
38. Çex Respublikası, Mediasiya haqqında və bəzi qanunlara dəyişiklik edilməsi barədə Qanun, 2012, № 202/2012 (Qanunlar toplusu);
39. Çex Respublikası, Konkret məhkəmə icraatları haqqında Qanun, 2013, 292/2013 (Qanunlar toplusu);

40. Çex Respublikası, Probasiya və Mediasiya Xidməti haqqında Qanun, 2000, № 257/2000, Qanunlar toplusu;
41. Finlandiya Respublikası, Mülki işlər üzrə mediasiya və barışıq sazişlərinin ümumi məhkəmələrdə təsdiqi haqqında Qanun, № 394/2011;
42. Fransa Respublikası, İnzibati işlər üzrə ədalət mühakiməsi məcəlləsi;
43. Fransa Respublikası, Cinayət Prosessual Məcəlləsi;
44. Fransa Respublikası, XXI əsrdə ədalət mühakiməsinin müasirləşdirilməsi haqqında Qanun, 2016, № 2016-1547.
45. Almaniya Federativ Respublikası, İnzibati Məhkəmə İcraatı Məcəlləsi. *Bundesgesetzblatt* I, səh. 686, 1991;
46. Almaniya Federativ Respublikası, Mediasiya haqqında Qanun. *Bundesgesetzblatt* I, səh. 1577, 2012;
47. Yunanıstan Respublikası, İqtisadi tənzimləmə proqramlarında və digər müddəalarda nəzərdə tutulan struktur islahatlarının həyata keçirilməsi mexanizmləri haqqında 4512/2018 saylı Qanun;
48. İrlandiya Respublikası, Mediasiya haqqında Qanun, 2017, № 27;
49. İtaliya Respublikası, 4 mart 2010-cu il tarixli Qanunvericilik Fərmanı, № 28;
50. İtaliya Respublikası, Ədliyyə nazirinin sərəncamı, 2010-cu il, № 180, maddə 4;
51. Litva Respublikası, Mülki Prosessual Məcəllə, *Valstybės žinios*, 2002, № 36-1340;
52. Litva Respublikası, Dövlət tərəfindən təmin edilən hüquqi yardım haqqında Qanun, *Valstybės žinios*, 2000, № 30-827;
53. Litva Respublikası, Mediasiya haqqında Qanun, *Valstybės žinios*, 2008, № 87-3462; *Teisės aktų registras*, № 2017-12053;
54. Litva Respublikası, Probasiya orqanlarında mediasiya qaydaları, 2017, № V-532;
55. Polşa Respublikası, İnzibati Prosessual Məcəllə. *Dziennik Ustaw*, 1960, 2017-ci il, № 1257;
56. Polşa Respublikası, Mülki Prosessual Məcəllə, *Dziennik Ustaw*, 1964, 2015-ci il, № 1595;
57. Polşa Respublikası, İnzibati məhkəmələrdə icraat haqqında 30 avqust 2002-ci il tarixli Qanun, *Dziennik Ustaw*, 2002, № 1302, 2018;
58. Serbiya Respublikası, Mübahisələrin həllində mediasiya haqqında Qanun, *Службеном гласнику*, № 55/2014;
59. Sloveniya Respublikası, Mübahisələrin alternativ həlli haqqında Qanun. *Uradni list*, № 97/2009;
60. Sloveniya Respublikası, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Uradni list*, № 56/2008;
61. İspaniya Krallığı, Mülki və kommersiya işlərində mediasiya haqqında Qanun. *Boletín Oficial del Estado*, № 5/2012;
62. İsveçrə Konfederasiyası, Mülki Prosessual Məcəllə, 2008;
63. Türkiyə Respublikası, Mülki mübahisələrdə mediasiya haqqında Qanun (cinayət işləri daxil olmaqla). *Rəsmi Qəzet*, 2012, № 6325;
64. Türkiyə Respublikası, Hüquqi mübahisələrdə mediasiyanın tətbiqi haqqında Sərəncam. *Rəsmi Qəzet*, 2018, № 30439;
65. Birləşmiş Krallıq, Ailə işləri üzrə prosessual qaydalar;
66. Birləşmiş Krallıq, Uşaqlar və ailələr haqqında Qanun, 2014.

**Ədəbiyyat**

67. G. De Palo, *Aİ-nin on illik "mediasiya paradoksu": Aİ Direktivindən daha çox şeylər tələb olunduqda…: JURI komitəsi tərəfindən tələb olunan brifinq, Avropa Parlamenti* [interaktiv], 2018. Onu burada tapmaq olar: http://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2018/608847/IPOL_BRI(2018)608847_EN.pdf;
68. Hopt, K. J. və Steffek, F. *Mediasiya: Qanunların müqayisəsi, tənzimləmə modelləri, mediasiyanın fundamental məsələləri: Müqayisə nöqteyi-nəzərindən prinsiplər və tənzimləmə*. Oksford: Oksford Universitetinin nəşriyyatı, 2013;
69. MIRIMANOFF, J. Médiation et Jeunesse, Partie II: Médiation en milieu scolaire. Bruxelles: Larcier, 2013;
70. Pel M. və Kombrink L., Niderland məhkəmə sistemi tərəfindən mediasiyaya yönləndirilmə. *"The Judiciary Quarterly" jurnalı. Mübahisələrin fərdiləşdirilmiş həlli: Niderlandda məhkəmə ilə əlaqəli mediasiya, 1999-2009*. Haaqa: "Sdu Publishers BV", 2011. Onu burada tapmaq olar: https://www.rechtspraak.nl/SiteCollectionDocuments/Customized-conflict-resolution-Court-connected-Mediation-in-The-Netherlands-1999-2009.pdf, səh. 25-52.
71. Pel M. Ön söz. *"The Judiciary Quarterly" jurnalı. Mübahisələrin fərdiləşdirilmiş həlli: Niderlandda məhkəmə ilə əlaqəli mediasiya, 1999-2009*. Haaqa: "Sdu Publishers BV", 2011. Onu burada tapmaq olar: https://www.rechtspraak.nl/SiteCollectionDocuments/Customized-conflict-resolution-Court-connected-Mediation-in-The-Netherlands-1999-2009.pdf, səh. 3-4.

72. Vos, R. Nidelandda vergi mübahisələri üzrə mediasiya. *Dutch-Flemish Magazine for Mediation and Conflict Management* (Mediasiya və mübahisələrin idarə edilməsi üzrə holland-flamand jurnalı), 2014, cild (18)3;
73. Zimmer, D. və Höft, J., Antiinhisar işlərində mediasiya. "*European Competition Law Review*" ("Rəqabət haqqında Avropa qanunvericiliyinin icmalı") jurnalı, 2013.

**Presedent hüququ**

**AİƏM**

74. AİƏM, iş № C-317/08-C-320/08, *Alassini və başqalarının işi* üzrə 18 mart 2010-cu il tarixli qərar;
75. AİƏM, iş № C-75/16, *Menini və Rampanelli "Banco Popolare Società Cooperativa"ya qarşı* iş üzrə 14 iyun 2017-ci il tarixli qərar.

**Milli məhkəmələr**

76. Yunanıstan Respublikası Ali Məhkəməsinin Böyük İnzibati Palatası, 34/2018 saylı qərar.

**Digərləri**

77. Beynəlxalq Ticarət Palatası, Mediasiya haqqında maddələr [interaktiv]. 09.03.2019 tarixinədək olan məlumatlar. Sənədi burada tapmaq olar: https://iccwbo.org/dispute-resolution-services/mediation/mediation-clauses/.